AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M.FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 8

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2017

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e.d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, ф.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2018, № 8

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2017

www.filologiyameseleleri.net

DİLÇİLİK

ƏLİRZA ƏLİYEV
LDU, filologiya elmləri namizədi, dosent
alirza1946@mail.ru

"KOROĞLU" DASTANINDA QADIN ŞƏXS ADLARI VƏ ONLARIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: ennos, onomastika, antroponimika, komponent, poetik.
Ключевые слова: этнос, ономастика, антропонимика, компонент, поэтический.
Key words: ethnos, anosmatic, antronimics, component, poetics.

Həcm etibarilə kifayət qədər geniş olan "Koroğlu" eposu onomastik vahidlərlə zəngindir. Belə ki, dastanın tərkibində ümumilikdə iki yüzdən artıq onomastik vahid vardır. Bunlardan otuzundan çoxunu qadın adları təşkil edir ki, bu tip onomastik vahidlər də o dövrün yüksək təbəqəsi sayılan xotkar, paşa, xan, bəylərin qızları və birdə onlara xidmət göstərən qadınlardır. Bunlar da özlərinin istək və arzuları ilə Koroğlu tərəfindən Çənlibelə gətirilmiş qadınlardır. Çənlibelə ilk gətirilən qadın Nigar xanımdır.

Nigar xanım. (fars dilində əsl mənası "rəsm", "surət" və məcazi mənası "gözəl" deməkdir). İstanbul xotkarının qızıdır. Hər cümə günü məscidə gedir. O, evdən çıxanda car çəkib camaata deyirlər ki, çöldə-bazarda heç kim dolaşmasın və hamı evə getsin. Gərək onun boyunu heç kim görməyəydi. Dükanlar da açıq qalmamalı idi. Belə günlərin birində də Bəlli Əhməd Koroğlunun sorağına çıxır. O da camaat kimi qaçıb gizlənməyə yer axtarır. Yolu bir göyərti dükanının yanından düşür. Bu dükanın qapısını açıq görərək oraya girir.

Nigar xanım dükan-bazara tamaşa eyləyə-eyləyə gəzirdi. Bəlli Əhmədin girdiyi dükanın bağlı olmadığını görüb maraqlanır. Qırx incəbelli qızla dükana girir. Bir nəfər şəxsin göyərtilərin içərisində gizləndiyini görürlər. Qızlar onu tez qamarlayıb tüklərini yonuşdurmağa başlayırlar. O, Nigar xanıma yalvararaq bir qələt etdiyini söyləyir. Nigar xanımın ona yazığı gəlib adını və haradan olduğunu soruşur. Bəlli Əhməd Ərzuruma tərəf gedəcəyini söyləyir. Nigar xanım Ərzurumun adını eşidib tez soruşur:

- Yaxşı, deyirlər ki, Çənlibeldə Koroğlu adında bir iyid var. Heç onu görübsən?

Bəlli Əhməd tez özünü düzəldib deyir:

- Xanım, mən elə Koroğlunun dəlisiyəm.

Nigar xanım bunu eşitcək Koroğluya namə yazır: "Koroğlu, mən İstanbul xotkarının qızı Nigar xanımam. Əyər sən doğurdan da iyidsənsə gəl məni apar".

Hətta Koroğlunu inandırmaqdan ötrü bazubəndini də açaraq məktubla birlikdə Bəlli Əhmədə verir. Koroğlu məktubu alan kimi Qıratın belinə atlanır. İgidlər də onunla getmək istədiklərini bildirdikdə o, sazı döşünə basıb deyir:

İyid gərək yar sevməyə
Özü tək gedə, tək gedə.
Müxənnət qəddin əyməyə
Özü tək gedə, tək gedə.

Qıratını çaparaq yola düşür. Özünəməxsus tədbirlə Nigar xanımla çətinliklə də olsa, görüşüb vədələşdikləri kimi bir gündən sonra nar bağında gecənin bir yarısı Nigarı tərginə götürüb yola düşür.

Nigarı Koroğluya qovuşduran onun saf sevgisidir. Nigar yüksək düşüncəyə, ağla və kamala malik bir xanımdır. O, yaxşı dərk edir ki, paşaların, bəylərin, xanların hamısı birləşib böyük bir ordu ilə Koroğlunun üstünə gəlsələr belə Çənlibelə toplaşan dəlilər tərəfindən məğlubiyyətə uğrayacaqlar və insanların qırğınına səbəb olacaqdır. Lakin Nigar xanım bunu istəmir, o, sülh tərəfdarıdır. V.Vəliyev Nigarın Koroğluya qoşulub gəlişini poetik şəkildə belə qələmə alır: "Nigarın Çənlibelə gəlməsi "azadlıq dağında" yeni bir canlanma əmələ gətirir". Doğurdan da, Nigar Koroğlunu həyat yoldaşı, onun ən yaxın məsləhətçisi, yol göstərəni olmaqla bərabər, həm də sözün əsl mənasında yaxşı münasibətdə dəlilərin anası olur. Nigar bütün dəlilərə ana olduğu kimi, onların həyat yoldaşlarına da bir ağbirçək ana məhəbbəti ilə yanaşır.

Bu mərd qadın ən çətin işi ədalətlə həll etməyi bacarır. O, çox sülhsevərdir. Koroğlu Giziroğlu Mustafa bəyə iki dəfə uduzub, üçüncü dəfədə qalib gələrək onun sinəsinə xəncər çəkir, Nigar xanım isə Koroğlunun əlindən xəncərini alır. O, Koroğlunun görəcəyi bu işi onun hörmət və dəyanətinin aşaqlayacağı kimi -dəyərləndirir. Bundan başqa Keçəl Həmzənin arxasınca Qırat üçün gedən Koroğlu əli boş qayıtdıqda dəlilər bir növ onun bu acizliyinə gülürlər. Koroğlu dəlilərə isə: "At mənimdir, vermişəm özüm bilərəm" deyir. Bu sözə görə bütün dəlilər Koroğludan üz döndərirlər. Uzaqgörən Nigar xanım çox nəcibanə bir manera ilə Koroğlunu məzəmmət edərək deyir:

Utan, qoç Koroğlu, utan!
Dağların damənin tutan.
Sənin kimi başa çatan
Elin qədrini nə bilir.

Nigarın bu nəsihət verici sözləri Koroğlunun ürəyini muma döndərir. Nigar xanımın bircə dərdi övladının olmamasıdır. Lakin Koroğlu qəssab Alının oğlu Eyvazı övladlığa götürüb, Çənlibelə gətirməsi ilə Nigar xanımın övlad həsrətinə bir növ son qoyur. Nigar Eyvazı doğma oğlu kimi qəbul edib, ona sonsuz məhəbbət bəsləyir.

Telli xanım. ("tel"-kök, -"li" isimdən sifət düzəldən şəkilçidir). Ərzurum paşası Cəfər paşanın qızıdır. Aşıq Cünədən Koroğluya məktub yollayıb Çənlibelə aparılmasını xahiş edir. Telli xanımın məktubunu alan Dəmirçi oğlu mətləbi anlayır. Ərzurumda Dəmirçioğlu Telli xanımı küləfirəgində görür. Telli xanım qarabaşlardan birini yanına çağırıb sabah Gülşən bağına gedəcəyi xəbərini Dəmirçioğluna çatdırmağı tapşırdı. Səhər Dəmirçioğlu Ərəb atını minib birbaşa həmin bağa gedir. Telli xanım qarabaşları ilə Gülşən bağında idi. Dəmirçioğlu atı düz onların yanına sürür. Telli xanım Ərəb atının yəhərini çəkib özünü onun üstünə atır. Bağban bunu görüb tez paşaya xəbər çatdırır. Dəmirçioğlu üç gün üç gecə Cəfər paşanın qoşunu ilə döyüşür. Axırda ələ keçirir, Tellini ondan alırlar. Dəmirçioğlunu da Pəhlivan meydanında zəncirlə sarıyırlar. Gündə bir cəllad göndərib onun ayaqlarından başlayıb dərisini soyurlar.

Koroğlu Dəmirçioğlunun yoxluğunu görüb dəlilərlə onun dalınca gedir və onu azad edib Telli ilə birlikdə Çənlibelə gətirir. Həkim çağırıb Dəmirçioğlunun yaralarını sağaldandan sonra qırx gün, qırx gecə toy qurub toy edir. Beləliklə, bu iki sevgili - Dəmirçioğlu ilə Telli xanım vüsala qovuşmuş olur.

Mahru xanım. (Fars dilində mah-ay, ru-üz-ayüzlü ayüzlü, məcazi mənada "gözəl", "göyçək"). Xotkar Muradın bacısı. Xotkar Murad paşalara yazmış olduğu məktubunda bacısı Mahru xanımın Koroğlunun başı ilə dəyişməyi vəd edərək, "Kim Koroğlunun başını gətirsə, bacım Mahru xanım baş yoldaşıdı" yazır. Mahru xanım xotkar qızı olsa da, qardaşı Muraddan qat-qat qeyrətlidir. Onun üçün namus, sevgi hər şeydən üstündür. Qardaşı xotkar Muradın bu məqəsədini, hərəkətlərini nifrətlə, dərd-qəm içində qarşılayır, hətta üzülür. Çünki onun içində sirli bir məhəbbət duyğusu vardır ki, illər idi onun qəlbində əzizləyirdi. Bu, onun Çənlibeldə Giziroğlu Mustafa bəyə olan sonsuz və əvəssiz məhəbbəti idi. O, bu sevgisini heç kəsə söy-ləməyi nə etibar və nə də cəsarət etmirdi. Vəziyyətin çətinləşdiyini başa düşərək, dərdini Mələk dayəsinə söyləməli olur və ondan kömək diləyir. Məhz Mələk dayəsinin məsləhəti ilə kağız götürüb ürəyindəkilərini, xotkardan eşitdiklərini sətrlərə alır və məktubu xoca Yaqubla Çənlibelə - Giziroğlu Mustafa bəyə yollayır.

Az keçmir ki, Giziroğlu xoca Yaqubdan məktubu alıb oxuyur və vəziyyəti Koroğluya söyləyir. Koroğlu dəliləri səfərbərliyə alıb düşmən üzərinə hücuma keçir. Giziroğlu bu döyüşdə Mahru xanımın eşqinin təntənəsi ilə

qalib gələrək onunla birlikdə Çənlibelə qayıdır. Koroğlu onlar üçün qırx gün, qırx gecə toy qurur. Beləliklə, Mahru xanım əbədi səadətə qovuşmuş olur.

Dinməz xanım. (Mənası "sakit", "təmkinli"). O, Cəlil paşanın qızıdır. Çox gözəl və yaraşıqlı xanımdır. Dastanda onun haqqında belə yazılır: "Qız nə qız. Qaşlar qara, gözlər qara, baldan şirin ləbləri, sinəsi Şahdağının qarı kimi ağ ... Koroğlu qızda bu gözəlliyi görən kimi çaşıb qaldı, öz-özünə dedi: Ey dili qafil, dünyada belə də gözəl varmış".

Dinməz əmisi oğlu Bəylərin nişanlısıdır. Koroğlu özünü ona şeirlə nişan verən kimi Dinməz xanım onu dərhal tanıyır. Bunu da bildirdi ki, Koroğlu onun nişanlısı bəyləri aparıb dəlilərinin sırasına qatmaq istəyir. Ata sevgisi və nişanlısına olan dərin məhəbbəti onu Koroğlunu tilsimə salmağa təhrik edir, Dinməz xanım sehr-cadu oxuyub Koroğlunu tilsimə salan kimi əl-qolunu bağlayır və atasına xəbər göndərir.

Dəli Həsən özünü yetirib Koroğlunu zindandan çıxarır. O, zindandan çıxan kimi yenidən özünü Dinməz xanıma yetirir. Dinməza xanım ona təkrarən bir cadu oxuyub Koroğlunu tilsimə salır. Koroğlu əl atıb sazına Dimnəz xanıma deyir:

Koroğlu yarı dinməzdi,
Dinməz xanım lap dinməzdi,
Yarım gülüb danışmazdı,
Əsir düşdüm, gözəl yarım.

Dinməz xanım məhəbbətinə, sevgisinə çox sadiq xanım idi. Bu misraları dinlədikdən sonra başa düşür ki, Koroğlunun məqsədi, məramı heç də ona eşq oxuma deyildir. Koroğlunun da öz yarı vardır. Bunu dərk edən Dinməz xanım Koroğlunu tilsimdən çıxarır.

Dəli Həsən isə Dinməz xanımı götürüb qaçırır. Bəylər bunu eşitcək qılıncına sarılıb Koroğlunun dalınca qaçır. O, əvvəl Koroğluya qorxu gəlir. Çənlibelin baş qəhrəmanı üzünü ona tutub:

Bəylər bəyi, mənə dəli olginən,
Dinməz xanımı yenə qoy sənin olsun.
Qəbul elə mənə dəli olginən
Toy eyləyim Dinməz qoy sənin olsun.

Bəylər dəlilərin də Koroğlu ətrafına yığışdığını görüb razılıq verir. Koroğlu onu dəlilərinə qatır yeddi gün, yeddi gecə toy eyləyib Dinməz xanımı Bəylərə verir.

Mələk dayə. (Mələk ərəb dilində gözəl mənasındadır). Mahru xanımın dayəsidir. Dastanda o, belə təqdim olunur: "Mələk dayə ömür görmüş, dünya görmüşdü. Çox şeylərin üstündən su içib yola salmışdı. Mələk dayə Mahru xanımın da qəlbindən keçdiklərini, yəni onun Giziroğlu Mustafa bəyə vurulduğunu biləndən sonra bunu da yoluna qoyur. Mahru xanımın Mustafa bəyə yazmış olduğu məktubu Koroğlunun dostu Xoca Yaqubla ona yetirir. Bir

müddətdən sonra İstanbul bazarında Mələk dayə Giziroğlu ilə rastlaşır və elə oradaca ondan məktub alıb Mahru xanıma çatdırır. Axşam isə onları bir-birinə qovuşdurur.

Mələk dayə dünya görmüş xeyirxah bir insan olmaqla yanaşı, həm də, çox mərhəmətli bir insandır. Belə ki, Giziroğlunun zindandakıları, o cümlədən Qara Pələngin boynunun vurulacağını gördükdə örpəyini açıb onun ayaqlarına atır. Abı dəli örpəyi yerdən götürüb ona verir. Giziroğlu zindandakıları Qara Pələnglə birlikdə azad edir.

Hürü xanım. (Ərəb dilində "hür" kökündən olub, mənası "azad", "sərbəst" deməkdir). Qars paşasının qızı. Atası onu Ərəb Reyhana vermək istəyir. Bunu görən qız Koroğluya namə yazaraq bir oğlandan göndərir. Dastan müəllifi onu belə təsvir edir: "Koroğlu küçə ilə gələ-gələ gəlib çıxdı bir imarətin qabağına. Baxdı ki, pəncərədə bir qız durub, bir qız durub ki, o necə deyərlər, yemə, içmə xətti-xalına, gül cəmalına tamaşa elə, boylu-buxunlu, şəstl-bəstli bir qızdır ki, elə bir sərv ağacıdı qalxıb. Qaşlar qara, gözlər qara, tellər qara, xallar qara, o necə deyərlər, aya deyir sən çıxma, mən çıxacağam, günə deyir sən çıxma mən çıxacağam.

Koroğlu Qars paşasını məğlub etdikdən sonra Hürü xanım da öz razılığı ilə götürüb Çənlibelə gətirib burada Eyvazla Hürü xanım üçün qırx gün, qırx gecə toy çaldırıb, onları bir-birinə qovuşdurdu.

Ruqiyə xanım. ("Ru" fars dilində "üz", "çöhrə" deməkdir). Əhmədqulu xanın qızı. Çox savadlı, uzaqgörən və ağıllı qız. Hətta atası Əhmədqulu xan çətinə düşəndə onu yanına çağırıb məsləhət alır. Dastanın "Qulun qaçırılması" hissəsində oxucu bunun şahidi olur. Koroğlunun dəlilərindən Dəmirçioğlu, Gürcüoğlu Məmməd və Tanrıtanımaz Əhmədqulu xanın ilxısını Daşlıdərədə mühasirəyə alaraq, oxcularından ona qulu və Qıratın qaytarılması xəbərini göndərirlər. Bu zaman vəziyyətdən necə çıxmaq barəsində Əhmədqulu xana heç kim məsləhət verə bilmir. O, məcbur qalıb yeganə qızı Ruqiyə xanımdan məsləhət almaqdan ötrü onu yanına çağıtdırır. Ruqiyə xanım bir qədər fikirləşdikdən sonra deyir:

- Ata! Bu gələn hələ Koroğlunun üç dəlisidir. Sabah, birisi gün Koroğlu dəlilərinin gələ bilmədiyini görüb, durub özü də gələcək. Sən bir fikir elə gör, onda nə olacaq.

Əhmədqulu xan dönüb necə eləyəcəyini soruşduqda ağıllı tədbir tökən qızı, qulu da, atı da onlara verməyi, daha sonra dəliləri qonaq kimi evə dəvət etməyi və Koroğlu ilə də dost olmağı məsləhət görür.

Ata Əhmədqulu xan Ruqiyə xanımın dediyi kimi də edir. Belə ki, qulu da, atı da verir, dəlilərini bir neçə gün evində qonaq da saxlayır. Hələ üstəlik Koroğlu ilə də əl verib dost olur.

Bilqeys. (Ərəb mənşəlidir, "diqqətli", "tədbirli" mənalarında). Bu adı ilk dəfə Yəməndə Səba şəhərinin qadın hakimi vəzifəsini daşımışdır. De-

yilənlərə görə X əsrdə Süleyman peyğəmbərin arvadı olmuşdur. Əsl adı Bilkeşdir. Dastanda o Təkə-Türkman xanı Süleyman xanın qızı kimi verilmişdir. Koroğlu onun könlünü alır, Süleyman xana eıçi göndərir. Süleyman xan bu izdivaca etiraz edir. Bilqeys Koroğlunu çox sevdiyi üçün onunla qaçmağa razılıq verir. Onlar İstanbulun ətrafında bir mağarada müəyyən müddət yaşayırlar. Koroğluya olan məhəbbəti ona təskinlik vermiş olsa da, var-dövlət içində yaşayaraq heç bir çətinlik görməyən Bilqeys bu mağarada darıxırdı. Bir müddətdən sonra Bilqeysin bir oğlan övladı dünyaya gəlir.

Bir gün namərdin birisi Bilqeysin Koroğlu ilə mağarada daldalandığı xəbərini İstanbulda Hasan paşaya çatdırır. Hasan paşa Koroğlunun üstünə bir neçə dəfə qoşun çəkir, lakin Koroğlunu tuta bilmir. Günlərin birində Hasan paşa yenidən böyük bir qoşun dəstəsini Koroğlunun üstünə göndərir. Koroğlu yenə də qoşunla döyüşür. O, qılıncı sağa-sola çəkə-çəkə gəlib mağarasının ağzına yetişir və Bilqeysi çağırır. Bilqeys eşiyə çıxır. Koroğlu alıcı quş kimi onun qolundan tutub atın tərikinə alır. Bu zaman düşmənin arxadan atdığı ox Bilqeysin kürəyinə sancılır. Koroğlu Qıratın üstündə Çənlibelə çatır. Qoşabulağın üstündə Alı kişinin məzarı yanında atdan enir. Bilqeysi də atdan endirir. Artıq Bilqeysin gözlərinin yumulduğunu görüb, Qoşabulağın suyundan bir ovuc ona içirdir. Bilqeys gözlərini sonuncu dəfə açır, Koroğluya həsrətlə baxır:

"Oğlumuz amanatdı" deyib, gözlərini təzədən yumur.

Koroğlu həddindən çox sevdiyi Bilqeysi atası Alı kişinin məzarından bir qədər aralı dəfn edərək özü də bu iki məzarın arasında uzanaraq ağlamağa başlayır.

Əsmər qarı. (Ərəb dilində "qarabuğdayı"). Çox mərhəmətli və səmimi bir insan olaraq İstanbulun ətrafında yaşayır. Koroğlu ilə Bilqeysə həmdəm olur. Tez-tez mağarada yaşayan Bilqeysə baş çəkir, süddən, qatıqdan, yağdan ona aparır, Koroğlu Hasan paşanın qoşunu ilə vuruşduğu zaman tələm-tələsik Bilqeysi atın tərkinə alıb aradan çıxdıqdan sonra uşaq mağarada qalır. Ara bir qədər sakitləşəndən sonra Əsmər qarı mağaraya gəlib bir canavarın uşağın əmizdirdiyini görür. Qarı bir az xəlvətdə gözləyir. Canavar getdikdən sonra Əsmər qarı uşağı bələyinə götürüb komasına aparır. Uşağı yuyundurub, geyindirir, sonra qoyun südü ilə yedizdirir. Beləliklə, Əsmər qarı uşağa yüksək səviyyədə diqqət və qayğı bəsləməklə onu böyütməyə başlayır. Lakin qonum-qonşu bu uşağın haradan olduğunu soruşmaqla onu sorğu-suala tuturlar. Əsmər qarı uşağın pulla İstanbuldan aldığını söyləyir.

Bu xəbər Hasan paşaya çatır. Paşa qarını çağırıb deyir:

- Qarı, sən o uşağı mənə satmalısan.

- Paşa sağ olsun, sənin əmrin mənə allahın əmrindən üstündü. Əmba mənə də yazığın gəlsin, mən istəyirəm onu böyüdüm, gələcəkdə mənə bir sahib çıxsın, qəbrimi ziyarət edən olsun.

- Qarı, sən heç şeyin fikrini çəkmə, sənin bu dünyalığının, o dünyalığının da xərci mənim boynuma.

Hasan xan qarıya bir kisə qızıl verib uşağı gətirməyi tapşırır. Qarı komasına qayıtdıqdan sonra Koroğlunun bazubəndini uşağın qoluna bağlayır, üz-gözündən öpərək götürüb Hasan paşnın yanına gəlir. Uşağı paşaya verərkən bazubəndin Koroğluya məxsusluğunu gizlədərək deyir:

- Paşa sağ olsun, özün görürsən ki, qocalıb əldən düşmüşəm, günlərimi sayıram, mümkünsə onun qoluna taxdığım o bazubəndə heç kim toxunmasın, qoy körpə balama məndən yadigar qalsın.

Hasan paşa Əsmər qarıya söz verdi və uşağın adını bilmək istəyəndə deyir:

- Paşa sağ olsun, onu qoyun südüynən bəsləmişəm onuncün də adını Ağcaquzu çağırıram.

Mömünə. ("Mömün" ərəb dilində Allahı sidq ürəkdən sevən, "ə" isə kişi adlarının sonuna qoşulub qadın adları əmələ gətirir. Məsələn: Mömün-Mömünə, Arif-Arifə, Kamal-Kəmalə, Səlim-Səlimə və s). Bu şəxs Dərbənddə Ərəb paşanın qızıdır. Koroğluya qiyabi vurulur. Ona olan sevgisini kağıza köçürərək yazır:

Başına döndüyüm ay qoç Koroğlu,
Əyər iyid isən gəl apar məni ...
Adım Mömünədi, atam Ərəb paşa,
İstərəm, özünə elə yar məni.

O, məktubu İsa adlı nökərlə Koroğluya yollayır. Koroğlu məktubu oxuyan kimi Mömünəni görmək üçün yola düşür. Dərbənd bazarına çatır. Koroğlunu və atını görən camaat mat qalır. Bu xəbər Ərəb paşaya çatanda, paşa onu yanına çağırır. Koroğlu özünü qoşma ilə təqdim edən kimi Ərəb paşa onu dərhal tanıyır və məramını da anlayır. Vəzirin razılığı ilə paşa qızı Mömünəyə toy edib Koroğluya verir.

Koroğlu bir müddət Mömünənin yanında yaşayır. Günlərin birində Çənlibelə getmək istədiyini söyləyir. Gedəndə isə Mömünəyə bir bazubənd verərək deyir:

- Al bu bazubəndi saxla, qızım olsa ona verərsən dolanar, oğlum olsa qoluna bağla, gələr məni tapar.

Koroğlu Mömünə ilə halallaşıb gedir. Doqquz aydan sonra Mömünənin Koroğludan bir oğlu olur. Adını Həsən qoyur, lakin hamı ona Kürdoğlu deyir.

Sənəm. (Ərəb dilində həqiqi mənada "büt", məcazi mənada gözəl). İstanbul paşasının qızı, Ayparanın qulluqçusu. Gözü Koroğluya düşür. Koroğluya "Gəl baş yastıq olaq" deyəndə cavabında o, iki barmağı ilə Sənəmin ağzından bir sillə çəkir. Odur ki, Sənəm Koroğludan yanıqlı düşür. Əvəz almaqdan ötrü Koroğlunu axtarmağa başlayır. Oba-oba gəzib onu Aypara ilə

bir yerdə tapır. Koroğludan əvəz almaq üçün dərhal yerini Xəlil paşaya çatdırır. Xəlil paşanın əmri ilə qoşun hazırlanır. Sənəm qoşuna sərkərdəlik edir. Gecə ilə Koroğlu olan qalaçaya qoşun çəkir. Yatan yerdəcə Koroğlu ilə Ayparanın qollarını bağlatdırır. Onları Xəlil paşaya gətirir. Xəlil paşanın əmri ilə Sənəm Koroğlunu quyuya, Ayparanı isə zindana saldırır. Bununla da Sənəmin dastanda fəaliyyəti başa çatır.

Pərzad. (Fars sözü olub həqiqi mənada "pəridən döşülmüş", məcazi mənada "gözəl"). Cəfər paşanın qızıdır. Alagözlü, qələmqaşlı, uzunsaçlı bir qızdır. O mədrəsədə oxuyur, cadukarlıqla maraqlanır və bunun sirlərini öyrənir. Əmisi oğlu Ağcaquzu cadukarlığın nə olduğunu ondan ondan soruşanda o deyir:

- Əmioğlu, mənim elmim ondadı ki, mən cadunun gücündən çöpü qələmə, siçana, toyuğa, tülkiyə, qızı cüyürə çöyürə bilirəm.

Pərzadın təhriki ilə Ağcaquzu da mövlanın yanına cadukarlığı öyrənməyə gedir. Lakin o, bu işə həvəssiz qoşulduğu üçün cadukarlığın sirlərindən dərindən yiyələnə bilmir. Pərzad bunu hiss edir və Ağcaquzunun cadukarlığa ürəkdən qoşulmadığını üzünə deyir. Lakin Ağcaquzu bunu boynuna almır. Pərzad onu imtahana çəkir. İmtahanda Ağcaquzu uduzur. Belə ki, Pərzad dua oxuyub pələng cildinə girəndə Ağcaquzu bunu bacarmır.

Pərzad:

- Əmioğlu mənim cadukarlığım səndən üstün oldu. Bu günnən sonra mənnən səninki tutmaz. Mən bu gündən uluyub vəhşilərə qoşularam. Əgər məni öz sehrinnən əvvəlki halıma gətirə bilsən, səninəm, yox bacarmasan, məni də görmüyəcəksən.

Beləliklə, Pərzad o gündən uluya-uluya heyvanlara qoşulur. O, istəyir ki, onu sevən oğlan igid, qoçaq olmaqla yanaşı hər şeyi bilsin. Buna görə də sevdiyi oğlandan üz döndərir. Ağcaquzu Pərzadın dərdindən bir guşəyə çəkilib dərin yuxuya gedir. Yuxuda nurani bir kişi ona söyləyir ki, qırx gün ərzində gedib Koroğlunu tapasan, Koroğludan başqa Pərzadı sənə verən olmuyacaq.

Ağcaquzu ayılıb Pərzadın dalınca getməkdən ötrü atasından izn alır və gedib Çənlibeldə də olsa Koroğlunu tapır. Uzun söhbətdən sonra Koroğlu onun nə istədiyini başa düşür və iki dəlisi ilə Pərzad xanımı axtarmağa çıxır. Uzun yol getdikdən sonra Ağcaquzunun soraq verdiyi dağa çatırlar. Koroğlu Pərzadın şir donunda qayanın üstündə oturduğunu görür.

Dastanda Koroğlu ilə Pərzadın uzun mübahisələrindən bir daha aydın olur ki, Pərzad xanım çox cəsarətli və qorxmazdır. O hətta Koroğluya sözlə və müxtəlif tilsimlərlə qorxu da gəlir. Koroğlu "İgid gözəl gördü coşmalıdır..." deyəndə Pərzad ona:

- Oğlan, bayaq mən sənə dedim dilini çıldirratma, sözünün əvvəlini axırını bil... O ki, yar xəyalına düşüfsən onda gərək sən bu yerdən salamat qayıtmayasan.

Pərzad Koroğlunu çox sınağa çəkdi. Belə ki, müxtəlif cadularla gah ətrafı ilanlarla bürüyür, gah dəliləri torpaq arasında sıxır, gah da başqa tilsimlərə əl atır. Koroğlu qızın asanlıqla yumşalmadığını görüb, şirin dillə onu razılığa gətirir. Qız da Koroğlunu əvvəl tanımadığı üçün üzr istəyərək deyir:

- ... O ki, sən məni özünə gəlin kimi aparırsan onda gedirəm, əmbə onu bil ki, Ağcaquzu sən deyən kimi iyid olmasa, onda zəhər içif özümü tələf eliyəcəyəm, sən də günaha batajaqsan.

Dastanın sonunda məlum olur ki, Ağcaquzu Koroğlunun oğlu, Pərzad isə Nigar xanımın bacısı imiş. Nigar xanım hər iki cavanı öpüb bağrına basır və onlara xeyir-dua verir.

Məhbub xanım. (Ərəb dilində "dost", "sevgili" deməkdir). Rum padşahının qızıdır. Aşıq Cünun bir gün Ruma yetişir. Gəzərkən gözü küləfirəngdə bir gözəl görür. Bu, Məhbub xanım idi. Məhbub küçədə Cununun ona baxmağını görüb onu yanına çağıtdırır. Aşıq Cünun yetişdikdən sonra ona sual edir:

- Aşıq kimsən?, Hardan gəlibsən? Hara gedirsən?

Aşıq Cünun Çənlibeldən gəldiyini, orada dəlilərin olduğunu söylədikdən sonra Məhbub xanım yenə də ona sual edərək sərkərdələrinin kim olduğunu soruşur. Aşıq Cünun sazı yenidən sinəsinə basıb deyir:

Cünun deyər Çənlibelin ağası,
Yeddi min dəliyə sərkər Koroğlu!

- Aşıq Cünun, sən ki, Koroğlunu bu qədər tərifladin, əyər iyid isə gəlsin məni də Çənlibelə aparsın.

Nigar xanımın təkidi ilə Koroğlu Məhbub xanımın Rumdan götürməyə gedir. Müəyyən ehtiyatsızlıq üzündən paşa onu tutub zindana salır. Məhbub xanım əmisi qızı Şirin ilə Koroğlunun qılıncı və qalxanını gizlədirlər, Qırata da ot verib saxlayırlar. Koroğlunun köməyinə Bəlli Əhməd və Dəli Həsən yetişirlər. Koroğlu zindandan çıxandan sonra dəlilər ilə Məhbub xanımın yanına gəlir, yaraqlanıb üzünü dəlilərə tutaraq deyir:

- Bu yolda iyidlik, mərdlik göstərmisiniz. Məhbub xanımı Bəlli Əhməd sənə verirəm, götürün gedək.

Beləliklə, Məhbub xanım sayıqlığı və qoçaqlığı, saf məhəbbəti sayəsində Çənlibelə gəlməyə nail olur.

Dünya xanım. (Ərəb dilində bir küll olaraq "maddənin bütün formalarının məcmusu, yer kürrəsi, yer üzü"). Camal paşanın qızı. Camal paşa vəd edir ki, kim Koroğlunun başını ona gətirsə qızı ona verəcək. Bolu bəy bu işi öhdəsinə götürür. Koroğlunu hiylə ilə Camal paşanın yanına aparmağa nail olur. Lakin niyyət ürəyində qalır. Camal paşa Koroğlunu quyuya

saldırır. Lakin qızı Dünya xanım Koroğluya kömək etməyə çalışır. İpi saldırıb onu quyudan çıxarmaq istədikdə Koroğlu ona gücü çatmayacağınıı söyləyir. O, Koroğluya yemək salladır. Qırata qulluq etməyi mehtərinə tapşırır. Koroğlunu qurtarmağa gələn İsabalanı düşməndən qoruyur, ona vurulur. Koroğlunu quyudan çıxartmaqda ona köməkçi olur. Koroğlu qurtulduqdan sonra onu Çənlibelə aparır. Çənlibeldə məclis qurulur. Dünya xanımı İsabalaya verilir.

Leyli xanım. (Ərəb dilində "gecə" mənasında). Rum paşası Asdan paşanın qardaşı qızıdır. Əmisi qızı Məhbub xanımın ən istəkli sirdaşı idi. Məhbub xanım üçün də Çənlibelə o məktub göndərirdi. O, igidlər haqqında Məhbub xanıma çox şirin əhvalat və nağıllar söylədiyi üçün Məhbub xanım onun adını Şirin qoymuşdu. Onlar danışmışdılar ki, Çənlibelə birlikdə getsinlər. Lakin quyuya salınmış Bəlli Əhmədin arxasınca gələn dəlilər Bəlli Əhmədi quyudan çıxarıb aparanda Məhbub xanımı da aparırlar, amma Leyli xanım ələ keçməyərək qalmalı olur.

Leyli xanım elə başa düşürdü ki, Məhbub xanım onu yalandan aparmamışdır. Odur ki, Leyli xanımın əmisi Şükür paşanın yanına gələrək Məhbub xanımın geri alınması üçün tədbir fikirləşməyi bildirir. Çünki o, Şükür paşanın oğluna çox yaxşı bələd idi. Leyli xanım isə həddindən artıq ağıllı və tədbirli bir qız idi. O, Şükür paşadan dərhal icazə alaraq Koroğluya öz adından məzmunda bir namə yazır: "Mənim Çənlibeldə gözüm var, əgər igidsənsə gəl məni apar".

Dastandan aydın olur ki, Leylini aparmağa Eyvaz yola düşür. Lakin müəyyən səbəbdən Eyvaz yolunu dəyişməli olur. Lakin Leyliyə məktub yazıb qasidə verir və səhər gələcəyini söyləyir. Asdan paşa Koroğlunun gələcəyini düşünür. Bu məqsədlə də plan qurur. Koroğlunu diri-diri yandırmaq üçün bir ev hazırlayır. Evin ocağını da Leyliyə etibar edir. Leyli isə Eyvazı gözləyir. Özlüyündə plan qurur ki, Eyvazı buradan qaçırıb onunla Çənlibelə yola düşəcək. Lakin Eyvaz gəlib çıxmır.

Eyvazın arxasınca yola düşən Bəlli Həsənlə Kürdoğlunu Asdan paşanın adamları bir şəhərin qırağında qarşılayıb Leylinin sifarişi ilə həmin evə gətirirlər. Onlar içəri girən kimi qapı möhkəm bağlanır.

Leyli yenə də ayıq tərpənib fürsəti əldən vermədən içəri keçir. Dəli Həsən hirsli-hirsli onun üzünə baxır. Eyvazın harda olduğunu soruşanda Leyli Eyvazın məktubunu çıxarıb ona verir və həm də onlara ümid verib Eyvazın səhər gələcəyini söyləyir.

Paşa evə od vurmağı Leyli xanıma əmr edir. Leyli xanım ortalığa çökən sükutdan bir anlıq istifadə edərək içəri keçir və dəliləri aparıb gizlətdikdən sonra evə od vurur.

Koroğlu gəlib hücuma keçdiyi zaman bir də Dəli Həsənlə Kürdoğlunu yanında götürür. Bu məhz Leyli xanımın ayıq tərpənməyi sayəsində baş

verir. Koroğlu Asdan paşanı, onun qasidini, bir də Leyli xanımı Tüpdağıdana tapşırır. Sonda Leyli xanım öz nöqsanını boynuna alır, Koroğlu Leylinin mərdliyinin namərdliyindən çox olduğunu görüb onu Tüpdağıdana verir.

Mərcan xanım. (Ərəb dilində mənası "dənizin dibində qayalara yapışaraq dəstələrlə yaşayan dəniz heyvanı və ya daşlaşmış halda həmin heyvandan düzəldilmiş bəzək şeyləri"). Həsən xanın qızıdır. Bəyazid xotkar onu vəliəhdi Əmir xana nişanlayır. Lakin Mərcan xanım buna etiraz edir, hətta nişan boxçasını da belə açmır, üzuyu taxmır.

Mərcan həddindən artıq gözəldir. Dastanda deyilir ki, o birdən-birə Eyvazın gözünə sataşanda Eyvaza elə gəlir ki, gün Mərcan xanım olan tərəfdən çıxır. O, gözlərini silir və heyran-heyran onun üzünə baxır, qız bənövşə kimi başını çiyninə qoyur, boynunu büküb anasına həsrət qalmış ceyran balası kimi məlul-məlul Eyvaza baxır.

Məhəbbətə, eşqə sadiq olan Mərcan xanım həm də çox cəsarətlidir. Birinci nişanlısı Hüseynəli xan Mərcana məktub göndərərək ona bilərzik sifariş vermək üçün biləyinin ölçüsünü istəyir. Mərcan xanım ona aşağıdakı şeirlə cavab yollayır.

Məhəbbət satılmaz dünya malına,
Bir yaxşı fikirləş xan, ağlın olsun!
Səndəki eşq deyil, uyub şəhvətə
Az belə giryan ol, yan, ağlın olsun!

Leyliyəm, Məcnunum səhra dolaşır,
Əsliyəm, Kərəmim Ərzurum aşır,
Sinənə alan kimi qaynayıb daşır,
İçmək istəyirəm qan, ağlın olsun!

Aşıq Cünun Hüseynəli xana bu məktubu oxuyanda, düşmən qızı olsa da, Koroğlu, Aşıq Cünun, bütün dəlilər də Mərcan xanımda olan əhdə, ilqara, vəfaya, ağıla, kamala əhsən dedilər. Mərcan xanım varlı təbəqədən olsa da, o nə Hüseynqulu xanı, nə də Əmir xanı istəyirdi. O imkansız təbəqədən olan igid, qoçaq əsl adı Böyükkişi olan Kankanoğlunu sevirdi. Kankanoğlu da ona vurulmuşdu.

Mərcan xanım çox tədbirli bir xanım idi. O, Eyvazı zindandan xilas etmək yolu üçün də ağıllı tədbir tökür. Kankanoğlu məhz onun göstərdiyi yolla Eyvazı zindandan xilas edir. Sevgisi, məqsədi və xoşbəxtliyi yolunda Mərcan xanım bütün çətinliklərdən məharətlə qurtulub Kankanoğluya olan sonsuz məhəbbətinə Çənlibeldə qovuşur.

Zərnişan. (Fars dilində "qızıl". İki komponentdən ibarətdir: "zər" və "nişan"). İlk dəfə bu xotkar qızının şəklini mehtərbaşı Abdurrahman Koroğluya verir. Koroğlu ona gələcək gəlin kimi baxıb şəklini gizlədir. Günlərin birində Həsən bəy Zərnişanın şəklini görüb ona vurulur. Həsən bəy atasının

izni ilə xotkar qızı Zərnişanın arxasınca gedir. O, mehtərbaşı Abdurrahmanın və Fatma qarının köməkliyi ilə Zərnişanla görüşür.

Dastanın 340-cı səhifəsində Zərnişanın gözəlliyi belə təsvir olunur: "Həsən baxdı ki, Zərnişan bir qızdı, Züleyxa onun əlinə su tökməyə yaramaz. Ağzı püstə, burnu hind fındığı, sinə Səməndər kağızı, göz piyalə, mah camalı bərq vurub yanır. Baxdıqca adamın gözünün şoqunu aparır. Diqqəsi minar, əl vurma sınar, bax kənarda dur, mələq-müşkin kimi boynunu bur".

Zərnişan gözəl olmaqla yanaşı, çox ayıq-sayıq, mərd, cəsarətli və tədbirli bir qız idi. O, Həsən bəyi bir çox imtahanlara çəkəndən sonra ona inanır. Məhz onun düşünülmüş planı əsasında Həsən bəy Qara paşanın qoşununu qıra-qıra yaralanmasına əhəmiyyət vermiyərək Zərnişan xanımı Aşqardır adlı atının üstündə Çənlibelə yetirir. Koroğlu ayağa durub deyir:

- Çənlibel gəlini Zərnişan xanımın gəlişi münasibətilə qırx gün, qırx gecə toy vurulsun. Gəlinin ayağına yeddi min yeddi yüz yetmiş yeddi öyəc qurban kəsilsin, yeddi il əksi saxlanan otaq isə təzə bəylə gəlinə layiq bəzədilsin.

Fatimə qarı. (Ərəb sözüdür, mənası: "uşağı süddən ayıran qadın"). Eposda bu şəxslə "Zərnişanın Çənlibelə gəlməsi" səhifəsində tanış oluruq. Mehtərbaşı Abdurrahman Fatimə qarını evinə çağırıb Həsən bəylə Zərnişanı görüşdürməkdə vasitəçi olmağı ondan xahiş edir. Fatimə qarı əvvəl bu işdən boyun qaçırır. Həsən bəy cibindən bir ovuc qızıl ağca çıxarıb onun ovucuna basan kimi qarı razılaşır. Fatimə qarı Həsən bəydən bir şəkil də alıb deyir:

- Oğul, Zərnişan xanım hər cümədən cüməyə Bülbüllü bağa seyrəngaha çıxır. Mən hər cümə axşamı onun əl-ayağına xına qoymağa gedirəm. Xına qoyanda çalışaram ki, əksin yerə düşsün. Zərnişan xanım soruşsa deyərəm ki, nəvəmdir.

Beləliklə, Fatimə qarı verdiyi sözə əməl edərək və Zərnişanın tapşırığı ilə Həsən bəyi Bülbüllü bağına göndərir və onlar ilk dəfə olaraq bir-birini canlı surətdə görmüş olurlar. Dastanda bu epizodik surətin fəaliyyəti bununla da bitir.

Ədəbiyyat

1. Azərbaycan klassik ədəbiyyatında işlənən ərəb və fars sözlərinin lüğəti. Bakı, 2005.
2. A.Qurbanov. Azərbaycan dilinin onomologiyası. Bakı, 1988.
3. A.Paşayev. azərbaycan antroponomiyasının leksik problemləri. Bakkı, 1997.
4. ADİL . I-IV. Bakı, 2006.
5. "Koroğlu" dastanı. Bakı, 2004.
6. V.Vəliyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, 1970.

А.Алиев

Женские имена и их особенности в эпосе
“Кёроглу ”
Резюме

Этот этнос, достаточно большой по объему, богат ономастическими единицами. В нем есть разного рода ономастические единицы. Среди них женские имена в первую очередь выделяются своими разнообразиями. Большинство этих женщин являются супругами и сторонниками Короглы, которые собрались вокруг Нигяр ханум, укрощающая Чанлибель. Каждая из этих имеет историю прибытия в Чанлибель. И каждая женщина имея своеобразное имя, и имели присущий себе определенной характер, по характеру отличались друг от друга.

С точки зрения происхождения, большинство женские имена из арабского и персидского языков. В статье эти имена анализированы, прежде всего, по происхождению. Например, Нигяр – из персидского языка, - означает изображения, портрет; в семантическом значение: - красивая.

Маляк – из арабского языка, означает ангел, прекрасная. Ругия – из персидского языка, - означает “красивая лицо”, “аура”. Хури - из арабского языка, означает – свободная, самостоятельная. Бильгейс - из арабского языка, означает мудрая.

Таким образом, из эпоса около двадцати женских имен исследованы с точки зрения их происхождения и касались соответствия этих имены с характером.

A.Aliyev

The women’s names and their characteries
features in “Koroglu” epos

Summary

This epos, being large enough. According to its capacity, is rich with onosmatic units. There are different kinds of onomastic units in this epos. Among them woman-person names are distinguished for their motley. The majority of these women are the ones who assembled around the beautiful woman of Chanlibel Nigar khanum. Koroghlus wife and companion-in-arms. Their coming to Chanlibel has their own history. These women have their own names and characters, and they are distinguished for their own characters.

From the point of view of the origin of the most of woman-person names are Persian and Arabic. They are explained from the point of their origin and characters in the article. For example, Nigar – in Persian, in its veal meaning – picture, photo, image; in figurative meaning – beautiful, petty; Malak – in Arabic, beautiful; Rugiyya – in Persian, pretty face; Huri – in Arabic, free; Bilgeyis – in Arabic, clever, foreseeing.

So approximately twenty woman-person names are explained from the point of view of their origin in the article. At the same time it had been touched the problem from the point of view of the meaning of the names according to the eligibility of characters.

Rəyçi: Yadulla Ağazadə
filologiya elmləri doktoru, professor

LALƏ MƏSİMOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
lala@gmail.com

СОПОСТАВИТЕЛЬНЫЙ АНАЛИЗ ФРАЗЕОЛОГИЗМОВ В РУССКОМ, АНГЛИЙСКОМ И НЕМЕЦКОМ ЯЗЫКАХ

Açar sözlər: dilçilik, linqvistik aspekt, dil, frazeologizm, müqayisəli təhlil
Key words: linguistics, linguistic aspect, language, phraseologism, comparative analysis
Ключевые слова: лингвистика, лингвистический аспект, язык, фразеологизм, сравнительный анализ

Фразеология как отдельная лингвистическая дисциплина возникла в сороковых годах двадцатого века в отечественном языкознании. С тех пор всё больший интерес вызывает семантика фразеологизмов и закономерности их употребления в процессах организации высказывания, что связано с общей тенденцией – разработкой моделей языкового синтеза. Фразеология (в частности зоонимы, т.е. фразеологизмы с названиями животных) представляют собой весьма интересный пласт лексикологии, где отчётливо выявляются взаимосвязи между языками и ментальностью индивида и этноса.

Фразеология, как и многие другие лингвистические аспекты, с одной стороны интернациональна, а с другой стороны имеет этнические различия. Факты совпадения фразеологических оборотов разных языков являются объектом сопоставительной фразеологии.

Рассмотрим данное лингвистическое явление на примере русского, английского и немецкого языков. Русский язык относится к славянской группе языков, а английский и немецкий – к германской группе. Каким же образом в этих языках могут появляться «межъязыковые фразеологические эквиваленты» (далее МФЭ), т.е. «разноязычные фразеологические единицы, совпадающие по своему образу, значению и стилистической окраске, соотносимые по компонентному составу (без обязательного однозначного соответствия единиц лексико-грамматического уровня) и структурно-грамматической организации» Существованию МФЭ разных языков способствуют два основных фактора: 1) общность жизненного опыта и отражающих его процессов мышления, общность, однотипность отдельных форм образного видения мира; 2) тесные культурно-исторические связи между отдельными народами.

Какие же фразеологизмы русского языка могут иметь МФЭ в английском и немецком языках? Очевидно, чем общедоступнее, «общечеловечнее» образ, внутренняя форма фразеологической единицы того или иного языка, тем больше вероятность наличия и в других языках, в других фразеологических системах его МФЭ. Так, МФЭ русской ФЕ *как кошка с собакой* «в постоянных ссорах, раздорах» были обнаружены во фразеологических системах многих близкородственных и неблизкородственных языков.

Ассоциативно-образная связь взаимоотношений людей, живущих в постоянной вражде и ссорах, с отношениями таких животных, как кошка и собака, характерна для самых различных языков. МФЭ русской ФЕ *как кошка с собакой* обычно имеют также структуру сравнительного оборота, причём соответствующие ФЕ в системах разных языков характеризуются семантически тождественным постоянным окружением: обычно глаголы семантики «жить», реже лексемы семантики «договариваться, ладить» (to live a cat-and-dog life; to lead a cat-and-dog life (жить как кошка с собакой) =wie Hund und Katze leben (жить как кошка с собакой)). На этом фоне весьма своеобразно выглядит образное переосмысление лексем этой семантики («кошка», «собака») в английском языке, например: it’s raining cats and dogs «идёт проливной дождь» (букв. «идёт дождь кошками и собаками»).

Огромное количество зоонимов русского языка имеет МФЭ во фразеологических системах английского и немецкого языков:

английский язык	русский язык	немецкий язык
the cat is out of the bag (let the cat out of the bag)	= выдать секрет = =	die Katze auf dem Sack lassen
be on the high horse	= важничать, = высокомерно держаться =	auf dem hohen Pferd sitzen
act (или play) the goat	= глупо вести себя = =	Bocksprünge machen
work like a horse	= работать как лошадь = =	wie ein Pferd arbeiten
take the bull by the horns	= взять быка за рога = =	den Ochsen beim Horn fassen (или Stier an den Hörnen fassen)

Итак, как мы видим, факты совпадения зоонимов наблюдаются и в неродственных языках (русском и английском, русском и немецком). Факты же несовпадения зоонимов могут наблюдаться, напротив, в родственных языках (английском и немецком):

английский язык	русский язык	немецкий язык
buy a pig in a poke	≠ покупать кота в мешке = ≠	die Katze im Sack kaufen
a bull in a china shop	≠ как слон в посудной лавке = ≠	sich benehmen wie ein Elefant im Porzellanladen

Наблюдается несовпадение многих фразеологизмов в неродственных языках, сравнить:

русский язык		немецкий язык
разбираться в чём-либо	≠	von etw. soviel verstehen
как свинья в апельсинах		wie der Hahn vom Eierlegen
идёт как корове седло	≠	hog in armour

Как это заметно из сопоставленных ранее примеров, национальную специфику фразеологизма чаще всего сохраняет фразеологический образ – то наглядное представление, своего рода «картинка», на фоне которой мы воспринимаем целостное значение фразеологической единицы как обобщённо-переносное. Фразеологический образ очень часто опирается на реалии, известные только одному народу, представителям одной нации. Национальная специфика фразеологического образа отражает образ жизни и характер народа, его историю, духовную жизнь, своеобразные традиции, обычаи и этнический быт в специальном отборе лексических компонентов той или иной фразеологической единицы.

Например, в английском языке имеется зооним salt horse – солонина (*мор. жарг.*). Тогда как в немецком языке это же значение выражается с помощью нейтральных лексических единиц Salzfleisch и Pökelfleisch (*досл.* солёное мясо). Что касается английского зоонима wooden horse, то он имеет три значения (1) виселица; 2) старинное орудие пытки; 3) корабль, судно), каждое из которых определяется отельным словом в немецком (Galgen, Folterwerkzeug и Schiff соответственно) и русском языках.

В немецком языке национально специфичным фразеологизмом является, например: das geht auf keine Kuhhaut! – *разг.* Этого не опишешь!, это и представить себе невозможно! (*букв.* Этого и на пергаменте не напишешь. Пергамент приготовлялся из кожи животных,

в частности коров. Под Kuhhaut суеверные люди понимали написанный на пергаменте список грехов, который сатана читает человеку в час его смерти). В русском и английском языках это же значение передаётся с помощью восклицательных предложений, не являющихся фразеологизмами (It's hard to imagine! – Это трудно представить!).

Итак, в данном исследовании нами был проведён сопоставительный анализ фразеологизмов-зоонимов с компонентом «домашнее животное» в русском, английском и немецком языках. Мы убедились, что национальная специфика фразеологизмов того или иного языка – это многоаспектное явление, которое должно исследоваться по целому ряду параметров в процессе семантического анализа ФЕ: выявление стилеобразующих компонентов ФЕ, их этимология, их семантический анализ. Исследование национально-культурной специфики фразеологии является очень важным для понимания культуры и мышления народа, так как культурная самобытность языкового сообщества наиболее ярко раскрывается во фразеологии. Фразеологическая система языка, являясь составной частью языковой системы, отражает диалектическое единство языка и культуры, языка и общества. В любой момент социального и культурного развития народа язык отражает полностью и адекватно его бытие.

Литература

1. Бинович Л.Э., Гришин Н.Н. Немецко-русский фразеологический словарь. – М.: Русский язык, 1975, 656 с.
2. Кунин А.В. Англо-русский фразеологический словарь. – М.: Советская энциклопедия, 1967, 1265 с.
3. Солодуб Ю.П. К вопросу о совпадении фразеологических оборотов в различных языках ВЯ, 1982, №2.

Л.Масимова

Rus, ingilis və alman dillərində frazeoloji vahidlərin müqayisəli təhlili

Xülasə

Frazeologiya dilçiliyin bir sahəsi kimi iyirminci əsrin qırxıncı illərində meydana çıxmışdır. Həmin vaxtdan frazeoloji vahidlərin semantikası və onların nümunələrinin istifadəsi prosesi böyük maraq doğurmuş və bu da dil sintezinin modellərinin inkişafının ümumi tendensiyası ilə bağlıdır.

Frazeologiya dilçiliyin maraqlı bir bölməsidir ki, dillər arasında qarşılıqlı əlaqələr və fərdi və etnosların zehniyyəti aydın şəkildə ortaya çıxır.

Digər dilçilik aspektləri kimi frazeologiya da bir tərəfdən beynəlxalqdır, digər tərəfdən etnik fərqlərə malikdir.

Məqalədə bəhs edilən məsələ haqqında geniş məlumat verilir ki, bu da bu sahə ilə maraqlananlar üçün faydalı ola bilər.

LMasimova

Comparative analysis of phraseological units in russian, english and german

Summary

Phraseology as a separate linguistic discipline arose in the forties of the twentieth century in the domestic linguistics. Since then, the semantics of phraseological units and the patterns of their use in the processes of the organization of an utterance are of great interest, which is connected with the general trend - the development of models of language synthesis.

Phraseology (in particular zoonisms, i.e. phraseological units with animal names) is very interesting section of lexicology, where the interrelations between the languages and the mentality of the individual and ethnos are clearly revealed.

Phraseology, like many other linguistic aspects, on the one hand is international, and on the other hand it has ethnic differences. The facts of the coincidence of the phraseological turns of different languages are subject to comparative phraseology.

Rəyçi: Fəridə Hüseynova
filologiya elmləri namizədi, dosent

ТАРАНА ХАЛИЛОВА
доцент Азербайджанского государственного экономического университета
(UNEC)
t.xelilova0@gmail.com

ТЕСТИРОВАНИЕ КАК ФОРМА КОНТРОЛЯ ЗНАНИЙ

Açar sözlər: Test, bilik, nəzarət, yoxlama, fərdi.
Key words: Test, knowledge, control, verification, individual.
Ключевые слова: тест, знание, контроль, проверка, индивидуальный.

Контроль знаний и умений студентов - важный элемент учебного процесса, так как обучение не может быть полноценным без регулярной информации о том, как студенты усваивают материал, как применяют полученные знания на практике. Контроль позволяет оценивать динамику усвоения учебного материала, уровень владения системой знаний, умений и навыков.

Одним из методов контроля является тестирование. Система тестирования не только контролирует, оценивает и выявляет конкретные ошибки, но и определяет причины этих ошибок. Преподаватель на основе полученной информации имеет возможность управлять процессом обучения. Результаты группы по содержанию материала в целом позволяют преподавателю увидеть, материал какой темы необходимо повторить для достижения максимального уровня усвоения.

Рассматривая результаты отдельных студентов, можно сделать выводы по каждому отдельному студенту и принять соответствующие методические решения в плане индивидуальной работы. Можно проследить динамику успешности обучения студента. Стабильно высокие результаты некоторых студентов дают преподавателю возможность выстроить для них индивидуальную предметную траекторию.

Это важно для студента и дает возможность преподавателю оптимально организовать учебный процесс, интенсифицировать и индивидуализировать его, сделать более гибким.

Результаты проверки тестов анализируются преподавателем и служат для него, с одной стороны, показателем уровня знаний учащихся, а с другой - самооценкой работы самого преподавателя, что позволяет ему внести необходимые коррективы в процессе обучения и тем самым предупредить повторение ошибок студентов

Тест позволяет проверять одновременно всех учащихся группы; выполнение теста занимает немного времени, что делает возможным

его проведение практически на любом занятии; при выполнении теста все учащиеся поставлены в равные условия — они работают в одно и то же время с одинаковым по объему и сложности материалом, что исключает влияние на оценку их ответов такого фактора, как везение/-невезение; тест дает возможность включать большой объём, материала и контролировать не только его усвоение, но и наличие отдельных умений пользования им.

К тестам, выполняющим контролирующую функцию, относятся два основных вида: тесты, проверяющие наличие у студентов определенного уровня коммуникативной компетенции, и тесты, проверяющие овладение учащимися конкретным языковым материалом и отдельными речевыми умениями за определенный период обучения.

Такая форма проверки, если она носит регулярный характер, приучает студентов к ответственности за весь материал цикла, что способствует успешности их обучения, поскольку тестом, рассчитанным на 10—15 минут выполнения, можно охватить весь изученный за соответствующее время материал и проверить всех учащихся. С этой точки зрения тест является весьма действенным и экономным средством контроля.

В настоящее время совершенно отчетливо наметилась тенденция использовать тесты в обучающей функции, т. е. в процессе овладения учащимися языковым материалом, отдельными речевыми умениями, различными видами аудирования и чтения.

Закрепление за тестами этой функции представляется оправданным и перспективным. Обучающие тесты представляют собой важный промежуточный этап в работе по овладению языковым материалом, развитию речевых умений, освоению различных видов аудирования и чтения. Тестирование должно обязательно сочетаться с другими (традиционными) формами и методами проверки.

Задания тестового типа в обучении иностранному языку целесообразно давать студентам в основном при текущем контроле, а в итоговом контроле их можно представить в виде составной части в арсенале других типов проверки знаний, навыков и умений.

В современной методике выделяются тестовые задания закрытой формы с выбором правильного ответа, тестовые задания открытой формы без готовых ответов, тестовые задания открытой формы с развернутым ответом, проверяющие умение создавать собственное высказывание на основе прочитанного текста.

Тестирование обладает целым рядом преимуществ по сравнению с другими методами контроля: повышает скорость проверки качества усвоения знаний и умений студентов; стимулирует их познавательную

деятельность; полностью охватывает изучаемый материал; ориентирует на современные технические средства, на использование в среде компьютерных обучающих и контролирующих систем; повышает объективность контроля; осуществляет принцип индивидуализации и дифференциации обучения и др.

Тестовые задания характеризуются краткостью, логической формой высказывания; правильностью расположения элементов задания; одинаковостью правил оценки ответов.

Наиболее популярны следующие виды тестовых заданий: альтернативный выбор, установление соответствия элементов двух списков; множественный выбор (один или несколько правильных ответов из предложенного списка); упорядочение элементов в определенной последовательности; дополнение (или завершение); трансформация.

Регулярное тестирование позволяет объективно оценить уровень учебно-познавательной деятельности каждого студента в отдельности, таким образом индивидуализировать учебный процесс, определить недостаточно усвоенные темы.

Оно является экономной, целенаправленной и индивидуализированной формой контроля. Однако тестирование не должно заменить традиционные методы контроля. Одним из недостатков тестового метода контроля является возможность угадывания.

Литература

1. *Гулидов, И.Н.* Педагогический контроль и его обеспечение: учебное пособие. – М.: ФОРУМ, 2005
2. Кирейцева А.Н.Азбука тестирования. Практическое руководство для преподавателей РКИ. «Златоуст», 2013
3. Московкин Л.В., Щукин А.Н. Хрестоматия по методике преподавания русского языка как иностранного. М.: Русский язык. Курсы. 2010.
4. Вагнер В.Н. Лексика русского языка как иностранного и ее преподавание. М.: Флинта: Наука, 2006

T.KHalilova

Testing as a forms of knowledge control

Summary

Testing has a number of advantages in comparison with other control methods: it increases the speed of checking the quality of mastering the knowledge and skills of students; Stimulates their cognitive activity; Fully covers the material being studied; Focuses on modern technical means, on the use in the environment of computer training and monitoring systems; Increases the objectivity of control; Carries out the principle of individualization and differentiation of teaching, etc.

Dilin lüğət tərkibinin zənginləşdirilməsi üçün bir sıra üsullar mövcuddur. Bu üsullardan ən vacibi ingilis dilində orijinal materialların oxunmasıdır. Məlumat verilərkən materiala diqqətin arıtırılması üçün onun canlı və maksimum rəngarəng olması təmin edilməlidir.

Belə materiallara qəzet, dərslik, ensiklopediya məqaləsi, jurnal və s. daxildir. Lüğət ehtiyatının zənginləşdirilməsi üçün başqa bir üsul kimi öyrənilməli olan yeni sözlərin siyahısının tutulmasıdır.

Bundan başqa öyrənilən yeni sözlərin sinonimlərini öyrənmək də lüğət ehtiyatının zənginləşdirilməsi üçün yaxşı bir vasitə ola bilər.

Т.Мехтиева

Общаясь в разных культурах

Резюме

Основной целью данной статьи является ознакомление вас с различными правилами правильного образца письма и связанных с ними письменных материалов. Хотелось бы надеяться, что обучающиеся, которые будут изучать материалы в этой статье, могут улучшить свои знания о лексических фразах и словосочетаниях. Принято считать, что эта статья обучает усваивать материалы, включенные в эту статью и объединять их со своим собственным знанием английского языка, вследствие чего станет возможно написание хорошо структурированного материала.

Различные культуры общаются по-разному. В современных офисах мы имеем дело не только со всеми различными странами, но с разными национальностями в пределах нашей страны. Таким образом, можно считать хорошей идеей попытку понять и оценить различия друг друга, понимая, что не все думают так же, как мы. Стиль делового письма, как правило, простой, ясный, краткий. Если вы пишете меньше слов, это не значит, что вы не будете поняты; вы же выберите самые правильные слова, именно те слова, которые и произведут впечатление на читающего. Иногда у нас есть некоторые проблемы, связанные с не носителями языка. Существует много примеров, которые доказывают, что в наши дни важно знание культуры общения, как и в своей стране, так и за рубежом.

Rəyçi: Fəridə Hüseynova
filologiya elmləri namizədi, dosent

SEVDA AĞAYEVA
Bakı Slavyan Universiteti
seva@gmail.com

TƏRCÜMƏDƏ ADEKVATLIQ VƏ KOLORİT PROBLEMİ

Açar sözlər: Adekvatlıq, kolorit, milli, tarixi kolorit, sözbəsöz tərcümə.
Ключевые слова: адекватность, колорит, национальный, исторический колорит, буквальный перевод.
Key words: adequate, colouring, national, historical colouring, word translation

Mesopotomiyada özünü "Ədalət kralı" kimi tanıtdırmaq istəyən Hammurabinin "Qanunlar məcəlləsi"nə bərabərtutulan qədim Babilistan sivilizasiyasının monumental epik dastanı "Gilqameş" dildən dilə keçərək yazılı tərcümənin tarixinin başlanğıcı sayılır. Real tarixi bir şəxs olan Gilqameş yeni eradan əvvəl təxminəm 2600-cı illərdə şumerlərin kralı olmuşdur. Göstərdiyi şücayətlər müasirlərini o qədər riqqətləndirmişdir ki, haqqında dastanlar söyləməyə başlamışlar. Şumerlərin dilində söylənilən bu dastanlar o qədər əyləndirici olmuşdur ki, üçüncü minillikdə Sumeriyanı işğal edən semit fatehlər həmin dastanı öz dialektlərinə tərcümə etmişlər(6,40-42).Ancaq Academic Encyclopedia/ Americano, 1986) - da göstərilir ki, bu dastandakı fraqmenlərdən dörd, yaxud beşinin Asiya dillərinə tərcüməsi tapılmışdır.Yeni eradan əvvəl ikinci minilliyyə aid edilən Rozetta daşı üzərindəki yazılar Misir heroqliflərini, eləcə də yunan dilinə bir tərcüməni deşifrə etməyə imkan vermişdir (1,11). Eyni zamanda məlum olmuşdur ki, bu tərcümələr arasında yunan dilinə də bir tərcümə var. Tədqiqatlar həm də göstərir ki, əsir yəhudilər Mesopotomiadan Nehemiaha qayıdandan sonra (y.e.ə. 397-ci ildə) məlum oldu ki, onlar "İncil"i başa düşmür, buna görə də onun tərcümə olunmasını tələb etdilər (1,11). Y.e.ə. üçüncü əsrdən başlayaraq yunan ədəbiyyatından böyük həcmdə əsərlər latın dilinə tərcümə olunmağa başladı (1,16). Təxminən y.e.ə. 130-cu əsrdə "Əhdi-ətiq" qədim yəhudi dilindən yunan dilinə tərcümə olundu.

Sonrakı əsrlərdə tərcümələr olunsa da, ancaq onlar haqqında dəqiq məlumat yoxdur. Ancaq bir şey məlumdur ki, dilmanclar dir dildən digərinə tərcümə etməklə, xüsusilə İran və Yunan imperiyalarına xidmət etmək sahəsində əhəmiyyətli rol oynamışlar. Yaqub peyğəmbərin oğlu Yusif səyyahlar tərəfindən quyudan çıxarılıb Misirə aparılarkən o ayrı bir dildə danışırdı, ancaq sonralar qardaşları ilə görüşərkən o, qardaşları ilə dilmanc vasitəsilə danışırdı.

Diron II Psamtikin hakimiyyəti dövründə (y.e.ə. 594-588) bir çox misirli oğlan Yunanıstana dili öyrənmək, tərcüməçi və dilmanclığı öyrənmək, sonra bu sahədə işləmək üçün göndərilmişdi (Ronald, 1982:28). Ronald antik dövr dilmanclığında iki çatışmazlığı qeyd edir. O göstərir ki, I Artakserekses (y.e.ə. 464-504) iki dili bilən Artafernas adlı bir nəfəri Spartaya göndərir. Həmin adam Spartanın rəsmilərinə deyir ki, tərcüməçilər işi bacarmır, onları başa düşmək çətindir. Sonra yenə həmin müəllif belə bir hadisəni də xatırladır ki, makedoniyalı İskəndər indusların dini ilə maraqlanır. Üç dilmanc Brahmin kahinlərinin dediklərini şifahi şəkildə İskəndərə tərcümə edirlər. Kahinlər anlayırlar ki, bu cavanlar dili bilsələr də, indusların dininin fəlsəfəsindən bixəbərdirlər, həm də bildirirlər ki, təlimi, nəzəriyyəni belə bir süzgəcdən keşirmək ona bənzəyir ki, su lehmə və palçıq içindən keçsin və təmiz qalsın (1, 33). Burada antik dövr tərcümələrində birinci vacib fikrə rast gəlirik: mütərcim tərcümə etdiyi sahəni bilməlidir.

Ömürlərinin böyük hissəsini tərcümə və elmə həsr etmiş antik dövrün alimləri və onların tərcümə haqqında fikirləri təxminən aşağıdakılardan ibarətdir: Livius Andronicus Lucius (y.e.ə. təxminən 280-207) yunan mənşəli qul olmuş, yunan və latın dillərini bilmiş və onları tədris etmişdir. Homerin "Odisseya"sını latın dilinə tərcümə etdikdə ilk olaraq şərhlərdən istifadə etmişdir.Sisero, Markus Tullius (y.e.ə.təxminən 106-40) Romada dövlət xadimi, hüquüşünas, alim və yazıçı olmuşdur. Onun fikrincə mütərcim ya dilmanc, ya da natiq olmalı, biliyi bilinqvizmlə məhdudlaşmamalıdır, hərfi tərcüməni tənqid edir və belə tərcüməni qeyri-peşəkar hesab edirdi. Ancaq həmin dövrdə "Əhdi-ətiq"i tərcümə edən yəhudi alimləri belə hesab edirdilər ki, yalnız hərfi tərcümə yolu ilə məxəz mətnin mükəmməl mənzərəsini yaratmaq mümkündür. Tərcümə tarixində ilk dəfə dinamik və formal ekvivalent teminlərini Sisero işlətmişdir (1, 79).

Horisin (Horace - y.e.ə. 65-8) fikrincə tərcümə məxəz mətnin imicini, morfoloji, sintaktik və semantik strukturunu mümkün qədər saxlamalıdır (1, 57), o həm də qeyd edir ki, məxəz mətnə sadiq mütərcim hər sözü bir-bir tərcümə edir (1, 84:59). Aquila (y.e. ə. II əsr) məxəz mətni hədəf mətnin dilinin strukturuna uyğunlaşdırmağın əleyhinə olmuşdur. Ulfitas (y.e. ə. 311-383) "hesab edirdi ki, tərcümə anlaşma və biliklərin yayılması üçün bir vasitədir. Müqəddəs Cerom (y.e.ə 347-419) sözbəzöz tərcümənin əleyhinə çıxaraq "anlamın anlamla" (sense for sense) tərcüməsini təqdir etmişdir. Boethius (250-470) Aristotelin bir sıra əsərlərini latın dilinə tərcümə etmişdir. Beləliklə məlum olur ki, antik dıvrdə əvvəlcə sözbəsöz, sonra isə anlamın anlamla (sense for sense) tərcüməsi əsas tərcümə üsulu olmuş, adekvatlıq haqqında bizim düşündüyümüz mənada adekvat tərcümə anlamı mövcud olmamışdır.

Beşyüzdən min beşyüzədək illər Orta əsrlər adlanır. Orta əsrlərin birinci yarısı dəyişikliklər və qarışıqlıq dövrü olmuşdur. Müsəlman imperiyası genişlənir və onun qarşısını alacaq bir qüvvə yox idi. Beşinci əsrdən yeddinci əsrədək Müqəddəs Ceromun "İncil" tərcüməsindən başqa tərcümə ilə baglı heç bir əhəmiyyətli iş görülməyib. Ruth Rolandın yazdığına görə, İbn-Tabit Məhəmməd peyğəmbərin katibi olmuşdu, qədim yəhudi və ərəb dillərini yaxşı bilirdi, Mədinə yəhudilərinə peyğəbərə yazılı müraciətlərində ərəb və yəhudi dillərində müraciət etməyi təlqin edirdi. İspaniyada yaranmış İslam xəlifəti beş yüz il movcud olmuşdur. Orada bir çox xristian, yəhudi və müsəlman alimlər tədqiqatlar aparmış, Toledo və Kordovada əsərlər yazmışlar. Bu alimlərdən bəziləri qədim yunan və latın dillərindən ərəb dilinə kitablar tərcümə etmişlər. Müsəlman sivilizasiyası buradan Avropanın qalan yerlərinə sirayət etmişdi. Çar I Simonun hakimiyyəti dövründə (y.e. 893-927) ən yaxşı ədəbiyyat nümunələri müxtəlif dillərə tərcümə olunmuşdur (1, 42). Dilmanclıqdan əsasən sadə adamlar gündəlik ehtiyaclarını ödəmək üçün istifadə edirdilər. Təxminən X əsrdən başlayaraq müxtəlif dillərə tərcümələr başladı (1,222). Bütün bunlara baxmayaraq bu dövrdə tərcümə nəzəriyyəsinə o qədər də əhəmiyyət verilməmişdir. Min bir yüzüncü illərin əvvəllərində Avropa dəyişməyə başladı. Avropalılar asiyalılara, onların ənənələri və dillərinə maraq göstərməyə başladılar. XIV əsrdə baş verən inkişaf və dəyişikliklər intibahabla, o da orta əsrlərin sonunclanması ilə nəticələndi. Bundan sonrakı dövrdə tərcümə sənətinin inkişafı aşağıdakı kimi olmuşdur. Burada birinci olaraq Toledo (İspaniya) alimlərini qeyd etmək lazımdır. Toledo yeni eranın 700-cü illərində ən böyük tərcümə mərkəzinə çeivrilmişdi. Dominiciao Gundisolvi dilçillik məktəbinin əsasını qoydu, həmin məktəb sonrakı yüzilliklərdə çox sayda məşhur dilçlərin yetişməsinə səbəb oldu. Tərcüməçi yetişdirən müəllimlərin əksəriyyəti ərəb, ivrit, latın, yunan dillərini bilən yəhudilər idi. Həmin illərdə Aristotelin əsərlərinin ərəb versiyaları ərəbcədən latın dilinə tərcümə olundu (1,75). Toledo dil məktəbi bir neşə qərinə fəaliyyət göstərdi, sonralar isə 1250-ci ildə Avropada Şərq Araşdırmaları Mərkəzinə çevirildi (1,46). Qərbi saksonların kralı olmuş Böyük Alfred (849-899) öz krallığını müdafiə edərək ingilisləri danimarkalıların işğalından xilas etmişdir. O, zəka sahibi və motivasiyalı birisi idi, Avropada, xüsusilə İngiltərədə təhsil və mədəniyyəti yaymağa səy göstərmişdir. İngiltərədə müəllim tapa bilmədiyindən digər yerlərdən müəllim və alimlər gətizdirmiş, İmngiltərə üçün fadalı olan latın dilindəki kitabları ingilis tərcümə etdirmişdir (Encyclopedia Americano). O özünün yeni tərcümə texnikasını işləmişdir, lakin davamçıları onu münasib hesab etməmişlər. O, nəzmlə yazılmış mətni əvvəlcə nəsrlə tərcümə edər, sonra isə onu yenidən nəzmə çəkərdi (3, 18). Exo tərcümə onun adı ilə bağlıdır. Özünün tərcümə

prinsilərində Keşiş Ceromun yolu ilə getmiş, bəzən sözbəsöz, bəzən də anlamı anlamla tərcümə etmişdir (3,3). Alfrik (Aelfric -956-1010) nasir olmuş, rahib və rahibələrin təlimi üçün dərsliklər yazışdır. Əsas əsəri "Catholic Homilies" (y.e. 992) moizələrdən ibarətdir. Özünün tərcümə pinsiplərində sözbəsöz yox, anlamın anlamla tərcüməsini əsas götürmüşdür. Bəzi hallarda şərhlərdən istifadə etmişdir. Moses Maimonides (1135-1204) yəhudi mənşəli filosof, hüquqşünas və həkim idi, atası da elm adamı olmuş, oğlu onun nəzarəti altında təhsi almışdı. Tərcüməçi kimi tanınmasa da, belə hesab edirdi ki, hərfilik dolaşıq, şübəli tərcümələrə səbəb olur. (3,14). Jefri Çoser (Geofry Chaucer -1340-1400) məşhur yazıçı olmaqdan əlavə həm də tərcüməçi idi. Onun ən məşhur əsəri "Ketrerberi hekayələri"dir. İtaliyada diplomatik işdə olmuş, ingilis dilində qafiyə ilə şeir yazan ilk müəllif olduğu üçün ona ingilis poeziyasının atası da deyilir. Onun fikrincə tərcümə anlaşıqlı olmalıdır, kalka üsulundan geniş istifadə etmiş, idiomları ya hərfi tərcümə, ya da onların real mənalarını ifadə etməklə tərcümə etmişdir. Onun fikrincə, tərcümə etdikdə adın insana, dağa, çaya və sairəyə aid olduğu göstərilməlidir. Con Vikliff (1320-1384) ilahiyyatçı idi, dövrünün digər tərcüməçiləri kimi o da belə hesab edirdi ki, tərcümədə məxəz mətndəkindən sayca çox söz işlətmək orijinala sədaqətsizlikdir. Belə ki, "İncil"i tərcümə edərkən onlar çox sözlülükdən qaçırdılar (3, 58). Orta əsrlərdə "İncil" tərcüməsində iki bir-birinə zidd baxış var idi: katolik və protestant baxışı. Katoliklər belə hesab edirdilər ki, "İncil"in tərcüməsi çətindir və ümumiyyətlə onun tərcüməsindən əl çəkməyi, tərcümə edildiyi təqdirdə məxəz mətnə həddindən artıq sədaqətli olmağı məsləhət görürdülər. Vikliffin ("İncil"i) tərcüməsi haqqında deyilir ki, ən yaxşı tərcümə sözü yox, cümləni tərcümə etməkdir (1). Kolussio Salutati (1331-1406) tərcümələrdə əlavə və nələrinsə buraxılmasını məsləhət görür. Yunan alimi Manuel Krisoloras (1355-1415) Homerin "Odisseyasını" və Platonun "Respublika" əsərlərini latın dilinə tərcümə etmişdir. Tərcümələrində hədəf dilin danışıq üslubu və həfilik özünü göstərir. Osbern Bokenham (1393-1447) sözbəsöz tərcüməni rədd edərək cümlənin cümlə ilə, anlamın anlamla tərcüməsini məsləhət görür. İtalyan Leonardo Bruni (1369-1444) yunan klassiklərinidən Platon, Aristotel, Ksenofon və Demosfenesi italyan dilinə tərcümə etmişdir. Onun fikrincə, söz və məna bir-birinə qurban verilməməlidir, digər sözlə, dilin gözəlliyi və bəzəyi anlama, anlam da gözəllik və bəzəyə qurban verilməməlidir (Morton, 1,43). Onun fikrincə, tərcümə ancaq o zaman uğurlu ola bilər ki, mətn səliqə-sahmanla tərcümə edilsin, təcüməçinin kompitensiyasına gəldikdə isə Bruni tərcüməçinin hər iki dili mükəmməl bilməsini tələb edir, əlavə və qısaltmalara qarşı çıxır, təqlidi təqdir edir və belə hesab edir ki, mütərcim bir rəssam kimi hərəkət etməli, tərcümədə məxəz mətn müəllifinin surətini yaratmalıdır. Giannozo Manetti Bruninin

tərcümə haqqında bəzi fikirlərini bölüşmüş, mütərcimin hər iki dili mükəmməl bilməsini, həm də məxəz dilə məxsus bərbəzəyi əks etdirməyi vacib saymışdır.

Beləliklə məlum olur ki, 13-15-ci əsrlərdə təcümələr sayca çoxalmış, keyfiyyətcə müəyyən qədər yaxşılaşmışdır, anlamın anlamla tərcüməsi sözbəsöz tərcüməni üstələmişdir, məxəz mətnə sədaqət yüksək dəyərləndirilmişdir, "mənim tərcüməm" demək eyni mətnin ondan əvvəl də tərcümə olunduğuna bir işarə idi, mütərcimlər müəyyən bir şeyi nəzəri cəhətdən izah etməmişlər, hər bir mütərcim öztərcüməsini məxəz mətnə sadiq olduğunu bəyan etmiş, exo-tərcümə bu dövrdə yaranmış, ekvivalentsiz leksika "kitabda", yəni "məxəz mətndə deyildiyi kimi" anlamı yaranmış, məxəz mətnin ritmi, qafiyəsinin transformasiyası problemi, boşluqların doldurulması, şərh, hərfilik kimi məfhumlar tərcümə sahəsində əsas anlayışlar olmuşdur.

Sonrakı XVI-XVII əsrlər intibah dövrüdür, bu dövrdə yaşayış standartları, klassik irsə münasibət dəyişmişdir. Platonun əsərləri və "Əhdi-cədid" yenidən tərcümə olunmağa başlandı. Bu dövrün ən məşhur tərcüməçiləri Martin Lüter (1483-1546) alman mənşəli ilahiyyat alimi və dilçisidir, "İncil"i alman dilinə tərcümə etmişdir. Onun fikrincə "İncil"i başa düşmək üçün o, xalq dilinə tərcümə olunmalı, aydın və anlaşıqlı olmalıdır. Anaşıqlılıq tərcümənin həm meyarı, həm də məqsədi olmalıdır. Onun tərcümə barədə fikirlərini belə ümumiləşdirmək olar: söz sırasının dəyişməsi, modal köməkçi sözlərdən istifadə edilməsi, lazım gəldikdə bağlayıcı vasitələrin əlavə olunması, alman dilində müvafuiq ekvivalenti olmayan terminlərdən vaz keçilməsi, bir sözün lazım gəldikdə bir fraza ilə, metaforaların qeyri-metaforalarla və əksinə əvəzlənməsi, ara cümlələrin əlavə edilməsi. Martin Lüter birinci tərcüməçidir ki, tərcümənin məxəz (orijinal) mətndən olunması tələbini irəli sürür (3,18). Vilyam Tindeyl (William Tyndale,1494-1536) Martin Lütüerin prinsiplərini davam etdirmiş, "Əhdi-cədidi" ingilis diluinə çevirmişdir, dində islahatçı olmuş, 1513-cü ildə həbs edilərək 1536-cı ilə boöuldularaq öldürülmüş və meyidi yandırılmışdır. Müasirlərindən fərqli olaraq o, bütün dillərdən bir-birinə tərcüməni mümkün sayırdı. Alfonso De Madrigal sözün sözlə yox, anlamın anlamla tərcüməsini məqbul sayırdı. Onun fikrincə, iki tərcümə növü var: interpretasiya və ekspozisiya, buların hər ikisində artırma və şərhə yol verilir. Nikolas Udal (1505-1556) Erasmusun "Əhdi-cədid"indən müəyyən parçaları ingilis dilinə tərcümə etmişdir. Onun fikrincə tərcümə zamanı hədəf dildə ekvivalenti olmayan sözləri neytrallaşdırmaq, ingilis dilinin müəyyən arxaik ləşmiş sözlərini canlandırıb istifadəyə buraxmaq lazımdır. Tərcüməyə dəmir qanunlar tətbiq edilməməlidir, tərcümənin dili sadə, lakonik olmalı, mətn boş, mənasız ifadələrlə doldurulmamalıdır (1,120). Etien Dolet (Etienne

Dolet (1509-1546) bir çox klassik müəllifləri, o cümlədən "Əhdi-cədidi"i fransızcaya çevirmişdir. Ateizmdə günahlandırılaraq özü və əsərləri yandırılmışdır. Tərcümə nəzəriyyəsi və texnikasına həsr olunmuş öçerkləri 1540 - cı ildə nəşr olunmuşdur. Tərcümə haqqında əsas fikirləri bunlardır: Mətni tərcüemə etməzdən əvvəl mütərcim əsərin məzmunu ilə tanış olmalı və müəllifin niyyətini dərk etməlidir, məxıəz və hədəf dilləri dərindən bilməlidir, sözbəsöz tərcümədən vaz keçməlidir, adi danışıq dilndən istifadə etməli, alınma sözlər işlətməməlidir, məxəz mətnin effekrini, tonunu tərcümədə yaratmalıdır. Tərcümənin dili müəllifin dili kimi səlis və axıcı olmalıdır (1, 182). Şair Francois De Malherbenin (1555-1628) tərcüə haqqında da fikirləri bunlardır: hədəf mətn aydın olmalı, oxucunun zövqünü öxşamalıdır, hərfi tərcümədən vaz keçməli, orijinalın ruhu hədəf mətndə əksini tapmalıdır (3, 62-63). Lorens Hamfrinin (Lawrence Humphry) fikrincə həm bilikli, həm də adi adamların müəyyən bir tərcüməni qəbul etməsi üçün mütərcim məxəz mətndəki vəzn, onun dili, predmetini bilməli, mətnin leksik tərkibini nəzərə almalı, müəllifə sadiq olmalı, onun üslubu və digər xüsusiyyətlərini uyğun şəkildə əks etdirməyi bacarmalıdır. (Morton, 1984:14). Vilyam Fulke (XVI əsr) hesab edir ki, qədim yəhudi dilindən tərcümə etdikdə məxəz və hədəf mətnlərdəki sözlərin bərabərliyinə yox, məna və anlamın düzgün tərcüməsinə, kontekstdə işlənməsinə fikir vermək lazımdır, hədəf dilin mətni anlaşıqlı və başadüşülən olmalıdır. Onun fikrincə, kilsə atalarının tərcümələrində işlənmiş sözlər tərcüməçilər üçün etalon deyil, sadə adamların danışıq dilinə tərcümə etmək lazımdır, sadə insanların ingilis dili tərcümədə etalon kimi götürülməlidir, yazarkən Aristotelin tövsiyyələrini əsas götürərək sadə insanların dilində yazmaq, dinamik ekvivalentlərdən istifadə etmək lazımdır. Corc Çapman (George Chapman, 1559-1634) Homerin "İlliada" və "Odisseya"sını tərcümə etmişdir. İngiltərədə intibah dövründə tərcümənin nəzəri məsələlərinə o qədər də əhəmiyyət verilmirdi. Çapmanın fikrincə, yaxşı tərcüməçi məxəz mətni dərindən öyrənməli, məxəz mətn müəllifinin cümlələri və danışıq formalarına diqqət yetirməli, onların hədəf mətndə müvafiq şəkildə transformasiya olunmasına çalışmalıdır, bu da sərbəst tərcümədən daha çox hərfiliyə aparıb çıxarırdı. Sonralar isə fikrini dəyişərək bədii əsərin tərcüməsində sözbəsöz tərcüməyə qarçı çıxırdı. O, etiraf edirdi ki, hər dilin özünəməxsus bir xüsusiyyəti var, məxəz və hədəf dillərdə hər bir sözün qarşılığını tapmaq mümkün deyil. Bir çox tnəzəriyyəçilər kimi o diqqəti sözün forması üzərində deyil, mənası üzərində cəmləməyi lazım bilirdi. Onun tərcümə haqqında fikirlərini aşağıdakı kimi ümumiləşdirmək olar: həddindən artıq ciddi, dəqiq və həddindən artıq sərbəst tərcümədən vaz keçmək, hərfiliyə yol verməmək, hədəf mətndə məxəz mətnin üslubuna uyğun bir üslub seçmək. Denhəm (Denham) XVII əsr tərcüməşünaslığında

əsas fiqurlardan biri və sərbəst tərcümənin tərəfdarı olmuşdur. Onun fikrincə, məxəz və hədəf dillərin qrammatik və semantik strukturlarındakı uyğunsuzluq tərcümə zamanı qaçılmaz itgilərə yol açır. O, tərəddüd etmədən hədəf mətndəki semantik boşluğu doldurmaq, ona müəyyən semantik inqredient, ruh əlavə etmək, məxəz mətnin mahiyyətini dərk etmək, poeziyanı tərcümə edərkən "poeziyadan poeziya yaratmaq", dildən dilə yox, poeziyanı poeziyaya transformasiya etməyi məsləhət görür. Onun fikrincə, poeziya elə incə bir ruhdur ("spirit") ki, onu bir dildən ayrı birisinə çevirdikdə buxarlana bilər. Tərcümə olunacaq müəllifi dərindən öyrənmək lazımdır (3,56-157). Kouli (Cowley, 1618-1667) və Denham belə bir fikri bölüşürlər ki, poeziyanı bir dildən digərinə tərcümə edərkən məxəz və hədəf dilləri bir-birindən fərqləndirən semantik boşluqlar tərcümə prosesində əvvəldə qeyd etdiyimiz kimi, buxarlanmaya səbəb ola bilər, yaranmış bu boşluqları doldurmaq üçün "həmin yerlərə "yeni gözəlliklər" əlavə edilməlidir ki, həmin itkilərin əvəzi ödənilsin. Kouli israr edirdi ki, mütərcim hədəf mətnə əlavə etmək, yaxud oradan nəyisə çıxarmaqda sərbəst olmalıdır. Onun fikrincə, dillər semantik və sintaktik baxımından fərqli səciyyə daşıyır, ancaq mütərcim hədəf mətnə semantik və sintaktik baxımdan qəribə səslənən heç bir element daxil etməməlidir (1, 151-152). XVII əsrdə tərcüməyə sərbəstlik xas olmuşdur. Con Drayden (John Dryden, 1631-1700) şair, dramaturq və tənqidçi, eyni zamanda tərcümə ilə məşğul olmuşdur. Tərcümə haqqında fikirləri aşağıdakılardır: Mütərcim tərcümə etdiyi müəllifin dilini başa düşməli, müəllifin fikirləri ilə tanış olmalı, müəllifə xas olan cəhətləri bilməli, öz dilini və üslubunu müəllifinkinə uyğunlaşdırmalıdır, müəllifin dili ilə mütərcimin dili uyğun və bir-birinə oxşar olarsa, onda tərcümənin dili hamar və ahəngdar olar, hər ikisinin fikirləri oxşar deyilsə, onda tərcüməyə yeni bir don geyindirilməlidir. Draydenə görə, poeziya tərcümçisi özü şair olmalıdır, bununla belə, o, hesab edirdi ki, ingilis şeir vəznləri tərcümədə çətinliklə öz əksini tapır. Üç tərcümə növünü – hərfi, sərbəst və təqlidi göstərir. (1, 17-18).

XVIII əsr tərcümə sahəsində iki başlıca hadisə ilə əlamətdardır: 1750-ci illərdə tərcümədə hərfiliklə sərbəstlik arasında bir bərabərlik, tarazlığın yaranması və texniki tərcümənin həcminin həddindən çox artması. Bundan əlavə, hərfi tərcümə sərvəst tərcüməyə, dəqiqlik təbiiliyə, gözəllik məxəz mətnə sadiqyə qarşı qoyulur. Həzəriyyəçilərin bəziləri müəllif, ikinci bir qrup oxucu mövqeyindən çıxış edir, üçüncü bir qrup hədəf dili, dördüncü bir qrup isə məxəz dilin məziyyətlərini əsas götürməyi təlqin edirdilər. Bu ənənə XIX əsrdə davam etdirilir (3, 1979). Bu əsrdə tərcümədə səliqə, üslubda sərbəstlik tələb olunur. Tərcümə mətninin üslununun dəyərləndirmə meyarları yenidən nəzərdən keçirilir və yeniləri müəyyənləşdirilir. Bu

dövrdə çox sayda tərcümələr ərsəyə gəlsə də, tərcüməni dəyərləndirən nəzəri fikirlər sayca o qədər də çox olmamışdır.

Bu dövrün tanınmış şəxslərindən biri şair Aleksandr Poup (Alexander Pope) 1688-1744) olmuşdur. O erkən yaşlarından yunan, latın, italyan və fransız dillərini öyrənmiş və dillərdə yazımış poeziya ilə maraqlanmış, Homerin "İlliada", sonra isə onun "Odisseya"sını tərcümə etmişdir. Bir tərcümə prinsipi kimi tərcümənin dilinin sadə, səliqəli və düzgün olmasını tövsiyyə edirdi. Onun fikrincə, məxəz mətndəki anlam, məzmun müəllifinkidir, mütərcimin məsuliyyəti müəllifin "deyim və poetik ifadə tərzinin qeydinə qalmaqdır" (3, 41). Tərcümə nəzəriyyəsi ilə bağlı Poupun mövqeyinin onun öz sözləri ilə belə ifadə etmək olar: "Mütərcimin vəzifəsi və məsuliyyəti müəllifin üslubunu bütün variasiyalarında, müxtəlif modulyasiyalarda və həcmdə tərcüməyə köçürməkdir; mətnin daha dinamik , yaxud təsviri hissələrindəki hərarət və yüksək ton, qeyri-emosional, yaxud mükalimə tonunu, rəvanlıq və təntənə, personaj nitqindəki tamlıq və ifadə aydınlığını, cümlələrdəki yığcamlıq və cazibə, sözlərdəki ən kiçik incəlik və çaları saxlamaqdır; mütərcim heç nəyi əlavə edə, antik dövrə məxus adət-ənəni müasirləşdirə, yaxud nəyisə kəsib at a bilməz" (1, 171). Aleksandr Freyzer Taytler (Alexander Frazer Tytler) özünün "Essays on the Principles of Translation" (Tərcümənin prinsiplərinə dair oçerklər) ilə tanınmışdır. Onun bu oçerkləri tərcümə nəzəriyyəsi tarixində birinci əsərdir ki, tərcümənin texnikası və nəzəriyyəsi geniş şəkildə izah olunur. Taytlerin fikrincə, o tərcümə yaxşı sayıla bilər ki, orada həm orijinala sadiqlik, onun oxucu kütləsi tərəfindən qəbul ediməsi təmin olunur. Başqa sözlə, məxəz mətnə sadiqlik heç də hər iki dildə söz və ifadələrin ekvivalentliyinin yox, həm də məxəz və hədəf mətnlərdə dillərin funsional bərabərliyini təmin edilməsidir. Taytlerin təbirincə, o tərcümə yaxşı sayıla bilər ki, məxəz mətnin bütün məziyyətləri hədəf mətnə transfer olunsun, aydın başa düşülsün, məxəz mətn oxucusunun həmin mətni dərk etdiyi kimi hədəf mətn oxucusu da onu o cür qəbul etsin (2, 180). Hədəf mətnin uğurlu hesab edilməsi üçün o, gərək məxəz mətdəki ideyaları hədəf mətn oxucusuna olduğu kimi çatdırsın, məxəz mətndəki eyni üslubu əks etdirsin, tərcümə məxəz mətn kimi asanlıqla oxunsun və dərk edilsin. Məxəz mətnin tərcüməsinin uğurlu hesab edilməsi üçün o, orijinaldakı ideyaları dəqiqliklə əks etdirməli, eyni üslubda olmalı, orijinaldakı kimi ahəngdar səslənməlidir. Taytlerə görə mütərcim nəinki hər iki dili mükəmməl bilməli, həm də məxəz mətn müəllifinin üslubuna nüfuz etməli, mətnin hansı sinfə mənsubolduğunu da ayırd edə bilməlidir. Mütərcimə hədəf mətnə nəyin əlavə edilməsində, nəyin atılmasında sərbəstlik verilməlidir, bu şərtlə ki, həmin ideyalar orijinalda əks olunmuş ideyalarla ziddiyyət təşkil etməsin. Taytler lirik və digərləri olmaqla iki poeziya növündən danışır, lirik şeri nəsrlə tərcüə etməyi

cəfəngiyyat sayır, onun fikrincə, digər poeziya növləri nəsrlə tərcümə oluna bilər, lakin olunmaması daha yaxşıdır. O belə hesab edir ki, nəzmin ən yaxşı xüsusiyyəti onun şirinliyi və melodikliyindədir və o, belə qərara gəlir ki, şeri ancaq şair tərcümə etməlidir. Taytler idiom və idiomatik birləşmələrin tərcüməsinin çətinliyinə də toxunur (2, 180). Con Kebel 1812- ci ildə nəşr olunmuş "On translation from dead languages" (Ölü dillərdən tərcümə) əsərinin müəllifidir. Onun fikrincə, tərcümə dilləri öyrənməyə vaxtları olmayan insanların ehtiyaclarını ödəmək üçün edilən bir hərəkətdir, aktdır. Mədəniyyətlərin yayılmasında, əxlaq, mənəviyyat və etik qaydaların inkişafı və formalaşmasında tərcüməçilərin böyük rol oynadığını göstərir. O belə hesab edirdi ki, yaxşı tərcümə orijinala sadiq olmalı, ona əlavələr edilməməli, orijinal dəqiq və tam şəkildə əks olunmalı, mütərcim özündən tərcüməyə əlavə bəzək-düzək verməməlidir.

XIX əsrdə yeni tərcümə siyasəti intişar tapdı. Əsas məsələ bundan ibatət idi ki, mütərcim hədəf mətnin mədəniyyətinə, əxlaq və mənəviyyat normalarına yad olan parçalardan başqa məxəz mətndən heç nəyi kəsib atmamalı idi, izahedici qeydlər yüksək qiymətləndirilirdi. Bu əsrin tərcümələrində başlıca məqamlarından biri bu idi ki, tərcümələr nəticəsində əcnəbi dillərdən ingilis dilinə sözlər axını başladı, mütərcimlər tərcümələrində əcnəbi sözlərə geniş yer verməyə başladılar. Riçard Burtonun "Min bir gecə nağılları"nın (The Arabian Nights, 1888) tərcüməsi ərəb dilindən transliterasiya ilə dolu idi. Iyirminci əsr texnologiya əsri idi. Texnologiya insan həyatını yüngülləşdirdi. Əvvəllər sözbəsöz tərcümə kimi tanınan bədii tərcümə indi orijinalın yenidən qələmə alınması, yenidən yaradılması anlamında işlənməyə başladı. Yüksək keyfiyyətli tərcümələr yarandı, dünya ədəbiyyatının şah əsərləri müxtəlif dillərə tərcümə olundu. Həm müxtəlif, həm də bir-birinə bənzər nəzəriyyələr meydana gəldi. E. Naydaənin "Towards a science of translating" (1964), Caffordun "A linguistic theory of translation" (1965), Browerin "On translation" (1966), Machanın "Techniques of translation" (1985) əsərləri işıq üzü gördü. Eyni zamanda Xomskinin dilçilikdə etdiyi inqilab (alt və üst struktur məsələsi) da tərcüməyə yeni baxışın yaranmasına səbəb oldu. Antik dövrdən XX əsrə qədər öyrənilən mənbələr göstərdi ki, bir çox şeylər təkrarlardan ibarət olub. Aşağıdakı suallara cavab axtarıldı: Tərcümə nə üçün edilir? Yaxşı tərcümə nədir? Yaxşı tərcümənin xüsusiyyətləri nədir? Mətni tərcümə etməyin ən yaxşı üsulu hansıdır? Bu suallara cavab verənlərdən biri 1918 –ci ilə çapdan çıxmış "The art of translation" əsərinin müəllifi Karl Şolz idi. Onun fikrincə, tərcümə humanitar məqsəd güdür, yəni müxtəlif dilli insanlar arasında intellektual əlaqələr yaradır, kiminsə kimin biliyindən bəhrələnməsinə, sənət və həyata dünyabaxışını qiymətləndirməyə imkan verir. Tərcüməçidə bədii zövqün olmasını vacib sayır, lakin tərcümədəki bəiilik orijinaldakından artıq

olmamalıdır. Orijinalın ruhunu əks etdirməsə də, idiomların bəzən hərfi tərcüməsini, bəzən danışıq dilinin ifadələri, yaxud məxəz dilin ifadələrinə uyğun bir variantla transformasyasını məqbul sayır. Ondan sonra Con Postgeit (John Postgate) tərcümə, versiya və parafrazı fərqləndirir, orijinala sədaqəti ən yüksək kriteriya sayır, müəllifi düzgün təqdim etməyi tapşırır. Onun fikrincə tərcümə anlaşıqlı olmalı, oxucunun tələbi nəzərə alınmalı, müəllifə xas olan cəhətlər nəzərə alınmalıdır. Bundan əlavə, o reseptiv və ataptiv tərcümədən dabışır, bu təxminən semantik və kommunikativ tərcümədir, birincisi müəllif yönümlü, ikincisi isə oxucu yönümlüdür. Həmin əsrin nəzəriyyəçilərindən biri də Harli-Qranvil-Beykerdir (Harley Granville-Baker - 1924). O, "On translating plays" əsəri ilə tərcümə tarixində qalmışdır. Dram əsərlərinin tərcüməsində hərfi tərcümədən vaz keçməyi, söz və frazalardakı emotiv dəyərləri nəzərə almağı tapşırır. Onun fikrincə, denotativ məna heç də həmişə expressiv deyil, mütərcim həmin sözün səthi mənsına arxalanıb başdan sovduluğa yol verməməlidir. Eyni əsrin nəzəriyyəçilərindən Bellok (Hilaire Belloc) "On translation" əsərinin müəllifidir, o, tərcüməni köməkçi bir sahə hesab edir, onun fikrincə, tərcümə əsasən praqmatik mətnlərin tərcüməsi ilə məşğul olmalıdır, onun məqsədi faktları bir dildən digərinə transformasiya etməkdir, tərcümənin dili doğma dil kimi səslənməlidir, orijinalın ruhunu əks etdirməlidir, mütərcim yaradıcı ruha malik olmalıdır. Onun fikrincə, tərcümə ilə orijinalın həcm bərabərliyini saxlamaq mümkün deyil, soneti sonetlə, fəsli fəsllə tərcümə etməyin nəticəsi yaxşı olmur, idiomu idiomla, frazanı fraza ilə, anlamı anlamla vermək lazımdır, tərcümədə əlavə etmək yolverilməzdir. Məxəz mətnin effekti hədəf mətndə əks olunmalı, poeziyanı poeziya ilə tərcümə etmək heç də vacib deyil, tərcümə edilməzləri eləcə də saxlamaq lazımdır. Gram Ritçinin (Graeme Ritchie) fikrincə, heç bir nəzəriyyə tərcümənin bütün sahələrini əhatə edə bilməz. O elə hesab edir ki, mütərcim məxəz mətndəki hər bir söz və frazanın dəqiq mənasını bilməli, hər bir söz və ifadə üçün hədəf dildə ən yaxın ekvivalenti seçməlidir. Tərcümə və orijinalın üslubları arasında müəyyən bir uyğunluq olmalıdır. Herbert Qrimsdiç (Herbert Grimsditch) "Pitfalls in Everyday French" əsərinin müəllifidir, onun fikrincə mütərcim məxəz və hədəf dillərdəki sözlərin grafik oxşarlığına uymamalıdır. O, göstərir ki, fransız dilindəki "intime" (konfidensal) sözü ilə ingilis dilindəki "intimate" (sevgi, məhəbbət, yaxınlıq və s.) sözünün ilə heç bir əlaqəsi yoxdur. O öz fikrini bir çox misallarla əsaslandırır. Bu, əslində tərcüməçinin yalançı dostları kimi başa düşülməlidir. Beyts (Bates) özünün "Intertraffic: studies in translation" əsəri ilə məşhurdur. O, tərcüməni yüklərin bir yerdən digərinə daşınmasına bənzədir. Onun fikrincə, dünya tərcüməsiz hərəkərsiz olar, orada bir durğunluq hökm sürər. İnsan hissləri instinktiv və dəyişməz ola bilər, ancaq dünya tərcüməsiz yaşaya bilməz. O,

tərcüməni beynəlxalq hadisə sayır, tərcümənin məqsədi yer üzündə dostluğu genişləndirmək və insanlar üçün daha yaxşı bir dünya yaratmaqdır. Keçən əsrin nəzəriyyəçilərindən biri də Bayard Quincy Morqan (Bayard Quincy Morgan) özünün "On translating feminine rhyme" (Qız qafiyyəsinin tərcüməsi haqqında) əsəri ilə yadda qalmışdır. Onun fikrincə, hər bir dildə poetik forma onun dil materialı ilə müəyyənləşir. İngilis dilindəki monosillabizm və fransız dilindəki disillabizm poetik tərcümədə çətinlik yaradır. Eyni əsrin nümayəndəsi Custus Rozenberqin fikrincə, tərcümənin müasir konsepsiyası belədir ki, gərək forma, dil və məzmun qarışdırılıb ələkdən keçirilsin və oxucuya təqdim edilsin. O belə hesab edir ki, mütərcim gərək bilikli və, zəka sahibi olsun. Poeziya tərcüməsi üçün mütərcim düşünməlidir ki, şeirin oxucuya təsiri necə olacaq. Bunun üçün o bilməlidir ki, şair öz dövrünün hadisələrinə necə münasibət bəsləmiş, media ilə necə manipulyasiya etmiş, dildən necə istifadə etmişdir, o, forma tiplərini bir-birindən fərqləndirməyi bacarmalı, şair kimi yaradıcı, estet filosof, memar olmalıdır. R.A.Noks (Knox) "On English translation" əsərinin müəllifi kimi tanınır. O, iki fundamental məsələni qaldırır: hərfi və bədii tərcümə, bunların hansı birincidir? Mütərcim öz üslubunu müəllifin üslubuna uyğunlaşdırmalı, yoxsa öz üslubunda yazmalıdır? Mütərcim tərcümə zamanı üslub seçməkdə sərbəstdirmi? Noks bu suallara aşağıdakı kimi cavab verir. Əgər tərcümə tələbə üçün edilirsə, hərfi tərcüməyə üstünlük verilməlidir, əks təqdirdə bədii tərcümə daha münasibdir. Oxucular orijinalı oxumuş olsaydılar, tərcümədən daha çox zövq alardılar. Leonard Foster tərcüməni orijinalın məzmununun transferi sayır, onun fikrincə, yaxşı tərcümə odur ki, ikinci bir dildə orijinalın vəzifəsini yerinə yetirsin. Keçən əsrin ən böyük nəzəriyyəçisui Yucin Naydadır (Eugene Nida). Stokholmda "İncil" Tərcümələri İnsititutunun məsləhətçisidir. Tərcümə nəzəriyyəsiə bağlı "Principles of translation as exemplified by Bible translation" əsəri və bir sıra məqalələrin müəllifidir. Naydaya görə tərcümənin yaxşılığı onun hansı məqsədlə eduildiyindən asılıdır. Buna baxmayaraq, o yazır ki, hədəf mətn məxəz mətnin mümkün olan ən yaxın ekvivalenti olmalıdır. Bu ekvivalentlik təkcə formaca yox, həm də məzmun və üslubi baxımdan ekvivalent olmalıdır. Tərcümə heç vaxt xarici ədəbiyyata oxşamamalıdır. Ancaq o, hesab edir ki, bir sıra amillərə görə ekvivalentlik mümkün deyil, mütərcim əsas diqqəti məzmunun transformasiyasına verməlidir, lakin üslubun transformasiyası heç də mümkün olan deyil, çünki müxtəlif dillər müxtəlif məna-simvol əlaqələrinə malikdir, simvollar və onların referentləri bir-birləri ilə ixtiyari bir əlaqədədir və ola bilsin ki, dilin birində lazım olan eyni məna assosiasiyaları və simvollar o biri dildə olmasın. Dünya təcrübəsi müxtəlif şəkildə kateqoriyalaşdırılıb və müxtəlif dillərdə müxtəlif simvollar və müxtəlif proporsiyalarla öz əksini tapıb. Bundan sonra o belə bir fikir irəli sürür ki,

tərcümə prosesində hansısa bir məlumatın məxəz mətnə əlavə edilməsi, nəyinsə kəsilib atılması, nədənsə vaz keçilməsi labüddür. Y. Nayda tərcümədə şərhi vacib sayır, şərh əlavə məlumatı təmin edir və orijinaldakı uyğunsuzluğu aydınlaşdırır. Bunlardan sonra tərcümə sənətinin və nəzəriyyəsinin inkişafında Romam Yakobson, İrji Levi, Katford, Vinter Verner, Rafaeel Burton, Peter Neyumark kimi tərcümə nəzəriyyəçilərinin də adlarını çəkmək olar. Antik dövrdən başlayaraq dövrümüzə qədər tərcümə fikrini araşdırmaqla belə bir müşahidə apardıq və şahid olduq ki, xarici tərcümə nəzəriyyələrinin heç birində adekvat və kolorit anlayışlarına rast gəldik. Keçən əsrin altımışıncı illəri tərcümənin qızıl dövrü adlanır. Təkcə elə keçmiş sovetlər ölkəsində xarici dilləri bir yana qoysaq belə, rus dilindən müttəfiq respublika xalqlarının duillərinə və həmin dillərdən rus dilinə minlərlə tərcümələr edilmişdir. Məhz dediklərimizin nəticəsidir ki, А.В.Федоров "Основы общей теории перевода" əsərində "Tərcümə oluna bilmə probleminin dəqiqləşdirilməsi və tam dəyərli (adekvat) tərcümə" və "İctimai həyatın və maddi-məişətə məxsus milli-spesifik realiləri bildirən sözlərin tərcümədə verilməsi", "Bədii ədəbiyyatın tərcüməsində milli rəngarəngliyin saxlanılması" (4) kimi bölmələr öz əksini tapmışdır. Məhz bu əsərdə həm adekvatlıq, həm də milli kolritin tərcümədə əksi bir problem kimi araşdırılır.

Adekvatlıq nədir? Azərbaycan, rus və ingilis dillərindəki lüğətlərdə bu söz üçün təxminən eyni mənaları tapırıq: adekvat, tam uyğun, eyni, bərabər; вполне соответствую, совподающий; equal in magnitude or equivalent. Məlumdur ki, hər bir yazılı və ya şifahi məlumatın, eynilə bədii ədəbiyyatın canını ondakı informasiya təşkil edir. Bu məsələyə tərcümə baxımından yanaşdıqda da məlumdur ki, məxəz mətndəki faktual, yaxud konseptual (bədii) informasiya hədəf dildə də məzmunca eyni, bərabər çəkiyə malik olmalıdır. Praqmatik tərcümədə buna nail olunursa da, müxtəlif səbəblərə görə bu mümkün deyil. Kolorit anlayışı da məhz bu dövrdə bədii tərcümədə aktuallıq kəsb etmişdir. Bu sözün azərbaycan, rus və ingilis dillərində mənası "rənglərin uyğunluğu" (rəssamlıqda), "səciyyəvi xüsusiyyət" (məcazi mənada); соотношение красок в картине по тону, насыщенности цвета; color, colouring kimi verilmişdir, ingilis dilindən rus dilinə "yerli kolorit" местный колорит kimi verilmişdir. Bundan əlavə, colour, colouring əvəzinə ingilis dilində background ("fon", "zəmin" mənasında) işlədilir, məsələn, national, local, historical background və sair kimi terminlər də işlənir və bunlar tərcüməyə də şamil olunur.

Beləliklə, deyilənlərdən məlum olur ki, tərcümədə adekvatlıq və kolorit anlayışları demək olar ki, keçən əsrdən başlayaraq işlənməyə başlanmışdır, bu da çoxmillətli sovetlər ölkəsində mülli dillərdən rus dilinə və əksinə tərcümələrin artması ilə bağlı olmuşdur. Həmin fonda az da olsa

xarici dillərdən rus və sovetlər ölkəsindəki digər millətlərin və xalqların dillərinə tərcümə edilərkən adekvatlıq və milli, yerli, tarixi və sair kimi koloritlərin tərcümədə təmin edilməsi problemi nəzəriyyəçilərin qarşısında bir vəzifə kimi qoyulmağa başlanmışdı ki, bu məsələ ilk növbədə rus, sonra isə digər tərcümə nəzəriyyəşilərini kolorit və adekvarlıq məsələsini tədqiq etməyə sövq etdi. C.Bayron və digər ingilis-amerikan ədiblərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi ilə bağlı milli kolorit məsələsi aktuallaşdı və ön plana keçdi. Bu mənada kolorit adekvatlığı fonunda tarixi koloritin tərcümədə adekvatlığının təmin edilməsi bizim tədqiqatda da özünə yer aldı.

Ədəbiyyat

1. Academic Encyclopedia Americano, 1987.
2. Bayramov Q. Tərcümə sənəti, Bakı, 2008, 250 s.
3. Encyclopedia Britannica, 1970, 62-63.
4. Федоров А.В. Основы общей теории перевода. М.,1983, 300с.
5. Gentzler, Edwin. Contemporary Translation Studies. London and New York, 1993, 224 pp.
6. Robert. E Lerner, Standish Meacham, Edward McNall Burns, Western Civilizations, Eleventh Edition, NewYork, 1988, p.40-42, 1098 pp.)
7. Routledge Encyclopedia of Translation Studies, edited by Mona Baker, London and New York, 1998, 654 pp.
8. Translation, History and Culture, edited by Andre Lefevere, London and New York, 1992, 182 pp.
9. Translation, History and Culture, edited by Susan Bassnet and Andre Lefevere, London and New York, 1990, 133 pp.

С.Агаева

Проблемы адекватности и колорита в переводе

Xülasə

Статья посвящена проблемам адекватности и колорита при переводе. С этой целью были прослежены история развития перевода до конца XX века. Автор пришел к выводу, что несмотря на проблемы переводы в разное время, конкретные идеи о проблемах сохранения адекватности и колорита были отмечены во второй половине XX века. И это связано с увеличением переводов с русского языка на национальные языки в многонациональной советской стране. И на этом фоне самая главная задача, стоявшая перед теоретиками – это передача и сохранение при переводе адекватности, национального, местного, исторического колоритов. А это вначале русских, а далее зарубежных

теоретиков побудило к исследованию проблем адекватности и колорита. В произведениях Дж.Байрона и других англо-американских прозаиков проблемы схранения национального колорита при переводе на азербайджанский язык стали актуальной темой. В связи с этим на фоне колоритной адекватности, обеспечение адекватности при переводе исторического колорита и стало предметом данного исследования.

S.Agayeva

The problem of adequacy and coloration in the translation

Summary

The article has been devoted to the issue of adequacy and colouring (realia) in translation. For this puepose the development of the thoory of translation has been trtaced beginning form antiquity tuill the end of the 20th century. And it has been concluded that there were statements about the essence and criteria of translation in the past, nevertheless, theories on translation, particularly the problem of adequacy and colouring (realia) appeared and consolidated in the second half of the 20th century. And this is due to the increase in translations from the Russian language into national languages in a multinational Soviet country. Against this background, the most important task facing theoreticians is the transfer and preservation in the translation of adequacy, national, local, historical color. And this at first Russians, and then foreign theorists prompted the study of problems of adequacy and color. In the works of J. Bairon and other Anglo-American prose writers, the problems of preserving national color when translating into Azerbaijani became an urgent topic. In this connection, against the backdrop of colorful adequacy, the provision of adequacy in the translation of historical color and was the subject of this study.

Rəyçi: **Qılıncxan Bayramov**
filologiya elmləri doktoru, professor

ƏDƏBİYYATŞÜNASLIQ

MAHİRƏ QULİYEVA
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri,
filologiya üzrə elmlər doktoru
mahirahamid@mail.ru

VAQİF YARADICILIĞI AŞIQ ƏDƏBİYYATI İLƏ KLASSİK POEZİYANIN QOVŞAĞINDA

Açar sözlər: aşıq ədəbiyyatı, şifahi xalq ədəbiyyatı, klassik poeziya, realizm, dəyər.
Key words: ashyg literature, folk literature, classical poetry, realism, value
Ключевые слова: ашугская литература, литература, народная литература, классическая поэзия, реализм, ценность.

Ədəbiyyat tarixi əvvəla mətnlər tarixidir. Mətnin bizə verdiyi şey sənətkarın iç aləmidir. Bunu müasir elmin hüdudları içində psixoloji, fizioloji və xüsusilə psixopati baxımdan incələyib, sənətkarın ruh portretini vücuda gətirmədən bilgi, hiss, fikir, xəyal mələklərindəki qüdrətini müəyyən üsullarla ortaya qoymadan onu ədəbiyyat tarixi içinə oturda bilmərik. Bu tədqiq insan, dönəm problem üzərində olduğu üçün çox şümüllüdür. (8,14)

M.Füzuli irsinin tədqiqi ilə bağlı söylənilən bu fikir, əslində klassik irsin hər bir dönəminə şamil edilməlidir ki, bu mənəvi irs tarixin zəngin səhifələrində dəyərini tapa bilsin.

Qeyd etdiyimiz fikir Azərbaycan ədəbiyyat tarixində xüsusi yeri olan və Azərbaycan şeirində yeni bir dövrün, bugününün elmi müstəvisi baxımından erkən yeni dövr Azərbaycan ədəbiyyatının əsasını qoyan milli şairimiz M.P.Vaqif irsinə də şamil edilə bilər.

Vaqifə verilən dəyər. Vaqif yaradıcılığı bir çox şairlərimiz üçün nümunə olmuşdur. Təsadüfi deyil ki, Zakir və Şakir kimi şairlər, XIX əsrdə yetişən Qarabağ şairləri Məhəmməd bəy Cavanşir, Aşıq Pəri və başqaları Vaqifdən öyrənmiş, onun irsini qiymətləndirmişlər.

Şairə ən düzgün və dəqiq qiyməti sözün dəyərini bilən, sənət dünyasında püxtələşən, onun bütün incəliklərinə bələd olanlar verə bilər. O, ədəbiyyatın hər dönəmində istər müasirləri, istər sələfləri, istərsə də xələfləri tərəfindən öz layiqli dəyərini ala bilmişdir. Şairin müasiri Aşıq Əlinin ona xitabən yazdığı şeiri Vaqifin ədəbiyyat tarixindəki məqamını müəyyənləşdirir. (1, 574)

Bu əsrdə şairlərin xanısan,
Müdərrisə bərabərsən yəni sən,
Lütfün mədənisən, fəzlin kanısan
Eşidənlər sözün səminə gəlmiş.

Vaqifin müasirlərindən olan Hüseyn xan Müştaqın onun "Tüfəng" rədifli şeirini oxuduqdan sonra aşağıdakı şəkildə dəyər verməsi də şairin ayrı-ayrı şeirlərinin belə nəzər-diqqəti cəlb etməsinə sübutdur: (1,574)

Şeirinə əhsən ki, yetməz hiç bir əşar ona,
Hər kimin var isə həddi söyləsin göftar ona,
Kimsə ləb tərpətməsin ki gəlməz istifsar ona.

XVIII əsrin sonu və XIX əsrin əvvəllərində yaşamış Aşıq Valeh özünün "Cahannamə" əsərində Vaqifi klassik Şərq şairləri, ədəbiyyatın korifeyləri ilə birlikdə şeirinə gətirir, dünyanın bu şəxslərin simasında tamamlandığını qeyd edir, Vaqifi onların cərgəsində axtarır və təəssüf hissi ilə bivəfa cahanı sorğuya tutur, "o kamalda canın tapılmayacağı" kəlimələri ilə Vaqifin klassik dönəm şairləri sırasında yerini təsbitləşdirir: (1, 575)

Hafizü Nəvai, Füzuli, Cami,
Şeyx Sədi, Hilali, Urfi, Nizami,
Dünya səndə kəşf eyləyib təmami,
Firdovsitək nəzmi dürəfşan hanı?

Hanı Molla Pənah, bivəfa cahan,
Təxəllüsü Vaqif, nəzmi dürəfşan,
Indi eyləmisən xakilə yeksan,
Tapmaq olmaz, o kamalda can hanı.

Bu sətirlər Vaqif irsinin dərin məhəbbətlə sevildiyindən xəbər verir. Onu da qeyd edək ki, Aşıq Valehin bu şeiri "Əmrah" dastanının ustadnamələri sırasındandır. (5, 135)

Vaqif yaradıcılığının tədqiq tarixindən. Qeyd etdiyimiz kimi Vaqif yaradıcılığına maraq çox böyük olmuşdur. Onun irsi hələ şairin öz dövründə diqqəti cəlb etmiş, ilk dəfə olaraq Mirzə Yusif Nersesov Vaqifin əsərlərini toplayaraq 1856-cı ildə Teymurxanşurada "Vaqif və s. müasirin" adı altında çap etdirmiş, Adolf Berye M.F.Axundovun topladığı materiallara istinadən 1867-ci ildə Leypsiqdə çap etdirmiş, 1908-ci ildə isə şairin əsərləri "Tazə həyat" qəzetində Haşım bəy Vəzirov tərəfindən nəşr edilmiş, 1925-ci ildə isə onun şeirlərinin bir qismi Salman Mümtaz tərəfindən "Kommunist" qəzetində, 1937-ci ildə isə həmin şeirlər toplu halında işıq üzü görmüşdür.

Vaqifin elmi nəşri 1945-ci ildə AMEA-ın Nizami adına Dil və Ədəbiyyat institutu tərəfindən oxuculara çatdırılmışdır. (9,616)

Vaqif yaradıcılığı eyni zamanda S.Vurğun, M.İbrahimov, A.Dadaşzadənin ümumi redaksiyası ilə Bakı-1960-cı ildə AMEA nəşriyyatı xətti ilə çap olunmuş "Azərbaycan ədəbiyyatı tarixi", H.Araslının 1998-ci ildə Gənclik nəşriyyatı xətti ilə çap olunmuş Azərbaycan ədəbiyyatı: tarixi və problemləri toplusunda, Ə.Səfərli və X.Yusifli tərəfindən Bakı, Ozan-2008-ci ildə çap olunmuş Azərbaycan ədəbiyyatı tarixi və s. mötəbər kitablarda öz geniş təhlilini tapmışdır.

Vaqif şeirinin kitab şəklində nəşr olunmasında H.Vəzirovun, S.Mümtazın, H.Araslının, A.Dadaşzadənin xidmətləri böyükdür. Bu sahədə Mümtazın, Araslının, M.İbrahimovun, M.Quluzadənin, A.Dadaşzadənin, Ə.Səfərlinin, X.Yusiflinin, A.Cəmilin, N.Cəfərovun tədqiqat və oçerkləri də xüsusilə qeyd edilməlidir. N.Cəfərovun 2017-ci ildə "Renessans-A" nəşr evi xətti ilə elmin bugünkü bucağından çap olunmuş kitabını xüsusi qeyd etmək istərdik.

Qeyd etdiyimiz mənbələrdə M.P.Vaqif əsasən yeni bir dövrün-poeziyaya nikbin əhvali-ruhiyyə, həyati və dünyəvi gözəlliyin təsviri və bu gözəlliyə pərəstiş hisləri qatan realist şeirin banisi kimi qeyd edilir. (9, 609)H.Araslının sözləri ilə desək Vaqif öz ədəbi və siyasi fəaliyyəti ilə xalqla bağlı mütərəqqi şəxsiyyətlərdən biri olduğu kimi, Azərbaycan ədəbiyyatının yeni istiqamətdə inkişafına kömək etmiş qüdrətli bir sənətkardır.

Ə.Səfərli və X.Yusifliyə görə Vaqif yaradıcılığı ilə xalq şeirinin təsiri yazılı ədəbiyyatımızda üstünlük qazanır, aparıcı mövqeyə keçir. (6, 646)

XVIII əsr şeirinin hər iki səciyyəvi qolunu-klassik şeiri və aşıq tərzini üzvi şəkildə öz yaradıcılığında birləşdirən sənətkar M.P.Vaqifdir. Vaqif Azərbaycan poeziyasına yeni nəfəs, yeni üslub gətirmişdir. Vaqif şeirindəki hisslərin təbiiliyi, obrazların rəngarəngliyi, dil zənginliyi və forma axtarışları indi də öz əhəmiyyətini saxlamaqdadır. (2, 3)

N.Cəfərovun Vaqiflə bağlı fikri də maraqlıdır: "..... Xalq, xüsusilə aşıq poeziyasının yaradıcılıq texnologiyalarını, demək olar ki, zədələmədən bir küll halında yazılı ədəbiyyata gətirmiş, onu bir mahalın estetik zövqü miqyasından çıxarıb bütövlükdə Azərbaycan türklərinin klassik bədii təfəkkürü səviyyəsinə yüksəltmiş, milli ruhu təzələmişdir. Necə ki, Vaqif ruhən qidalandığı, pərvəriş tapdığı torpağın miqyasına sığmasa da, ... yaradıcılıq üçün həmişə zəruri olan yeniliyi, özünəməxsusluğu o yerdə aradı ki, milli bədii təfəkkür etnoqrafik yaddaşını (Vətəni) itirməsin. (19)

N.Cəfərovun bu fikrində Vaqif və onun yaradıcılığı xalqına, millətinə, türk xalqına, bağlı bir sənətkar kimi canlanır. Tədqiqatçının Vaqif yaradıcılığı ilə bağlı yüksək səviyyədə ümumiləşdirilmiş fikri Firidun bəy Köçərlinin çox əvvəllər söylədiyi fikirlə səsləşir. O, Vaqifi milli şair adlandıraraq yazır: Onun şeir və qəzəliyyatı bizim Azərbaycan türkcəsinə ziyadə xoş gəlir və hər nə onun qələmindən zühura gəlirsə... tamamisi ürəkdən və həqiqi həyatdan nəşət edən

əsərlərdir. Milli şairlərimizdən onun kimi sadə və açıq lisanda və ana dilimizin zirvəsində şeir və qəzəl yazan az olub. (9, 619)

Əgər XVII əsrdə ədəbiyyatda romantik əhvali-ruhiyyə aparıcı mövqeyə malik idisə, XVIII əsrdə romantik və realistik meyllər birgə yaşamış, hər iki üslubda diqqətəlayiq əsərlər yazılmışdır. (2, 512)

XVIII əsr poeziyasında qüvvətlənməkdə olan realist dünyabaxışın əsas təzahür formalarını şərti şəkildə belə qruplaşdırmaq mümkündür- yazır A.Dadaşzadə.

1. Təsvir edilən tarixi hadisə və şəxsiyyətlərin reallığı haqqında; danışılan adamların davranışının real təsviri
2. Məkan və zaman konkretliyi
3. Dünyəvi, təbii hisslərin, həyati duyğuların güclənməsi
4. Etnoqrafik və məişət koloritinin dəqiqliyi
5. Ədəbi dilin və bədii təsvirin xəlqiliyi.

İctimai-siyasi tələblərin nəticəsi olaraq XVIII əsr lirikasında dövrün konkret hadisələrinə diqqət artır. Məhz elə bu baxımdan da Vaqif yaradıcılığı seçilir. Əslində şairin yaradıcılığını onun yaşadığı dönəmlər və ya yazdığı şeir növləri baxımından da təhlil etmək olar. Bu da nəticə etibarı ilə Dadaşzadənin bölgüsü ilə mahiyyətcə eynilik təşkil etmiş olacaqdır. Biz isə Vaqifin yaradıcılığını onun qaynaqlandığı ilham mənbələri baxımından təhlil etməyə önəm verdik.

Şifahi xalq ədəbiyyatından bəhrələnmə. Şair ədəbiyyatda yeni bir cığırı yaratmasında ilk öncə şifahi xalq ədəbiyyatına aşıq yaradıcılığına borcludur. Vaqifin yaradıcılıq qaynağı ilə bağlı maraqlı fikirlərdən biri də M.H.Təhmasibə məxsusdur: "XVII-XVIII əsrlərdə aşıq ədəbiyyatı, aşıq şeiri o qədər geniş yayılmış, elə böyük şəxsiyyətlər yetişmişdir ki, hətta əgər belə demək mümkünsə, yazılı ədəbiyyatın önündə getməyə, ona istiqamət verməyə başlamış, Vaqif ədəbi məktəbinin formalaşmasında həlledici rol oynamışdır. (12,55)

Dastanlara gəlincə onun mətninin əsasında mif, mifoloji düşüncə və bu düşüncənin gerçəkləşdiyi əfsanəvi əsatir mətnləri dayanır. Ancaq türk dastanlarında miflər yunanlardan fərli olaraq epizodik xarakter daşıyır və burada həyat gerçəkliyi, xalqın adət-ənənələri, ailə-məişət münasibətləri daha geniş ifadə olunur. Ən qədim dastanlardan biri olan "Kitabi-Dədə Qorqud" abidəsi də bu cəhətdən seçilir. Məhz bu sayaq mənbələrdəki həyat gerçəkliyi, adət və ənənələr Vaqif yaradıcılığını istiqamətləndirən, ilhamlandıran yönlərdəndir.

Aşıq yaradıcılığı, xüsusən də Aşıq Qurbanidə qadın gözəlliyinin təsviri məsələsinə nəzər salsaq yuxarıda qeyd edilən fikri əyani şəkildə təsdiqləmiş və M.P.Vaqif və Qurbani yaradıcılığının səsləşməsinin şahidi olarıq.

Azərbaycan lirik şeirində gözəllik və qadın mövzusu geniş yer tutur. Bəzən şairlər məftun olduqları qadınlarla bağlı reallıqları, bəzən də xəyal etdikləri gözəllikləri, qadında görmək istədikləri ən kamil fikir və mənəvi keyfiyyətlər barəsində arzularını tərənnüm edirlər.

Aşıq yaradıcılığında, o cümlədən Qurbanidə də "qadın gözəlliyi" aktual mövzulardandır: (13, 251)

Alçalsın dağların görünsün köçü,
Cənnəti-məvadır qoynunun içi,
Müəttər zülfləri- müsəlsəl saçı
Hərdən şitab eylər belələrə doğru. (4, 81)

Aşığın eşqə verdiyi dəyərdənmi, qadını yüksək qiymətləndirdiyindənmi, ya qəlbində silinməyən iz salmış bir eşqin nəticəsi olaraq qadını, araşdırdığımız misallarda isə onun qoynunu, sözün əsl və məcazi anlamında Allahın hər kəsə nəsib etmədiyi əmin-amanlıq, salamatlıq guşəsi olan cənnətin "məva" mərhələsinə bənzədir. Düşünürük ki, Qurbani gözəlin qoynunu cənnətə bənzətməklə dünyəvi eşqi Haqq yolunu tutan, bu yolda xətaya yol vermədən öz məqsədinə çatan, hədiyyəsi və məkanı cənnət olanla müqayisə edərək bəşəri və ilahi eşq arasında gözəl bir fikir bağlılığı yaradır. Aşıq eyni zamanda Haqq yolunda irəliləyən ürəyi, bəşəri məhəbbətlə döyünən ürəklə qarşılaşdırır. Sənətin də gözəlliklərini məhz bu incəliklər təşkil edir!.... (13, 251)

Eyni ilə bu motivlərin Vaqif yaradıcılığında da əksini görürük. Realcasına təsvir olunan qadının /Gərdənində tellər nə gözəl teldi, Onların məskəni o nazik beldi, Nə səngi-mərmərdi, nə bərgi-güldür, Bu ağ əndam kimi, bu bədən kimi./ (18,38) mənəviyyatı şairin yaradıcılığında ən gözəl biçimdə /əhsəni-təqvim/ yaradılmışların ali mərhələsindədir.

Sinəni cənnətin səkkiz növündən birinə Cənnətül-məvaya mütəşabeh tutan şair orta yüzilliklər Azərbaycan ictimai fikrində ədəbiyyatda, ən şərəfli və müqəddəs çağırış olan qadın-anaya olan ehtirama üstünlük vermiş olur.

Vaqif nə qədər də yaradıcılığnda açıq-saçıqlığa yer versə də öz milli qadınının ləyaqətini üstün tutur, onun təəssübkeşliyini çəkir, yadlar əlinə düşməsinə təhəmmül etmir və belə olan halda ahu-naləsinin yerə-göyə sığışmayacağını, Ərşin ən yüksək, əlçatmaz təbəqəsinə (Ərşi-əlaya) çatacağını şeirinə gətirir: (18,38)

Sən gedəli mən ziyadə ağlaram,
Vermişəm ömrümü badə ağlaram,
Hər düşəndə qəddin yada ağlaram
Ünüm çıxar ərşi-əlaya, Pəri.

Vaqif aşıq yaradıcılığından bəhrələndiyi kimi bu sənətə örnək də olmuşdur. Şairin təksim sənəti üstündə yazdığı: (18,92)

Qəmzə kəman, müjgan xədənk, göz ala,
Göz qan olur, əyri baxsan hilala
Sözləri qənd, ağızları piyala,
Şəkər əzmiş dilə, dodağa qızlar.

beyti Aşıq Ələsgərin: (3,73)

Xoş saatda xoş gəlibdi cahana,
Yoxdur gözəlliyə qüsur, bəhana,
Qənd əzilib dilə, dişə dəhana
Qaymaq dodaqlara bal bələnibdi.

bəndi ilə təşbihat və gözəlin şirindilliyinə işarə baxımından səsləşir. Aşıq Ələsgərdən nümunə gətirdiyimiz bənd insanın ən gözəl biçimdə yaradılması baxımından Molla Pənah Vaqifdən qeyd etdiyimiz aşağıdakı fikirlə eyniyyət təşkil edir: (11,18)

Bu gün bir əcaib gözəl sevmişəm,
Beləsi olamaz heç vilayətdə,
Sanasan ki, cəmalından nur yağır,
Yaranıbdır, yarəb, nə xoş saətdə.

Hər iki nümunə- /"Xoş saatda xoş gəlibdi cahana"/ və /"Yaranıbdı, yarəb, nə xoş saətdə"/ insanın ən gözəl biçimdə yaradılması fikri ilə yanaşı, onun məqamının ucalığı üstündə qurulub.

Vaqif yaradıcılığının ən önəmli tərəfi sözün geniş mənasında gözəlliyin vəsfidir. Bəlkə şair bu gözəlliyin vurğunu olmasında doğulub boy atdığı, sonralar həyatını davam etdirdiyi vətənimizin dilbər guşələrinə borcludur.

Tədqiqatlarda yuxarıda qeyd etdiyimiz fikirlə bağlı yazılır: Vaqifin təsvir vasitələrində zəngin təbiət ifadələri nə qədər çoxdursa, onun təbiətin təsvirinə həsr olunmuş ayrıca bir əsəri (vəsfi-M.Quliyeva) yoxdur.... Vaqif şeirləri içərisində ayrıca təbiət təsvirlərinə təsadüf olunmaması heç də şairin təbiət gözəllərinə biganəliyi ilə izah edilə bilməz. Onun ayrı-ayrı gözəlləri təsvir edərkən təbiətlə bacarıqlı müqayisəsi, təbiət gözəllərini dərindən duyduğunu, onun incəliklərini yaxşı hiss etdiyni aydınlaşdırmaq üçün kifayətdir. (1, 573)

Zənnimizcə Vaqifin gözəli təbiətin bir parçası, təbiət isə onun gözəlliyini tamlaşdıran vahid bir tablodur. Yəni, Vaqif yaradıcılığında gözəl

və gözəllik özünü vəhdət şəkildə göstərir. Gözəlliyi və gözəli duymaq, ürək dolu məhəbbətlə sevmək ən böyük nemət olsa da, klassik ədəbiyyatda ona yetişmək olmur. Vaqif gözəlinin uğrunda mübarizə isə öz səmərəsini verir.

Orta yüzilliklərdə, məlum olduğu kimi yaşamın ağırlığı, ictimai-siyasi səbəblər bir sıra zəka sahiblərinin obasından -yurdundan didərgin düşməsinə səbəb olub. Bir qisim bəsirət gözlü şair və ziyalılar yaranmış olan səbəblər üzündən öz ölkələrində qəribçilik hissi ilə yaşayıb-yaratmışlar. Onların böyük dərdinin mayasında yurddaşlıq, vətəndaşlıq hissi dururdu.

Vaqif də yaşadığı dövrün ictimai-siyasi vəziyyətini öz yaradıcılığında əks etdirir. O, görkəmli, ağıllı dövlət adamı kimi Kür qırağının təbii imkanları və gözəllikləri ilə ictimai-siyasi vəziyyətdən doğan geriliyi duyur və bu mənzərəni özünəməxsus şəkildə, böyük ürək ağrısı ilə qələmə alır.

"Kür qırağının əcəb seyrangahı var" şeirinə keçməzdən öncə bu məsələ ilə bağlı N.Cəfərovun Mirzə Yusif Qarabağinin yazdıqlarına əsasən qeyd etdiyi fikir üstündə dayanmaq istədik: "İbrahim xan səfərlərinin birində, bəzi mülahizələrə görə, böyük bir qüvvə ilə Kür qırağında dayanmış imiş. Qoşun böyükləri bu tuli-mukənnətdən təngə gələrək Molla Pənah Vaqifdən rica edirlər ki, Qarabağa dönmək üçün bir əlac taparaq və hər nə tövr olur-olsun, İbrahim xana icrayi-nüfuz etsin Vaqif isə aşağıdakı mürəbbei yazaraq xanəndələrə verir ki, məqamında İbrahim xanın hüzurunda təğənni etsinlər:" (20, 28)

Siyah tel görmədim Kür Qırağında ,
Məgər heç yaşılbaş olmaz bu yerdə?
Tərlan könlüm yenə uça dağlara
Havalanıb hərgiz qonmaz bu yerdə...

... Nədənsə, xanəndələr bu mürəbbei xanın məclisində oxurkən istənilən nəticə hasil olmur. Bunu eşidən Vaqif həman dəm bədahətən bu rəqsan və olduqca dilbər mənzuməni inşad edərək xanəndələrə verir ki, təkrar oxusunlar: (20,28)

Kür qırağının əcəb seyrəngahı var,
Yaşılbaş sonası, hayıf ki, yoxdur.
Üzü tər cığalı siyah tellərin,
Hərdəm tamaşası, hayıf ki, yoxdur.

Şair bu qoşmasında onu düşündürən, narahat edən bu məsələni, şeirin mənasını daha qabarıq çatdırmaq üçün "istifhəm" (ritorik sual) üstündə yazaraq "siyah telin, yaşılbaş sonanın" Kür qırağında olmamasından təəssüflənir, bir növ zəmanəni, özünü belə bu baxımdan ittiham edir.

Vaqif bu şeirində "əcəb seyrəngah" ifadəsi altında çox sadə, anlaşıqlı tərzdə Kür qırağının gözəl məkan olmasına işarə edir və bu mövcud gözəlliyin milli gözəllərdən məhrumluğunu, onu tamamlayan ərazi gözəllərinin olmamasını təzadlı şəkildə, özü də böyük təəssüf hissi ilə qeyd edir.

Onu da qeyd edək ki, ictimai-siyasi durumla bağlı yazılmış bu şeir təkcə təbiət təsviri, qadın gözəlliyinin tərənnümü deyil, eyni zamanda dövrün müəyyən tarixi hadisələrinin yaddaşlarda həkkinə xidmətdir.

Gözəllik Füzuli yaradıcılığının da cövhərindədir. Füzuli insan gözəlliklərini hər şeydən üstün tutur, onun mənəvi qüdrətini, zahiri gözəlliklərini tərənnüm edirdi. O, təbiətin bütün gözəlliklərini şair qəlbi ilə dərindən duyub məftun olduğu halda insanı daha yüksək qiymətləndirir, bütün bu gözəlliklərin insanın məziyyətləri qarşısında sönük göründüyünü qeyd edir: (16, 21)

Qanğı gülşən gülbünü sərvi-xuramanınca var?
Qanğı gülbün üzrə qönçə ləli-xəndanınca var?
Qanğı gülzar içrə bir gül açılır hüsnün kimi,
Qanğı gül bərqi ləbi-ləli-dürəfşanınca var?

Füzuli insanı dərin bir məhəbbətlə sevən aşıq sənətkardır. Onun bu məhəbbəti çox təmiz, səmimi və yüksək məhəbbətdir. Bu məhəbbət insanı nəcibləşdirən, onda sədaqət, səmimiyyət, vəfa, fədakarlıq kimi yüksək insani hisslər tərbiyə edən bir məhəbbətdir. (9, 391)

Füzuli əsərlərinin bir qiyməti də ondadır ki, bu qəzəllərində xəyali yox, həyatda olan real insanları, real gözəlliklərı və eləcə də real gözəlləri tərənnüm edir. (9, 391)

Şairin təsvir etdiyi gözəllər əsasən konkret, həyati gözəllərdir. O, sevgilisinə bəzən xitab edərək öz dərdlərindən danışırsa da, bəzən də onun geyimini və xarici gözəlliklərini təsvir edir. Bu cəhətdən şairin aşağıdakı bəndlə başlayan müxəmməsi diqqətə layiqdir. (9, 391)

Ey hərir içrə tənin, mütləq bülur içrə gülab,
Qöysün abi-rövşən, ol ab üzrə düyməndir hübab,
Öylə zibasən ki, yox nəzzarənə aləmdə tab,
Vay əgər tezcik çıxıb, sərpib ləçək, salsan niqab,
Hiç şək yox kim, səni görgəc olur aləm xərab. (17, 327)

Bu müxəmməsin hər bəndində məşuqənin geyimi və aşiqin ona münasibəti ifadə olunur. Birinci bənddə şair məşuqənin ipək paltarını büllurə, bədənini gülaba bənzədir. Sinəsini saf suya, düymələrini isə su

üzərindəki qabarcıqlara oxşadır. Belə bir gözəl səhər-səhər ləçəyini açıb niqabın üzündən salsa, dünya onu görüb özünü itirər. (9, 392)

Ayrı-ayrı müəlliflərdən Füzuli gözəlinin reallığı ilə bağlı gətirdiyim fikirlərə əlavə olaraq onu qeyd etmək istərdim ki, Füzuli qəzəli həqiqət, reallıq ilə məcaz arasında dövr edən bir gözəldir.

Vaqif yaradıcılığındakı gözəllərə gəlincə onlar hər anlamda daha konkret obrazlardır. Belə ki, klassik ədəbiyyatda göylərdə pərvəriş edən gözəl, Vaqifdə milli mənsubiyyətini, yurdunu-obasını, kimliyini tanıyan və tanıdan obrazdır. /Avçısı olmuşam sən tək maralın, xəyalımdan çıxmaz hərgiz xəyalın, Ənliyi, kirşanı neylər camalın, sən elə gözəlsən binadan Pəri!/

Şair "ənliyi-kirşanı neylər camalın" ifadəsi işlətsə də həyatının müəyyən dövrünü sarayda yaşadığı üçün elit qadın obrazlarına şeirində daha çox önəm verirdi.

Vaqif yaradanın insan qəlbinə sirayət etdirdiyi ilahi eşqin, ülvi gözəlin məqamını bilir və klassik ənənəvi mövzulara xas olan obrazları-pərvanə və odu mütabiqləşdirir: (18)

Pərvanə tək özün oda salmağa
Yaslanıban eşiyində qalmağa,
Bir belə gözələ qurban olmağa
Vaqif kimi qəllac kimsə gərəkdir.

Şair pərvanənin eşqi yolunda özünü oda vurmasına qiymət versə də: (18, 129)

Boyun sərvü-cənnət, gülşənə zinət,
Qaşın məddi ayət, qabağın taət,
Vaqifi-pürmöhnət, çox çəkib həsrət,
Ta sənlə xəlvət ola həmağuş.

- real məhəbbətlə sevgilisiylə təmasda olmağa önəm verir ki, bu da onun realistliyindən və o dönəmə xas həyatın reallıqlarından irəli gəlir.

Vaqifdə yurddaşlıq, vətənpərvərlik, milli hiss güclüdür. Bu baxımdan onun gözəllərinin adları, hətta yaşadığı ərazi belə konkretdir: (18,179)

Ey Qarabağın yeni açılmış güli-pakizəsi,
Xəstəyəm, qoynundakı ol narının müştaqıyam.....

Ol Xədicə haqqı, Səkinə haqqı,
Xeyrənnisə haqqı, Əminə haqqı,

Kəbə, Məkkə haqqı, Mədinə haqqı,
Dərdin bu Vaqifi aldı, sevdiyim!

Və ya: Bənövşətək ənbur zülfün buy verir,
Hər yuyub sərəndə həvayə, Zeynəb!
Onun ətrin dimağımdan üzməsin,
Əmanət et badi-səbayə Zeynəb! (18, 52)

Qadınların hər birinin başına ayrı-ayrılıqda and içən şair növbəti misrada "siyaqətul-ədəd" adlı poetik forma ilə müqəddəs torpaqları sadalayır. Bununla şair bir yandan milli qadının mənəviyyatını müqəddəsləşdirirsə, ikinci bir tərəfdən özünün xalqa bağlı milli ruhlu şair olmasını vurğulayır.

Yeri gəlmişkən onu da qeyd edək ki, Şərq, o cümlədən Azərbaycan lirik poeziyasının Avropa xalqları poeziyasından bir xarakterik fərqi də vardır: "Avropa poeziyasında məhəbbət lirikası çox zaman konkret şəxsə olan məhəbbətdən danışdığı halda (məs: Petrarka, Puşkin), Şərq poeziyasında məhəbbət lirikası şairin fəlsəfi, ideoloji görüşlərinin izahı üçün də bir bəhanə idi. (21, 117)

Füzuli məhəbbət lirikası ilə Vaqif yaradıcılığı yaxın olduğu qədər də fərqlidir. Nədən?, Əvvəla zaman, ictimai-siyasi durumun tələbatı baxımından. Belə ki, Zaman hər şeyin fövqündə durur və bir növ öz tələbləri ilə ədəbiyyatın mövzularını, ənənəvi mövzular xali olmaq şərtiylə, idarə edir. Ikincisi, Molla Pənah yaradıcılığında Avropa xalqları poeziyasına xas konkretlik ana xətti təşkil etdiyi kimi, Şərq poeziyasının məhəbbət lirikasına xas fəlsəfi-tarixi, ideoloji görüşlər konkretlik daxilində öz yerini tutur.

M.P.Vaqif öz sələflərindən fərqləndirilir: ".... o, sələflərindən fərqli olaraq əsrlərin imtahanından çıxmış, zəngin şifahi xalq şeirimizin nailiyyətlərini klassik şeirimizin həyati ənənələri ilə üzvi şəkildə birləşdirən orijinal bir sənətkar kimi də parlamış....." (9, 617)fikri də keçir.

Vaqif klassik irsi tamam rədd etmir, ondan öyrənir. Hafizi, Camini, Rumini yaxşı bilir, ancaq onlar kimi yazmır. Onun əsərləri mahiyyət etibarilə Nizaminin, Füzulinin inkarı deyildir. Onların irəli sürdüyü idealların yeni şəkildə, şeirdə xalq şeirinin təsirinin gücləndiyi bir dövrün zövqünə uyğun şəkildə ifadəsidir.

Araşdırmalarda belə bir fikir də öz əksini tapıb: Vaqif orta əsrlər Azərbaycan ədəbiyyatının son böyük klassikidir. (6, 656,666)

Çox təəssüflər olsun ki, Vaqif yaradıcılığını tədqiq edənlər onun klassik irsə bağlılığını qeyd etsələr də, bu yönə tədqiqatlarında geniş yer ayırmamışlar.

Bu məqamda Əli Nihad Tərlanın sözləri yerinə düşər: Bazen elde olmadan şahsi və subyektiv deyerlendirmeye kalkışıyorsa bu hökm, sadece bizə aittir ve ilmi kıymetten mahrumdur.

Zənnimcə, ədəbiyyatın hər iki qoluna- aşıq yaradıcılığı və klassik irsə önəm verən şair bu iki dönəmin ədəbiyyatları arasında körpü yaradaraq xalq yaradıcılığına məxsus özəllikləri, vəzni, xüsusilə də sadəlik və dilinin şirinliyini klassik ədəbiyyatın zənginlikləri ilə birləşdirərək ədəbiyyata bəlağətli bir üslub gətirmişdir. (M.Q bucağından)

Ruhun ən gözəl tərbiyəçisi və müəllimi olan Quranın ən aparıcı mövzusu Allahın vəhdəniyyətinə sulukdur.Yaradılışın səbəbi məhəbbətdir. Şərq, o cümlədən dünya ədəbiyyatının yüksək, müqəddəs və böyük məhəbbətini tərənnüm edən əsər "Leyli və Məcnun"dur. Leylinin səri zülfünü düyüm-düyüm yapıb Məcnunun boynuna zəncir edən odur Leylinin səri zülfü kəsrət içindəki hilkət müəmmasıdır. Bu müəmma ilə Məcnunu dəli edib boynuna zəncir vuran yenə odur!Leyli və Məcnun yarandığı gündən poeziyamızda bir günəş kimi parlamışdır. Ondan sonra yazılan bütün dərinmənalı, dolğun fəlsəfi şeirlər insan ruhunun əbədi çırpıntılarını və məhəbbətin sonsuz təlaşlarını ifadə edən müxtəlif qəzəllər və fəlsəfi şeirlər bu günəşdən işıq almışlar.(15, 8-9)Bu işığın şüaları Vaqif gözəllərini də nurlandırıb: (18, 152)

Əgər mən Vaqifəm- Fərhad ilə Məcnundan əlayam,
Əgər sənsən- haman Şirin ilə Leyladan artıqsan.

Və ya: Bahari-ömrünü versə də başa,
Aşıq məşuqədən usanmaz, haşa!
Fərhad Şirin üçün sığındı daşa,
Məcnunun ovlağı Leyli dağıdır. (18, 107)

Əslində, bu beytin özünəməxsus deyim tərzi öz eşqinin böyüklüyünü Məcnundan üstün tutan Füzulidən irəli gəlir: (16, 39)

Məndə Məcnundan füzun aşiqlik istedadı var.
Aşiqi sadiq mənəm, Məcnunun ancaq adı var.

XX yüzillikdə belə bu mövzu öz aktuallığını saxlamış və Füzulinin qeyd etdiyimiz beyti ilə səsləşərək nəzmə çəkilmişdir: (7, 15)

Mənim aşiqliyim, Məcnundan artıqdır bilir aləm,
Onu yad eyləməz hər kim məni-rüsvayə baxdıqda.

Sufi poeziyada "söz", "hərf" və "ədəd" simvol kimi işlənir. Bu ənənə Vaqif yaradıcılığına, xüsusən qəzəl və müxəmməslərinə sirayət edib. Şair bəzən öz durumunu hərflərin məna yükünə mütəşabeh tutur: (18, 122)

"Əlif" ərəb əlifbasının ilk hərfi, Allahın adının ilk hərfi, Allahın düzgünlüyünün rəmzi işarəsidir. "Dal" – Allaha itaətin, sülukun rəmzidir. Əslində bu ənənə də klassik ədəbiyyatdan gəlir: (11, 534)

Əlif – Əla qamətin hər kim görər bican olur,
Bey – Bəşarət buldu hər kim dilbəri-sultan olur.
Və ya: Ol – Əlif qəddinə münzəl gəldi xətti üstiva,
Be – bulundu qamətin vəsli vüsali-müntəha. (22, 55)

Sonralar hərflərin şəkli formasına uyğun olaraq məna yükü vermək aşıq yaradıcılığında da geniş intişar etdi: (3, 29)

Ibtidada "əlif" – Allah,
"Be" – birliyə dəlalətdir.
"Te" – təkdi vahidi-yekta,
Arif bu elmə bələddir.

Tədqiqatlarda Molla Pənah Vaqif öz sələflərindən fərqləndirilir: ....o, sələflərindən fərqli olaraq əsrlərin imtahanından çıxmış, zəngin şifahi xalq şeirimizin nailiyyətlərini klassik şeirimizin həyatı ənənələri ilə üzvi şəkildə birləşdirən orijinal bir sənətkar kimi də parlamış... (9, 617)

Vaqif klassik irsi tamam rədd etmir, ondan öyrənir. Hafizi, Camini, Rumini yaxşı bilir, ancaq onlar kimi yazmır. Onun əsərləri mahiyyət etibarilə Nizaminin, Füzulinin inkarı deyildir. Onların irəli sürdüyü idealların yeni şəkildə, şeirdə xalq şeirinin təsirinin gücləndiyi bir dövrün zövqünə uyğun şəkildə ifadəsidir. (6, 656, 666)

Dönəmbədönəm tarix və zamanın qarşısında öz hesabatını verən ədəbiyyat Zaman vəTarixə sığışmayan Quranın süjet və motivlərindən bəhrələnərək ədəbiyyatın həmin dönəminə xas mərhələsini yaşayır və yaşadır. (5, 229)– M.Quliyeva

Ədəbiyyatda Qurandan gələn motiv və süjetlərin əksinə gəlincə, bəzən onlar tam, bəzən qismən, bəzən rəmzlər şəklində, yeni baxışla öz əksini tapır. Belə mövzulardan biri də "beş-pənci-Ali-Əba", "əzimü-əziz", "nəsli-əla", "əşrəfül-məxluqat" və s. şəklində ədəbiyyatda öz əksini tapmış Hz. Peyğəmbərin nəsli məsələsidir. Mövzu Qurani-Kərimin "Əhzab" surəsinin 72-ci ayəsi, "Vida" xütbəsi, müxtəlif təfsirlərdə əksini tapmış yuxarıda qeyd etdiyimiz xütbənin məzmunundan irəli gəlir: (10, 69)Mən sizin aranızda iki ağır (əmanət) qoyuram: (Onlar) göylə yer arasında uzadılmış ip olan Allah kitabı (Quran) və mənim əhli-beytimdir. Onlar (Qiyamət günü) hovuzun kənarında mənə qovuşanadək bir-birindən ayrılmazdır.

Klassik ədəbiyyatda geniş intişar tapmış bu mövzu Şeyx İbrahim Gülşəni Bərdəidə aşağıdakı şəkildə şeirə gətirilib: (23, 83)

Vəlidir cümlə əshabi rəsulun,
Vəliyi sevməyən işi xətadır
Nəbivü Murtəza sibtu zühəda,
Xəmusu seyyidü Ali-əbadır.

Bu ənənə Vaqifin /Ey Vidadi, gərdişi-devrani-kəcrəftarə bax!, Ruzigarə qıl tamaşa, karə bax, girdarə bax!/ - mətləli qəzəlində, özü də bədbin bir ruhda öz əksini tapmışdır. Görünür, həyatın müəyyən dönəmindəki ağrılı-acılı günlər şairin yaradıcılığında da silinməz izlər buraxmışdır. Sənət əsəri təkcə ictimai-siyasi tələbatın deyil, sənətkarın yaşadığı acılı-şirinli həyat hayqırtılarının müştərək mehvəridir (– M.Quliyeva). Vaqifin aşağıdakı qeyd etdiyimiz qəzəli də bu hayqırtının nəticəsidir: (18, 153)

Baş götür bu əhli-dünyadan ayaq tutduqca qaç,
Nə qıza, nə oğula, nə dusta, nə yarə bax!

Vaqifa göz yum, cahanın baxma xubüziştinə,
Üz çevir ali-əbaya, Əhmədi-Muxtarə bax!

Deməli, Vaqif yaradıcılığında bədbin notlarda yazılmış şeirlər də var.

İlkin islam dövrünün nəqaid şairləri olan Cərir və Fərəzdək kimi Vaqifi Vidadisiz, Vidadini isə Vaqifsiz təsəvvür etmək mümkün deyil. Ədəbiyyatda öz nikbinliyi ilə Vidadinin bədbin ruhlu şeirinə rəng qatan Vaqifin Vidadi ilə müşairələri onun yaradıcılığında önəmli yer tutur.

Vaqif
Toy bayramdır bu dünyanın əzabı
Əqli olan ona gətirər tabı,
Sənin tək oğlana deyil hesabı,
Hər şeydən eyləyib qubar ağlarsan! (18, 219)

Vidadi
Oğlan, sən uşaqsan, cavansan hələ,
Yenicə cisminə düşüb vəlvələ,
Tazəcən dəyənək alıbsan ələ,
Qaim tut ki, nagah düşər, ağlarsan (18, 220)

Bu ənənə, (Beş-Pənci-Ali-Əba) bəlkə də Vaqifdən aşıq yaradıcılığına yol tapmış, aşıq yaradıcılığında və xüsusən də aşıq şeirinin Füzulisi olan Aşıq Ələsgərdə öz əksini tapmışdır: (14, 234)

Beş-Pənci-Ali-Əbadı, əzimü-əziz,
On iki imam, çardəh, məsum düzbədüz

Yüz iyirmi dörd min peyğəmbərimiz
Hər birinin ayrı məqamı vardır.

Vaqifin qəzəllərindəki mütəşabihatlar /Həbibim, bu nəzakətdə gülürənadan artıqsan,/ Mənim yanımda, billah, sən iki dünyadan artıqsan,/ Əliyyəlmürtəzadan istə, Vaqif hər nə istərsən,/ Hər kimin cananı kim, bir əhli-ürfanı olmaya, Şahi-aləm olsa, onda rahəti-can olmaya,/ Həblülmətin zülfün, Kəbə üzündür./-(18, 62) və s. bu kimi sətir və misralar realist ədəbiyyatın banisi kimi ədəbiyyat tarixində yer almış Molla Pənah Vaqifin klassik irsə bağlılığına dəlalət edir.

Vaqif klassik qəzəlin özünəməxsus ruhunu öz müxəmməs və qəzəllərində saxlamış, hətta onu dövrə uyğunlaşdıraraq sadə xalqın dil və ruhuna uyğun tərzdə qoşma və təcnislərə belə gətirib çıxartmışdır.

Ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, c.I. VII əsrin əvvəllərindən XVIII əsrin sonuna qədər. AMEA, Bakı-1960
2. A.Dadaşzadə. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, “Maarif”1987
3. Aşıq Ələsgər. Şeirlər, Dastan-Rəvayətlər. Xatirələr. “Çinar-Çap”, Bakı-2003
4. Qurbani. Azərbaycan dastanları, c.I, AMEA. Folklor İnstitutu, “Çıraq”, Bakı-2008
5. Əmrah. Azərbaycan dastanları. AMEA Folklor institutu. C.3. “Çıraq”
6. Ə.Səfərli, X.Yusifli. Azərbaycan ədəbiyyatı tarixi. Bakı-“Ozan”-2008
7. Əlağa Vahid. Seçilmiş əsərləri. “Lider nəşriyyatı”, Bakı, 2005
8. Əli Nihat Tərlan.Fizuli divani şerhi. Ankara-2009, Akçağ yayınları .
9. H.Araslı. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, Gənclik, 1998,
10. Hacı İlqar İsmayılzadə. Quran elmləri eksiklopediyası. Müqəddəs Qum şəhəri Məhəmməd Hadi Mərifət 18 zül-hiccə/ 1426 (Qədiri-xum bayramı) (19/01/2006)

11. İmadəddin Nəsimi. Seçilmiş əsərləri.
12. M.H.Təhmasib. Azərbaycan xalq dastanları. “Elm”, Bakı-1972
13. M.Quliyeva. Quran və Azərbaycan ədəbiyyatı (XIV-XVI əsrlər) , “Elm və təhsil”, Bakı, 2016
14. M.Quliyeva. Aşıq yaradıcılığı və dastanlar, Şərq poetikası və islami dəyərlər baxımından. “Elm və təhsil”, Bakı-2016, s.234 (Qrant layihəsi əsasında yazılmış kitab: EİF-2013-9 (15) – 46/36/ 5-M-34.)
15. M.İbrahimov. Giriş sözü. “Leyli və Məcnun”. “Elm”, Bakı-1981
16. M.Füzuli. Əsərləri. c.I, Azərbaycan SSRİ EA, Bakı, 1958
17. M.Füzuli. Əsərləri. c.I, Bakı-1944
18. Molla Pənah Vaqif. Əsərləri. ADN, Bakı, 1960
19. N.Cəfərov. Vaqifin Vurğunu. Mədəniyyət. 525-ci qəzet. 29.03.2014/ N16
20. N. Cəfərov. Molla Pənah Vaqif. Bakı, “Renessans-A”Nəşr evi, 2017
21. P.Kərimov. XVII əsr anadilli Azərbaycan lirikası. “Nurlan”, Bakı-2011
22. Şah İsmayıl Xətai. Əsərləri.c.2
23. Şeyx İbrahim Gülşəni Bərdəi. Divan. “Avrasiya Press”, Bakı-2006

М.Гулиева

Творчество Вагифа на рубеже ашукской литературы и классической поэзии

Резюме

Тенденция реалистического отображения в литературе XVIII века особенно ярко пред -ставлена в творчестве Вагифа. Вагиф был первым, кто проложил тропу к новой реалистической литературе, становление которой, в основном, состоялось в XIX веке. Вагиф «спустил на землю» идеал классической поэзии, пребывавшей в недосягаемых высотах, заменив возвышенность жизненной реальностью. Поэзия Вагифа как бы повернулась лицом к народу, к народности.

Творчество Вагифа является примером для многих поэтов и поэтому, в первую очередь, в статье речь идет об оценке творчества его предшественников, современников и последователей. Кроме того, в ней особое место отводится освещению степени изученности творчества самого поэта; также рассматриваются проблемы использования поэтом плодов устного народного творчества и его влияния на ашукское творчество; проводятся параллели между творчеством Вагифа и классической поэзией; особо разбирается влияние М.Физули на творчество Вагифа. В статье вкратце оценивается творчество Вагифа на стыке с ашукской литературой.

M.Quliyeva

Vagif's creativity in the junction of ashyg literature and classical poetry

Summary

The tendency of realism in the literature of the eighteenth century was reflected more clearly in Vagif's creativity. Vagif has opened the first course to realist literature which was founded in the XIX century. Vagif replaced the ideal of classical poetry which was in unavailable peaks With realities of life. Vagif's poetry has trended toward the people.

Vagif's creativity is the example for the lots of poets. For this reason in the article at first are talked about the values of the poet to the creativity of salafs, khalafs and contemporaries. Also are talked about the research of poet's creativity, are analysed the using of oral folk literature and influence to ashyg's literature from the side of poet . There are given parallels between the Vagif's creativity and classical poetry. Especially are analyesd Fizuli's influence to Vagif's creativity. In short in the article are valued Vagif's creativity from the junction with ashyg's literature.

Rəyçi: **Nəzakət Məmmədli**
filologiya üzrə fəlsəfə doktoru, dosent

ABBAS MİRHÜSEYN
filologiya elmləri namizədi dosent
Lənkəran Dövlət Universiteti
yazici.a@mail.ru

İSTİQLAL MÜCAHİDİ

Açar sözlər: yaradıcılıq irsi, Azərbaycana məftunluq, şairin haqq səsi, təqib, irtica qüvvələri, milltətçi seirlər, azdlıq mübarizəsi.
Keys words: creative legacy, loving Azerbaijan, the truth, voice of the poet, being followed, abuse, aggression forces, nationalist poems, freedom bight.
Ключевые слова: творческое наследия, любовь к Азербайджану, правдивый голос поэта, оскорбление, преследование, реакционные силы, националистические стихи, освободительная *борьба.*

Əhmədov Zeynalabdin Mütəllib oğlu (Əmin Abid) XX əsr Azərbaycan ədəbiyyatının inkişafında görkəmli ədəbiyyatşünas, tənqidçi, nəzəriyyəçi, şair, publisist kimi tanınmışdır. O, 1918-1920-ci illərdə fəallıq göstərən şairlərdən biri – Əliabbas Müznibin (1882-1938) kiçik qardaşıdır. Azərbaycan ədəbiyyatının içtimai-siyasi fikrinin görkəmli nümayəndələrindən olan Məhəmməd Əmin Rəsulzadənin şərəfinə Əmin adını götürmüşdür.

Yaradıcılığa erkən yaşlarında başlayan Əmin Abid sərbəst və heca vəznlərində şeirlər yazaraq, "Yeni Qafqaziya", "Azəri-türk", "Odlar yurdu" və başqa jurnallarda çap etdirmişdir. O, şeirlərində Azərbaycan Milli Demokratik Cümhuriyyətinin bolşevik ordusu tərəfindən vəhşicəsinə işğalına, Sibirə sürgünlərə, təqib və təhqirlərə etirazla yanaşmışdır. Bununla belə, şairin üçrəngli ay-ulduzlu bayrağın müstəqil Azərbaycan üzərində dalğanacağı günə inamı güclü olmuşdur. O, mühacirətdə yaşayan azərbaycanlı gəncləri konfrans və toplantılarda oxunmuş materiallarla tanış etməklə, onları birliyə və mübarizəyə ruhlandırmışdır.

XX əsr Azərbaycan ədəbiyyatşünaslığının görkəmli nümayəndələrindən biri olan Əmin Abidin yaradıcılıq yolu çox qısa olmuşdur. Onun poeziyasını iki qismə bölmək olar: birincisinə 1918-ci ilə qədər yazıb Azərbaycan mətbuatında dərc olunan kiçik həcmli satiraları və vətənpərvərlik duyğularını tərənnüm edən şeirləri, ikinci qismə isə mühacirətdə yazdığı şeirləri daxildir. O, Azərbaycanda Əmin Abid adı ilə tanınsa da, Türkiyədə "Gültəkin" ləqəbi ilə sovet hökumətinin əleyhinə şeirlər yazmışdır. Türkiyədə dərc etdirdiyi şeirlər ona böyük şöhrət gətirmiş, onu bütün türk dünyasında istiqlal şairi kimi tanıtdırmışdır.

Bolşevizmin Azərbaycanda həddini aşması nəticəsində xalqın, millətin irtica qüvvələrinə qarşı aciz qaldığı bir zamanda Gültəkin insanları

mübarizəyə, haqlarını müdafiə etməyə çağırmışdır. Bu, hər şeydən əvvəl, Əmin Abid kimi əzab çəkən onlarla Azərbaycan şairinin haqq, ədalət səsini, ürək çırpıntılarımı, azərbaycançılıqla bağlı həqiqətləri müdafiə etmək demək idi. Güclü düşmən qarşısında çaş-baş qalan gənclərimizin parlaq gələcəyinə böyük inam bəsləyən Gültəkin aşağıda qeyd olunan şeirində bolşevik istilasının azadfikirli olmağa çalışan insanlara necə təsir etməsini qələmə almışdır:

Buludlu bir qorxunc yel kimi bizi,
Bu dağlarda oldu duman bolşevik.
Qanlara boyandı Xəzər dənizi,
Vermədi kimsəyə aman bolşevik.

Həmin dövrdə istiqlal şeirləri yazan şairlər içərisində siyasi-məfkurəvi baxışları, intelligent səviyyəsi ilə özünəməxsus həyat və mübarizə yolu seçən istedadlı şair Gültəkinin yaradıcılığı da mühüm cəhətləri ilə diqqəti cəlb edirdi.

Gültəkinin "Buzlu cəhənnəm" kitabında toplanan "Bayrağım və istiqlalım", "Azərbaycan istiqlalı", "Qürbətdə bayram" kimi şeirləri, ilk növbədə, qəhrəmanlıqla ölməyi şərəfsiz yaşamaqdan üstün tutan, itirilmiş hüriyyətlə istiqlalın geri alınması uğrunda sovet zindanları ilə uzaq Şimalın buzlu sahillərində minbir əzaba qatlaşan saysız-hesabsız qurbanları haqqında yazılmış ağıdır.

Bir tərəfdən elmi əsərləri, digər tərəfdən millətçi şeirləri ilə mühacir azərbaycanlılar arasında böyük nüfuz qazanan şair zülm görmüş soydaşlarına ithaf etdiyi şeirinə "Buzlu cəhənnəm" başlığını əbəs yerə verməmişdir. "İstiqlal uğrunda" adlı məcmuədə Mirzə Bala Məmmədzadə tərəfindən 1948-ci ildə İstanbulda çap olunmuş "Buzlu cəhənnəm" kitabı Gültəkinin ilk və son kitabı olmuşdur.

Dəhşətli faciələrin, bənzərsiz günlərin ağrılarını yaşayan şair yazır:

Sibirya, ey soyuq və qorxunc dəniz,
Şimalın köksündə uyuma səssiz.
Qalx, bir müsafirin gəldi, diqqət et!
Sənə hədiyyələr gətirdi – vəhşət!

Sən, ey bu gün yalnız qatilin deyil,
Haqq deyən başın da qəbri olan yer:
Bu solğun dənizin önündə əyil,
Ona ölüm vermə, həyat və ruh ver!

Türk xalqlarını, o cümlədən vətənini mübarizə meydanında görən, kommunist rejimi və istilası altında əzilən azərbaycanlı gənclərin gələcəyinə böyük ümid bəsləyən şair onları aşkarcasına azadlığa səsləyir.

Şair şeirin sonrakı bəndində gənclərə müraciət edərək yazır:

Sil göz yaşlarını, dur, gözlə onu,
Hər donduran qışın bahardır sonu.
... Və siz, ey ölümün qorxunc yolunda
Dəmir addımlarla yürüyən gənclər!
Siz, ey bir taleyin gizli qolunda
Yürürkən bəxti də sürüyən gənclər!
Uzadın siz də mənə əlinizi,
Təbrik eləyim mən, igidlər sizi!
Baş əymədiniz siz haqq yeyənlərə.

Həyat və mübarizə yolu digər mühacirlər kimi yaşadığı əsrdə tələtümlər, haqsızlıqlar və həyəcanlar içərisində keçən, yaradıcılıq irsi zəngin və rəngarəng olan Mirzə Bala Məmmədzadə yazır: "Azəri türklüyü rus bolşevizmi ilə həyat, ölüm mücadiləsinə girib və bu mücadiləni boğmaq üçün gecə-gündüz işləyib, yüzlərlə, minlərlə türk çocuğunu müxtəlif səbəblərlə tundralara, Sibir buzlaqlarına gömüb, mədəniyyət aləmindən uzaq, gecə və gündüzümüzün eynisi olmayan məchul məmləkətlərə sürüb. Hələ də bu məchul məmləkətlərin məchul köşələrində bir çox münəvvər azəri gənci ölümdən yüz min kərə betər iztirab çəkir".

Xalqın çoxəsrlik bir tarixinə nəzər salan Əmin Abid müəyyən zaman daxilində əmələ gəlib formalaşan, mübarizələrlə dolu həyatda çarpışan xalqın tarixi xüsusiyyətlərini, yaşam tərzini ifadə etmişdir. Zamanın məlum olaylarına münasibət həmin illərin poetik prosesinin spesifik xüsusiyyətləri kimi başa düşülməlidir. Əmin Abid bu əməyə zahiri cəhətdən yox, müəyyən ictimai-vətəndaşlıq mətləblərinin ifadəsi üçün müraciət etmişdir.

Önəmli yer tutan "Buzlu cəhənnəm" kitabında toplanan şeirlər istedadlı şair, publisist, tənqidçi Əmin Abidin Bakıda 1927-1937-ci illər arasında ədəbi-elmi fəaliyyəti, fundamental axtarışları, tapıntıları ilə səciyyələnir. Onun ədəbi-tənqidi və elmi irsi Azərbaycan ədəbiyyatşünaslığının yaranmasında mühüm mərhələ təşkil edir.

Məhəmməd Əmin Rəsulzadə Gültəkin adını daşıyan şairin yazılarını xüsusi bir yer tutduğunu qeyd edərək yazmışdır: "Gültəkinin şeirlərində biz həqiqi milli-inqilab mübarizəsinin nəşidələrini (mahnı, tərənə) görürük. Mübarizənin ədalətliliyinə və qələbə ilə nəticələnəcəyinə bağlanan ümid Gültəkində, adətən, dini bir mahiyyət alır".

Məlumdur ki, hər bir dövrün özünün konkret həyat problemləri, ictimai-siyasi qayğıları olmuşdur. Mühacirət poeziyası da bu problemlərin yanından keçə bilməzdi. Belə olan halda, zamanın mənəvi, siyasi-ictimai və ideoloji məzmunu mühacirət poeziyasının bədii yüksəlişini, intellektual səviyyəsini və vətəndaşlıq pafosunu təyin edən başlıca amillərdən biri kimi diqqəti cəlb etmişdir. Həyatda, insanların şüurunda və hisslərində əmələ gəlmiş keyfiyyət dəyişikliklərini məlum poetik şəkillərdə əks etdirmək vacib məsələlərdən biri kimi qarşıda dururdu.

Bu baxımdan Gültəkin yaradıcılığında hamını birliyə, mübarizəyə, haqqı və azadlığı qorumağa çağırış nidaları diqqətdən kənarda qala bilməzdi. Onun poeziyasında belə bir sağlam, ciddi təmayülün formalaşması müasirlik kateqoriyasının özünü yeni məzmunda meydana çıxarmasını şərtləndirirdi. Zaman, insan haqqında düşüncə lirikasının ayrılmaz tərkib hissəsi kimi meydana çıxırdı. Bu mənada Gültəkinin də şeirləri istisna təşkil etmirdi. Bəzi faciələrin, mənəvi gözəlliyin miskin övladları, ümumilikdə insanlığın keçdiyi əzablı yolların onları sınaqlar qarşısında qoyması şairi daim narahat etmişdir. Şairin milli istiqlal və milli bayrağa həsr etdiyi bir şeirinə diqqət yetirək:

Bayrağımız ölməz, ölərsə əgər,
Torpağın altına köçər ölkələr.

O cındır bayrağın əlbət solacaq,
Azərbaycan yenə mənim olacaq.

Azəri oğluyam, adımda şan var
Damarlarımda zülmə hayqıran qan var.
Məni yetim sanıb kükrəmə, düşmən,
Bax, arxamda haqqı sevən cahan var.

Yaşa, ey həsrətlə doğan istiqlal!
Yaşa, ey türk, yaşa, ey gözəl hilal!

Şeirdə doğma Azərbaycana məftunluq hissi göz oxşayır. Hər beyti, bəndi sanki bir nəğmənin nəqəratını təşkil edən misralarda, “Azadlıq” sözü necə də təzə-tər səslənir, insanları azadlıq həsrətinə təşnə qoyan kövrək misralar qəlb yaxır.

Şeirin ayrı-ayrı bəndlərində şairin haqq səsi, mübarizəyə çağırışı aydın eşidilir. Şair milli bayrağımızla qürur duyub, millətçilik hissi ilə yaşayanların bir gün məğlub olacaqlarına, o cındır bayrağın solacağına, düşmən tapdağında əsir qalan Azərbaycan diyarının azadlığa qovuşacağına inanır. Oxucunu əmin edir ki, hər bir azəri oğlunun adında şan, damarlarında

zülmə hayqıran, buxovları qıran qan vardır. Düşmənin bu gün güvəndiyi bayrağı solacaq, haqq-ədalət qalib gələcək, Azərbaycan yenə də ona məxsus insanların olacaqdır.

Şeirdə insan taleyi, xalqın tarixi müqəddəratı qarşısında şəxsiyyətin məsuliyyəti, vətənpərvərlik mövzusu ətraflı lirik formada ifadəsini tapmışdır. Şairin ifadə etmək istədiyi ideyalar təkcə onun yox, bütün türk övladının məsafəcə uzaq qalan arzusunun həyata keçməsinin ilkin işartıları idi.

Əmin Abidin Türkiyəyə qədərki poetik yaradıcılığında iki ədəbi məktəbin – "Molla Nəsrəddin" və "Füyuzat" jurnallarının təsiri daha aydın görünür. Onun kiçik həcmli əsərlərində Namiq Kamal, Mehmet Akif Ersoy, M.Ə.Yurdaqul və başqalarının təsiri hiss olunur. Həmin əsərlərdə vətən və məfkurə elementləri, torpaq uğrunda mübarizə, ideya, məslək axtarışları, düşmənə nifrət nidaları üstünlük təşkil edir. Şairin ilk şeirləri Azərbaycan poeziyasının təşəkkülündə lazımi qədər rol oynamasa da, burada xalqın azadlıq mübarizəsini qorxubilməzliklə təbliği diqqəti cəlb edir.

Ə.Abidin poeziyası zəngin və çoxcəhətlidir. Burada fikir və hisslərin, xalq mübarizəsinə münasibətin dürüst şəkildə ifadəsi və sair məsələlər təsvir və tərənnüm olunur. Onun şeirlərində siyasi motivlər və vətəndaşlıq həyəcanları xalq taleyi ilə əlaqədar məsələlər kimi geniş planda verilir.

Ə.Abidin mübarizələrdə bərkiyən ehtiraslı şeirlərində milli ruh, sağlam pafos, səfərbərlik çağırışı diqqəti cəlb edir.

Könül, bəsdir daha, artıq oyan bu xabi-qəflətdən,
Özünü sən də qurtar, bunca zillətdən, zəlalətdən,
Bir gün öylə dəmidir, kim himmət eylə himmətilə,
Özün türk oğlu türk, əlbət xilas eylə əsarətdən.

Şeir parçasında türk oğlu türkün qəflət yuxusundan oyanması, özünü çətinlik və alçalmadan qurtarması, içtimai-faydalı işlərdə fəal çalışması, bir gün əsarətdən xilas olamsı vurğulanır. Son yüz ildə, o cümlədən XX əsrin əvvəllərində Cənubi Qafqaz regionunda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlıların başına gətirilən müsibətlər xatırlansa da, millətin bir gün qəflət yuxusundan ayrılaraq zülmdən azad olmasına inam yaranır.

Gültəkin milli mühacirət şəraitində qadağalar içində yaşamasına baxmayaraq, daim yurdsevərlik və azadlıq ideyalarını tərənnüm edən qüdrətli şairdir. Bir çox şairlər kimi, onun da yaradıcılığının baş mövzusu vətəndir. Lirikasının qidalandığı real varlıq zorla ayrı düşdüyü Azərbaycan gerçəkliyi və xalqının tarixi keçmişi idi. Doğma Azərbaycana vurğunluq, vətəndaşlıq qüruru, milli təəşübkeşlik şeirlərinin əsas mövzusunu təşkil edir.

Şair bütün türkdilli xalqların taleyində olduğu kimi, xalqımızın tarixində silinməz səhifələri vərəqlədikcə, əsl dözüm, məhrumiyyət, fədakarlıq və qəhrəmanlıq məktəbi olmuş insanlarla qürur hissi duyur. Şairin şeirləri XX əsrin əvvəllərində Azərbaycan poeziyasının bir çox cəhətlərini özündə əks etdirir. Belə ki, Məhəmməd Hadi poeziyasına xas olan romantik kədər, Mirzə Ələkbər Sabir satiralarına məxsus ifşaçılıq Əmin Abidin (Gültəkin) şeirlərində də aydın nəzərə çarpır. Onun şeirlərində istibdada, zülmə, haqsızlığa, mənfur düşmənə qarşı birbaşa hücum var. Düşmənə qarşı mübarizənin ağırlığını çiynində daşımış hər bir azərbaycanlının qəhrəmanlığı, azadlıq uğrunda çarpışması, məqsədindən dönməməsi sonrakı nəsil üçün vətən naminə, ideal naminə fədakarlıq rəmzinə çevrilmişdir. Poeziyanın bu sərt, yaddançıxmaz dövrünü yenidən duymaq və dərk etmək, ona bu günün nailiyyətləri zirvəsindən baxmaq, onu qiymətləndirmək zəruri bir iş kimi qarşıda durur.

Gültəkin şeirlərində lirik qəhrəmanın insani kamilliyini göstərərək, onun bütün bəşəriyyətin taleyi üçün məsuliyyət hiss etdiyini vurğulayır. Bu məsuliyyət hissi azadlığa susamış insanların, onların vicdanının səsidir. Bu səsi o heç cür sakitləşdirə bilmir. Şairin, "O cındır bayrağın əlbət solacaq, Azərbaycan yenə mənim olacaq" sözlərində birbaşa hücum vardır. Şeirdə insanın gələcəyinə böyük inamla yanaşı, onun sabahla bağlı nəcib, humanist düşüncələri də öz ifadəsini tapır.

Ə.Abid görkəmli tarixçi, alim, folklorşünas tədqiqatçı kimi də zəngin elmi irsin sahibidir. Tədqiqatçının müxtəlif sahələrdə apardığı araşdırmaları bu günün özündə də aktuallığını saxlamaqdadır. Folklorşünaslıq, Qorqudşünaslıq, Axundovşünaslıq, tərcümə problemi və s. problemlər onun 1920-1930-cu illərdə qiymətli tədqiqat əsərlərinin ümumi mənzərəsini təşkil edir.

Tədqiqatçının folklorla bağlı araşdırmaları "Azərbaycan türklərinin ədəbiyyatı" əsərindən başlamışdır. İstedadlı alim əsərin müxtəlif başlıqlar altında olan fəsillərində qiymətli fikirlər irəli sürmüşdür. Onun "Türk xalqları ədəbiyyatında "mani" növü və Azərbaycan bayatılarının xüsusiyyətləri" və "Azərbaycan folkloru" adlı irihəcmli məqalələri nəzəri və praktik cəhətləri ilə seçilir.

Mani – türk xalq şeiri və nəğmə janrıdır. "Türk xalqları ədəbiyyatında "mani" növü və Azərbaycan bayatılarının xüsusiyyətləri" məqaləsi ilə bağlı müəllif beş min bayatı toplayraq nəşriyyata təqdim etməklə yanaşı, bu bayatıları elmi nəzərdən tədqiq etsə də, onun topladığı bayatılar və monoqrafiyası itib-batdığından çap olunmamışdır.

Publisistika sahəsində fərqlənib diqqəti cəlb edən Əmin Abidin bir çox mövzularla bağlı maraqlı araşdırmaları vardır. O, Qazi Burhanəddin, Əbülqasım Firdovsi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir, türk xalqları ədəbiyyatı və başqa mövzularla dəyərli

məqalələr yazan görkəmli tədqiqatçı idi. O, bir istedadlı ədəbiyyatşünas alim kimi, ədəbiyyatımızın bəlli olmayan məsələlərini araşdıraraq üzə çıxarmışdır. Onun "Məhəmməd Füzulinin tədqiq olunmamış bir əsəri" adlı məqaləsi bu cəhətdən maraq doğurur. Tədqiqatçı ilk dəfə olaraq, M.Füzulinin əruz vəznində yazdığı "Söhbətül əsmar" məsnəvisini aşkara çıxarmışdır.

Ə.Abid, eyni zamanda, "Oğuznamə" əsərində türklərin tarixindən, "Dədə Qorqud" dastanında onun tarixi, dili və sair problemləri üzrə bu gün də əhəmiyyətini itirməyən elmi fikirlər irəli sürmüşdür.

Ə.Abid 1928-ci ildə yazdığı irihəcmli "Türk ədəbiyyatında M.F.Axundov" adlı məqaləsində yazırdı: "Ümumi mövqeyi nəzərə alınarsa, deyilə bilər ki, Mirzə Fətəli İmadəddin Nəsimi və Məhəmməd Füzulidən sonra türk ədəbiyyatının şölələri üzərinə təsir yığmağa müvəffəq olan bir şəxsdir".

Görkəmli ədəbiyyatşünasın elmi irsi mövzu əlvanlığı ilə seçilir. Bu irs içərisində onun tərcümə ilə bağlı araşdırmaları böyük əhəmiyyət kəsb edir. Belə ki, tərcümə tarixinə aid olan araşdırmaları içərisində Şərqin böyük şairi Əbülqasım Firdovsinin "Şahnamə" əsərinin ən qədim tərcüməsi XX əsrin əvvəllərinə təsadüf edir. Lakin Əmin Abidin tədqiqatları nəticəsində məlum olur ki, bu tarix daha qədim dövrü əks etdirir.

Ə.Abid "Firdovsi və Azərbaycan ədəbiyyatı" məqaləsində yazır: "Firdovsi və onun "Şahnamə"silə bizim ədəbiyyatımız arasında böyük bir əlaqə vardır. Bu əlaqə dörd şəkildə meydana çıxmaqdadır: 1) Firdovsi qəhrəmanlarının xalq yaradıcılığına təsiri; 2) Ədiblərimizin Firdovsi haqqında tələqqiləri; 3) "Şahnamə"dən müxtəlif parçaların tərcümə edilməsi; 4) Bədii yaradıcılıqda Firdovsi üslubunun təqlid olunması".

Azərbaycan istiqlal hərəkatının aparıcı şəxsiyyətlərindən biri M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı əsərində yazır: "Dünya tarixinin xülasəsi haqq ilə batil, hüriyyətlə əsarət mübarizəsinin bir ifadəsidir... Müqəddəratını hüriyyətsevər millətlərin və mədəniyyət dünyasının müqəddəratı ilə bağlamış Azərbaycan hüriyyət və demokratiya cəbhəsinin son və qəti zəfərinə əsla şübhə etməz! Duyduğu min bir iztirabdan sonra arzuladığı hüriyyət və istiqlalına qovuşacaq, şair Gültəkinin bu beytini zəfər sevincləri içində təkrar edəcək:

Sən bizimsən, bizimsən, durduqca bədəndə can,
Yaşa, yaşa, çox yaşa, ey şanlı Azərbaycan!

Zəngin elmi irs qoyub gedən Əmin Abidin (Gültəkin) əsərləri tədqiqatçılar tərəfindən araşdırıldığından, onların tədqiqatları xüsusilə təqdirəlayiqdir. Eyni zamanda bu dəyərli şəxsiyyətin çoxşaxəli yaradıcılığının bundan sonra da sistemli, monoqrafik şəpkidə hərtərəfli araşdırılmasına böyük ehtiyac vardır.

Ədəbiyyat

1. Axundov Yavuz. İstiqlal şairləri. Bakı, Yazıçı, 1989.
2. Ağazadə Yədulla. Müasir ədəbi proses və satirik poeziya. Bakı, Elm, 2016.
3. Əmin Abid (Gültəkin). Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2008.
4. Əliqızı Almaz. Azadlıq və istiqlal poeziyası. BDU, 2001.
5. Həsənova Şəlalə. Mühacirət irsimizdən səhifələr. Bakı, 1994.
6. İbrahimli Xaləddin. Azərbaycan siyasi mühacirəti. Bakı, 1996.
7. Qarayev Yaşar, Salmanov Şamil. Poeziyanın kamilliyi. Bakı, 1985.
8. Qasımlı Məhərrəm. Vətən deyib gecə-gündüz ağlaram. Bakı, 1993.
9. Qəribli İslam. Ədəbiyyat sərhəd tanımır. Bakı, Elm, 2017.
10. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, 1992.
11. Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, 1998.

М.Аббас

Моджахеды за Независимость
Резюме

В статье рассмотрены многосторонность и богатство, с точки зрения проблематики научных трудов, считающими некоторым исследователями, оценивающими как начальный этап исследования фолклороведения, свой политико-идиологические мировоззрением, написавшей стихи независимости, диссидентская жизнь, злоупотребление большевизма в Азербайджане, отношение тяжелой жизни нашего народа, наполненная борьбой и т.д. вопросы критика, ученого, поэта, литературоведа, переводчика Амина Абидина (Гюльтекин). А также, в статье отмечается и анализируется творчество А.Абидина как история, ученого, фольклороведа и оценки его творчеству со стороны ведущих личностей движения независимости Азербайджана А.Джафароглы, М.А.Расулзаде, М.Б.Мамедзаде, А.Гусецнзаде и др.Амин Абидин – один из выдающихся представителей литературы, в своей поэзии прислушивался к молодёжи. Своим творчеством он объясняет ей, что она находится на правильном с моральной точки зрения пути, призывая к борьбе за свободу.

M.Abbas

Independence Mujahedeen

Summary

The article deals with the rich and multisided creation of Amin Abid (Gultakin) as a critic, scientist, a post, a literature studier, a translator from problematic view point, whose some studies are considered as precious investigations for the unities stage of our folklore study. His life is in a strange land, political-ideological outlooks being reflected in his poems, bolshevists cruelty in Azerbaijan, attitude towards hard life of our people full of fights and so on.

Amin Abid, one of the prominent members of literature history, mainly focused on youth's way of thinking in his poetry. His works called youth for freedom through the right path via moral means.

At the same time, the article characterizes A.Abid as a historian, scientist, a folklore studier having rich legacy, M.A.Rasulzadehs, M.B.Mammedzadehs, A.Jafaroglys, A.Huseynzadehs and others high appreciations to his creations as leading personalities of Azerbaijan independence movement are stressed his translations have been investigated.

Rəyçi:: İslam Qəribli
filologiya elmləri doktoru,professor

Fil.f.dok. ÜLVİYYƏ ƏLİYEVA
ADU
ulviyya@mail.ru

MULTİKULTURALİZMİN ƏDƏBİYYATA TƏSİRİ

Açar sözlər: multikulturalizm, humanitar fikir,mədəniyyət
Key words: Multiculturalism, humanitarian thoughts, culture
Ключевые слова: Мультикультурализм, гуманитарный, мысль, культура

Multikulturalizm bütün mədəniyyətləri müəyyən prinsiplər əsasında ehtiva etmək niyyətində olan amillərindən biridir.

Burada bir neçə məqamı mütləq qeyd etmək lazımdır. Bunlardan birincisi multikulturalizmin sadəcə olaraq mədəniyyətləri deyil, bu mədəniyyətləri təşkil edən çoxsaylı bilik sahələrini əhatə etməsi problemləridir. Bir qayda olaraq mədəniyyət özünün tərkib hissələrini içində əritməyə və bütövə çevirməyə cəhd göstərir. Filan xalqın mədəniyyəti deyəndə onun ədəbiyyatının, musiqisinin, adət-ənənələrinin və sairənin qovşağını, görüş yerini, bir-birinin içinə girməsini, bir-birini şərtləndirməsini nəzərdə tuturuq. Lakin mədəniyyətlərin təması, yəni multikulturalizm kontekstində vəziyyət dəyişir. Hər bir mədəniyyət sahəsi özünü büruzə verməyə, nümayiş etdirməyə cəhd göstərir.

Əgər mən təcrid olunmuş alman mədəniyyətinə nəzər salsam, məlum olacaq ki, onun musiqisi, ədəbiyyatı, fəlsəfəsi və digər tərkib hissələri birləşib vəhdət təşkil edirlər sintetik bütövün tərkib hissələridir. Lakin alman mədəniyyəti digər mədəniyyıyyətlərlə təmasa girəndə ədəbiyyat, musiqi, fəlsəfə və sairə hərə öz dilində danışmağa başlayacaq.

Multikulturalizm həqiqətən son dərəcə ziddiyyətli və mürəkkəb bir prosesdir. Din mədəniyyətin üzvi tərkib hissəsidir. Amma dini mədəniyyətin digər tərkib hissələrindən fərqləndirən bir cəhət var: mədəniyyətin digər tərkib hissələri, məsələn, ədəbiyyat, musiqi, fəlsəfə bu və ya digər şəkldə milli mədəniyyətin çərçivələrini aşıb digər mədəniyyətlərdəki analoqlarına qovuşmağa, onları zənginləşdirməyə və özləri də zənginləşməyə, bir sözlə universal səciyyə kəsb etməyə can atırlar.

Din isə konservativdir, başqa dinləri öz içinə buraxmaqdan, onlaarın hesabına zənginləşməkdən qətiyyətlə imtina edir, var gücü ilə öz toxunuzmaqlığını, bütövlüyünü qoruyub saxlamağa cəhd göstərir. Əgər dinlərin münasibətləri tarixini nəzərdən keçirsək, onların daim bir-birinin qənimi olmaları, bir-birini məhv etməyə can atmalarının şahidi olarıq.

Multikulturalizmin ədəbiyyata təsiri və onun ədəbiyyatşünaslıq tərəfindən tədqiq olunması problemi bu gün çox aktualdır. Dar mənada multikulturalizm ümumiyyətlə müasir humanitar fikrə aid olan bir prosesin - mədəni və ədəbi kanonun yenidən nəzərdən keçirilməsinin və dəyərləndirilməsi prosesinin tərkib hissəsidir.

Qeyd etmək lazımdır ki, multikulturalizin analogiyalarını digər mədəniyyətlərdə də axtarıb üzə çıxarmaq olar. Məsələn Böyük Britaniynın mədəniyyətinin özü əzəldən multikultural xarakter daşıyırdı və faktiki olaraq uzun əsrlər boyu ingilis, şotland, irland mədəniyyətlərinin və ədəbiyytlarının görüş yeri olmuşdur. İndi buna son dərəcə intensiv, təcavüzkar şəkildə hind-pakistan və müsəlman elementləri də daxil olur.(2.26)

Məsələn, Salman Rüşdinin yaradıcılığı son dərəcə maraqlı multikultural hadisə hesab oluna bilər: o bir tərəfdən hind-pakistan dünyaduyumunun, digər tərəfdən antiislam düşüncə tərzinin və ideologiyasının daşıyıcısıdır. Rüşdinin yaradıcılığı müsəlman ehkamları xaricində təsəvvür oluna bilməz: o bir tərəfdən islam düny aduyumunun yetirməsidir, buna görə də hadisələrə islamıön içindən baxır və dəyərləndirir, digər tərəfdən Avropanın bütün ifadə imkanlarından, xüsusilə ingilis dilindən istifadə edib özünün islam mədəniyyətini məhv etməyə can atır. Bu baxımdan onun məşhur əsərində müsəlman mədəniyyətinin və ədəbiyyatının mərkəzi qaynağı və istinadgahı olan Qurani-kərimə hücumunu təsadüfi hesab etmək olmaz.

Fransız ədəbiyyatında Alber Kamünün yaradıcılığı maraqlı bir multikulural araşdırmanın mövzusu ola bilər. Bir tərəfdən o əlbəttə ki, Avropa və fransız mədəniyyətinin, ədəbiyyatının son dərəcə qüdrətli hadisəsidir. Digər tərəfdən Əlcəzair onun əsərlərində sadəcə boş məkan rolunu oynayan fon deyil onun dünyaduyumunu aktiv şəkildə formalaşdıran məkandır. Onun genlərində ispan elementi də son dərəcə güclüdür. Bu onun multikultural düşüncə və deyim tərzinə güclü təsir göstərir.

Əslində mədəniyyətlər heç də XX əsrin sonu - XXI əsrin təmasa girməyiblər. Bu proses tarix boyu mövcud olmuşdur. Mədəniyyətin tarixi birmənalı şəkildə sübuta yetirir ki, hətta təkəbbürlü antik yunan mədəniyyəti ətrafdakı "barbar" xalqların mədəniyyətindən çox şey əxz etmişdir. Məsələn, yunan mifologiyasında kifayət qədər Yaxın Şərq dünyaduyumunun və dünyagörüşünün - mifologiyasının elementlərinə rast gəlmək olar.(3.59)

Lakin qəribədir, multikulturalizm nəzəriyyəsi yalnız indi - XXI əsrin əvvəllərində meydana gəlmişdir. Götenin XVIII əsrdə niyyət kimi ifadə etdiyi, lakin faktiki olaraq qısa zaman kəsimində gerçəkləşmiş ümumdünya mədəniyyəti (alman mütəfəkkirinin mülahizəsinə diqqətlə fikir versək, məlum olar ki, o, "dünya ədəbiyyatı" deyəndə əslində "dünya mədəniyyəti"ni nəzərdə tuturdu) təcrübəsini ümumiləşdirmək və onun gələcək inkişaf istiqamətlərini müəyyən etmək tələb olunurdu.

Multikulturalizm humanitar fikrin müxtəlif sahələrinin - antropologiyanın, siyasətşünaslığın, iqtisadiyyatın, tarixşünaslığın, psixologiyanın, pedaqogikanın, ədəbiyyatşünaslığın, fəlsəfənin qovşağında formalaşmışdır. Sözün geniş mənasında multikulturalizm mədəni tədqiqatlara aid oluna bilər.(4)

Bəzi tədqiqatçılar onu (ingilis dilində - cultural studies) "kulturologiya" kimi də tərcümə edirlər. Lakin kulturologiya mədəniyyəti öyrənən elmdir, "mədəni tədqiqatlar" isə daha çox tətbiqi və lokal xarakter daşıyır, mədəniyyətin konkret problemlərinin həllinə yönəlmişdir və kulturologiyadan fərqli olaraq nəzəri-metodoloji problematikaya toxunmur.(3.23) Bir qayda olaraq mədəniyyətlər arasındakı əlaqələrin öyrənilməsinin bu sahəsi məsələnin siyasi və ideoloji aspektlərinə böyük önəm verirlər.Bir qayda olaraq mədəni araşdırmalar yekcins deyillər, prinsip etibarilə bütün diskurslara açıqdırlar (bu onunla bağlıdır ki, mədəniyyətin hər bir sahəsinin özünəməxsus diskursu var və bu diskursların özünəməxsusluğundan istifadə etmədən ümumiyyətlə onları biraraya gətirmək mümkün deyil. İncəsənət növlərinin fərqli formalara malik olması müxtəlif formalardan istifadəni labüd edir. Bu isə son nəticə etibariə amorfluğa gətirib çıxarır.

Ədəbiyyat söz, təsviri incəsənət rəng, musiqi səs dilində danışır. Yəni onlar müxtəlif diskurslara malikdirlər.Əlbəttə, onlarla bağlı tədqiqatlar da müxtəlif dillərdə danışırlar. Buna görə də mədəniyyət haqqında tədqiqatların eyni dildə danışmasını, vahid diskursdan istifadə etməsini mümkünsüz edir. Mədəni tədqiqatların amorfluğu da bununla bağlıdır.

Deməli mədəni tədqiqatları həyata keçirən araşdırmaçı daim "üzən" obyektə müraciət etmək məcburiyyətində qalır. Bundan əlavə mədəni tədqiqatçılar müxtəlif irqi, gender, sosial-iqtisadi və digər faktorlrı da öz araşdırmalarında nəzərə almalıdır və öz deyimini onlara uyğunlaşdırmalıdır.

Qeyd etmək lazımdır ki, britan mədəni araşdırmaları digər xalqlarda bu sahədə aparılan tədqiqatlara nisbətən daha erkən formalaşmışdır. Özü də bu tədqiqatların spesifikası onların ilk növbədə ədəbiyyatçünaslığa söykənməsi ilə bağlı idi.

Keçən dəfə mədəni tədqiqatların Qərb aləmində ilk dəfə Britaniyada həyata keçirilməyini və ilk növbədə ədəbiyyatşünaslığa əsaslandığını göstərdik.

Lakin çox tezliklə bu tədqiqatlar digər elm sahələrini də ehtiva etməyə başladı. Müəyyən mənada mədəni tədqiqatlar II dünya müharibəsindən sonra qərb humanitar fikrində mühüm yer tutan "sosial mətn nəzəriyyəsi"nə, həmçinin poststrukturalizmdə və dekonstruktivizmində sol radikal radikal cərəyanlara əsaslanırdı və faktiki olaraq onların aparıcı meyllərini davam etdirərək siyasi və sosial yönümlü mövqedən çıxış edirdi.

Ədəbiyyat

1.Əliyev İ. Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. http//-multikulturalizm.qov.az 2015/01/02 ilham-eliyev-multikulturalizm
2. Hacıyeva M.T. XXİ əsr mədəni paradiqması multimədəni aspektdə (25-26 noyabr 2014-cü ildə ADU tərəfindən keçirilmiş "Respublika elmi-praktik konfransı" nın materialları
3. Məmmədov Fuad. Kulturalogiya, mədəniyyət, sivilizasiya. "Ol" MMC nəşriyyatı. Bakı 2016.
3. bakuforum.az/.../**multikulturalizm**-nailiyyetler-.
4. news.milli.az/society/231544.html

U.Aliyeva

Multiculturalism impact on literature

Summary

Multiculturalism is one of these factors to unite all cultures on the basis of certain principles.today, it's impossible to create without considering international cultural practices. Multiculturalism has formed in unity of different fields of humanitarian thoughts: antropology,politicism,-economy,history,psychology,pedogogy and literature. The impact of multiculturalism in literature and its problem of study by literary critics is very relevant today. In fact, cultures didn't get in touch in the end of XX-XXI century. This process has existed throughout history. History of a culture clearly proves that even supercilious antique Greek culture adopted a lot from surrounding "barbarian" nations. For example, in Greek mythology you can see enough elements of Middle East's outlook - mythology . Ironically, however, the theory of multiculturalism has occurred only now - at the beginning of the XXI century. If you pay attention carefully to German philosopher Goethe of 18th century it becomes clear that he meant "world culture" in "world literature". For example, Salman Rushdi's works can be considered extremely exciting multicultural event. At the same time in French literature Albert Camu's works can be an interesting subject of multicultural research . On the one hand, he is the one of the most powerful events on the French culture and literature. On the other hand, Spanish elements in his genes are extremely strong.

У.Алиева

Мультикультурализм литература

Резюме

Мультикультурализм является одним из факторов, объединяющих все культуры на основе определённых принципов. Невозможно создавать что-то, не учитывая международную культурную практику.. Мультикультурализм объединил в себе разные области гуманитарной мысли: антропологию, политицизм, экономику, историю, психологию, педагогику и литературу. Влияние мультикультурализма в литературе и его проблемы литературной критики на сегоднешный день очен актуально. В целом культуре не было взаимосвязаны в конце 20-21 веков. Этот процесс продалжался на протежений всей истории. История культуры однозначно доказывает что греческая культура очень многое заимствовала от “варварских” народов. Например в греческой мифалогии встречаются очень много элементов из Ближне Восточной мифалогии. Однака теория мультикультурализма раскрыта толька сейчас начале 21 века. Если вникнут творчество немецкого философа 18 века Гете становится понятно что он подразумевал под “мировой культурой” и” мировой литературой” . Например произвидения Салмана Рушды можно считать очень интересным мультикультуральным событием. В тоже время в французской литературе произведения Альберта Камю могут быть обьектом межкультурный исследований в одной стороны он является одним из самых влиятельных во французской культуре и литературе с другой стороны испанские гены дают о себе знать

Rəyçi: Aynur Sabitova
professor

Dosent RAMİDƏ MİRZƏFƏROVA
Bakı Slavyan Universiteti
ramide@mail.ru

ANARIN "ƏLAQƏ" POVESTİNDƏ İNSAN PROBLEMİ

Keywords: image, time, folklore, fantasy,
Ключевые слова: образ, время, фольклор, фантастика.
Açar sözlər: obraz, zaman, folklor, fantastika.

"Əlaqə" povestində qəhrəmanın adi, insan məntiqi və ağlı ilə əlaqədar dediyi fikirlər Anarın öz oxucusuna aşılamaq istədiklərini birbaşa ifadə edir. Dünyanın, insan taleyinin dərkində rasional təfəkkürdən çox şüuraltı duyğulara, intuitivizmə üstünlük verən sənətkar əsərlərində bu məsələlərə daha artıq önəm verir.

Ədəbiyyatşünas Gülxani Pənah "Əlaqə" povestinin nağıllarımızla oxşarlığından danışmışdır: "İnsan əqli, zəkası kosmik fəzalara daha meyllidir, öz möcüzələrinin cavabını axtarır, həyat naminə cavablarını da özü verməyə çalışır. Nəsə axtarışdadır insan əqli, zəkası; alim alim kimi düşünür, sənətkar, ədəbiyyatçı da öz duyğularının kəşfinə "sığınır" [3,245]. Nağıl dolu möcüzələr adasına bənzəyir "Əlaqə" əsərinin qəhrəmanının həyatı. Qorxulu, maraqlı, düşündürücü hadisələr burulğanında çabalayan gənc tələbə ağlın, dərrakənin və eyni zamanda marağının işığında gördüyü, yaşadığı "möcüzələr"dən səbrlə çıxır. Gördüklərini, ətrafında baş verən hadisələri, artıq bu dünyasını tərk etmiş ev sahibinin "gəlişini", zamanaltı, şüuraltı əlaqələri ağlının, məntiqli düşüncəsinin işığında qəbul edir.

Bu əsərdə insan arzusu, istəkləri utopik xəyalların qoynunda çiçək açır. Qəhrəmanları nə zamanın təkərini geri döndərmək iqtidarındadırlar, nə də ona qarşı çıxmaq. Amma insan zamanı qaytara bilmək, zaman prizmasından milyard illərlə yol qət etməklə qalaktikanın sferasına baş vurmaq arzusunu da boğa bilməz.

"Əlaqə" povestinin janrı barədə mülahizə yürüdərkən əsərin bədii mətninin ortaya qoyduğu qənaətlərə istinad etmək daha düzgün olardı. Əsərdə isə müvafiq ağlasığmaz, dərkolunmaz hallar məntiqi cəhətdən əsaslandırılmır, müxtəlif çevrilmələr, məsələn, fotoşəkillərdə adamların sifətinin dəyişməsi, divar saatının əksinə hərəkəti, otağın qapılarının başqa evin mənzilinə açılması, ikisifətli adamların peyda olması, liftin iyirminci mərtəbəyə qalxa-qalxa zirzəmiyə gəlib çatması və tələbənin beyninə təsirsiz qalmayan digər metamorfozalar qorxulu, həyəcanlı bir mühitin yaranmasına səbəb olur. Yaşar Qarayev çevrilmələri "ahəngsizliyin detalları" hesab edir [2, 8]. Onun fikrincə, bunlar "əsəbləri sarsılan tələbənin adi rabitə implusunu

qəbul edə bilməməsinin nəticəsidir. Belə ki, "rabitəsizlik–nizamsızlıq və xaos, yuxu və mistika yaradır". Anarın qəhrəmanlarını "dairə"də yaşayanlar və "dairə"dən kənarda yaşamağa can atanlar kateqoriyasında dəyərləndirən Yaşar Qarayev "Əlaqə" povestinin aparıcı qəhrəmanı tələbəni də xarakter etibarilə "fövqələrazi" yə can atan, "altıncı mərtəbə"nin "yolunu, ünvanını axtaran" [1,c.2,8] insan kimi səciyyələndirir.

Anarın qəhramanı yazılmamış qanunları ilə seçilən bir aləmdə dolaşır. Tələbə öz psixoloji-əsəb durumuna müvafiq mühitdə, yaxud "dairə"də dolaşa bilər və ya dolaşmaq istəyir. Baxmayaraq ki, onun gəzişdiyi hərəkət xəttindən yaranan fiqurun ölçüləri və forması hələ müəyyən deyil. Lakin povestin süjetindən də aydın görünür ki, tələbəni müəyyənlikdən çox qeyri-müəyyənlik çəkib aparır. Tələbə bu aləmlə görüşdə onu nə gözləyir, bilmir. Amma ona tələsir, can atır. Ən maraqlısı isə nəinki "real" məqamlara (mənzil kirayə etmək) can atımına görə, hətta səma cəhdinə görə də Anarın öz qəhrəmanını ittiham etməməsidir. Burada təəccüblü heç nə yoxdur. Çünki Anar qəhrəmanının təbiətini kifayət qədər öyrəndiyindən onun bu səylərinin qarşısını almır və ya qarşısını almaqda məna görmür. Povestin bədii mətni, fəlsəfəsi, tələbənin stixiyasından doğan xarakteri ortaya qoyması kontekst genişliyindən xəbər verir. Tələbənin daim qəribəliklərlə qarşılaşarkən, rabitəsizlik şəraitinə düşərkən, real əlaqə, ünsiyyət hissini itirərkən, daim xaos, yuxu və mistika ilə qarşılaşarkən belə yenə irəliyə can atması Anar nəsrində bədii xarakter konsepsiyası baxımından mühüm əhəmiyyət kəsb edir. Povestin əvvəlindəcə bəlli olur ki, Anarın qəhrəmanı qeyri-adi təbiətə malikdir. O, ətrafı nəinki cismən duyur, həm də şüurlu hiss edir. Uğuru isə onu aydın şüurla dərk olunmayacaq qeyri-müəyyən, qeyri-real bir halla "mənzil", "mərtəbə" axtarışına çıxıb. Bu axtarış həm də obrazın tale yollarında axtarışı kimi xarakterindən də yan keçmir. Məlum olur ki, hələ yataqxanada sakin olarkən adama yovuşmazlığına görə ətrafı ilə ülfət, ünsiyyət, rabitə yarada bilmir. Və buradan da tələbənin sonrakı "əlaqələri" və "ünsiyyətsizliyi" təkanlanır. Beləliklə, yaxın ətrafı ilə real münasibətlər müstəvisində ünsiyyət yarada bilməyən tələbə kosmik əlaqələr burulğanına düşür, düşüncəsinin xarakterini dəyişən qəribəliklərlə qarşılaşır, məntiqə arxalanmaq istədiyi halda onun iqtidarsızlığı ilə qarşılaşır. "Əlaqə"nin qəhrəmanının ülfətsizliyi ondan yaranır ki, tələbəlik həyatına özünü hazırlayarkən tək qalmaq, ətrafı ilə əlaqə yaratmamaq yolunu tutur. Məsələn, ilk dəfə gördüyü adamı kiməsə oxşadan, ilk dəfə yediyi meyvənin dadının hardansa ona yaxşı tanış olduğunu yəqin edən,_divardan asılan şəkildəki insanların heç birinin indi sağ olmadığını ağlına gətirməsi, fotoşəkillərin anlaşılmaz bir sirlə təsvirini saxladığı adamın diri olub-olmamasını büruzə verməsinə inamı da məntiqi düşüncənin hüdudlarından kənara çıxırdı. Bütün bu keyfiyyətləri ilə yanaşı tələbə zaman implusunu itirir, sifətləri yadında

saxlaya bilmir, rəngləri fərqləndirməkdə çətinlik çəkir, xəyallara qapılır, hər gördüyündə müdhiş və faciəvi bir sirrin oduğunu mülahizə edir. Lakin ona qəribə görünən bütün bunların aydın və asan izah olunması olur.

Əsərdən də görürük ki, Anar "Əlaqə" povestinin qəhrəmanı əvvəldən axıra qədər qorxu içində saxlayır və o, əsər boyu özünü "dəli olmaqdan" qorumaqla məşğul olur. Tələbə adama yovuşmazdır və bunun kökündə ətrafdakılara inamsızlıq hissi durur. Həmin hiss tələbəni yataqxanada, başqa yoldaşları ilə biryerdə yaşamağa qoymamış, nəticədə o ayrıca mənzil tutmağa məcbur olmuşdur. Təkləndikcə ətrafdakı hər hansı bir hadisədən şübhəyə düşən tələbənin psixoloji gərginliyi şərti–metaforik inikas formasına üz tutmaqda başlıca əsasa çevrilir. Kirayə tutduğu evin quruluşu, içindəki əşyalar, ev sahibi olan qarının davranışı tələbəyə qəribə gəlir. Vasvasılıq, qorxu, qarabasma qəribəlikləri artırır və tələbə qeyri-adi dəyişmələrlə üzləşir. Lakin o, müşahidə etdiyi qəribəliklərin elmi izahını verməyə çalışır, öz-özü ilə daxili söhbət edir, özünü təmkinə çağırır.

Povestin qəhrəmanının daxili ikiləşmə prosesini daha görümlü etmək üçün onu psixiatr və astrofizikin simasında, qəribəliklərin elmi şərhini verən ikinci məni ilə dialoqda qələmə alır. Bu, tələbənin təklik azarından irəli gələn sarsıntılarını, fərdi xarakter cizgilərini ortaya qoymaqla yanaşı, həm də səbəb və nəticə, zaman və məkan kimi köklü anlayışlar barədə fikir yürütmək, onlara yeni baxış bucağı altında nəzər yetirmək imkanı verir. Məsələn, tələbə ətraf insanlarla ünsiyyət yarada bilmədiyi halda, başqa planetlərlə əlaqə yaratmaq istəyir. Bu istək istehzasız ötüşmür. Belə ki, təkliyin törətdiyi xofun qarşısında onun dəli olmamağa söz verməsi kinayə doğurur. Qarşılaşdığı qeyri-adi dəyişmələr müqabilində tələbənin bu cür "mübarizliyi" folklorda qorxaq Əhmədlərin yalançı qəhrəmanlığını yada salır.

Təbiəti ünsiyyətə deyil, şübhəyə rəvac verdiyi üçün ikinci "məni" ilə görüşü onu "yəqin dəli oluram" qənaətinə gətirib çıxarır. Qarının oğlunun psixiatrla qonşuluğu, qonşusunun başına gələn romantik bir macəranı danışması, iyirmi mərtəbəli bina ilə üçmərtəbəli binanın eyni səviyyədə olması, dənizin olduğundan yuxarı, ya aşağı görünməsi, liftin binanın cürbəcür fokuslarına uyğun iş prinsipi, hərəkət xətti, ümumiyyətlə evin qaydası, qardaşı və anası barədə söylədikləri kifayət qədər qəribə olmamlarına baxmayaraq tələbə vahiməli bilməcələrin məngənəsində daha əvvəlki kimi sıxılmır, əksinə, bundan bir neçə saat qabaqkı məntiqsizlik dumanı get-gedə çəkilirdi. Hətta psixiatrın qardaşının vaxtı geriyə atmaq kimi metafizik cəhdləri də artıq tıələbəni təlaşa salmır və belə qənaətə gəlir ki, onun da dəqiq məntiqi izahı var. Ona görə də həkimin onun barəsində nə düşünəcəyini eyninə almır, bilməcələrin açılacağına inanırmış kimi söhbəti axıra çatdırmaq istəyir. Psixiatr isə tələbənin yorğunluğuna istinad edərək

qavramanın pozulmasını beynin müəyyən mərkəzlərində kontaktın əmələ gəlməsi ilə izah edir.

Anarın qəhrəmanını səciyyələndirən xüsusiyyətlərdən biri, daha doğrusu, birincisi qeyri-müəyyənliyə və nizamsızlığa qarşı daxili bir etirazın olması idi. Ona görə də belə hesab edirdi ki, dəqiq elmi anlayışlarla bütün maneələri dəf edə bilər. Onun fikrincə əgər o bu barədə açıq şüurla düşünə bilirsə, deməli şüuru sağlamdır. Lakin bəzən ona elə gəlirdi ki, həm qarı, həm də onun həkim– psixiatr oğlu onun şüurunu pozmaq istəyirlər. Tələbə bir qədər sonra isə psixiatrdan fərqləndirə bilmədiyi astrofizik, yaxud povestdə deyildiyi kimi, "psixiatr–astrofizik" "fokus"larına məruz qalır. Lakin bu onun başına açılan "oyunlar"ı ifşa etmək əzmini bir qədər də artırır. Çünki indi də astrofizik onu "vaxtın fəlsəfi və fiziki mahiyyətinə həsr olunmuş konqresə" gedəcəyi ilə təəccübləndirmək istəyir. Guya bu konqresdə o, tələbəni daim düşündürən kosmik əlaqələr problemi ilə bağlı məruzələr dinləyəcək. O, tələbənin marağına hesablanan başqa bir məsələni "kosmik kontaktları" yaratmağın üsullarının tələblərə cavab vermədiyini ortaya atır. Tələbəyə təlqin edir ki, qalaktik əlaqə sistemi tamamilə başqa prinsiplər əsasında qurulduğuna görə "şüurumuz əlaqənin tamamilə başqa növünü anlamağa, başqa növ əlaqə prinsiplərini dərk etməyə qadir deyil" [1,c.1,166].

Povestdə diqqəti, əsasən, fenomenal üçlük cəlb edir: Tənha Yer Kürəsi- Tənha Bina-Tənha, Fərdiyyətçi Tələbə! Yer Kürəsinin sakinləri ona görə geniş makrokosmik münasibətlər yarada bilmirlər ki, hərtərəfli kosmik əlaqə vasitələrinə hələ yiyənlənməyi bacarmayıblar; tələbə ona görə kütləvi–insani həyat tərzinə qovuşa bilmir ki, fərdiyyətçidir və inanlarla hərtərfli əlaqə yaratmaq keyfiyyətindən tamamilə uzaqdır. Şəhərdən ayrı, tənha bina. Əsərin ən böyük müvəffəqiyyəti tələbənin başına gələn hadisələrin məhz bu tənha binada təsvir edilməsidir. İnsanlarla hərtərəfli ünsiyyətdən məhrum olan gəncin başına gələn bu qəzavü-qədər belə məkanda təsvir olunmalı idi: Şəhərdən, binalardan əlaqəsi kəsilmiş bu tək bina, adamlardan ayrı düşmüş tənha gənclə digər planetlərin canlı varlıqları ilə əlaqəsi olmayan tənha yer kürəsinin uyğun vəziyyətini-böyük yalqızlığı qabarıq göstərmək üçün ən tutarlı simvolik obyektdir. Belə əlaqələndirmənin sayəsindədir ki, povestdə möhkəm, bitkin ideya-kompozisiya bütövlüyü yaradılmışdır.

Ədəbiyyat

1. Anar. Seçilmiş əsərləri: 2 cilddə, Bakı: Azərnəşr, 1988,
2. Qarayev.Y. Meyar şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, 457 s.
3. Pənah.G. Anar və folklor. Bakı: Elm, 2007, 286 s.

R.Mirzayeva

The problem of man in «Contact» by Anar

Summary

The paper is dedicated to the problem of man in «Contact» by Anar where the character is many-sided.

The dissociation of the student, his searches around himself and his going around in circles are scrutinized by the hero. The young man becomes the witness of the unclear mystical phenomena. Life of heroes in the story is similar to the island which is full by fantastic miracles.

Are shown in article as a dream and desires of the hero blossom in the utopian course. Features of heroes by Anar in masterful disclosure of their psychology.

The paper also reflects different scientific points of view relating to the central character of Contact.

Р.Мирзаева

Проблема человека в повести Анара «Контакт»

Резюме

Статья посвящена проблеме человека в повести Анара «Контакт», где образ многогранен.

Раздвоение студента, поиски вокруг себя, хождения по кругу исследуются героем. Юноша становится свидетелем непонятных мистических явлений. Жизнь героев в повести похожа на остров, который полон сказочными чудесами.

В статье показаны как мечты и желания героя расцветают в утопическом русле. Особенности героев Анара в мастерском раскрытии их психологии.

Также в статье отражаются различные точки зрения ученых по поводу главного героя повести «Контакт».

Rəyçi: Vaqif Tahirov
filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent

AYTƏN MUŞKİYEVA
Gəncə Dövlət Universitetinin
Azərbaycan və dünya ədəbiyyatı kafedrasının
aytan@mail.ru

C.CABBARLININ YARADICILIĞINA DAIR TƏDQIQATLAR

Açar sözləri: ədəbiyyat, dramaturgiya, nasir, şair, elmi fəaliyyət, yaradıcılıq.
Ключевые слова: литература, драматургия, прозаик, поэт, научная деятельность, творчество.
Key words: Literature, dramatic composition, prose-writer, poet, scientific activities, creative activities.

Professor Yaşar Qarayevin uzaqgörənliklə söylədiyi elmi proqnozlar son on beş ilin qənaətlərinə əsasən özünü tamamilə doğrultdu. "Cabbarlının məfkurə və sənət taleyi yeni təfəkkürün sınağından", müstəqil Azərbaycan ədəbi düşüncəsinin mühakiməsindən uğurla çıxdı. C.Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin təkamülündə və təşəkkülündə müstəsna xidmətlər göstərmiş görkəmli dramaturq, nasir, şair, jurnalist, tərcüməçi, kinossenarist, tənqidçi, teatrşünas, yaşın və yaradıcılığın nisbəti baxımından fenomenal təfəkkür sahibi, qüdrətli sənətkardır. Onun zəngin və təkrarsız ədəbi irsi, nurlu və məzmunlu sənətkar ömrü, mübariz və parlaq şəxsiyyəti zaman-zaman ədəbi tənqidin, oxucu və tamaşaçı auditoriyasının diqqət mərkəzində zərif və unudulmaz izlər buraxmışdır. Bununla belə böyük sənətkarın ədəbi-bədii yaradıcılığı, elmi bioqrafiyası dövrün və zamanın ziddiyyətləri fonunda tam, sistemli, əhatəli, konyukturadan kənar araşdırılmamış, kifayət qədər obyektiv tədqiq edilməmişdir. XX əsrin ikinci onilliyində yaradıcılığa başlayan Cəfər Cabbarlı zəngin və hərtərəfli yaradıcılıq yolu keçərək, ədəbiyyatın həm şeir, həm dram, həm də nəsr növlərindən bacarıqla istifadə etmiş, istedadını sınamışdır. Cəsarətlə demək olar ki, müasir Azərbaycan ədəbi dilin formalaşmasında onun müstəsna xidməti var.Cabbarlı ədəbiyyata yüngül bir həvəslə gəlməmişdi. Onu ədəbiyyata çəkən qüvvə ictimai həyatda fəal iştirak etmək ehtiyacı idi. O, hətta ilk əsərlərində də böyük maarifçi-yazıçılarımızın, realistlərimizin yolu ilə getməyə çalışaraq, hər əsərində ictimai bir fikir ifadə edirdi, onun hər əsəri müəyyən daxili həyəcanın, düşüncənin nəticəsi kimi meydana çıxırdı.1915-1920-ci illər Cəfər Cabbarlının təkcə tələbəlik illəri deyil, ədəbiyyata, sənətə gəldiyi dövrdür. O, bir-birinin ardınca "Vəfalı Səriyyə, yaxud göz yaşları içində gülüş", "Solğun çiçəklər", "Nəsrəddin şah", "Trablis müharibəsi və ya Ulduz", "Ədirnə fəthi", "Bakı müharibəsi", "Aydın" kimi

Azərbaycan səhnəsini düşündürən əsərlər yazmış, lirik və satirik şeirlərlə, bir sıra hekayələrlə müxtəlif mətbuat orqanlarında çıxışlar etmişdir. Sevili Cabbarlı dramaturgiyasının ələləxüsus son dövr əsərlərindəki müsbət qəhrəmanları sırasında, fərqləndirən əsas xüsusiyyət onun dinamik inkişafda olub tarixi baxımdan qısa bir müddətdə böyük bir daxili inkişaf yolu keçməsidir. Bunun da əsas səbəbi, zənnimizcə, Cabbarlının müsbət qəhrəmanları sırasında yalnız Sevilin köhnə dövrdə doğulub tərbiyə almasında, yeni dövrdə isə fərdi problemlərlə üz-üzə qaldıqdan sonra həyatda öz yerini müəyyənləşdirmək problemini həll etmək və həmin problemi yalnız özünün fərdi problemi deyil, bütün özükimilərin – qadınların problemi hesab edərək fərdi problemi ictimai problem səviyyəsinə qaldıra bilməsindədir. Buna görədir ki, Balaşın "…söylə ki, bunlar hamısı yalandır" sözlərinə cavab olaraq yalnız özündən, öz fərdi problemlərindən deyil, ümumiyyətlə bütün qadınların xoşbəxtlik hüququnu müdafiə edərək deyir:

Lakin bununla belə Sevil fərdi problemin daşıyıcısı olub onları ictimai problemlər səviyyəsinə yüksəldə bilməsi ilə potensial imkanlarına görə Aydın, Oqtay, Elxan kimi Cabbarlı qəhrəmanları ilə bir sırada durur, lakin onlardan fərqli olaraq, o, yuxarıda qeyd edildiyi kimi, iki zaman kəsiyində yaşayır və yeni dövr ona fərd kimi azad inkişaf edib mübarizə adlı həyatda öz yerini tutmağa imkan verir. Nə Aydının, nə Oqtayın, hətta C.Cabbarlının ən mübariz qəhrəmanı Elxanın məqsəd uğrunda sonadək mübarizə aparıb həm mənəvi, həm də cismani qələbə çalmaq imkanı olmamışdı. Belə imkan yalnız Sevildə vardır. Bu əsərdə Cabbarlı əvvəllər dəfələrlə kişilərin timsalında araşdırdığı fərdi problemi qadın qəhrəmanın simasında yenidən qoyur, Azərbaycan qadını üçün fərdi problemi görünməmiş bir kəskinliklə əsərin mərkəzinə gətirir, ədəbiyyatımızı zənginləşdirir. Sevildən sonrakı Cabbarlı qəhrəmanları isə artıq yeni dövrün adamlarıdır ki, onları dövrün öz hakim ideologiyası dəstəkləyir. Azərbaycan ədəbiyyatında Sevil obrazına qədər də ədiblərimiz - M.F.Axundov, N.Vəzirov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyov, N.Nərimanov və başqaları- qadın taleyi, obrazı yaratmış, Azərbaycan qadınının tipik surətlərini canlandırmışlar. Lakin onların heç biri hüquqsuz, un çuvalına tay tutulan Azərbaycan qadınının fərdi xoşbəxtlik hüququnu və bu fərdi xoşbəxtliyə qovuşmağı sosial problem kimi Cabbarlı səviyyəsində qoya bilməmişdir. Sevil obrazı yeni ictimai dövrün yeni qəhrəmanı kimi ortaya çıxmaqla Azərbaycan qadınının potensial imkanlarını meydana çıxarmış, milli əxlaqi təfəkkürdə onun yerinin düzgün olmadığını göstərmiş, qadının cəmiyyətin tam hüquqlu vətəndaş olmaq hüququnu bariz şəkildə təsdiqləmiş, cəmiyyət üzvlərinə – qadına və kişiyə diametral fərqli münasibətin düzgün olmadığını nümayiş etdirmişdir. Sevilin timsalında konkret, fərdi bir qadın taleyini göstərməyə müvəffəq olmuş dramaturq, eyni zamanda öz dövrü üçün hələ tipik olmayan,

lakin artıq yaxın gələcəkdə tipik ola biləcək və həyatın göstərdiyi kimi, tipik olacaq azad qadın obrazını təqdim etmişdi. Buna görədir ki, XX əsr Azərbaycan gerçəkliyində azad Azərbaycan qadınının öz layiqli yerini tutmasında C. Cabbarlının xidmətləri danılmazdır.C.Cabbarlı yaradıcılığında da müsbət qəhrəman obrazı müəyyən inkişaf yolu keçmiş, mühitin dustağı olub şəxsi xoşbəxtliyinə can atan Səriyyə və Saradan, romantik xəyalı göylərdə pərvaz edən, lakin real gerçəkliklə ayaqlaşa bilməyən, fərdi səadətini belə qoruyub saxlaya bilməyən Aydından yeni mədəniyyət, teatr uğrunda mübarizə aparan Oqtay Eloğluna, yadelli qəsbkarlara qarşı vuruşan, bu yolda canından belə keçən Elxana, qısa müddətdə ilk növbədə böyük mənəvi inkişaf yolu keçib yeniləşən Sevilə qədər yüksəlmişdir. Ən əsası isə odur ki, həm B.Şounun müsbət qəhrəmanları, həm də C.Cabbarlının müsbət qəhrəmanları son nəticədə sosial mühitin səciyyələndirilməsinə, dövrün və ictimai mühitin bədii mənzərəsinin yaradılmasına xidmət edirlər.Cabbarlının yaradıcılığı zaman etibarilə çox davam etməsə də, siyasi-ictimai cəhətdən çox əhəmiyyətli bir dövrü, 1915-1934-cü illər arasındakı iyirmi illik bir tarixi mərhələni əhatə edir. Çox mühüm ictimai-siyasi hadisələrlə dolu olan bu tarixi dövrü nəzərdə tutaraq deyə bilərik ki, Cabbarlının ədəbi fəaliyyəti Azərbaycanda, xüsusən Bakıda kapitalizm münasibətlərinin sürətlə inkişaf etdiyi burjua və mülkədar Azərbaycanının fəhlə-kəndli sovet respublikasına çevrildiyi illərdə keçmişdir. Cabbarlının böyük yaradıcılıq yolu çətin və ziddiyyətli olsa da, əsasən, yüksəliş və tərəqqi yolu olmuşdur. Azərbaycan demokratik-realist klassik ədəbiyyatına, zəngin xalq yaradıcılığına əsaslanan Cabbarlı, başlıca olaraq, Mirzə Fətəli Axundov realizmindən qidalanırdı. Mirzə Fətəli Axundovun maarifçi-demokratik fikirlərini, həyatla dərindən bağlı olan realizmini Cabbarlı ümumiyyətlə Azərbaycan ədəbiyyatı üçün, xüsusən özü üçün ən düzgün bir yaradıcılıq yolu hesab edirdi.

C.Cabbarlı şəxsiyyətinin böyüklüyünü, sənətinin qüdrətini şərtləndirən amillərdən biri də odur ki, bütün siyasi təzyiqlərə baxmayaraq, 30-cu illərin qasırğaönü Azərbaycanının qara cildli tarix kitabını vərəqləməyə nail olmuş, cəsarətli addım atmış, qaranlıq səhifələrə həqiqət işığı salmağı bacarmışdır. Sözün əsl mənasında o, tarixi gerçəkliyə güvənən bədii həqiqətlər ustasıdır. Böyük Azərbaycan sənətkarı Cəfər Cabbarlının zəngin ədəbi-bədii və elmi-publisistik irsinin dövlət müstəqilliyi dövründə ilk dəfə geniş və təkmilləşdirilmiş sanballı nəşrinin işıq üzü görməsi ədəbi ictimaiyyət üçün dəyərli töhfə olmaqla yanaşı, klassik irsə ciddi qayğının bariz təzahürüdür.Bədii həqiqət genealoji kökü, estetik qaynaqları və rişələri ilə həyat həqiqətlərinin beşiyindən boy atır, pərvəriş tapır. Tarixi gerçəklik isə həyat həqiqətlərinin süzülmüş, seçilmiş, sıxılmış məcmusu, mənəvi dəyərlər toplusunun bütün zamanlar üçün müasirlik faktıdır. Azərbaycan ədəbiyyatının sadiq qaldığı realist, demokratik ənənələrin inkişafına tarixi,

ədəbi-bədii mövzuların estetik təsiri, bu mötəbər məhvər əsasında bədii həqiqətlərin intişarı, zəruri mənəvi amilə çevrilməsi prosesi və əhəmiyyətli missiyası danılmazdır. İdeoloji-siyasi təbəddülatların mənəvi dəyərləri, klassik irsi, ədəbi qaynaqları aşındırdığı, devalvasiyaya uğratdığı mərhələlərdə əsərlərdəki tarixiliyin və çağdaşlığın sıx vəhdəti, hadisə və mahiyyətin aktuallığı, bədii həqiqətlərin şübhəsizliyi və etibarlılığı hər bir sənətkarın ədəbi taleyini zamanın amansız, sərt tufanlarından, qasırğalarından qoruduğu qəbul edilən və dərk olunan reallıqlardır. Ötən əsrin səksəninci illərinin sonunda şəksiz, konfliktsiz, sabitləşmiş, ehkamlaşmış dəyərlərə, ölçülərə şübhələr artdıqca, cəmiyyətin münasibəti köklü şəkildə dəyişdikcə yetmiş ilə yaxın "möhtəşəm", "qüdrətli", "sarsılmaz" epitetləri ilə müşayiət olunan ictimai-siyasi quruluşun, qırmızı imperiya səltənətinin təməl çatları sürətlə böyüyür və artırdı. Siyasi təkanlara davam gətirməyəcəyi öncədən görünən, ərpimiş və qartımış bir siyasi sistemin çöküntüsü altında onun təməl daşları, sütunları və tirləri ilə yanaşı, milli-mənəvi sərvətlərimizin bir qisminin qalacağı və ya zədələnəcəyi müşahidə olunurdu və heç bir səlahiyyət sahibi tərəfindən sığortalanmamışdır.C.Cabbarlı XX əsr Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin təkamülündə və təşəkkülündə müstəsna xidmətlər göstərmiş görkəmli dramaturq, nasir, şair, jurnalist, tərcüməçi, kinossenarist, tənqidçi, teatrşünas, yaşın və yaradıcılığın nisbəti baxımından fenomenal təfəkkür sahibi, qüdrətli sənətkardır. Onun zəngin və təkrarsız ədəbi irsi, nurlu və məzmunlu sənətkar ömrü, mübariz və parlaq şəxsiyyəti zaman-zaman ədəbi tənqidin, oxucu və tamaşaçı auditoriyasının diqqət mərkəzində zərif və unudulmaz izlər buraxmışdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1.Cabbarlı C. Əsərləri. Dörd cilddə, II cild, Bakı: Şərq-Qərb, 2005,
2.Cabbarlı C. Seçilmiş əsərləri. 3 cilddə, II c., Bakı: Qapp-Poliqraf, 2002.
3.Cəfər Xəndan. Seçilmiş əsərləri. Bakı:Azərbaycan Dövlət nəşriyyatı, 1972.
4.Cəfərov C. Şeytanın şagirdi. «Kommunist» qəz., Bakı, 1965, 15 iyul
5.Dadaşov A. Dramaturgiya. Bakı: BDU-nun nəşriyyatı, 2004, 320 s.
6.Dadaşov A. Müstəqillik dövrünün dramaturgiyası. Bakı: Nağıl evi, 2005.

Aytan Mushkiyeva

Investigations concerning to the J.Jabbarli's creative activities.
Summary

It is hard and impossible to perceive the J.Jabbarli's wide creative activities way which does not place to measure created man intellect, boundaries, frames and observation from the narrow and deep window of the sosialism conception. in the In the decade of the XX centuries after restoring political independence of Azerbaijan people necessity of to look through the time of this great national craftsman's life and to investigate creative work in the independence light, Jabbarly's heritage has arisen the criteria of the valuing heritable objectiv in the flatness of literary scientific critical principles. Human conseption, mental ability, ethical, moraland physical education take an important place in great J.Jabbarli's versatile literary activity, including the wide public-pedagogical heredity. According to J.Jabbarli, its impossible to imagine a perfect man without physical-body integrity.

А.Мушкиева

Исследования о творчестве Дж.Джаббарлы
Резюме

Трудно и невозможно наблюдать и осознавать через тесное и тусклое окно широкую панораму творчества Дж.Джаббарлы, невмещающееся в меры, грани и рамки, которые создал человеческий ум. После восстановления политической независимости Азербайджанского народа в последнем десятилетии 20-го века возникла необходимость исследовать эпоху этого великого национального мастера, его жизнь и творчество в свете независимости и критерии оценивания наследия Джаббарлы на основе объективных научных принципов.В многостороннем литературном творчестве великого Дж.Джаббарлы, в том числе концепция человека, его ума, морального, нравственного и физического воспитания занимает важное место в его широком, общественно-педагогическом вдохновении. По Дж.Джаббарлы невозможно представить разумного человека без совершенной физическо-теловой целостности.

Rəyçi: Bədirxan Əhmədov
filologiya elmlər doktoru, professor

FATMA HÜSEYNOVA
BSU
f.huseyn@gmail.ru

"MOLLA NƏSRƏDDIN" JURNALININ FOLKLOR QAYNAQLARI

Açar sözlər: Molla Nəsrəddin, folklor, jurnal, gülüş, satira
Key words: Molla Nesreddin, magazine, folklore, text, laugh
Ключевые слова: Молла Насреддин, журнал, фольклор, текст, смех

Folklor, xalq gülüşü "Molla Nəsrəddin" jurnalının və onun ifadə etdiyi məfkurənin bədii planda ifadəsinin əsas qaynağıdır. İddia edildiyinin əksinə olaraq, bu satirik jurnalda Molla əmi, Xacə Nəsrəddin və s. sadəcə kadr arxasında qalır, yəni, ədib bu obrazdan öz hədəflərini "vurmaq" üçün istifadə edir. Burada məsələyə bir neçə aspektdən baxmaq lazımdır. a) Cəlil Məmmədquluzadə bu ad altında adresatı elə dəqiqliklə seçir ki, onun oxuduğu, yaxud dinlədiyi nəsnə yaşadığı həyatın ayrılmaz bir hissəsi olsun. Bu, məsələnin ideoloji-məfkurəvi tərəfidir; b) Jurnalda satira ilə xalq gülüşünün tənasübü elə olmalıdır ki, estetik baza tükənməsin. Çünki böyük ədib jurnalın nəşrinə başlayarkən insanların öyüd və nəsihətlə pis vərdişlərdən əl çəkməyəcəklərini dəqiq bilirdi. Onu da dəqiq bilirdi ki, yalnız "məsafəsiz" satira ilə problemin öhdəsindən gəlmək və beləliklə daşıdığı missiyanı yerinə yetirmək olmaz (2, 132). Xalq gülüşü, lətifə "oyunbazlığı", məzəli əhvalatların bol-bol və qayəyə uyğun şəkildə verilməsi estetik planda bir çox məsələlərin həllini asanlaşdırırdı. Jurnaldakı bir çox mətnləri sadəcə məzəli əhvalat kimi, lətifə "oyunbazlığı" kimi oxuyan şəxslər nəticə etibarı ilə özlərini, yaddaş və psixologiyalarını da yada salacaqlar.

"Molla Nəsrəddin" jurnalında xalq gülüşü və onun ifadə formaları haqqında düşünərkən ilkin olaraq yada məşhur Molla Nəsrəddin düşür. Cəlil Məmmədquluzadənin satirada hədəfi o qədər masştablı və qəliz xarakterə malik idi ki, onu insanlara göstərib anlatmaq heç də sadə məsələ deyildi. Məqsəd ideoloji-məfkurəvi anlamda çoxdan yuxuya getmiş milləti fil yuxusundan oyatmaq və bütün gizlinləri və iyrənclikləri ilə dünyanı ona göstərmək idi. Bəs nəyə görə Mirzə Cəlil başqa bir satirik, yaxud lətifə qəhrəmanını deyil, məhz Molla Nəsrəddini seçmişdi? Adın əvvəlindəki "molla" sözü də seçimin təsadüfi olmadığını bəlləyirdi. Mirzə Cəlil gülüş mədəniyyətində, hər şeydən qabaq qoca Şərqin gülüş mədəniyyətində "ikibaşlılığın" (termin olaraq, ambivalentlik) hansı rolu oynadığından xəbərdar idi. Sözü dolayısı yolla çatdırmaq, gülənlə gülüşə məruz qalan obyekt arasında məsəfəni məqsədə uyğun olaraq "oynatmaq" və sair

məziyyətlər Molla Nəsrəddin lətifələrinin populyarlıq qazanmasının əsas sirridir.

Jurnalın nəşrində, onun ayrı-ayrı nömrələrinin hazırlanmasında Mirzə Cəlil yuxarıda haqqında bəhs etdiyimiz gülüş mədəniyyətini həm mənaca zənginləşdirmiş, ona yeni ruh və əhəng vermiş, həm də xalq gülüş mədəniyyətinin spesifikasından bəhrələnməklə hədəflərini uzun müddət nişangahda saxlaya bilmişdi, çünki bu hədəflər məhz uzun müddət nişangahda qalmaqla aradan qaldırıla bilərdi. Mirzə Cəlilin həm naşirlik, həm də yazıçılıq istedadı, yumor hissinin, sarkastik incəliyin olduqca güclü olması hesabına bu nəşr Azərbaycanda realist nəsrin sonrakı inkişafında da əsaslı rol oynamışdır.

"Bu jurnal çap olunmağa başlayan kimi uğur qazandı və Mərakeşdən Hindistana qədər bütün müsəlman dünyasında ən nüfuzlu satirik nəşrə çevrildi". Bunu Amerikanın nüfuzlu ədəbiyyat jurnallarından olan "The New York Review of Books" yazır. Jurnalda daha sonra qeyd edilir ki,"...yazıçı Cəlil Məmmədquluzadənin redaktorluğu ilə çap edilmiş "Molla Nəsrəddin" kinayəli yumoru və fransız rəssamları Honoré Daumier, yaxud Toulouse-Lautrec-i xatırladan realist illüstrasiyaları ilə müsəlman ruhanilərin riyakarlığını hədəfə alırdı.

Jurnal ABŞ və Avropa dövlətlərinin dünyanın başqa ölkələrinə qarşı yürütdüyü müstəmləkəçi siyasəti, yerli elitanın rüşvətxorluğunu da sərt tənqid edir, amma eyni zamanda qərbləşmə, təhsil islahatı, qadın hüquqlarını təbliğ edirdi.

Ruhanilərə qarşı belə materialların çapı müsəlman ölkəsində asan iş deyildi, 20-ci əsrin əvvəlində bu, redaksiya heyəti üçün riskli idi. Hətta bir dəfə Cəlil Məmmədquluzadə jurnalda yazılanlara qarşı çıxan etirazçılardan qaçıb canını qurtarmalı olmuşdu".

"The New York Review of Books" yazır ki, səkkiz səhifəlik jurnalın təxminən yarısı illüstrasiyalardan ibarət olduğu üçün oxucular üçün çox çatımlı idi. Xüsusən də əhalinin böyük hissəsinin savadsız olduğu üçün.

Məqalədə deyilir ki, Azərbaycanda çıxsa da, jurnalın ən böyük təsiri İrana olub. "Molla Nəsrəddin" Qacar sülaləsinin rüşvətxoluğunu tənqid edirdi. Onun məqalələri və illüstrasiyaları Asiyada ilk parlamentin yaradılması ilə nəticələnmiş İran Məşrutə İnqilabının baş verməsi üçün zəminin yaradılmasına xidmət etmişdi.

"Molla Nəsrəddin" İranda və Balkan ölkələrində də oxşar satirik dərgilərin yaradılması üçün ilham mənbəyi olmuşdu (5).

"Molla Nəsrəddin"i az qala bütün dünyada məşhur edən isə onun xalq gülüşünə, Azərbaycan folklorunun qaynaqlarına dərindən, yəni mahiyyəıt etibarı ilə əsaslanması idi. Bu faktı detalları ilə sübut etmək məqsədi ilə bəzi nümunələrə müraciət etmək yerinə düşərdi. Molla Nəsrəddin lətifələrinin

birinə diqqət edək: “Deyirlər, Teymurləng ordusunda fil də saxlayırmış. Filləri ayrı-ayrı kəndlərə göndərirmiş ki, orada saxlasınlar. Fillərdən birini də Molla Nəsrəddin olan kəndə göndərir. Teymurləngin qorxusundan kimsə filə toxunmur. Fil kefi nə istəyir eləyir, əkin-zəmini, bağ-bağatı, bostanı yeyib tərg edir. Kəndlilər filin əlindən lap təngə gəlirlər. Onlar yığılıb mollanın yanına gəlirlər:

–A molla, bu fil bizdə istahat qoymadı, gəl qabağa düş. Əmirin yanına gedək, dərdimizi ona deyək, bəlkə bir rəhmi gəldi, fili apardı.

Molla razı olur. Onlar Teymurləngin yanına yola düşürlər. Yolda kəndlilər Teymurləngin qorxusundan ikibir-üçbir qaçıb dağılırlar. Teymurləngin qapısına çatanda molla baxır ki, hamı qaçıb, təkcə özü qalıb, öz-özünə deyir:

–Yaxşı, görün sizin başınıza nə oyun gətirəcəyəm.

Teymurləng ondan soruşur:

–Molla, nə uçün gəlmisən?

Molla deyir:

–Əmir sağ olsun, bizim kəndə bir fil qonaq göndərmisən. Bundan çox razıyıq. Ancaq fil tək olduğundan səs-küyündən dayana bilmirik. Kəndlilər də mənimlə gəlmişdi, cəsarət eləyib içəri girmədilər. Xahiş edirik, bir dişi fil də göndərəsən.

Teymurləngin mollanın sözündən xoşu gəlir, ona çoxlu ənam verir. Əmr eləyir ki, o kəndə bir dişi fil də göndərsinlər. Molla da aldığı hədiyyəni götürüb sevinə-sevinə evinə gəlir. Kəndlilər onu görüb soruşurlar:

–Molla, nə oldu?

Molla cavab verir:

–Gözünüz aydın, filin o biri tayı da gəlir.” (6).

Lətifədə struktur-kompozisiya əlaməti kimi əsas prinsip mətndə ehtiva olunan məna ilə oynamaqdır. Yuxarıdakı lətifədə bu oyunun bütün bəlirtiləri təqdim edilir. Konkret mətndə məna vektorunun istiqaməti ziq-zaq tələb eləmir, mətləb çox sadədir, qorxaq kəndlilər mollanı aldadır, molla da onlara kələk gəlir. Ancaq bu sadə mətiqin lətifədə həlli üçün molla yalan danışmaq üçün bir növ fürsət əldə edir və düşündüyü sadə kələyi var gücü ilə işə salır. Nəticədə qorxaq qazdığı quyuya özü düşür. Bu lətifələrdə molla bəzən normal məntiqə qarşı çıxır və bu qeyri-normal məntiqi elə bəzəyib təqdim edir ki, o, bu təsadüfdə məntiqdən daha inandırıcı görünür. Çünki hər şey dibsiz bir oyunun, məna yaratma, məna çoxaltma oyunun girdabındadır.

Cəlil Məmmədquluzadənin bioqrafiyasından məlumdur ki, mollaxanada təhsil aldığı illərdə o, hazırcavablığı ilə seçilib. “Xatiratım”ın müəyyən hissələrində Mirzə Cəlil yaşıdı olan uşaqların avam və ifrat dindar insanlara güldüyündən bəhs edir. Səfər zamanı yolda səbir gəldiyinə görə geri qayıdan xan məhəllə uşaqlarının məsxərə hədəfi olur, onlar "səbir gəldi,

xan qayıtdı!" - deyə gülüşürlər. Bu mühitdə insanlar din və şəriətin dəyişməz qanunları ilə yaşayırlar; mühit elə formalaşıb ki, onun özündən kənarla heç bir bağlantısı yoxdur. Qapalı, "öz oxu ətrafında" fırlanan cəmiyyətin normal şəkildə dəyişməsi mümkünsüz görünür.

Buna görə də lətifələrdəki məna oyunbazlığından faydalanıb jurnaldakı satirik, kinayəli və yumorla dolu fraqmentlər vasitəsi ilə Mirzə Cəlil kökləri ilə möhkəmcə olduğu yerə mıxlanmış cəmiyyəti (yəni hərəkət edib dəyişməyən, yalnız dəyişmə, hərəkət effekti doğuran) dəyişmək istəyirdi. Gülüş mahiyyət etibarı ilə istənilən cəmiyyətin ideoloji əsaslarına yönəldiyinə görə Molla Nəsrəddinin də ağzından əslində qan iyi gəlirdi. Varislik, düşüncə və bədii fikrin inkişaf dinamikası baxımından götürdükdə Axundov və Zərdabi ilə müqayisədə Mirzə Cəlilin ədəbi mübarizəsində bir xeyli proqressiv addımlar müşahidə edilirdi.

Bu mənada hələ XIX əsrdə Zərdabi ilə M.F.Axundovun məktublaşmasını yada salmaq yerinə düşər. Məlum şəraitin naqis cəhətlərindən bəhs edən iki böyük ziyalı yazırdı: "... qoy şairciklər bizə həcv yazsınlar...". "Molla Nəsrəddin" jurnalı həm də bədii ədəbiyyatın janr bölgüsü və təsnifatının, başqa sözlə milli ədəbiyyatda janr anlayışının qəti şəkildə dəyişməsinə təkan verdi. O dövrün əsas tələbi bədii ədəbiyyatın realist əsaslar üzərində "rekonstruksiyası" idi. Ədəbi-estetik anlamda jurnal araşdırıldıqda məlum olur ki, burada əsas komponent kadr arxasının olmasıdır. Naşir və onun əməl dostları, yəni, jurnalın ərsəyə gəlib yaşamasında əməyi olan insanlar məlum olsa da, təsir daha çox gülüşün, satirik sistemin yaratdığı "kadr arxası"nın gücünə həyata keçirilirdi.

"Molla Nəsrəddin" jurnalının məfkurə və ictimai missiyanın ifadəsində əsas rolu folklor qaynaqları oynadığına görə, klassik irsə münasibətdə də bu qaynaqlar mühüm rol oynayır. "Molla Nəsrəddin" jurnalı lətifələrdən istifadə məlum olduğu kimi, birbaşa deyildir. Klassik irsə münasibətin bu xarakteri məqalə və felyetonlarda olduğu kimi, bədii nümunələrdə də özünü göstərirdi. "Molla Nəsrəddin" jurnalı həm də XX əsrin böyük ziyalı və qələm adamlarının formalaşması üçün bir meydan olduğuna görə, bu hadisədən bir üslub sistemi kimi də bəhs etmək mümkündür.

Ədəbiyyat:

1. Ədəbiyyat məcmuəsi, AMEA, Nizami adına Ədəbiyyat İnstitutu, Bakı-1999.
2. Андреев М. Средневековая Европейская драма. Москва, 1989.
4. Yusifli Cavanşir. Azərbaycan komediyasının poetikası. Bakı, 2007.
5. http://www.azadliq.org/content/article/24719393.html
6. http://yumor.azeri.net/fil-iki-oldu-75.htm

F.Huseynova

Sources of folklore of the journal Molla Nasreddin

Summary

"Molla Nasreddin" magazine in the early twentieth century, became the mirror of the social and political surrounding at the time. This article deals with the folk laugh, expressed in the numbers of the satiric magazine "Molla Nesreddin" published in Azerbaijan at the begining of the twentieth century. In this article, the matter as regards the relation between the aforementioned periodical's texts and the folk culture of Azerbaijan is studied deeply.

This matter is analyzed based on the mutual comparison made between the anecdotes of Molla Nesreddin and the laugh proceeding from the texts of the periodical. Journal "Molla Nasreddin" was unprecedented phenomenon earlier in national literature. So that journal by means of publications mixed actively in public life and supported the renewal of existed literary and aesthetic relationship, directed the engendering and development of new trends and styles.

Ф. Гусейнова

Источники фольклора журнала "Молла Насреддин"

Резюме

Эта статья связана с народным юмором, выраженном во многих изданиях сатирического журнала «Молла Насреддин», издаваемого в Азербайджане в начале двадцатого века.

Данная статья посвящена народному смеху, выраженного в разных номерах сатирического журнала «Молла Насреддин», опубликованного в Азербайджане в начале XX века. В этой статье, касательно связи между текстами вышеупомянутого периодического и народной культуры Азербайджана изучается глубоко.

Источники фольклора журнала "Молла Насреддин"

Этот вопрос анализируется на контексте взаимного сравнения между анекдотов Молла Насреддина и смех, отраженных в журнале.

Rəyçi: Nizami Cəfərov
Akademik

ELMAN NOVRUZOV
AMEA akad. Z.Bünyadov adına
Şərqşünaslıq İnstitutu
E-mail: shemsi_59@mail.ru

XANDƏMİRİN "TARİXİ-HƏBİBÜLSEYR" ƏSƏRİ SƏFƏVİLƏR DÖVRÜNƏ AİD ƏDƏBİ VƏ TARİXİ MƏNBƏ KİMİ

Açar sözlər: Azərbaycan, Xandəmir, "Tarixi-Həbibülseyr", Xacə Həbibulla, Səfəvilər
Ключевые слова: Азербайджан, Хандемир, "Тарихи-Хабибулсейр", Хаджа Хабибулла, Сафавиды
Keywords: Azerbaijan, Handemir, "Tarixi-Habibulseyr", Haja Habibulla, Safavids

Xandəmirin ədəbi-bədii yaradıcılığı, xüsusən də "Tarixi-Həbibülseyr" əsəri Azərbaycan tarixini, coğrafiyasını, ədəbiyyat və mədəniyyətini, xüsusən də fəlsəfəsini öyrənmək baxımından əvəzsiz bir qaynaqdır. O, bu əsəri yazarkən Mirxondun "Rouzətüssəfa" əsərindən və çox güman ki, digər çoxsaylı mənbələrdən, xüsusən də Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə"sindən (2) istifadə etmişdir. Xandəmirin Səfəvilərin əsli ilə bağlı istifadə etdiyi mənbələrdən biri də, heç şübhəsiz ki, onun adını çəkdiyi "Səfvətüs-səfa" əsəri olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, İbn Bəzzaz Ərdəbilinin yazdığı "Səfvətüs-səfa" əsəri 1543-cü ildə Məhəmməd bin Hüseyn Katib Nişati tərəfindən türkcəyə çevirilərkən adı şərti olaraq "Şeyx Səfi təzkirəsi" adlandırılmışdır. Çox sevindiricidir ki, həmin əsər akademik M.Nağısoylunun rəhbərliyi ilə redaktə olunmuş, geniş və sanballı önsözlə 2006-cı ildə Bakıda çap edilmişdir (3).

Xandəmir "Tarixi-Həbibülseyr" əsərində Səfəvi xanədanının tarixinə geniş yer vermişdir. Belə ki, bu əsərdə Sultan Firuz şahdan başlamış Əvəzül-Xəvas, Seyid Məhəmməd Hafiz, Səlahəddin Rəşid, Seyid Qütbəddin,Seyid Saleh, Seyid Əminəddin Cəbrail, Şeyx Səfiəddin İshaq, Şeyx Sədrəddin Musa, Xacə Əli, Şeyx İbrahim, Şeyx Cüneyd, Sultan Şeyx Heydər, Sultan Əlivə Şah İsmayıl barədə ətraflı məlumatlar verilmiş, onlar fövqəladə ifadə və ibarələrlə mədh olunmuşlar.

"Tarixi-Həbibülseyr"in müəllifi Səfəvilər imperiyasının banisi Şah İsmayıl Səfəvinin müasiri və ona biət gətirənlərdən biri olmuşdur. Bu, bir tərəfdən ideoloji köklərlə əlaqədardırsa, digər tərəfdən Səfəvilərin, xüsusən Şah İsmayılın şəxsiyyəti və əməli fəaliyyəti ilə bağlıdır, çünki o, fəth etdiyi ölkələrə əmin-amanlıq və ədalət gətirmiş, istedadlı insanları, alim, şair və sənətkarları himayə etmişdir. Heç təsadüfi deyil ki, məhz Səfəvilər

imperiyasının yaranması ilə ictimai, iqtisadi, elmi, mədəni və sosial inkişaf üçün münbit bir mühit formalaşmış və bütün sahələrdə öz bəhrəsini vermişdir. Səfəvilər, imperiyalarına qatdıqaları çoxsaylı ölkələrə əmin-amanlıq və asayiş gətirmiş, elmin, ədəbiyyat və mədəniyyətin, xüsusən də təsərrüfatın müxtəlif sahələrinin inkişafına şərait yaratmışlar. Bu baxımdan 1507-ci ilin mart ayında Məhəmməd xan Şeybani Heratı tutandan sonra burada ictimai asayiş pozulmuş və hərc-mərclik və ədalətsizliklər baş alıb getmişdir. Məhz 1511-cı ildə Şah İsmayıl Səfəvi, Məhəmməd xan Şeybanini öldürdükdən və Heratı azad etdikdən sonra Herat və Xorasanın digər məntəqələri Səfəvilərin ixtiyarına keçmiş və regionda təhlükəsizlik təmin olunmuş, əmin-amanlıq, siyasi sabitlik bərqərar edilmişdir. Şah İsmayıl Əmir xanı Xorasana və Herata muxtar hakim təyin etmişdir. Bütün bunlar Xandəmirin gözləri qarşısında baş vermişdir. Ona görə də "Tarixi-həbibülseyr" əsərinin III cildinin 4-cü cüzvünün bir çox hissələri birbaşa Azərbaycanda baş vermiş hadisələrə, o cümlədən Səfəvilər dövlətinə həsr olunmuşdur və o, Şah İsmayılın ölümünə qədər (1524-cü il) olan bir dövrü əhatə edir. Heç də təsadüfi deyildir ki, bütövlükdə "Tarixi-Həbibülseyr" əsərində "Azərbaycan" adı 115 dəfə çəkilmişdir. Digər bir maraqlı cəhət isə odur ki, Xandəmir ayrı-ayrı coğrafi adlardan danışarkən Azərbaycan adlı ölkədən də bəhs edərək onu aşağıdakı kimi təqdim etmişdir (4, IV c, 652-653): "Azərbaycan-çoxlu vilayətlərə və qəsəbələrə sahib olan genş bir ölkədir. Bu ölkənin paytaxtı Təbriz şəhəridir. "Nehzətülqülub" və "Əcaibülbələdan" əsərlərinin müəlliflərinin fikirlərinə görə, Təbriz IV iqlimdə yerləşir. Beşinci iqlimdə yazılmış mötəbər kitablardan birinin yazdığına görə, Təbriz şəhərinin əsası Harun ər-Rəşidin arvadlarından biri Zübeydə xatun tərəfindən qoyulmuşdur. Bir müddətdən sonra zəlzələ nəticəsində dağılan şəhər Abbasi xəlifəsi Mütəvəkkil tərəfindən yenidən tikilmişdir. Əlqaimin hakimiyyəti zamanı qəmərinin 434-cü ilinin səfər ayının 14-də Əbu Tahir Münəccim Şirazi təbrizlilərə demişdir ki, bu gecə zəlzələ olacaq və şəhər sakinlərinə böyük fəlakət üz verəcəkdir. Çoxları münəccimin sözlərinə inanmadı. Ancaq, doğrudan da, həmin gecə güclü zəlzələ baş verdi və 40 mindən artıq insan torpaq altında qaldı. Növbəti gün Azərbaycanın hakimi şəhəri yenidən inşa etmək qərarına gəldi. Əbu Tahir şəhərin yenidən inşa edilməsindən ötrü uğurlu bir saat müəyyən elədi ki, bərpa işləri həmin saatda başlasa, Təbrizdə bir daha zəlzələ olmaz. Həmin saat əqrəb bürcünün xoş vaxtı idi. Ustalar həmin saatda Təbrizi yenidən tikməyə başladılar və ondan sonra orada zəlzələ olmadı. Hülaku xanın və övladlarının zamanında Təbriz paytaxt oldu. O zaman orada çoxlu təsvirəgəlməz ali binalar inşa olundu. Bu tarixdə, yəni qəmərinin 930-cu ilində Nəvvab Kamyab Şahinin (Şah İsmayılın) ədalətinin xoşbəxtliyindən Təbriz dünyanın məskunlaşmış dörddə birinin ən abad şəhəridir. Buradakı

imarətlərin və əkinin çoxluğu dünyanın gərdişini artırır və “Onlara salam olsun” və “Cənnətə dualar olsun” ayələri, sanki, bu şəhərin əhlinin şəninəvə onun gözəlliyinə deyilmişdir. Bu, isə Təbrizin cənnətə bənzədilməsini göstərir. Aşağıdakı şeir parçasında deyildiyi kimi:

آب حیوانست آبش با زلال سلسبیل
عرصه چرخست یا بهشت جاودان آب باد
اوست صحنش چون باد مسیح و آب خضر
باد جانبخش چو جان و آب دلجویش روان

(Selsebil zülallı suyu həyat suyudur,
Ərazisi çərx-fələk, ya əbədi cənnət yeri,
İsa nəfəsi, Xızır suyu kimidir,
Küləyi can kimi can bağışlayan, füsunkar suyu rəvandır.)

Təbrizdə bağ çoxdur və ağaclarının əksəriyyəti lətif meyvələr verir. Ancaq bu şəhərin havası qışda çox soyuq olar. Belə ki, bəzi illərdə hava o dərəcədə soyuq və yağıntılı olur ki, insanlar 2-3 ay asanlıqla hərəkət edə bilmirlər. Ona görə də təbrizlilər qış üçün azuqə və digər ehtiyaclarını tədarük edir və qışda soyuq havalarda yerin altında tikilmiş evlərdə yaşayır,vaxtlarını keçirirlər. Təbrizlilərin hamısı nəşə çəkdiklərindən səhər hər kimsə onlara bir söz desə, ağır cavab eşidər. Ancaq nəşənin təsiri yetişəndə birisindən yüz söyüş eşitsələr də, təvazökarlıq və mülayimliklə ona cavab verərlər. Təbrizlilər qürur və təkəbbür sahibi kimi məşhurdurlar. Ona görə də onların məhəbbəti və dostluğu tez pozulur. Bu baxımdan aşağıdakı rübaidə onların bu cəhətinə işarə olunmuşdur:

هرگز نشود بطبع تبریزی دوست
مغزند همه جهان و تبریزی پوست
آن را که به دوستی نیایی صادق
گو نیز عزیز بست که تبریزی خوست.

(Təbrizli təbiylə heç vaxt dost olmaz,
Bütün dünya tumdur, təbrizli qabıq,
O ki, dostluğa sadiq qalmasan,
De ki, yenə əziz tutdu, təbrizlinin xasiyyətidir.)

Bu rübaiə qarşı Mövlana Həmaməddin Təbrizi belə cavab yazmışdır:

تبریز نگو و هر چه ز آنجاست نکو ست
مغزن مپندار توابشان را پوست
با طبع مخالخان موافق نشوند
هرگز نشود فرشته با دیوان دوست.

(Təbrizi demə, ordan olan hər şey yaxşıdır,
Tumdurlar, əsillərini dəri sanma.
Müxaliflərin təbləri ilə müvafiq olmazlar,
Mələklər divlərlə heç vaxt dost olmaz.)”

Tərcüməsini verdiyimiz bu parçadakı "...ondan sonra orada zəlzələ olmadı" fikrinə bir az aydınlıq gətirmək üçün deyək ki, 1779-cu ildə Təbrizdə 2 böyük zəlzələ baş vermiş və Mirzə Müslüm Qüdsi İrəvaninin dili ilə desək, qədim Təbriz şəhəri bir silkələnmə ilə sabun köpüyü kimi yoxluğa getmişdir (1, 28-29):

به یک جنبش ان شهر دیرینه رفت
به باد فنا چون بنای حباب

(Bir silkələnmə ilə o qədim şəhər getdi
Sabun köpüyü kimi yoxluğa.)

Yeri gəlmişkən, qeyd edək ki, "Tarixi-Həbibülseyr" əsərində Azərbaycanın digər bir çox məntəqələrinin də adı dəfələrlə çəkilir, məsələn, əsərdə "Naxçıvan" adına 7 dəfə rast gəlinir.

Bundan başqa, burada Azərbaycanın bir çox coğrafi adlarının, o cümlədən, Ərdəbil, Qəzvin, Təmğaç, Həmədan və digər adları çəkilir, onlar haqqında maraqlı məlumatlar verilir. Həmədanla bağlı verilən məlumat öz əfsanəviliyi ilə seçilir. Xandəmirin bu şəhər haqqında yazdıqlarına diqqət yetirək (4, IV c, 655): "Həmədan böyük şöhrətə malik bir şəhər və yüksəkdə yerləşən bir ölkədir. Xoş havası və yaxşı suyu vardır. "Əcayibülbələdan"da göstərilir ki, keçmiş zamanlarda Həmədanın havası çox soyuq və yağıntılı olmuşdur. Bu diyarda 1 nizə hündürlüyündə qar yağarmış. Süleyman Əleyhüssəlam cinni Qayaya dedi ki, bir əməl elə ki, bu ölkədə soyuq və yağıntı az olsun. Qaya daşdan bir boru düzəltdi, tilsim oxudu, çoxlu soyuğu və yağıntını Həmədandan uzaqlaşdırdı. Bəzi alimlərin fikrinə görə, həmin tilsim Həkim Bolinasınəməllərindən biri idi (Dünyanı yaradan sağlıq bağışlasın)."Haşiyə çıxmalı başqa bir cəhət ondan ibarətdir ki, göründüyü kimi, "Tarixi-Həbibülseyr" əsərinin maraqlı incəliklərindən biri də onun müəllifi tarixçi-şairin yeri gəldikcə fikrini Quran ayələri ilə yekunlaşdırmasıdır.

Bu nöqteyi-nəzərdən "Tarixi-Həbibülseyr" əsərində Qəzvin şəhəri ilə bağlı verilən məlumat da maraq doğurur. Xandəmir bu şəhər haqqında yazır: "Qəzvin Əcəm İraqı ölkələrinin böyük sırasında yerləşir. "Əcayibülbələdan" və "Tarixi-qozide" əsərlərinin müəllifləri bu şəhərin şan və şöhrəti haqqında bir çox hadisə və rəvayətlər yazmışlar. Ancaq onların çoxusunun düzgünlüyünü Məhəmməd San Fəzilət təkzib etmişdir. Bu ölkədə bağlar və bostanlar çoxdur. Qəzvin əhalisinin mürvət sahibi olmaları və insanlıqları ilə məşhur olduğunu deyirlər.
Bu şəhərdə Yəhudun böyük məqbərəsi vardır. Qəzvində 2 su mövcuddur. Qarın ağrısına tutulanları bu suların sağına və soluna dolandırmaqla onlar bu bəladan xilas olurlar."

Heç təsadüfi deyil ki, Xandəmirin "Tarixi-Həbibülseyr" əsəri o dövr Azərbaycan tarixinin, xüsusən də Səfəvilər imperiyasının yaranmasını və

onun qurucusu olan Şah ismayılın vəfatına qədərki dövrün öyrənilməsi üçün etibarlı və əhəmiyyətli bir mənbədir. Xandəmir "Tarixi-Həbibülseyr" əsərinin dibaçəsində Səfəvi dövlətinin banisi Şah İsmayılı "Nəvvabi-Kamyabi-İlahi", "nəcibliyin uğuru" adlandırır, Əbu Mənsur Durmuş xanın onun tərəfindən Xorasana hakim, Xacə Həbibullanın isə vəzir təyin olunmasından bəhs edir. Bununla da ölkədə ədalətin bərqərar olması və zülmün və sitəmin ortadan qalxmasını vurğulayır (4, I c. Müqəddimə, s.19):

بر افروخت رأیات عدل و کرم برانداخت آیین ظلم و ستم
شد از دولت خان حشمت قرین قضای خراسان چو خلد برین

(Ədalət və kərəm düşüncəsini alovlandırdı,
Zülm və sitəmin qaydalarını kənara atdı,
Həşəmətli xanın dövlətinin səbəbindən
Xorasan vilayətinin taleyi gülməyə başladı.)

Əlbəttə, zamanın böyük şəxsiyyəti, görkəmili alimi və tarixçisi Xandəmirin Səfəvilərin Xorasan (Herat) vilayətinin hakimini və vəzirini mədh etməsi və ikincinin adına kitab bağlaması təsadüfi deyildir və bunun özü Səfəvilər imperiyasının tarixinin öyrənilməsi baxımından yaxşı materialdır. Maraqlıdır ki, Xandəmir, Durmuş xanı "ədalətin əlahəzrəti", "ölkənin pənahı", onun vəziri Xacə Həbibullanı isə "dövlətin, dünyanın və dinin Kərimi", "islamın müəllimi" adlandırır. Elə buradaca əsərinin adını vəzirin şərəfinə "Tarixi-həbibülseyr" qoyduğuna işarə edir (4, I c. Müqəddimə, 20).

Tarixçi-şair "Tarixi-həbibülseyr"in dibaçəsində əsərinin necə yazılmasından söhbət açarkən Xacə Həbibulladan bəhs edir, bu böyük dövlət xadiminin elmindən, kamalından və sahib olduğu fəzilətlərdən, eləcə də onun qazandığı ləqəblərdən danışır. Şair qeyd edir ki, Xacə Həbibullanın düşüncəsindən aləmin əhvalı nizamlı, əməlindən isə tale gülşəni xürrəmdir. Onun ədalətindən üfüqlər məmur, lütfündən isə ünsiyyət adəti narahatdır, vücudu fəzilətlər dənizindədir, ovucu yoxsullara gövhər saçar. Süleyman dövrünün Asəfi odur, böyüklük taxtı onunla müşərrəfdir. Əliaçıqlıq asimanının nur günəşidir, fəzilət bağına boy verər və kölgə salar. Zamanın xanının dövlətinin əmin-amanlığı öz varlığının gözəlliyi ilə dünyada əfsanə olmuşdur. Fazillərin, ali mənsəblərin himayəçisi, fəzilət saçan və çox istedadlıdır. Ərəstun ağlı kamil bilikdir, Ütarid gücü inayətlə doludur (4, I c. Dibaçə, s. 7):

ز رأیش منتظم احوال عالم ز کلکش گلشن اقبال خرم
ز عدلش عرصه آفاق معمور ز لطفش رسم جورمهجور
وجودش در دریای فضائل کفش گوهر فشان بر فرق سائل
سلیمان زمان را اوست آصف سریر سروری از وی مشرف
سپهر جود را خورشید انور بباغ فضل سر و سایه گستر
امین دولت خان زمانه بحسن خلقدر عالم فسانه

افاضل پرور عالی مناصب فضیلت گستر وافر مناقب
ارسطو فطنت کامل درایت عطارد مکنت شامل عنایت

(Onun düşüncəsindən aləmin əhvalı nizamlı,
Əməlindən tale gülşəni xürrəmdir.
Onun ədalətindən üfüqlər məmur,
Lütfündən ünsiyyət adəti narahatdır.
Vücudu fəzilətlər dənizindədir,
Ovucu yoxsullara gövhər saçar.
Süleyman dövrünün Asəfi odur,
Böyüklük taxtı onunla müşərrəfdir.
Əliaçıqlıq asimanının nur günəşidir,
Fəzilət bağına boy verər və kölgə salar.
Zamanın xanının dövlətinin əmin-amanlığı
Varlığının gözəlliyi ilə dünyada əfsanə olmuşdur.
Fazillərin, ali mənsəblərin himayəçisi,
Fəzilət saçan və çox istedadlıdır.
Ərəstun ağlı kamil bilikdir,
Ütarid gücü xeyirxahlıqla doludur.)

Əsərin "Proloq" hissəsinin ""Tarixi-Həbibülseyr" əsərinin başa çatması tarixi"ndə verilən aşağıdakı bir beyt də maraqlıdır(4, I c. Müqəddimə, s.21):

شکر که این نامه بعنوان رسید پیشتر از عمر بپایان رسید

(Şükr ki, bu namə ünvanına yetişdi,
Ömür bitmədən qabaq sona çatdı.)

Beytdən də göründüyü kimi, əsər müəllifin ömrü sona çatmamış başa çatmış və müəllif əsəri Xacə Həbibullaya təqdim etmişdir. Bundan sonra gələn 11 beytdən ibarət bir məsnəvidə yenə də Xacə Həbibulla mədh olunur, ona tərif deyilir və dua oxunur. Tarixçi-şair, vəzir Xacə Həbibullaya müraciət edərək onu "məmləkətin sütunu", "hünərpərvər", "kəramət yayan", "böyük Asəf" adlandırır və yazır ki, kitabımın qiyamət gününə qədər yaşaması üçün onu sənin adınla tamamladım:

ممالک مدارا هنر پرورا کرم گسترا آصفا سرورا
بنام تو کردم کتابی تمام که باقی بود تا بروز قیام

(Ey məmləkətin sütunu, ey hünərpərvər,
Ey kəraməti yayan, ey böyük Asəf,
Bu kitabı sənin adına tamamladım
Ki, qiyamət gününə qədər qalıcı olsun.)

Xandəmirin zəngin yaradıcılığının araşdırılması, ələlxüsus da onun "Tarixi-Həbibülseyr" əsərinin tamamilə Azərbaycan dilinə tərcümə edilməsi və geniş elmi-tədqiqata cəlb olunması zəruridir.

Ədəbiyyat

1. Əhmədov Ş.P. “Mirzə Müslüm Qüdsi “Divan”ının filoloji tədqiqi”. f.ü.f.d... dissertasiya işi (əlyazması hüququnda). Bakı: 2016. 138 s.
2. Rzayeva R.N. Əbubəkr ibn Xosrov əl-Ustadın “Munisnamə” əsəri. Bakı: Papirus NP. 2016, 196 s.
3. Şeyx Səfi təzkirəsi (“Səfvətüs-səfa”nın XVI əsr türk tərcüməsi). Redaktoru, izahların və lüğətin müəllifi M.Nağısoylu. Bakı: Nurlan, 2006, 932 s.
4. خواند امیر. تاریخ حبیب السیر. در 4 جلد. زیر نظر دکتر محمد دبیر سیاقی. با مقدمه استادجلال الدین همائی. تهران: انتشارات کتابفروشی خیام. 1362 . 2930 ص.

Е.Новрузов

Произведение «Тарихи-Хабибулсейр» как литературный и исторический источник о периоде Сафавидов

Аннотация

Хадже Гиясаддин ибн Хадже ибн Хамамеддин Мухаммед ибн Хадже Джаледдин ибн Бурханеддин Мухаммед Ширази ал-Гусейни-Хандемир внук Мирмухаммеда бин Сейид Бурханеддин Хавенд шах ибн Кямаладдин Махмуд Балхи-Мирхонда.

Произведение “Тарихи-Хабибулсейр” Хандемира (1475-1536) одно из ценных произведений, написанных в период от монгольского нашествия до начала правления империи Сафавидов. Оно написано на персидском языке в началах 16 вв. “Тарихи-Хабибулсейр” охватывает очень большую эпоху-с создания жизни на Земле до начала правления империи Сафавидов.

В статье подчеркывается факт посвящения этого произведения к Хаджа Хабибулле-визиру автономного правителя Хорасана (Герат) и оно исследуется как достоверный источник об эпохе Сафавидов.

Особенно очень важно перевод произведения “Тарихи-Хабибулсейр” в Азербайджанский язык. Эстественно, после перевода следует привлечь его к широкому научному исследованию в условиях независимости.

E. Novruzov

"Tarixi-Habibulseyr" work by Handemir as a literature and historical source about Safavi period

Abstract

Xaje Qiyasaddin ibn Xaje ibn Hamameddin Muhammad ibn Xaje Celalleddin ibn Burhaneddin Muhammad Shirazi al-Huseyni-Handemir is grandson of Mirmuhammad bin Seyid Burhaneddin Xavand shah ibn Kamaladdin Mahmud Balhi-Mirhond.

"Tarixi-Habibulseyr" work by Handemir (1475-1536) is one of the most valuable works written in the period of from the Mongolian aggression until beginnings of the authority of Safavids Empire. That is written in the Persian language in the beginnings of the 16 century. "Tarixi-Habibulseyr" surrounds many large period-from the beginnings of life on Earth until beginnings of the authority of Safavids Empire.

There are very much rich and interesting knowledge about beginnings of life and mankind on Earth, formation of world history and culture, arising of separate states and empires, important natural and historical incidents, especially processes in The Near and Middle East, so in Iran and Azerbaijan in this work.

In the article is emphasized the fact of the dedicating of this work to Haja Habibulla-the vizier of autonomy judge of Horasan (Herat) Abu Mansur Emir Durmush khan and that is investigated as a reliable literatural and historical source about the Safavids time.

It is especially to translate the work of "Tarixi-Habibulseyr" into Azerbaijani. And it is naturally necessary to drow it into large research work after translation in the frame of sovereignty.

Rəyçi: Şəmsi Əhmədov
filologiya üzrə fəlsəfə doktoru

HİCRAN BABAYEVA
BAAU
bshafiqa@mail.ru

BƏHLUL BEHCƏTİN BƏDİİ ƏDƏBİYYATDA YERİ

Açar sözlər: Bəhlul Behcət, Zəngəzur, Sovet hökuməti, bolşevik-daşnak
Key words: Zangazur, Bahlul Behjat, Soviet government, Bolshevik-dashnak
Ключевые слова: Бахлул Бехджат, Зенгезур, Советская государство, большевик-дашнак

İşin aktuallığı: Azərbaycan ədəbiyyatında, folklorşünaslığında mühüm xidmətləri olan Bəhlul Behcətin həyatı və fəaliyyəti sovetlər dönəmində tədqiqatlardan kənarda qalmış, xalqdan gizlədilmişdir. Folklor nümunələrimizin toplayıcısı, tədqiqatçısı və naşiri olan Bəhlul Behcət şəxsiyyəti, yaradıcılığı hələ çoxlarına tanış deyil, hələ çoxları onun şəxsiyyətinə, əqidəsinə biganə münasibət bəsləyir. Belə bir milli ziyalımızın həyat yoluna işıq tutmaq, qaranlıq məqamlara aydınlıq gətirmək, yüksək zəkanın məhsulu olan əsərlərini geniş oxucu kütləsinə çatdırmaq olduqca vacib bir məsələdir. Bu barədə professor Cəlal Qasımov yazır: "Totalitarizm rejimi Bəhlul Behcətin simasında Azərbaycan mənəvi intellektual düşüncə tarixinə, daha bir ağır zərbə vurmuşdur. O, öz dövrünün görkəmli ziyalısı, yüksək mənəvi-əxlaqi dəyərlər daşıyıcısı olmuşdur. Bütün bunlar göstərir ki, Bəhlul Behcət həm bir ilahiyyatçı, həm ədəbiyyatşünas, həm də folklorşünas kimi tədqiq edilməlidir. Bu gün Bəhlul Behcəti incədən –incəyə öyrənmək bizə qalan yeganə yoldur. Bu yol bizi həqiqətin nuruna qovuşduracaqdır." (1; 83)

Alimlərin, yazıçıların, elm xadimlərinin həyatı və fəaliyyəti həmişə tədqiqatçıları, ədəbi tənqidçiləri maraqlandırmış, onların diqqətini cəlb etmişdir. Xüsusilə də əgər o elm xadimi vətəninə, millətinə bağlı, vətənpərvər, işğalçılara qarşı üsyankar biri olarsa. Bəhlul Behcət də məhz belə alim, din xadimi və folklorşünas idi. Bəhlul Mustafa oğlu Əfəndiyev (Behcət onun təxəllüsüdür) 1885-ci ildə (bəzi mənbələrə görə 1869) keçmiş Zəngəzur qəzasının, Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuş. İlk təhsilini atasından və gələcək qaynatası Hacı Çələbidən almışdır. Sonralar təhsilini davam etdirmək üçün Türkiyə və İrana getmiş və orada dini təhsil almışdır. Azərbaycan xalq cümhuriyyəti dövründə Zəngəzur qəzasının qazısı olmuşdur. İndi Bəhlul Əfəndinin doğulduğu Zəngəzur torpağı, Qubadlı rayonu işğal altındadır. Onun azadlıq mübarizəsi uzaqgörənlikdən, başına gələn fəlakətləri öncədən duymasından irəli gəlir. Onun yaşadığı dövr o qədər də uzaq keçmişə gedib çıxmasa da, onunla bağlı çox az məlumata rast gəlirik. Bu da

onun "vətən xaini" kimi damağalanması ilə bağlıdır. Təbii ki 1937- 38 ci illərin repressiyaları zamanı həbs olunan "xalq düşmənlərinin" əlyazmaları, kitabları da məhv edilirdi. Bunda məqsəd aydın idi-gələcək nəsillərə onlar haqqında heç bir iz buraxmamaq, tarix səhifələrindən adlarını silmək. Lakin kökü torpağın dərin qatlarına gedən ağacı məhv etmək, yer üzündən silmək mümükün olmadığı kimi, əqidəsi və idealogiyası ilə çoxlarının qəlbində taxt quran Bəhlul Behcət kimi bir zəka sahibini də yer üzündən, qədirbilən insanların düşüncəsindən silmək mümkün deyil. İllər keçdikcə, Vətənimizin başı üstünü alan qara buludlar çəkildikcə, xalq da öz dostunu düşmənindən, yaxşını pisdən ayırmağı bacardı. Arxivlər açıldı, bir çox qaranlıq məqamlar üzə çıxdı, yüzlərlə belə günahsız "günahkarların" həyat yolu və fəaliyyəti işıqlandırıldı. Onlar həmişə müasir tədqiqatçıların, alimlərin və yazıçıların diqqət mərkəzindədirlər. Bəhlul Behcət də bu diqqətdən kənatda qalmayıb. Onun haqqında əsərlərdə, elmi- publisistik məqalələrdə söhbət açılıb, həyat və yaradıcılığı araşdırılıb, təhlil olunub. Bəhlul Behcət haqqında yazılanları iki qismə ayırmaq olar. Sovet imperiyası dövründə bolşevik prizmasından yazılanlar və müstəqillik əldə etdikdən sonra yazılan əsərlər. Bu əsərləri müqayisə etsək iki cür Bəhlul Behcət obrazı görərik. Birincisində hökumətə qarşı çıxan, "fitnəkar", "vətən xaini", ikincisində isə Vətənin müstəqilliyi uğrunda silaha sarılan, insanları dini və əqidə birliyinə səsləyən, milli- mənəvi ideallar uğrunda canından keçməyə hazır olan Bəhlul Əfəndi obrazı ilə tanış oluruq. Bəhlul Behcət XX əsrin birinci yarısında yaşamış milli və dini mənsubiyyətinə qırılmaz tellərlə bağlı bir ziyalı kimi kommunist idealogiyasının mənfur mahiyyətini dərk etmişdir. O, bütün həyatı boyu milli mənəvi və dini əxlaqi köklərdən qaynaqlanmışdı. Buna görə də bolşevik rejiminin ən sərt tufanına tuş gələrək məhv edilmişdir. Onun həyatı və fəaliyyəti haqqında məlumat çox azdır. Çünki repressiya qurbanlarını həbs edən gün evində axtarış aparır, məhv edirdilər. Bəhlul Behcət haqqında, onun 1918-1922 ci illərdəki həyatı və fəaliyyəti haqqında məlumatı biz Nəzər Heydərovun "Zəngəzur dağlarında" adlı xatirələrində tapırıq. Nəzər Heydərovun Bəhlul Behcət haqqında "məlumatlarına" keçməzdən əvvəl bir neçə kəlmə əsər və onun müəllifi haqqında danışmaq lazımdır. Nəzər Heydərov əsl bolşevik ideyalı kommunist olmuşdur. Sovet dövrünün yazıçılarını iki qismə ayırmaq olar. Birincilər dövrün tələbinə görə milli mənəvi dəyərlərə qara yaxmışdılar. İkincilər isə qəlbən və ruhən bolşevik idealogiyasına aldanmışdılar. Nəzər Heydərov məhz ikincilərdən idi. N. Heydərov (1896-1962) özü Azərbaycanda sovet hakimiyyəti uğrunda gedən mübarizədə qatı bolşevik kimi iştirak etmiş, sonra isə Azərbaycanda bir sıra partiya və Sovet təşkilatlarında məsul vəzifələrdə çalışmışdır. SSRİ və Azərbaycan SSR Ali sovetlərinin deputatı olmuş, 1949-53 cü illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri olmuşdur. 1972 ci ildə

"Zəngəzur dağlarında"adlı xatirələrindən bəhs edən əsəri rus və erməni dillərində nəşr olunmuşdur. Qəribədir ki, 1987 ci ildə artıq ermənilər Qarabağa olan iddialarını qaldırmış, geniş hərəkata başlamışdılar. Məhz bu dövrdə - yəni kitab rus və erməni dillərində çap olunduqdan 17 il sonra (1989 cu ildə) Azərnəşr tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir. Tərcüməçilərin və naşirin mövqeyi və məqsədi aydın deyil.

Əsər Zəngəzuru təsviri ilə başlayır. Müəllif Zəngəzur mahalının əlverişli coşrafi mövqeyindən, orada yaşayan əhalinin milli mənşəyindən, həyat tərzindən, məşğuliyyətindən ətraflı danışır. Əsərdə 1917-22 ci illər arası Zəngəzurda baş verən hadisələri əks etdirir. Kitab başdan-başa bolşevik-daşnak siyasəti mövqeyindən yazılmışdır. Bundan başqa müəllif bu kitabda sinfi mübarizələr burulğanında boğulan azərbaycan və erməni xalqlarının "dostluq əlaqələrini" möhkəmləndirməsindən bəhs edir. "Əvvəlcə türk sonra isə ingilis müdaxiləçilərinə arxalanaraq müsavatçılar burada quldur dəstələri təşkil edir, günün günorta çağı kəndləri talayır, azərbaycanlılarla ermənilər bir birinin üstünə salmağa çalışırdılar"(2; 40)

1918 ci ildə martın -30 da baş vermiş Azərbaycanlıların soyqırımı hadisəsini bolşeviklərin xeyrinə təhrif edərək yazırdı: " 1918- ci il martın – 30 dan aprelin 1- dək Bakıda müsavatçılar sovet hakimiyyəti əleyhinə silahlı qiyam qaldırdılar. İnqilabi qüvvələrlə müsavatçı əksinqilabçılar arasındakı ölüm- dirim mübarizəsi Bakı proletariatının qəti qələbəsi ilə qurtardı. Hakimiyyət Bakı sovetinin əlinə keçdi. 1918- ci il aprelin 25 də başda Şaumyan olmaqla Bakı Xalq komissarları soveti yarandı. (2;39) Bu böyük tarixi böhtanı çoxlu tarixi faktlarla təkzib etmək olar. Amma təkcə bunu demək kifayətdir ki, bu hadisənin siyasi qiymətini ümummilli liderimiz H. Əliyevin təşəbbüsü ilə Azərbaycan hakimiyyəti 1990 cı illərdə vermişdir, 1998 – ci ildən başlayaraq 30 mart Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur. Amma bütün böhtanları bir yana qoyaraq təkcə bir fikrə etiraz etməyi lazım bilirik. O da müəllifin Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhurriyyətinə qarşı deyilmiş çoxsaylı fikirlərdən biri haqqındadır. Müəllif yazırdı: " ... Müsavat respublikası dövründə açıq-aşkar, heç bir qanunla məhdudlaşmayan orta əsr despotizmi hökm sürürdü." (2; 40) Bu kitabda qəbul edilməsi mümkün olmayan çoxlu fikirlər var. Yenə orada oxuyuruq: " Biz bilirdik ki Bəhlul Əfəndi və Kələntərov istəsələr çox adamı general Njdenin yanına yığıncağa getməyə qoymazdılar. (2;112)

Hətta O, Bəhlul Behcətin Azərbaycan xalqını təriqət ayrılığını bir yana qoyub islami birliyə çağırışını (sünnülərlə şiələrin birləşməsini) da fitnəkarlıq və təxribatçılıq adlandırırdı. (2;147)

Kitabın 7 ci fəsli "Bəhlul Əfəndi Behcətin fitnəsi" adlanır. Müəllif bolşevizmin xatirinə İslamın böyük peygəmbərini də təhqir etməyi özünə rəva görürdü. O yazırdı:" Mən cavab verdim:Məhəmməd VII əsrin

feodallarının, qolçomaqlarının tərəfini saxlayırdı. İndi Əfəndi, iyirminci əsrdir, zəhmətkeşlər istismardan azad olurlar". (2;163) Bu dinimizi və islam peyğəmbərini bolşevik-ateist mövqeyindən savadsızcasına təhqir etmək demək idi. Əsərdən öyrənirik ki, Bəhlul Behcət Zəngəzur qazisi imiş. "Hacı Qasım Çələbinin qızı ilə evlənmiş imiş. İrandan Molla Həsənqulunu da gətiribmiş ki, məhərrəmlikdə mərsiyə oxusun . Özü sünni olsa da, şiəliyə də hörmət edən Bəhlul əfəndinin hərəkətləri haqqında müəllif deyirdi:

Xanlıqda, belə işlərdə çox mahir olan molla Həsənqulu çıxış edirdi. Onu fırıldaqçı Bəhlul Əfəndi Sovet hökumətindən xəlvət, məxsusi bu iş üçün İrandan gətirmişdi. Bu *cəhalət təbliğatçısının* (kursiv bizimkidir B.H) yaxşı səsi var idi, qanlı Kərbəla müsibətilə əlaqədar hekayət və rəvayətləri yaxşı bilirdi." (2;168) Daha sonra yazır: "Ruhanilər öz ciblərinin qayğısına qalaraq, sadə qəlbli dindarlara nə vaxt isə Kərbəlada bir dəstə ərəb feodalları öldürülən zaman baş vermiş hadisələr haqqında uydurmalar danışır, anti-sovet əhval ruhiyyə ilə insanların şüurunu məharətlə zəhərləyirdilər." (2;167) Müəllifdən soruşmaq lazım gəlir 681-ci il Məhərrəm ayının 10 da baş vermiş qanlı cinayəti nə üçün hekayət və rəvayət adlandırırsan. Axı bu dəhşətli Kərbəla hadisəsindən sonra heç bir ərəb imam Hüseynin başını kəsmiş adamın adını (Şümr) öz övladına qoymayıb. Bundan sonra əsərdə sünni məzhəb Bəhlul Behcətin şiə təriqətinə necə hörmətlə yanaşdığını kinayəli bir dillə danışır. " Başda Bəhlul Əfəndi olmaqla bu ünsürlər Sovet hökuməti əleyhinə fəal mübarizə aparmaq fikrində idilər. Onlar öz çıxışlarını iki dini təriqəti – sünnüləri və şiələri birləşdirmək təşəbbüsündən başladılar." (2;166) Əsərdən görünür ki, onlar buna qismən nail olmuşdular. Sonra Ter-Ayrapetyan, Avanes Akopyan kimi adamlara(gizli daşnaklara) tərəfdar çıxaraq Aşot Abramyana deyir:- "Bizim qəzanın camaatı Bəhlul əfəndiyə nifrət edir. Onun xalq arasında nüfuzu yoxdur." Onda soruşulur necə olur ki, o, sovet hökuməti əleyhinə 400 nəfərlik bir dəstə təşkil etmişdir. Müəllif Behcət haqqında, onun inamı, dini haqqında kifayət qədər təhqiramiz sözlər işlətdikdən sonra qeyd edir ki, Bəhlul 1923-cü ilin payızında İrandan qayıtdıqda tutulub 10 il müddətinə həbs cəzasına məhkum edildi. (2;**181)** Bir sözlə N. Heydərovun bu kitabının siyasi istiqamətindən asılı olaraq Bəhlul Behcətin bütün işləri pislənir, o proletariatın düşməni kimi qələmə verilir. Bu mövqe çox mübahisəlidir Bəhlul Əfəndi Behcət obrazı ilə qarşılaşdığımız daha bir əsər Oruc Qudrətovun "Keçilməmiş yollarla" romanıdır. Romanda Azərbaycanda sovet imperiyasının qurulmasından, bu rejimə qarşı çıxan üsyançıların, əksinqilabçıların mübarizəsindən bəhs olunur. Bolşevik rejiminin yeni qanunları ilə barışmaq istəməyən zəngəzur əhalisi öz müstəqilliyini, din və etiqad azadlığını qorumaq üçün silaha sarılaraq şura hökumətinə qarşı mübarizəyə qalxmışdırlar. Onların başında isə Bəhlul Behcət dayanmışdır. Əsərdə Bəhlul Behcət "padşahlıq" yaratmaq istəyən,

"hökmdarlıq" iddiasında olan, öz mənafeyini güdən, öz rahatçılığına düşgün olan bir adam kimi qələmə verilir. Bütün bu tənqidlərə baxmayaraq o, Bəhlul Behcətin əhali arasında yüksək nüfuz sahibi olduğunu da danmır. Müəllif yazır: "Bəhlul əfəndi Çay mahalında çoxlarının nəzərində ağıl və zəka sahibi kimi uca görünürdü. Bu ucalığı fikir yürüdərkən dəlillərə əl atmaq, təlqin etmək bacarığı ilə qazanmışdı."(3;172) Bu əsərdə biz Bəhlul Behcəti ruhani, din xadimi olmaqla yanaşı, həm də bir inqilabçı, siyasətçi, bir sərkərdə kimi tanıyırıq. Şura hökumətini devirmək məqsədilə təşkil etdiyi qiyamda onun sərkərdəlik məharətinin şahidi oluruq Bəhlul Behcətin başçılığı ilə qiyamçı dəstə qəza mərkəzi olan Xanlıq kəndinə girir və Cihad bayrağını ilk olaraq orada qaldırırlar. Lakin sovet hökumətinə qarşı olan bu qələbə müvəqqəti olur. Qiyamçıların sayca azlığı, daha kiçik ərazini əhatə etməsi, məhəlli xarakter daşıması, qırmızı ordu əsgərlərinin bolşeviklərə köməyə gəlməsi qiyamın yatırılmasına, Bəhlul Əfəndinin dəstəsinin məğlub olmasına səbəb olur. Əsər sovet ideologiyası mövqeyindən yazılsa da Bəhlul Behcətin xidmətləri, onun inqilabçı fəaliyyəti ilə tanış olmaq üçün çox deyerli bir mənbədir. Əli Vəliyev "Zəngəzur qartalları" əsəri Azərbaycanda xüsusilə də Zəngəzurda sovet hökumətinin qurulmasında yaxından iştirak etmiş insanların mədhinə həsr olunmuşdu. . Kommunist-bolşevik rejiminin qurulmasından bəhs edən bir əsərdə B. Behcət obrazı ilə qarşılaşmamaq qeyri - mümkündür. O, bu əsərdə Nəzər Heydərov, Abbas Sultanov və başqa kommunistləri əsl fədakar, örnək şəxsiyyətlər kimi oxucuya çatdırır. Ə.Vəliyev onalrın sovet hakimiyyətinin qurulmasında göstərdikləri canfəşanlığı təqdir etdiyi bir halda, Bəhlul Behcəti hökumətin qatı düşməni, fırıldaqçı, fitnəkar kimi qələmə verərək kəskin tənqid atəşinə tutur. "... əməkçi kütləni şura höküməti əleyhinə qaldırmaq istəyən Bəhlul Çələbənin dəstəsi Əliyanlı quldurlarından qorxulu və güclü idi. Bəhlul Çələbi Allahdan vəhy gəldiyini xəbər verir, müsəlman qardaşları cihada çağırırdı".(4: 97) Bəhlul Behcət təkcə əlimizdən alınan azadlıq və müstəqilliyimizin deyil, həm də dinimizin, dini dəyərlərimizin, mənəviyyatımızın keşiyində durmuş, mübarizə aparmışdır. Əsərdə diqqət çəkən məqamlardan biri də odur ki, öz milli müstəqilliyini qoruyub saxlayan müsavatçıların mübarizəsi erməni qəsbkarları, daşnakların cinayətkar əməlləri ilə bir səviyyəyə qoyulurdu. (4; 11)Müstəqillik qazandıqdan sonra Azərbaycan ədəbiyyatında milli müstəqillik təfəkkürü altında yeni ictimai-siyasi düşüncə, milli-mənəvi dəyərlər formalaşır, Sovet dövrünün ədəbiyyatımıza göstərdiyi mənfi təsir yavaş-yavaş aradan qaldırılır. Hadisələrə düzgün ictimai –siyasi qiymət verilir. Belə əsərlədən biri də Səbahəddin Eloğlunun "Zəngəzur hadisələri" əsəridir. 1992 ci ildə Azərnəşr tərəfindən buraxılmış bu kitabda Bəhlul Behcət Əfəndi haqqında kiçik məlumat verilir. Bildiyimiz kimi 1805 –ci ildə Rusiya ilə Qarabağ xanlığı

arasında bağlanmış Kürəkçay müqaviləsi, 1813- cü il Gülüstan müqaviləsi və 1828-ci il Türkmənçay müqaviləsi ilə Azərbaycanın tarixi torpaqları iki hissəyə parçalandı. Bu parçalanma ilə Azərbaycanın tarixi faciələrinin əsası qoyuldu. Çünki, işğal edilmiş Azərbaycan torpaqlarına xüsusilə də Naxçıvan, Qarabağ, İrəvan və Bakıya yüzminlərlə erməni əsilli ailələr köçürüldü. Bununla da Azərbaycanın tarixində faciələr, fəlakətlər dövrü başladı. "Böyük Ermənistan" yaratmaq istəyən mənfur düşmənlər, məqsədlərinə nail olmaq üçün torpaqlarımıza göz dikmişlər. Ilk hədəf olaraq Qarabağ, Naxçıvan, Zəngəzur bölgələrinə yiyələnmək cəhdləri göstərmişlər. Bu bölgələr içərisində isə ən çox ziyan çəkən Zəngəzur və onun əhalisi olmuşdu. Bir yandan Sovet hökumətinin silahlı dəstələri, bir yandan da erməni daşnakları əliyalın, günahsız xalqı qorxu içində saxlayırdı. Həbib Həsənov Zəngəzur və İrəvanda azərbaycanlıların yaşadıqları dövrü şərti olaraq 3 dövrə bölərək , üçüncü dövrü belə səciyyələndirir: "Üçüncü dövr- 1917-ci ilin sonundan başlayaraq 1989-cu ilə qədər olan dövr. Bu dövrün əvvəlində, yəni 1918-ci ildən 1920-ci il noyabrın 29-dək erməni daşnak hakimiyyəti dövrü, bundan sonra 1989-cu ilədək kommunistlərin hakimiyyət başında olduqları dövr. Bu dövrləri bir-birindən ona görə ayırmırıq ki, həm daşnakların həm də kommunistlərin "milli siyasət"ləri heç nə ilə fərqlənmirdi. Birincilər açıq surətdə, ikincilər isə gizlində Azərbaycan xalqına —türklərə qarşı soyqırım siyasəti yeridirdilər". (5:12) Doğurdan da xalq ikitərəfli təzyiq altında qalmışdı. Bir tərəfdən Sovet hakimiyyəti qurmaq istəyən bolşeviklər, digər tərəfdən onların əlaltıları olan, müsəlmanlara qarşı yürüdülən siyasətdən öz mənafeləri üçün məharətlə istifadə edən erməni daşnakları xalqa amansız zülmlər edirdilər.

Səbahəddin Eloğlu bu kiçik həcmli kitabda daşnakların Zəngəzurda törətdikləri vəhşiliklərdən, əhalinin başına gətirilən müsibətlərdən və onlara qarşı mübarizə aparan Zəngəzurluların igidliyindən bəhs edir. "Bəhlul Cahadı" adlı hissədə Zəngəzurda gedən döyüşlərdə Bəhlul Behcətin də yaxından iştirak etdiyini bildirir. Onun gördüyü işləri yüksək qiymətləndirən S. Eloğlu yazır: "Nizaminin yaradıcılığını elmi cəhətdən təhlil etmiş, Nizami və Qafqaz Folkloru

mövzusunda monoqrafiya hazırlamış, Sarı Aşığın əsərlərini toplayıb əlyazma şəklində kitab tərtib etmiş, Qaçaq Nəbinin qəhrəmanlığına həsr olunmuş səhnə əsəri yazmış, "Quran"ın Azərbaycan dilinə tam tərcüməsini ilk dəfə başa çatdırmışdır. Zəngəzurda müsəlmanlar arasında ağır bir yaranı sağaltmağa müvəffəq olmuşdur."(6;21) "Ağır bir yara" deyərkən o, (S. E) İslam dininin inkişafına və yayılmasına zərbə vuran sünnü – şiə təriqət ayrılığını, onlar arasında olan düşmənçiliyi nəzərdə tutur. S. Eloğlu Bəhlul Behcətin Zəngəzur və zəngəzurlular üçün etdiklərini, onun bolşevik və daşnaklara qarşı apardığı dini mübarizəsini işıqlandırmışdır. Sonda isə o,

Bəhlul əfəndinin həbsdə keçirdiyi günləri və daşnakların onu Xəzər dənizinə ataraq öldürdüyünü yazır. Azad Qaradərəli Bəhlul Behcətin şəxsiyyətini, həyatını, mübarizəsini, siyasi və ədəbi görüşlərini əks etdirən bir əsər yazıb. Müəllif Bəhlul Behcətin təkcə siyasi fəaliyyətini, azadlıq mübarizəsini əks elətdirmir, həm də onun ədəbi yaradıcılığını, folklorşünaslıq fəaliyyətini, bu sahədə yazdığı əsərləri oxucuya çatdırır. Onun "Sarı Aşıq" əsərindən parçalar təqdim edərək bu sahədə apardığı tədqiqatlarını yüksək qiymətləndirir. Azad Qaradərəli Bəhlul Behcətin soy kökünü araşdıraraq onun Qaramanlı tayfasından olduğunu ehtimal edir. İlk dəfə bu kitabda Bəhlul Əfəndinin nəsil şəcərəsi haqqında məlumat verilir.(7;61) Sonda "Zəngəzurun Qazisi- Bəhlul Behcət" adlı sənədli televiziya filminin ssenarisi verilib ki, burada da Bəhlul Behcət obrazı özünəməxsus sənətkarlıqla canlandırılmışdır. Bəhlul Behcət haqqında qaranlıq məqamlara aydınlıq gətirdiyinə görə, bu sahədəki misilsiz xidmətlərinə görə Azad Qaradərəliyə minnətdarlığımızı bildiririk.Tahirə Bədəlova 2011 ci ildə Sumqayıtda nəşr etdirdiyi "Vətəni tanı" adlı kitabında Qubadlının tarixindən, əsrarəngiz təbiətindən, vətənpərvər, istiqanlı insanlarından, görkəmli şəxsiyyətlərindən onların başına gətirilən müsibətlərdən, tarixi qəhrəmanlarından bəhs edir. XX əsrin əvvəllərində Zəngəzurda və eləcə də Qubadlıda baş vermiş hadisələri, daşnakların törətdikləri vəhşilikləri, onlarla mübarizə aparan qeyrətli Azərbaycan oğullarını publisist qələmi ilə işıqlandırır.T. Bədəlova bu əsərdə hələ əsası 1988 ci ildə qoyulan Qarabağ hadisələri zamanı Qubadlılıların da biganə qala bilmədiyini, bu döyüşlərdə yaxından iştirak etdiklərini böyük fəxrlə bildirir. Bu döyüşlərdə həlak olan yüzlərlə qubadlılı milli qəhrəman adı almışdır. T. Bədəlova onlar haqqında qısaca məlumat verməyi özünə bir borc bilmişdir. Qubadlının tarixi şəxsiyyətlərindən danışan T. Bədəlova Bəlul Əfəndinin də adını çəkməyi unutmur. O, Bəhlul Behcətdən bir ziyalı, siyasətçi, alim, ədəbiyyatşünas, folklorşünas, din xadimi kimi bəhs etmişdir. Yazıçı Bəhlul Behcətin Quranı Azərbaycan dilinə tərcümə etməsindən, Sovet hakimiyyətinin qurulması illərində onun da bir müsəlman olaraq buna qarşı çıxmasından, xalqı cihada səsləməsindən danışır. (8;161)Lakin T. Bədəlova B. Behcət haqqında məlumatında Səbahəddin Eloğlundan qaynaqlanmışdı, özü isə heç bir yeni məlumat verməmişdir. Hacı Nərimanoğlu "Zəngəzurda doğuldular, Anadoluda əbədiyyətə qovuşdular" adlı kitabında "Zəngəzurun sonuncu Qazısı Bəhlul Behcət və onun "Qaçaq Nəbinin tarixi" kitabı" başlıqlı bölmədə Bəhlul Behcətin keşməkeşli həyat yolundan, yaradıcılığından bəhs etmişdir. Bəhlul Behcətin yenicə çapdan çıxmış bu kitabını Qaçaq Nəbinin həyatını və mübarizəsini əks etdirən ən etibarlı və dolğun mənbə hesab edən Hacı Nərimanoğlu Bəhlul Behcətin bu əməyini yüksək qiymətləndirmişdir. (9;111) Əşir Bəşir oğlu Fətəliyev "İşıqlı şəxsiyyətlər unudulmur", "Cəsur

Qardaşlar" adlı kitablarında vaxtında layiqincə qiymətləndirilməyən, unudulan zəka sahiblərini, görkəmli şəxsiyyətləri tapıb üzə çıxarmışdır. Onlar arasında Bəhlul Əfəndi Behcət də var. Bəhlul Əfəndi təkcə doğulduğu Dondarlı kəndində deyil, bütün Zəngəzurda öz ağlı, zəkası, dünyagörüşü ilə hörmət qazanmışdır. Ə. Fətəliyev yazır: "Sovet hakimiyyəti qurulandan sonra Zəngəzur mətbuatında Bəhlul Əfəndinin ünvanına çoxlu tənqidi yazılar gedirdi. Bunlardan xalq yazıçısı Əli Vəliyevi, Oruc Qüdrətovu, partiya və dövlət xadimi H.Heydərovu xüsusilə qeyd etmək istərdim. Onlar birtərəfli olaraq B.Bəhcəti tənqid edir, onun xalq qarşısında olan xidmətlərinə isə göz yumurdular." (10; 31)

Ədəbiyyat

1. C. Qasımov "Azərbaycan folklorşünasları (1920-1950)" Bakı, "Elm", 2015.456 səh
2. Nəzər Heydərov "Zəngəzur dağlarında" Azərnəşr, 1989. 224 səh.
3. Oruc Qüdrətov "Keçilməmiş yollarla" Bakı, 2008. 632 səh
4. Əli Vəliyev "Zəngəzur qartalları" Bakı, Gənclik, 1970. 281 səh
5. Həbib Rəhimoğlu "Silinməz adlar, sağalmaz yaralar..." Bakı, Azərnəşr, 1997. 260 səh
6. Səbahəddin Eloğlu "Zəngəzur hadisələri" B.; Azərnəşr. 1992. səh.58.
7. Azad Qaradərəli "Zəngəzur qazisi Bəhlul Behcət" Bakı-Şirvannəşr-2009. 80 səh
8. Tahirə Bədəlova "Vətəni tanı" Sumqayıt Bilik nəşriyyatı 2011 səh 267
9. Hacı Nərimanoğlu "Zəngəzurda doğuldular, Anadoluda əbədiyyətə qovuşdular" Yek production -2012 səh 142
10. Əşir Bəşir oğlu Fətəliyev " Işiqli şəxsiyyətlər unudulmur" Bakı – 2006 səh 137

Х.Бабаева

Роль бахлула Бехджета в хдожественной литературе

Резюме

В советский период постоянно преследовались наши прогрессивно мыслящие ученые-просветители, которые являлись глашатаями тюркизма, исламизма, национальных идей. Одним из таких наших ученых был Бахлул Мустафа оглы Эфендиев. В художественной литературе и публицистике существуют различные подходы к личности Бахлула Бехджета. Часть в его лице возрождали образ «народного

врага». Другие представляли его читателям как патриота, глашатая свободы. Долгое время упавший в глазах народа, объявленный предателем родины Бахлул Бехджет не то, что работал против народа, наоборот, играл важную роль в пробуждении национального сознания, формировании его как нации. Это в своих произведениях осветили многие писатели. Писатели советского периода критически и гневно относились к фольклористу, религиозному деятелю, ученому Бахлулу Бехджету, ведущему борьбу против большевистского режима. В современных образцах художественной литературы не проявляется подобное отношение. В произведениях, написанных в период независимости, по достоинству оценивается художественная и политическая деятельность Бахлула Бехджета, его заслуги перед родиной и народом.

Babayeva Hijran

The role of Bahlul Behjat in literature

Summary

During Soviet times enlightener scholars who were forerunners of the idea of nationality, Islamism, Turkism were constantly persecuted. One of these scholars is Bahlul Mustafa oglu Efandiyev. There are different points of view about the character of Bahlul Behjat in fiction and publicist articles. Some writers speak about him as an enemy of the nation. But others represent him as a patriot and a proclaimer of freedom. Bahlul Behjat who was declared as a traitor of Motherland for a long period of time, didn't work against his nation. On the contrary he played a great role in the formation of the national self perception. Most writers elucidated it in their works. There was a preconceived attitude of soviet writers towards B. Behjat. This kind of attitude is not displayed in today's literary examples. B. Behjat's political and literary activities and servises for his motherland and nation are decently appreciated.

Rəyçi: Cəlal Qasımov
filologiya elmləri doktoru, professor

CƏMİLƏ ƏZİZOVA
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
azizlijamila@yahoo.com

BƏDİİ ƏDƏBİYYAT VƏ ƏDƏBİYYATŞÜNASLIQ ÜZRƏ ELEKTRON İNFORMASİYA BAZALARININ YARADILMASI TƏCRÜBƏSİ

Açar sözlər: elektron kitabxana, adi kitabxana, elektron sənədlər, internetdən istifadə, onlayn kataloq, informasiya bazaları, müasir informasiya, ədəbiyyatşünaslıq sahəsi, elektron məlumat bazası.
Key words. Electronical library, traditional library,electronic dokuments, the usage of internet,online catalogue,information bases, modern information, item of liberary, an electronical information base.
Ключевые слова: электронная библитотека, обычная библиотека, электронные документы, использование интернета, онлайн каталог, информационные базы, современная информация, сфера литературоведения, электронная информационная база.

Müasir dövrdə kitabxanaların qazanacağı uğurlar yeni informasiya kommunikasiya texnologiyalarının tətbiqi səviyyəsindən çox asılıdır. Muasir dovrun tələblərinə uyğun olaraq kitabxanalarda elektron kataloqun, elektron kitabxananın təşkili, məlumat bazalarının yaradılması, oxuculara virtual xidmətin təqdim edilməsi kitabxanaların qarşısında duran prioritet məsələlərdəndir. Kitabxanaların kompyuterləşdirilməsi, yeni kitabxana-informasiya texnologiyalarının tətbiqi kitabxanalarda xidmətin yuksək inkişaf səviyyəsini təmin edir. Eyni zamanda kitabxanalarda muasir informasiya kommunikasiya texnologiyalarından, İnternet informasiya resurslarından istifadə olunması, elektron kataloq və elektron kitabxana, elektron məlumat bazalarının yaradılması dünya kitabxanaları ilə elmi kommunikasiyaların inkişafına təkan verəcəkdir. Bu sahədə ilkin goruləcək iş kitabxanaların ən yeni kompyuter-telekommunikasiya, texnikası ilə təchiz olunması, bu işdə çalışa biləcək yuksək ixtisaslı kadrların hazırlanmasıdır. Bu, kitabxanalara oz oxucularına məsafədən asılı olmayaraq, 24 saat muddətində online xidməti gostərən informasiya muəssisələri kimi fəaliyyətinə imkan verəcəkdir.

Kitabxana proseslərinin kompyuterləşdirilməsinin, əsasən aşağıdakı istiqamətlərdə həyata kecirilməsi məqsədəuyğun hesab edilir:

I. Kitabxanaların ənənəvi iş üsullarının kompyuterləşdirilməsi
II. Elektron kataloqun yaradılması
III.Elektron kitabxanaların yaradılması
IV. Kitabxanalarda elektron sənəd mübadiləsi xidmətinin təşkil edilməsi

V.Korporativ kitabxana – informasiya şəbəkələrinin yaradılması [12,46 s.].

"Kitabxanaların ənənəvi iş üsullarının kompüterləşdirilməsi" istiqaməti üzrə ən vacib məsələllərdən biri ənənəvi proseslərinin (kataloqlaşdırma, komplektləşdirmə, xidmət və s.) kompüterləşdirilməsindən ibarətdirdir. Bu prosesdən sonra kitabxanaya daxil olan yeni kitablar ilk novbədə kompüterdə oz əksini tapmalı, katrockalar kompüterdə yazılmalı və coxaldılmalıdır. Bununla ağır və yorucu kitabxanacı əməyini asanlaşdırmaq, eləcə də kitabxanada gorulən bir sıra işlərin təkrar yerinə yetirilməsinin qarşısını almaq, əmək məhsuldarlığını və effektivliyini keyfiyyət və kəmiyyət baxımından artırmaq, kitabxana fondunun etibarlı surətdə muhafizəsini və bu fonddan daha geniş oxucu kontingentinin səmərəli istifadəsini təmin etmək olar.

İkinci vacib istiqamət elektron kataloqun yaradılmasıdır. Elektron kataloq kitabxana fondunun guzgusudur. Onun umumi modulunu aşağıdakı kimi izah etmək olar:

1.Elektron kataloq-maşınla oxunan formada reallaşdırılan kitabxana kataloqudur.

2. Elektron kataloq-kataloq funksiyalarını icra edən biblioqrafik məlumat bazasıdır.

3. Elektron kataloq-avtomatlaşdırılmış kitabxana-informasiya sistemi və ya onun altsistemidir.

4. Elektron kataloq - online kataloqdur.

Kitabxanaların xidmət sisteminin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə elektron kataloqların yaradılmasına ehtiyac duyulur. Cunki hazırki informasiya coxluğunda oxucuların istədikləri məlumatı əldə edə bilmələri ucun elektron kataloqun yaradılmasının əhəmiyyəti cox boyukdur.

Ucuncu istiqamət elektron kitabxanaların yaradılmasıdır. Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsinin oxucuları da daxil olmaqla müsir oxucular ən operativ informasiyanı əldə etmək ucun İnternetdən istifadəni əvəzsiz sayırlar. Belə oxucuların marağını elektron kitabxanalar daha cox təmin edir. İnkişaf etmiş olkələrdə kitabxanaların avtomatlaşdırılmış sistemlə işləməsi təcrubəsinin uğurları respublikanın kitabxanaları üçün də numunəyə cevrilməlidir. Elektron kitabxanalar informasiyalaşdırılmış cəmiyyət quruculuğunun sosial sifarişidir. Elektron kitabxanalar oxuculara informasiya xidmətinin kompüterləşdirilməsinin nəticəsi olub, ənənəvi kitabxanalara alternativ bir qurum deyil, yalnız bir xidmət novudur. Elektron kitabxana umumi istifadə ucun acıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya resurslarına malik olur. Lokal (İnternetə cıxışı olmayan kitabxananın daxili İnternet şəbəkəsində oxunan ədəbiyyat) resurslar elektron kitabxananın web serverlərində toplanmış, kitabxana

fondunda yerləşən ədəbiyyatın elektron nusxələrindən və kitabxana tərəfindən odənişli və ya mubadilə usulu ilə alınmış elektron sənəd və nəşr toplusundan ibarətdir. Elektron kitabxana muasir web texnologiyası əsasında fəaliyyət gostərir. Muasir dovrdə oxucular elektron kitabxanalar sayəsində kitabxanaların informasiya ehtiyatlarından istifadə edir. Elektron kitabxanalar uzaq məsafədən oxuculara daha dolğun informasiya xidməti gostərərək, bu xidmətin zaman və məkandan asılılığına son qoyur. Ənənəvi kitabxanalarda informasiya xidməti yalnız kitabxananın iş saatı muddətində və məhdud sayda oxuculara gostərildiyi halda, elektron kitabxanalar 24 saat muddətində fəaliyyət gostərir və dunyanın istənilən noqtəsində yerləşən qeyri-məhdud sayda oxuculara eyni zamanda xidmət edir. Elektron kitabxanalar rahat və sərfəli xidmət növüdür. Müasir şəraitdə respublikamızın bəzi kitabxanalarında bu xidmətin təşkili qısa müddətə və az xərc sərf etməklə boyuk informasiya ehtiyatlarının oxucuların istifadəsinə verilməsini və oxucu tələbatının operativ yerinə yetirilməsini təmin edir.

Elektron kitabxanaların yaradılması duzgun planlaşdırmadan, yəni, proqramın düzgün secilməsindən başlayır. Elektron kitabxana daim yeniləşmə, inkişaf və profilaktik iş tələb edir. Bu məqsədlə kitabxanaya butun funksional istiqamətlərdə peşəkar mutəxəssislər-təsvirin işlənməsi, mətnin rəqəmsallaşdırılması uzrə mütəxəssis kompüter şəbəkəsinin ekspluatasiyası ucun sistem administratoru və proqramlaşdırıcılar, metaverilənlərin yaradılması və daxil edilməsi ücün kataloqlaşdırıcılar, bir necə layihə rəhbəri, eyni zamanda istifadəcilərin kolleksiyaya cıxışına komək və onlarla iş məqsədilə xidmət şobəsi işciləri tələb olunur. Elektron kitabxanadan istifadə cox sadədir, ondan istifadə ucun oxucudan İnternetə qoşulmuş kompüter və İnternetin www xidmətindən istifadə vərdişi tələb olunur.

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq sahəsinin elektron kitabxanada əksini əyani şəkildə Milli kitabxananın elektron kitabxanası vasitəsilə gostərək. Əvvəlcə Milli kitabxananın www.anl.az saytına daxil oluruq, daha sonra acılan səhifənin sol tərəfindən elektron kitabxana linkini (kecidini) tıklayırıq və "Humanitar elmlər" şöbəsi açılır. Burada ədəbiyyat sistemli qaydada qruplaşdırılmışdır "Filologiya elmləri. Bədii ədəbiyyat" şöbəsini açdıqda burada tədqiqat apardığımız sahənin tanınmış şəxsiyyətlərinin əsərləri ilə "Daxili əlifba" ilə tanış olmaq olar. Eyni zamanda burada Hacıbəyli Üzeyir, Hadi Məhəmməd, Köçərli Firudin bəy, Marağayi Zeynalabdin, Məmmədquluzadə Cəlil, Nərimanov Nəriman, Sabir Mirzə Ələkbər, Mirzə Əli Möcüzə aid məlumat bazalarının olduğunu görürük.,

Milli Kitabxana hazırda real fəaliyyət göstərən müxtəlif funksional avtomatlaşdırılmış kitabxana sistemi VİRTUA proqramına malikdir. Kitabxana VTLS proqramının bütün modullarını almışdır. Administrator

yarımsisteminin köməkliyi ilə mütəxəssislər avtomatlaşdırılmış idarəetmə sisteminin yeni və son versiyasının quraşdırma işlərini başa çatdırmışlar.

VTLS/VİRTUA sisteminin əsas üstün cəhətləri aşağıdakılardır:

1. VTLS/VİRTUA proqramı başqa sistemlərlə asan informasiya mübadiləsini həyata keçirməyə imkan yaradır;

2. Bölgələrdə elektron kataloq yaratmaq üçün əlavə sistem olmadan İnternet vasitəsilə Milli Kitabxananın sisteminə qoşularaq öz elektron kataloqunu yarada bilərlər.

Bu ilk növbədə kataloqlaşdırma ilə məşğul olan kataloqçulara vaxta qənaət etməyə imkan verir. Onlar sistem vasitəsilə Milli Kitabxananın Elektron kataloquna daxil olaraq lazım olan ədəbiyyatın hazır təsvirini alaraq, oraya sadəcə sənədin olduğu yerin unvanını və mühafizə şifrəsini, kütləvi kitabxanalar üçün KBT indekslərini əlavə edərək özlərinin Elektron kataloqlarını yaradırlar. Bu məqsədlə tender elan olunaraq müvafiq təşkilat müəyyənləşdirilmiş və ULTRA şirkəti ilə bu işləri görülməsi barədə müqavilə imzalanmışdır. Artıq bugünədək server otağı, data mərkəzin yaradılması işi başa çatdırılmış və avadanlıqlar quraşdırılmışdır. Eyni zamanda xüsusi proqramlar işlənb hazırlanmışdır və onların işə salınması prosesi gedir. Mədəniyyət və Turizm Nazirliyinin Milli Kitabxana ilə birgə layihəsi olan işlər davam etdir və bir neçə pilot rayon, şəhər kitabxanaları seçilərək, onların bazası əsasında mərkəzləşdirilmiş avtomatlaşdırılmış idarəetmə sistemi qurulur. Bununla da nazirliyin kitabxanaları üzrə müvafiq portalın yaradılması, bütün kitabxanaların elektron kataloqunun tərtibi işləri və elektron məlumat bazalarının, elektron kitabxananın yaradılması prosesləri Milli Kitabxananın nəzdindəki isdarəetmə mərkəzindən idarə olunacaqdır. Elektron kataloqun formalaşdırılmasına dəstək şöbəsi 2011-ci ildə kitabxanaya daxil olan Azərbaycan və rus dillərində olan 8519 adda yeni ədəbiyyatı, ümumilikdə isə 24784 adda (20196 adda Azərbaycan, 4588 adda isə rus dilində) ədəbiyyatın biblioqrafik yazısını yaradaraq elektron kataloqun məlumat bazasına daxil etmişdir. Analitik elektron məlumat bazasının təşkili şöbəsində işlər avtomatlaşdırılmış kitabxana proqramına uyğun olaraq aparılır. Şöbə il ərzində respublikamıza dair və ümumi xarakterli məqalələrin Azərbaycan və rus dilində 38 168 (29 289 Azərbaycan dilində, 8879 rus dilində) analitik-biblioqrafik yazısını elektron katoloqun analitik məlumat bazasına daxil etmişdir. 27 140 (19 426)Azərbaycan dilində, 7714 rus dilində) Azərbaycan və rus dilində məqalələrin tam elektron mətni kitabxananın saytına daxil edilmişdir

Azərbaycan ədəbiyyatının arxivi şöbəsində arxiv fondunu elektron kataloqa köçürməsi işi davam etdirilmişdır. Il ərzində 21 880 biblioqrafik yazı Virtuaya daxil edilmişdir ki, bunun 2000-i qədim ədəbiyyatı əhatə edir. İl ərzində 3499 ədəbiyyatın elektron versiyası hazırlanmışdır.

Elektron Resursların Yaradılması şöbəsi qlobal (http://www.anl.az) və lokal (http://web.anl.az/) serverlərdə aşağıdakı işləri görmüşdür: Azərbaycan Respublikasının Prezidenti İLHAM ƏLİYEVİN "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli cərəncamı ilə nəşr olunan klassik və müasir Azərbaycan ədəbiyyatı, dünya ədəbiyyatı silsiləsindən əsərlərin kitabxanada olan bütün nəşrlərinin elektron versiyasının hazırlanması işi başa çatmışdır. Müəllif hüquqlarının qorunması qanunlarını rəhbər tutaraq kitabların mühafizəsini təmin etmək, informasiya qıtlığını aradan qaldırmaq məqsədi ilə Milli Kitabxananın fondunda olan nəşrlərin — Qədim və nadir ədəbiyyat nümunələrinin (2879 kitab), müasir ədəbiyyat nümunələrinin və klassiklərin ölkədə və ya xaricdə nəşr olunmuş əsərlərinin rus və ingilis dilində nəşrlərinin (1570 kitab), Kitabxananın nəşirlərinin (48 kitab) və müəlliflərin öz ərizələri ilə birgə elektron daşıyıcılarda təqdim etdikləri kitabların (178 kitab) əsasında işlənilib hazırlanan elektron resursları saytların Elektron Kitabxanasında müvafiq dildə, müvafiq bölmələrdə, həmçinin əlifba üzrə yaradılmış səhifələrdə yerləşdirmişdir.

Son dövrlərdə şöbədə Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramını rəhbər tuturaq aşağıdakı Elektron Məlumat Bazaları yaradılıb və ya yenidən işlənilərək serverdə yerləşdirilib: Qara Qarayev, Xocalı (yenidən işlənilmiş), Nəriman Həsənzadə, 31 Mart (yenidən işlənilmiş), Mehriban xanım Əliyeva, Nizami Gəncəvi, Abuzər Xələfov, Nəsir İmanquliyev. Bu bazalarda əlavə olaraq 372 məqalənin tam mətninin elektron resursu hazırlanaraq yerləşdirilmişdir. 67 adda qəzet və 46 adda jurnalların elektron versiyalarının siyahısı İnternet səhifəsində, tam mətni isə İntranet səhifəsinin "Dövrü və ardı davam edən nəşrlərin elektron məlumat bazası"nda yerləşdirilmişdir.

Artıq "Ədəbiyyat" qəzetinin bütün nömrələrinin informasiya daşıyıcılarına köçürülməsi işi başa çatdırılaraq, 1934-2011-cu illər üzrə nömrələr bərpa olunmuşdur. 4675 ədəd kitab və 21638 nömrə qəzet və jurnal materialları - 26565 resurs hazırlayaraq Elektron Kitabxanamızda həm əlifba, həm də elm sahələri üzrə müvafiq səhifələrdə yerləşdirilərək oxucuların istifadəsinə verilmişdir.

Nadir kitablar fonduna Azərbaycan dilində 8, ərəb dilində 1, rus dilində 96 nüsxə kitab daxil olmuşdur. 445 nüsxə qiymətli və oxucular tərəfindən çox soruşulan ədəbiyyatın surəti çəkilib Elektron kitabxanada yerləşdirilmişdir. Jurnal fondunda az soruşulan köhnə illəri əhatə edən 448 adda 45 938 nüsxə jurnal seçilib Depozitar ədəbiyyat şöbəsinə verilmişdir. Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsində 3610 tammətnli elektron resurs var. Bunlardan 1048 nüsxəsi aftoreferat, 2562 nüsxəsi isə dissertasiyadır. İl ərzində Rusiya Dövlət Kitabxanasının disser-

tasiya və avtoreferatlarının tammətnli elektron bazasından və Azərbaycanda müdafiə olunmuş dissertasiyaların tam mətnli eletron məlumat bazasından 623 oxucuya virtual xidmət olunub.

Çap məhsullarının qeydiyyatı və Milli biblioqrafiya şöbəsi (Kitab Palatası) tərəfindən "Birillik Azərbaycan Kitabiyyatı"nın respublikada dərc olunmuş kitabları əhatə edən 1996, 1997 və 2009-cu illərə dair buraxılışları hazırlanmış, "Yeni kitablar" göstəricisinin 2010-cu ilin IV buraxılışı, 2011-ci ilin I,II buraxılışları çap olunmuş, 2011-ci ilin III və IV buraxılışları çapa hazırlanmuşdır. Şübhəsiz ki, həmin mənbələr içərisində bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə ədəbiyyat da öz əksini tapmışdır.

«AMEA Mərkəzi Elmi Kitabxanasında da məlumat bazalarının yaradılması istiqamətində işlər davam etdirilir. XXI əsrin ilk illərindən başlayaraq «AMEA Mərkəzi Elmi Kitabxanası elmi-tədqiqat müəssisələri kitabxana şəbəkəsinin Avtomatlaşdırılmış İnteqrasiyalı Kitabxana Sisteminin yaradılması» istiqaməti üzrə fəaliyyət göstərir.

Bundan əlavə, Kitabxananın elektron kataloqunun İnternet istifadəçilərinə təqdim edilməsi məqsədi ilə "VEB-İRBİS" proqramının sınaq variantı internetə buraxılmışdır. Hazırda "VEB-İRBİS" proqram təminatının interfeysinin Azərbaycan dilinə tərcümə edilməsi istiqamətində Elmi Kitabxanada iş davam etdirilir.

"Azərbaycanşünaslıq" elektron informasiya mərkəzinin yaradılması" işinin müvafiq mərhələləri yerinə yetirilmişdir.

- "Azərbaycanın tarixi" məlumat bazasının formalaşdırılması (müstəqillik dövrü) həyata keçirilmişdir. Bu məqsədlə Azərbaycanın müstəqillik dövrü tarixinə dair 335 adda kitab, məcmuə və məqalə bazaya daxil edilib.

2010-cu ildə "Mərkəzi Elmi Kitabxananın Veb-səhifəsinin təkmilləşdirilməsi" üzrə iş davam etdirilmişdir. Saytın mütəmadi olaraq yeniləşməsi, bütün sənədlərin, məlumatların elektron formada serverə (hostinq) yerləşdirilməsi davam etdirilib. Cari ilin plan və hesabatları, yeni ədəbiyyatın informasiya bülletenləri, "Elmi Əsərlər"in yeni buraxılışı, Kitabxananın digər nəşrləri, keçirilən tədbir və konfranslar haqqında məlumatlar sayta yerləşdirilmişdir.

Bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə məlumat bazalarının yaradılması istiqamətində iş Nizami adına ədəbiyyat İnstitutunun "İnformasiya və biblioqrafiya" şöbəsində də davam edir. Ədəbiyyat İnstitutunun elmi fəaliyyətinin bütün sahələrinin operativ informasiya təminatını təmin edən tədbirlər kompleksi həyata keçirilməkdədir. İlk növbədə, əsas diqqət "Azərbaycan ədəbiyyatşünaslığının biblioqrafiyası"nın elektron məlumat bazası üzərində işlərin aparılmasına yönəldilmişdir. Bu baza 1976-cı ildən bu günə qədər ədəbiyyatşünaslıq sahəsində nəşr edilmiş elmi əsərləri və onların müəllifləri haqqında materialları əhatə edəcəkdir.

Hazırda həmin bazaya görkəmli ədəbiyyatşünas alimlərdən Həmid Araslı, Kamal Talıbzadə, Yaşar Qarayev, Azadə Rüstəmova və b. eyni zamanda Nizami adına Ədəbiyyat İnstitutunun «Elmi əsərləri»nin biblioqrafiyaları daxil edilmişdir.

İnformasiya kommunikasiya texnologiyalarının tətbiq edilməsi kitabxanaların əsas funksiyasının, strukturunun, təyinatının dəyişməsinə gətirib çıxarır, onları çoxfunksiyalı bir təsisata çevirir. Müasir kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində modernləşən bu təsisat həm kitabxana, həm informasiya mərkəzi, həm mədəniyyət mərkəzi, həm də təhsil mərkəzi funksiyasını özündə birləşdirir. Bu çoxşaxəli fəaliyyət sahəsi cəmiyyətdə onun ictimai əhəmiyyətini getdikcə artırır. Məhz buna görə də kitabxanalara müasir informasiya texnologiyalarının tətbiq edilməsi son dərəcə vacib bir məsələdir. Bu işə başlamaq üçün fikrimizcə, respublikada fəaliyyət göstərən kitabxanaların monitorinqi aparılmalı, onların mövcud vəziyyəti-fondu, texniki təminatı, kadr potensialı öyrənilməlidir. Hansı kitabxanaların informasiya-kommunikasiya texnologiyaları ilə ilk növbədə təmin edilməsinin zəruri olduğu müəyyən edildikdən sonra bu proses mərhələlərlə həyata keçirilməlidir. Zəngin kitab fonduna malik olan böyük kitabxanaların hamısında müasir informasiya texnologiyaları, avtomatlaşdırılmış kitabxana sistemləri tətbiq edilməli, elektron kataloq, elektron resurslar yaradılmalıdır. Elektron resurslar yaradılarkən kitabxanaların profili əsas götürülməli, pərakəndəliyə, sistemsizliyə, səthiliyə yol verilməməlidir. Ölkənin siyasi, iqtisadi, mədəni həyatına, onun tarixinə, beynəlxalq əlaqələrinə, elmi potensialına, incəsənətinə, Dağlıq Qarabağ probleminə, Xocalı soyqırımına, diasporlarımıza aid müxtəlif dillərdə mükəmməl elektron resursların hazırlanıb lokal və qlobal şəbəkələrdə yerləşdirilməsi aparıcı kitabxanaların əsas vəzifələrindən biri olmalıdır. Kitabxanalar bu vəzifələrin yerinə yetirilməsi sahəsində artıq müəyyən işlər görmüşdür. Burada kitabxana proseslərinin əksəriyyəti avtomatlaşdırılmış, Avtomatlaşdırılmış Kitabxana Proqramı tətbiq edilmiş, mükəmməl elektron kataloq, prioritet sahələr üzrə bir neçə elektron resurs yaradılmışdır. Lokal şəbəkədə işləyən tammətnli verilənlər bazası oxucuların istifadəsinə verilmişdir və hazırda onun Web səhifəyə qoşulmasıüçün tədbirlər görülür. Kitabxanada sənədin elektron çatdırılması, məsafədən xidmət üsulu uğurla tətbiq edilir. Əlbəttə, günbəgün artan informasiya seli içərisindən lazım olanını seçib, sistemləşdirib təyinatı üzrə qruplaşdırmaq və arxivləşdirmək üçün təbii ki, kitabxanaçıdan da xüsusi səriştə, peşəkarlıq və operativlik tələb olunur. Kitabxanaların yeni kitablarla vaxtlı-vaxtında komplektləşdirilməsi, elektron nəşrlərin, elektron resursların, dövri nəşrlərin alınması və abunəsi işi də kitabxana fəaliyyətinin çox vacib sahəsidir. Kitabxananın fondu nə qədər zəngin olarsa, oxucunun, istifadəçinin sorğusuna və sifarişinə uyğun

daha mükəmməl informasiya vermək olar. Buna görə də, ilk növbədə kitabxana fondunun fasiləsiz olaraq sənəd-informasiya təminatı məsələsi də həll edilməlidir. Fikrimizcə, bu gün hər bir kitabxana, dövlət başçısının respublikamızda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi önəm verməsinə rəğmən cəmiyyətin informasiyalaşdırılması prosesində fəal yardımçı olmaq, çevik informasiya mərkəzinə çevrilmək vəzifəsini yerinə yetirmək üçün yollar axtarmalıdır. Çünki bu, zamanın tələbidir.

Ədəbiyyat siyahısı:

1.İsmayılova S.P.Azərbaycanda bədii ədəbiyyat və ədəbiyyatşünaslıq üzrə sənəd kütləsi biblioqrafiyalaşdırma obyekti kimi:Dərs vəsaiti. Bakı,2008, 63 s.
2. İnformasiya Texnologiyaları Nazirliyi. İnformasiya cəmiyyətinin 100 əsas anlayışı. Bakı, 2007.
3.İsmayılov X.İ. Azərbaycanda kitabxanaların metodik təminat sis¬t-eminin inkişaf tarixi (1918-19200-cı illər):Monoqrafiya. Bakı, 2000, 415 s.
4.. Əhmədova A.S.İnformasiya cəmiyyətinin qurulmasında informasiyalaş dırmanın rolu və dövlət siyasəti // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, s.166, № 3(27) 2009.
5. Quliyev T., Həsənov M. Elektron kataloqlar // Mədəni-maarif. – 2005. - № 2. – S. 42-45.
6. Vəzirova R. Elektron biblioqrafik məlumat bazası SBA-nın əsas tərkib hissəsidir // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal, 2007, № 2,S. 76-86.

J.Azizova

Electronic catalogues are an eye of electronic libraries.

Summary

There is a need for qualification and inreach the librariy services, and making electronical catalogues readers. Now there is a great need for the peoples getting more information about all we need electronical libraries. The readers think that nothing can be used instead of internet for getting literary and modern literary informations. Electronic libraries supple the need of such readers more electronical libraries act in model of web. system an important ways of it is a modulation of electronic libraries. Electronic catalogues are an eye of electronic libraries.

Such libraries serve all the parts of the world at the same time for getting any information.

Electronic libraries need constant and heard working. The usage of this libraries is easy and reader only need to have a phone connected to an internet and the use skills.

Дж.Азизова

Практика создания электронных информационных баз по художественной литературе и литературоведению

Резюме

Завершая научно – исследовательскую работу, можно прийти к такому заключению, что печатные произведения, опубликованные в годы независимости в сфере художественной литературы и литературоведения, на сегоднящний день продолжают служить людям благодаря библиографическим ресурсам. Усвоение минимальных библиографических знаний создает возможности сделать всю работу крайне рациональной. По мере использования библиографических ресурсов эти знания углубляются, расширяются, возникают навыки использования различных информационных источников, раскрываются все информационные возможности богатой печатной продукции.

Электронные библиотеки являются социальным заказом информационного общества. Электронные библиотеки, являясь результатом компьютеризации информационного обслуживания населения, выступает не альтернативной организацией традиционным библиотекам, а всего лишь одним из видов обслуживания. Электронная библиотека обладает локальными информационными ресурсами, предназначенными для общего пользования, и распределенными информационными ресурсами на расстоянии.

Не случайно, что многие известные ученые, в том числе, ученые Азербайджана хорошо знакомы с библиографическими источниками, высоко оценивают умение пользоваться ими и иногда сами тоже занимаются составлением библиографических изданий.

Rəyçi Gülşən Əliyeva
Filologiya uzrə elmlər doktoru, professor

PƏRVANƏ MUSTAFAYEVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
ereste@rambler.ru

XX ƏSRİN I YARISINDA RUS NƏSRİNDƏ TARİXİ ROMAN VƏ ONUN İNKİŞAF YOLLARI

Açar sözlər: XX əsr, nəsr, rus, tarixi hadisə və şəxsiyyətlər, roman, qəhrəman
Ключевые слова: XX век, проза, русская, исторические происшествия и личности, роман, герой
Key words: XX century, prose, Russian, historical event and persons, novel, hero

XX əsrin 20-ci illərindən başlayaraq roman janrında tarixilik problemi, yaxud tarixi roman yeni bir mərhələyə daxil olur. İqilabın gətirdiyi yeni məzmun onun mövzu və problematikasını da dəyişir. Yeni həyat quruculuğu yazıçıdan yeni məzmun və forma, eləcə də həyat hadisələrinin təsvirində yeni yaradıcılıq axtarışları tələb edirdi. Ədəbiyyatın qarşısına bir çox mürəkkəb vəzifələr qoyulurdu. Bu vəzifələr içərisində yeni həyat qurucularının mübarizəsini təsvir etmək də müəyyən yer tuturdu. Yazıçıların diqqəti daha çox yaxın tarixdə baş verən hadisələrə yönəlmişdi. M.Qorkinin "Artamanovların işi" (1925), F.Qladkovun Sement" (1925), L.Leonovun "Barsuklar" (1925) romanları ilə bədii nəsrdə tarixi problematika işlənilməyə başladı. Lakin bu tipli romanların yazılmasında yazıçı istər-istəməz sinfi mövqeyini də bildirməli olurdu ki, bu da bədii əsərin uzunömürlülüyünə müəyyən dərəcədə xələl gətiririrdi. Bir müddət sonra mövzunun köhnəlməsi əsərin də bədii dəyərinin azalmasına səbəb olurdu. Milli ədəbiyyatlarda, eləcə də Azərbaycan ədəbiyyatında da bu cür romanlar yazılmışdır. Tarixi-inqilabi mövzuda yazılan bu əsərlərdə dövrün ideologiyası öz damğasını vururdu. M.S.Ordubadinin "Döyüşən şəhər", "Gizli Bakı", Əbülhəsənin "Dünya qopur", Mir Cəlalın "Bir gəncin manifesti", M.Hüseynin "Tərlan", "Daşqın", "Komissar" və b. əsərlərdə də yaxın tarixin hadisələri inqilab nöqteyi-nəzərindən yazılırdı. Bu əsərlərin yazılmasının başlıca səbəbi rus ədəbiyyatından gələn hazır süjet xətləri olsa da, xalqın tarixinə marağın artmasında müəyyən rol oynadı. 30-cu illərdə rus ədəbiyyatında xalqın keçmişinə maraq artmaqla yanaşı, problemin bədii həllində sinfilik bir qədər azalmağa başladı. Az bir zaman içərisində yazılan tarixi romanlarda xalqın tarixi keçmişi mümkün qədər reallıqla təsvirinə imkan yaranmışdır. A.Çapıginin "Stepan Razin"in yazılması ilə rus xalqının tarixi qəhrəmanının uzun müddət bir quldur kimi qələmə verilməsi sindromu sındırılmışdır. Bir-

birinin ardınca yazılan tarixi romanarda xalqın keçmişinə maraq artmış, tarixi şəxsiyyətlərə və hadisələrə münasibətdə yeni stereotiplər ortaya qoyulmuşdur. İ.Şişkeviçin "İvan Bolotnikov", A.Akuşkinin "Dekabristlər", Y.Tınyanovun "Kyuxlya", "Puşkin" V.zalejskinin "İnqilab yollarında", Al.Altayein "Stenkina Volnisa", O.Forşun "Daşdan geyinmişlər", "Radişşev"A.Karavayevin "Qızıl dimdik", E.Zamıslovskoyun "1848", "1871-Paris Kommunası", Z.Zlobinin "Salavat Yulayev" və s. əsərlərinin əsas mövzusu tarixi hadisələr və şəxsiyyətlər idi. Doğrudur, bu əsərlər rus nəsri tarixində o qədər də önəmli yer tutmamışdır, lakin cəmiyyətin diqqətini tarixi keçmişə yönəltmək, tarixi yenidən tədqiq etmək baxımından olduqca əhəmiyyətli rol oynamışdır. Bu əsərlərin də ana xəttini partiyalılıq, yaxud marksist dünyagörüşü təşkil etməsinə rəğmən, özündən sonrakı mərhələdə yeni tarixi romanların yazılmasında bir bədii təcrübə qazanılmışdır. Bütün bunlar rus sovet tarixi romanına yeni məzmun və keyfiyyət vermişdir. Rus ədəbiyyatşünaslarının bu tarixi romanları təhlil edərkən yazıçılardan A.Çapıgin və Forşun əsərlərinə üstünlük verməsi və yeni tarixi romanın əsasını onlarla əlaqələndirməsinin də müəyyən əsasları vardır. B.Akimova görə, A.Çapıginə qədər Stepan Razin haqqında çox əsərlər yazılsa da, bu əsərlər ya romantik şəkildə göstərilmiş, ya da ideallaşdırılmışdır. "Stepan Razin" müəllifi isə dövrün tarixi cizgilərini düzgün vermiş, qəhrəmanını "quldur" obrazından təmizləyə bilmişdir (1, 39-40).

Əlbəttə, bu əsərlər bolşevik ideologyasının tüğyan etdiyi bir dövrdə yazıldığından müəyyən ideoloji stereotiplərə də əməl edilmişdi. Belə ki, bu dövrdə yaranan tarixi romanlarda janrın nəzəri imkanlarından daha çox, dövrün ideologiyası nəzərə alınır, özündən əvvəlki bədii təcrübəyə istinad edilmirdi. Bu münasibət iki onillik davam etmişdir. 20-ci illərin sonlarında RAPP-çıların tarixi mövzuya laqeyd münasibəti bunu deməyə əsas verirdi. Ümumiyyətlə, bu illərdə keçmişdən yazmaq son dərəcə çətin bir iş idi və bu cür yazıçıları, şairləri müsirlikdən qaçmaqda günahlandırır və "fərari" adlandırırdılar. Bu cür yanaşma ilə tarixi romanlarda hadisə və şəxsiyyətlərin obyektiv təsviri baş vermir, dövrün ruhu, xarakteri olduğu kimi deyil, yeni siyasi-ideoloji stereotiplərlə təsvir edilirdi. Əslində isə tarixi romanlrda xalqın tarixinin ən mühüm anları, dönüş nöqtələri, onun taleyini əks etdirən hadisə və şəxsiyyətlər öz ifadəsini tapmalı idi. Bu zaman isə bolşevik ideologiyası arxa plana keçirdi. Bütün bunlar tarixi romanın inkişafını müəyyən qədər gecikdirmiş oldu.

Eyni proses 30-cu illərin ortalarına qədər davam etsə də, janrın yeni və daha mükəmməl nümunələri yaranmağa başlayır. 30-cu illərin sonuna doğru tarixi roman janrı daha da işlənilir və janrın yeni nümunələri yaranır. A.Tolstoyun "Birinci Pyotr" əsəri tarixi romanın ən mükəmməl nümunəsi kimi diqqəti cəlb edir. M.Qorkinin "ədəbiyyatımızda ilk tarixi roman"

adlandırmasının əsas səbəblərindən biri tarixə yeni baxışın əks etdirilməsi olmuşdur. Romanda dövrün tarixi panoramı son dərəcə reallıqla əks etdirilməsi ilə yanaşı, xalq həyatı da doğru-düzgün əks etdirilmişdir. S.Xmelnitskinin "Daş qalxan" (1939), Olqa Forşun "Radişşev", A.Novikov-Priboyun "Susima", S.Borodinin "Dmitri Donskoy" (1941), V.Şişkovun "Yemelyan Puqaçov", Vasili Yanın "Çingiz xan" (1939), V.Kostilyovanın "Kozma Minin" (1939), V.Aristovun "Smolensk" (1939) romanlarının yazılması ilə janr özünün yeni inkişaf mərhələsinə qədəm qoyur. Tarixi romanın yazılmasının bu qədər önünün açılmasının müəyyən səbəbləri də vardı. Ölkənin çağdaş siyasi vəziyyəti xalqda döyüşkənlik ruhunun qaldırılması, düşmənə qarşı mübarizə əzminin yaşadılmasını şərtləndirirdi. Akademik E.Tarle 1940-cı ildə yazırdı"...hərbi və qəhrəmanlıq mövzusunda yazmaq qaçılmazdır. Bizim uşaqlar kapitalist dünyası tərəfindən əhatəyə alınmış böyük bir yanğının içindədilər. Onlar-sovet vətənpərvərləridir. Onlar başa düşürlər ki, bizim ölkəmiz vəziyyəti bütünlüklə səfərbərlik olmağımızı şərtləndirir" (2). Təsadüfi deyil ki, almanlarla müharibə astanasında S.Borodinin "Dmitri Donskoy", V.Yanın "Çingiz xan" romanları yazılb və dərhal da dərc edilmişdi. Hər iki əsərin ədəbi tənqid tərəfindən müsbət qarşılanmasının əsas səbəblərindən biri də, vətənpərvərlik hissinin aşılanması idi. Ədəbi tənqid ədəbiyyata da bir mübarizə silahı kimi baxırdı. S.Borodinin "Dmitri Donskoy" romanına aid yazılmış resenziyalarda əsərin bu keyfiyyəti daha çox qabardılırdı. K.Loks əsər haqda yazdığı məqaləni belə başlayırdı: "Bizim günlərimizdə rus tarixi yenidən oxunmağa başlamışdır... Dmitri Donskoyun qəhrəmanlığı bizim günümüzlə birbaşa bağlıdır. Kulikova çölü poetik simvola çevrilmişdir. Müəllif dövrün mahiyyətini yaxşı tutmuş və bizə, bizim indiki zamanımız üçün lazım olan ideyanı tapmış və təsvir etmişdir" (3, 78). Göründüyü kimi, bu cür əsərlərdə ədəbi tənqidin ən ox səsləndirdiyi fikir onun müasirlik ruhu, bugünlə səsləşməsidir. Tənqidçi N.Biryukov isə "Dmitri Donskoy" əsərinin müasirlik xarakterini yüksək qiymətləndirərək öz məqaləsini "Vətən müharibəsi XIV əsrdə" adlandırmışdır. Məqalədə müəllif tənqidçilərin əsərin bu keyfiyyətinə xüsusi fikir vermələrini önə sürürdü (4, 89).

V.Yanın "Çingiz xan" tarixi romanına da eyni cür yanaşılır, resenziya müəllifləri əsərin bədii keyfiyyətindən daha çox, onun xalqı düşmənə qarşı mübarizəyə səsləməsindən, vətənpərvərlik pafosundan yazırdılar. Bu qiymətləndirmə bir müddət belə davam etmişdir. Hətta ədəbi tənqiddən sonrakı ədəbiyyatşünaslıqda da bu tendensiya bir müddət davam etmişdir. Ədəbiyyatşünas Y.Andreyev "Rus sovet tarixi romanı" monoqrafiyasında S.Borodin və V.Yanın tarixi romanlarını qiymətləndirərkən məhz bu aspektdən çıxış edir: "Müharibə astanasında yazılmış "Çingiz xan" və "Dmitri Donskoy" əsərləri sovet xalqın tərbiyə olunmasında və xalqı öz

vətənini müdafiə etməsində mühüm rol oynamışdır. Bu yazıçılar tərəfindən vaxtında və lazım olduğu anda atılmış müsbət bir addım idi (5, 126).

Bu əsərlər içərisində ədəbi tənqidin diqqətini cəlb edən və yüksək qiymətləndirilən əsərlər olmaqla yanaşı, tənqid edilən cəhətlər də olmuşdur. Bu əsərlərdə ən çox tənqid edilən xüsusiyyətlərdən biri yazıçıların tarixi təhrif etməsi məsələsidir. Belə ki, tarixi təhrifin özü də müxtəlif cür başa düşülür, bəzən yazıçının qarşısına qoyulan hazır sxemə əməl edilməsi tələb edilirdi. İkincisi, isə yazıçıdan müasirlik tələb edilirdi, yəni tarixi romanının təsvirində belə yazıçı süjet xəttini müasir həyat hadisələrinə bağlamalı idi. Bu da yazıçılar üçün çətinlik yaradırdı, ona görə ki, tarixi problemin özünə belə sinfi nöqteyi-nəzərdən yanaşmanı tələb edirdi. Ancaq bu romanların içərisində bədii keyfiyyəti ilə seçilən əsərlər də var idi. Bu əsərlər həm dövrün ədəbi tənqidi, həm də sonrakı ədəbiyyatşünaslıq tərəfindən yüksək qiymətləndirilmişdi. Bunlardan V.Aristovun "Smolensk", V.Kostılevanın "Kozma Minin" əsərləri özünün ideyası və təsvir orijinallığı ilə seçilir.

V.Aristovun "Smolensk" romanı iki hissəyə bölünür; birinci hissədə Smolensk qalasını tikən böyük rus arxitektoru Fyodor Konun həyatı təsvir edilir. Yazıçının tarixi qəhrəmana deyil, bir şəhər arxitektorunu baş qəhrəman kimi götürməsinin özü də tarixə yeni baxışı əks etdirirdi. Romanda onun keçdiyi həyat yolu, ölümə məhkum edilməsi, nəhayət bir boyar tərəfindən azad olunması və sonradan həbsxanada polyaklar tərəfindən zəhərlənməsi kimi məsələlər təsvir edilir. İkinci hissədə isə Smolensk qalasının müdafiə olunmasına həsr edilmişdir. Şəhər onun qəhrəman müdafiəçiləri tərəfindən bir müddət qorunub saxlanılsa da, onu axıradək qoruyub saxlamaq mümkün olmur, şəhərin müdafiəçiləri düşmən əlinə keçməmək üçün özlərini partladırlar. Əsərdən çıxan əsas ideya budur ki, vətənpərvəri öldürmək və rus xalqının müqavimətini qırmaq mümkün deyil.

"Kozma Minin" romanında da hadisələr Nijeqirod xalqının mübarizəsi ilə bağlıdır. Romanda müəllif hadisələri son dərəcə geniş götürmüşdür; hadisələr Smolenskdən Moskvaya, Moskvadan Nijni Novqoroda, oradan Yaroslava və yenidən Moskvaya qədər inkişaf edir. Yazıçı bu hadisələr kontekstində həm həmin dövrdə baş verən hadisələri təsvir edir, həm də Mininin həyatı, şəxsiyyəti və sərkərdəlik bacarığını bədii detallarla göstərir. V.Kostılev Mininin tpik rus xarakterini göstərir, onun təşkilatçılıq bacarığını, sərkərdəlik istedadını, demokratizmini, həyat təcrübəsini, vətəndaşlıq hissini müxtəlif hadisələr fonunda açmağa nail olur.

Yazıçı L.Rakosovskinin "Generalissimus Suvorov" böyük rus sərkərdəsi Sovorovun həyatına həsr edilmişdir. Yazıçı dövrün hadisələrini geniş panoramda götürmüş və epizmin gücü ilə baş verən hadisələri təsvir etməyə nail olmuşdur. Suvorovun ordu ilə münasibətləri, xalqın və əsgərlərin ona olan inamı, döyüş keyfiyyətləri, ağlı romanda detallarla

göstərilmişdir. Bu illərdə rus sərkərdəsi haqqında beş tarixi romanın yazılması da onu göstərir ki, həm Suvorovun həyatı, həm sərkərdəlik istedadı, həm də həmin dövrün tarixi hadisələri bədii əsər üçün öz aktuallığını qoruyub saxlayır.

Şübhəsiz, rus yazıçılarının öz tarixi keçmişlərinə münasibəti Sovetlərə daxil olan xalqların da tarixinə, qəhrəmanlarına, şəxsiyyətlərinə baxışını şərtləndirdi. 20-ci illərdə milli xalqların öz qəhrəmanları haqqında əsər yazmaq nümunəsi olmasa da, rus tarixi romanlarından sonra bu cür nüminələrin yazılmasına başlanıldı. İlk olaraq rus yazıçılarının özləri Orta Asiya xalqlarının tarixi keçmişi və qəhrəmanlarını bədii əsərə gətirməyə başladılar. Burada əsas diqqət dünya arenasında böyük fateh kimi tanınan Çingiz xan, Teymurləng kimi qəhrəmanların şəxsiyyəti və həmin dövrün tarixi hadisələri qələmə alınır. V.Yanın "Çingiz xan", S.Borodin"in üç kitabdan ibarət olan "Səmərqəndin ulduzları" romanları həmin dövrün məhsuludur. Xüsusilə Çngiz xan haqqında romanın yazılması yazıçıdan böyük bir risq tələb edirdi. Təsadüfi deyil ki, bu əsər yazıldıqdan sonra yazıçının üzərinə hücumlar olmuşdur. Bəzən isə bu əsəri "qantökən despot" əleyhnə yazılmış bir əsər olaraq qiymətləndirirdilər (6, 56). S.Borodinin "Səmərqəndin ulduzları" əsəri bir qədər sonrakı mərhələdə yazıldığından onun üzərində ideoloji basqılar o qədər də hiss edilməmişdir. Yazıçı özü də romanda Teymuru bir tarixi şəxsiyyət olaraq idealizə edilməsi üçün tənqidçi və ədəbiyyatşünasların əlinə bəhanələr verməməyə çalışmış, mübahisəli məsələlərdən yan qaçmışdır. Romanın iki kitabının ("Topal Teymur" və "Yürüş tonqalları") Azərbaycan dilinə tərcümə olunması burada baş verən hadisələrin və tarixi şəxsiyyətlərlə bağlı idi. Lakin romanın "İldırım Bəyazid" hissəsi dilimizə çevrilməmişdir.

Maraqlıdır ki, bu cür əsərlər yazıldıqdan sonra milli respublikalarda da keçmişə maraq artır. Azərbaycan ədəbiyyatına nəzər salsaq Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı", "Qan içində", Məmməd Səid Ordubadinin "Qılınc və qələm", Anatoli Zöhrabbəyovun "Odlu diyar" romanlarının janrın inkişafında mühüm rol oynadığını aydın görmək olar. 60-cı illərdə isə tarixi keçmişimizə maraq artmış və yeni əsərlər yazılmışdır.

Əlbəttə, tarixi roman janrı inkişaf etdikcə onun keçdiyi yol haqqında da nəzəri, elmi əsərlər yazılırdı. Buna görə də, 20-30-cu illərdə yaranan tarixi romanlarla 50-60-cı illərdə yazılan tarixi əsərlər arasında xeyli dərəcədə fərqin olduğunu görmək olar. Əgər 20-30-cu illərdə tarixi romanın qarşısında müəyyən baryerlər qoyulmuşdusa, sonralar bu ideoloji qadağalar aradan götürülmüşdür. Elə romanın özünün inkişaf səviyyəsi də janrın irəliyə doğru inkişafında müəyyən rol oynayırdı. Çünki tarixi romanların uğurunu təmin edən başlıca şərtlərdən biri həyat həqiqətinə sadiq qalmasıdır. Həyat həqiqəti isə həmin dövrün sənədlərində öz əksini tapır. Rus ədəbiyyatşünası

V.Oskotski tarixi romanın yazılmasında faktlardan, sənədlərdən istifadənin əhəmiyyətini nəzərdə tutaraq yazırdı: "Sənədlərə arxalanmaq tarixi romanın təbiətini başa düşmək üçün həqiqətən çox şey verir. Lakin hər halda onu janr kimi fərqləndirməkdən ötrü bunu universal açar hesab etməyə əsas yoxdur" (7, 35). Lakin bu o demək deyil ki, yazıçı yalnız faktların konstatasiyası ilə məşğul olmalı, adi statistik qeydiyyatçı olmalıdır. Burada bədii təxəyyülün rolunu da qeyd etməmək olmaz. Burada tarixi həqiqətə sadiq qalmaqla yanaşı, dövrün ruhunu, xarakterini təsvir etmək üçün bədii təxəyyüldən də maksimum dərəcədə istifadə olunmalıdır. Tarixi romanlar müəllifi A.V.Çakovski özünün bədii təcrübəsindən çıxış edərək belə qənaətə gəlirdi ki: "Yazıçı faktları seçərkən tarixi qanunauyğunluq anlayışından çıxış etməlidir, ikincisi, sənətkar fantaziyası ilə yaradılmış hər bir şey tarixi həqiqətin əsas mahiyyətini təhrif etməməlidir" (8, 351).

Göründüyü kimi, XX əsrin birinci yarısında tarixi roman janrının özünəməxsus inkişaf yolu keçdiyini görmək olar. Bu əsərlərin mövzu və problematikasından asılı olmayaraq rus xalqının keçmişi, tarixi qəhrəmanlığı təsvir edilməklə yanaşı, bugünkü vətənə məhəbbət hissi də aşılanırdı. Lakin onu da görmək çətin deyil ki, bədii düşüncədə tarixin obyektiv araşdırılması 20-30-cu illərdə ideoloji basqılara məruz qalmışdır. Tarixin müxtəlif dövrlərində baş verən hadisələr və tarixi şəxsiyyətləri ədəbiyyata gətirmək o qədər də asan olmamışdır. Xüsusilə milli xalqlara öz tarixini, dövlətçiliyini, qəhrəmanlarını, sərkərdələrini və şəxsiyyətlərini əsərin qəhrəmanı etmək, keçmişi olduğu kimi təsvir etmək səlahiyyəti verilməmişdir. Lakin getdikcə tarixə, keçmişə olan bu qadağa aradan götürülmüş, tarixi hadisə və şəxsiyyətlər ədəbiyyata gətirilmişdir.

Ədəbiyyat

1. Акимов Б. Творчество Сергея Бородина. Ташкент, изд. литература и искусства им. гафура гулама, 1972, с. 130
2. Тарле Е. Детская историческая книги. "Литературная газета", 1949, 6 октября
3. Локс К. Подвиг народа. "Новый мир", 1942, Т 1-2, с. 76-78
4. Бирюков Н. Отечественная война XVI в. "Октябр", кн. 7-8, 1941
5. Андреев Ю.А. Русский советский исторический роман. М., Издательство Академии Наук СССР, 1962.
6. Baraxov B.S. Literaturnıy portret (İstoki, poetika, janr). Leninqrad, "Nauka", 1985, s. 310
7. Oskoskiy V. Roman i istoriya. Tradisii i novatorstvo sovetskoqo istoriçeskoqo romana. Moskva, "Xudojestvennaya literatura", 1980, s.218

8. Чаковский А.В. Проблемы художественные изобрежения революции в литературе. Москва, «Советский писатель», 1978, с. 341-354

Р.Мустафаева

Исторический роман и пути его развития в русской прозе первой половины XX века

Резюме

В статье рассматриваются исторические романы и пути его развития 20-50 гг. XX века. Указано, что в 20-50 гг. историческую тему и проблематику сложно преобразить в художественное произведение, но не смотря на это написано множество произведений. Но в этих произведениях о себе говорит идеологический подход к историческим случаям и героям. В «Иван Болотников» И.Шишкиевича, «Декабристы» А.Акушкина, «Кюхля», «Пушкин» Ю.Тиньянова, «На путях к революции» В.Залежскина, «Стенкина Вольница» Ал.Алтая, «Одетые в камни», «Радищев» О.Форшуна, «Золотой клюв» А.Караева, «1848», «Парижский Коммунизм-1871» Э.Замысловского, «Салават Юлаев» З.Злобина и других произведениях раскрывается прошлое и исторический героизм русского народа. Безусловно, здесь о себе говорит и практика. Исторический роман еще не завоевал достаточной практики. Отношение к историческим случаям было не однозначное. Некоторое время советские исторические романы развивались именно в этом аспекте. Но со временем этот запрет к истории и прошлому было устранено, тем самым исторические происшествия и личности пришли в литературу. В статье ссылаются на русскую литературную критику и литературоведение. В исследованиях таких русских литературоведов 60-70 гг. как Б.Акимова, Б.Барахова, В.Оскотского, А.Чаковсого и др. рассматриваются пути развития исторического романа.

P.Mustafaeva

Historical novel in Russian prose in I half of XX century and its development way

Summary

Russian historical novels in 20-50th years of XX century and its development are studied in the article. It is indicated here that, although it is difficult to deliver the historical topics and problems to art works in 20-30th years, several works have been written. But there was ideological approach to

historical event and hero in such works. History of Russian people and their historical heroism were described in “Ivan Bolotnikov” of I.Shishkevich, “Decabrists” of A.Akushkin, “Kyukhla”, “Pushkin” of Y. Tinyanov, “In the way of revolution” of V.Zalejsky, “Stenkina Volnisa” of Al.Altayein, “Stone clothed”, “Radishshev” of I.Forsch, “Golden beak” of A.Karayev, “1848”, “1871 – Paris commune” of E.Zamislovskoy, “Salavay Yulayev” of Z.Zlobin and other works. It is doubtless that, practice played great role here. Historical novel did not have enough experience yet. Relation to historical events was not unambiguous. Soviet historical novel was developed its such aspect for some times. But, such prohibition to history and past was taken away, historical events and characters were delivered to literature. There is also referrals from Russian literary criticism and literary studies. Way of development of historical novel was analyzed in studies of B.Akimov, B.Barakhov, V.Oskotskiy, A.Chaikovskiy and others from Russian literary sciences on 60-70 years.

Rəyçi: Bədirxan Əhmədov
filologiya üzrə elmlər doktoru, professor

MİNAXANIM MEHDİYEVA
Füzuli adına Əlyazmalar institutu
mina2017@yahoo.com

ŞƏHRİYARIN BƏDİİ İRSİNİN TƏDQİQİNDƏ MÜHÜM MƏQAMLAR

Açar sözlər: Şəhriyar, bədii irs, ənənə və yenilik, poetik təsvir
Ключевые слова: Шахрийар, художественное наследие, традиция и новизна, поэтическое изображение
Key Words: Shahriyar, artistic heritage, tradition and originality, poetic imagination

Giriş. Şəhriyarın bədii irsi iki dildə – Azərbaycan türkcəsi və farsca yazılmış əsərlərdən ibarətdir. Məlum olduğu kimi böyük sənətkar ədəbi yaradıcılığa farsca başlamış, artıq bu yöndə böyük uğurlar qazanıb məşhurlaşanda türkcə şeirlər yazmışdır. O, həcmcə və məzmun etibarilə diqqəti cəlb edən fars Divanı ilə daha çox şöhrətlənmişdir. Ancaq bədii-estetik cəhətdən və məzmun baxımından türkcə şeirləri heç də farsca yazdığı əsərlərdən geri qalmır, bəlkə onlarla eyni səviyyədədir. Hətta onun türkcə şeirlərində bir sıra folklor motivləri və milli adət-ənənələrin bədii ifadəsində yaratdığı bənzərsiz xəyal lövhələri, zərif söz-məna oyunları və estetik fikir incəlikləri olduqca təsirli və fövqəladə gözəl sənət əsərləri kimi diqqəti cəlb edir. Şairin "Heydər Baba" və digər şeirlərində milli ruhdan doğan incə bədii deyimlər, dərin məna qatları və insani duyğular kimsədə görmədiyimiz qeyri-adi bənzətmələr, istiarələr, məcazlar və kinayələr vasitəsilə ifadə edilmişdir. İranda və Azərbaycanda Şəhriyarın bədii irsinin təhlili uzun illərdir tədqiqatçıların diqqət mərkəzində yerləşir və bu sahədə görülən işləri təqdir etmək lazımdır. Ancaq bu istiqamətdə hələ görüləsi işlər çoxdur. Bu məqalədə böyük sənətkarın bədii irsi ilə bağlı öyrənilməsi zəruri olan bir sıra əsas məqamlar və müddəalar nəzərdən keçirilir.

Məsələnin nəzəri qoyuluşu. Şəhriyar iyirminci əsrdə yaşayıb yaratmış, təbii ki, yeni ictimai-mədəni və ədəbi mühitindən doğan estetik tələbləri yetərincə anlayıb mənimsəmiş, hətta yeni üslubda şeirlər yazmışdır. Ancaq o, bir söz ustadı olaraq klassik ənənələrin yeni dövrdə bəlkə də ən uğurlu davamçısı kimi tanınmış, öz zəngin yaradıcılığı ilə sübut etmişdir ki, sənətdə yenilik heç də şeir texnikası, üslub və şeir şəkillərini dəyişməklə alınmır, min il boyunca sınanmış ənənəvi qəliblər vasitəsilə də yeni və dərin mənalı söz demək mümkündür. Başqa bir tərəfdən, ustad Şəhriyar ənənə ilə müasirliyi, klassika ilə yeniliyi bir araya gətirən, əski motivlərə və qəliblənmiş şeir şəkillərinə yeni məna və estetik yön verən sənətkardır.

Hər bir sənətkarın ədəbi yaradıcılıqda uğurlarının başlıca səbəbi, əlbəttə, onun istedadı və ilhamıdır. Ancaq bununla bərabər, şairin mütaliə səviyyəsi də bu baxımdan böyük əhəmiyyət daşıyır. İstər uzaq və yaxın keçmişdə yaranan şah əsərləri, istərsə də müasirlərin bədii irsini diqqətlə mütaliə etmək və onlar üzərində düşünmək yaradıcılıq üçün olduqca əhəmiyyətlidir. Burada söhbət başqalarının əsərlərinə nümunə kimi baxaraq onları təqlid etməkdən getmir, bəlkə də əksinə, təqliddən uzaqlaşmaq və digər şairlərin demədiklərini qələmə almaqdan gedir. Bu baxımdan Şəhriyar xüsusi olaraq seçilir və o, Firdövsi, Nizami, Sədi, Hafizdən tutmuş Pərvin Ettesami, Məliküşşüəra Bahar, Dehxuda, Mirzadə Eşqi, Nima və digər müasir qələm sahiblərinin əsərləri ilə tanış olmuşdur.

Şəhriyarın əsərlərinin tədqiqi və nəşri sahəsində çox işlər görülmüşdür; şairin hər iki dildə qələmə alınan əsərləri tam şəkildə İranda bir neçə dəfə nəşr olunmuşdur. Azərbaycanda daha çox şairin milli-mənəvi ruhunun hopduğdu məşhur "Heydər baba" əsəri və türkcə şeirləri çap və təbliğ edilmiş, şair daha çox "Heydər baba"sı ilə tanınmış və sevilmişdir. Farsca şeirlərinin bir qismi ayrı-ayrı vaxtlarda Azərbaycan dilinə tərcümə edilərək yayınlanmışdır.

Şəhriyarın şair kimi tanınması və əsərlərinin tədqiqi son dövrlər daha geniş miqyas almış, İranda və Azərbaycanda böyük ədibə həsr olunmuş elmi konfranslar keçirilmiş, kitablar nəşr olunmuşdur. Şairin təbliği üçün bu cür tədbirlərin əhəmiyyəti çoxdur. Bir sözlə ustad Şəhriyarın tədqiqi və tanınması istiqamətində çox işlər görülmüşdür. Ancaq bəzi tədbirlər bir növ kütləvilik xarakteri daşıyır, bu cür fəaliyyətlərdə elmilikdən daha çox populyarlaşdırma meyli nəzərə çarpır. Təbii ki, bunların da öz əhəmiyyəti vardır. Bütövlükdə isə sanki biz Şəhriyardan zaman baxımından uzaqlaşdıqca onun dəyərini daha çox hiss edir, onun söz sənətində hansı zirvəni tutması barədə təsəvvürlərimizin hələ də yetərli olmadığını anlamağa başılayırıq. Şairin klassiklərdən bəhrələnmə səviyyəsi, onun bədii təfəkkürünün təkamülündə yer alan qaynaqlar, ənənə ilə müasirlik arasında necə əlaqə qurması, onun əsərlərinin klassik Şərq poetikası qəlibləri və müasir mətn poetikası bucağından müqayisəli təhlili və s. kimi məsələlər hələ də öz həllini gözləyir. Başqa sözlə desək, Şəhriyarın ədəbi irsinin elmi-nəzəri tədqiq və təhlili istiqamətində hələ qarşıda çox işlər dayanır.

Mövzunun açıqlanması. Oncə bir məsələyə diqqət yetirək: Şəhriyarın türkcə şeirləri Divan adı ilə nəşr olunmuş, ancaq klassik mənada mükəmməl divan şəklinə salınmamışdır. Ancaq bu heç də onun türkcə şeirlərinin bədii-estetik dəyərini azaltmır və onun təkcə "Heydər baba"sında yer alan zəngin və gözəl poetik qəliblər və məna incəlikləri mükəmməl bədii lövhələr kimi diqqəti cəlb edir. Azərbaycanda son dövrlər Şəhriyar haqqında aparılan tədqiqatlar arasında E.Quliyevin və M.Məhəmmədinin kitabları elmi

baxımdan daha çox diqqəti cəlb edir. Bununla yanaşı, Şəhriyarın farsca Divanından edilən tərcümələrin toplu halında son nəşri böyük sənətkarın Azərbaycanda tanınması yolunda mühüm addım hesab edilə bilər (2).

Heç şübhəsiz ki, şairin farsca Divanı həm həcm etibarilə, həm də bədiyyat cəhətdən daha geniş və daha zəngindir. Şairin farsca şeirlərinin tərcüməsinə gəlincə, onların hamısını uğurlu hesab etmək olmaz və üstəlik ən mükəmməl tərcümə heç vaxt orijinalın yerini verə bilmir. Hələ keçən əsrin ortalarında tanınmış şərqşünas Y.E.Bertels, Nizami Gəncəvinin əsərlərinin rus dilinə poetik tərcüməsi barədə belə yazırdı (3.s.23):

"Bu tərcümələrin poetik məziyyətlərinə toxunmadan onu da qeyd edim ki, məna baxımından orijinala yaxın olanın daha yaxşısını arzu etmək qalır. Nizami yaradıcılığı yalnız məzmununa görə dərin və zəngin deyil, o, həmçinin poetik texnikanın böyük ustadıdır.

Bu məzmun dərinliyini və poetik qəlibin valehedici mükəmməlliyini yalnız o tərcüməçi qoruyub saxlaya bilər ki, öz sənətində bu böyük şairə bərabər olsun. Qorxuram ki, bu şərt çətin həyata keçirilsin. Ona görə də şeir tərcümələri orijinalın işardığı o göz qamaşdıran rənglərin solğun əksidir. Uğurlu alındığında böyük bir sənət əsərinə çatacaq dərəcədə ucala bilən, şeir tərcümələrinə olan ehtiyac danılmazdır. Mən hesab edirəm onlarla yanaşı bədii nəsr ilə tərcümələrin şərhlər ilə, orijinalı dəqiqliklə ifadə edərək və Nizaminin sənətkarlığını tam şəkildə aşkar edə bilər. Bu tərcümələr mütəxəssislərə, ədəbiyyatşünaslara, həmçinin də buna yaxın olan sahələrdə çalışanlara böyük fayda gətirəcək".

Bertelsin dediklərini Şəhriyarın farsca şeirlərinin Azərbaycan dilinə tərcüməsinə də şamil etmək olar.

Şəhriyarın farsca şeirləri Azərbaycan dilinə hələ sovetlər dövründən tərcümə edilməyə başlanmışdır, bu iş yenə də davam edir. Bütövlükdə isə indiyədək edilən poetik tərcümələri üç əsas qrupa ayırmaq olar:

1. Mübariz Əlizadə və Məmmədağa Sultanov kimi akademik filoloji elmi məlumatlara malik olan, fars ədəbi dilini yaxşı bilən, farsdilli ədəbiyyatla yaxından tanış olan və klassik poeziyanın incəliklərinə və dərinliklərinə bələd olan qələm sahiblərinin tərcümələri orjinalın ruhuna daha yaxındır; şübhəsiz ki, onlar bir sıra cəhətlərə görə ön sırada gedirlər.

2. Bu baxımdan ikinci sırada Balaş Azəroğlu, Qulamhüseyin Beqdeli, Mədinə Gülgün, Hökümə Billuri kimi şairlərin tərcümələri gəlir gəlir; onlar zaman baxımından Şəhriyara daha yaxın, yəni böyük şairin müasirləri kimi İran ədəbi-mədəni mühitindən çıxmış və həmin mühitə bağlı ədiblərdir.

3. Üçüncü sırada isə onlardan sonra gələnlər yerləşir və istər-istəməz tərcümələr bu və ya digər cəhətdən zəifləyir.

Onu da əlavə edək ki, istənilən tərcümədə orijinalın məzmununun əmanət olaraq saxlanılması zəruri məsələdir və təəssüflər olsun ki, sovetlər

zamanı edilən bəzi tərcümələrdə, o cümlədən, Şəhriyarın "Azərbaycan" şeirinin tərcüməsində ideoloji məqsədlə orijinalın məzmunu təhrif edilmişdir.

Başqa bir yandan, ümumi şəkildə götürsək, Şəhriyarın hətta türkcə şeirlərinin poetikası elmi şəkildə naqis öyrənilmişdir. Onun zəngin ədəbi irsinin, xüsusilə də farsca Divanının müstəqil akademik təhlilinə isə daha böyük ehtiyac vardir. İranda Şəhriyarın fars divanının öyrənilməsində müəyyən işlər görülmüşdür və bunlar bir sıra cəhətdən səmərəli hesab edilə bilər. Ancaq bu istiqamətdə daha sistemli və geniş araşdırmalara ehtiyac vardır. Deyilənləri nəzərə alsaq belə qənaətə gələ bilərik ki, Azərbaycanda bütövlükdə Şəhriyarın tanınması, xüsusilə onun fars divanının tədqiqi hələ qənaətbəxş deyildir, burada naqisliklər və boşluqlar mövcuddur.

Əvvələn, Azərbaycanda daha çox şairin "Heydər baba" əsəri və türkcə şeirləri üzərində araşdırma aparılmış, onlar dəfələrlə nəşr edilmişdir. Bunlar Şəhriyarın tanınmasında faydalı olsalar da, onun şair kimi şəxsiyyətini tam elmi və akademik səviyyədə əhatə edə bilmir.

İkincisi, hətta şairin geniş təbliğ edilən "Heydər baba" və digər türkcə şeirlərinin bədiyyat sistemi və estetik dəyərləri klassik Şərq poetikasının meyarları və müasir poetologiyanın tələbləri baxımından dolğun təsəvvür yaratmır.

Şəhriyarın böyük şair, qüdrətli sənətkar olduğunu dəfələrlə söyləyirik; ancaq bu böyüklük və qüdrətin meyarları nədən ibarətdir? Onu necə, hansı dəlil və misallarla təsdiq və əyani şəkildə sübut etmək olar?

Bu suallara cavab tapmaq üçün Şəhriyarın bəhrələndiyi klassik ədəbi ənənələr haqqında daha mükəmməl elmi təsəvvürümüz olmalıdır. Nümunə üçün Şəhriyarın Azərbaycan türkcəsilə yazdığı bir şeirindən gətirdiyimiz iki beytdə canlı təbiət təsviri vasitəsilə ifadə olunan olduqca incə bədii xəyal lövhələrini nəzərdən keçirək (1.s.97):

Payızlamış zəmiyəm, vəryan mənə nə gərək,
Dönərgə döndərəcək döndükcə vəryanımı

Qoy çalxasın bizi bu zəmanə nehrə kimi,
Mənim südüm çürüyüb, turşutsun ayranımı

Bu iki beytdə sadə təbiət hadisəsi və məişət motivi diqqəti cəlb edir. Birinci beytdə şair özünü payızlamış zəmiyə bənzədir, zəmidə sünbül bitər və yetişəndə onu xırmanda döyüb buğdanı, yəni məhsulu götürərlər. Keçmişdə xırmanda sünbülü döyüb dənləri ayırmaq üçün vəl adlı alət işlətmişlər ki, İranda buna vəryan deyilir. Onu öküzə qoşaraq dairəvi şəkildə olan xırmanda sünbül dəstələrəinin üstündə fırladaraq dəni ayırarmışlar. Şair öz qocalığını anlatmaq üçün təbiət və məişətdən götürülmüş bu sadə

motivdən faydalanır, ancaq canlı bir tablo yaradır: mən payızlamış zəmiyəm, ancaq mənə vəryan gərək deyil, çünki dönərgə (zəmanə və ya dövran) döndükcə məni firladacaq. Vəryan məcazi anlamda həyat və tale mənası bildirir; payızlamış zəmiyəm, yəni sünbül yayda yetişir və bu zaman məhsulu dərirlər, məndə isə artıq o vaxt arxada qalıb, ömür karvanı sona yaxınlaşıb, onsuz da zəmanənin gərdişindən ömür dənləri öz-özünə tökülüb gedib, daha vəryana nə ehtiyac var?! Burada vəryanla zəmanə arasında xəyali təşbeh əlaqəsi var, birinci misra ilə ikinci misra arasında səbəb əlaqəsi "hüsni-təlil" sənəti ilə ifadə olunur. "Dönərgə döndərəcək döndükcə" sözləri arasında leksik təkrirlə yanaşı, səs ahəngi yaradan "touzi" sənəti işlənmişdir. Müasir poetikada cinas və digər səs ahəngi üzərində qurulan bədii vasitələr alliterasiya adlanır, ancaq klassik Şərq poetikasında bunların hər birinin öz tərif və termini vardır

İkinci beytdə yenə zəmanədən söz açılır, özünü isə nehrəyə bənzədir; nehrə çalxalanarkən, yağ süddən ayrılır və ayran qalır. Burada yenə qocalıq motivi başqa bir tərzdə ifadə edilir; zəmanənin dövr etməsi (ötüb keçməsi) ilə nehrənin çalxalanması arasında analogiya qurulur. Nehrə çalxalanarkən yağ çıxdığı kimi, zəmanənin fırlatdığı həyat burulğanı da şairin ömür sərmayəsini çıxarib əritmişdir. Şair zəmanənin onu çalxamasından nigaran deyil, onsuz da onun yağı, yəni ömür sərmayəsi sərf olunub gedib, yalnız ayran qalıb, qoy onu da turşudub şorunu çıxarsın. Südü çürümək kinayə olaraq bir şeyin xarab olaraq əldən getməsi anlamı bildirir. Ayranını turşutmaq dərin mənalı kinayədir; ayran onsuz da turş olur, onu bir daha çalxalayıb turşutmaqla yağ alınmaz, bu mənasız işdir. Ancaq yenə zəmanə ondan əl çəkmir və ayranını da rahat qoymur. Təbiətlə canlı təmasda olan şair üçün insan həyatını təbiətlə müqayisə etmək mifologiya və folklor mədəniyyətindən irəli gəlir. Bu cür təsvirlərdə şair öz iç aləmində keçirdiyi duyğuları təbiət ünsürləri ilə daha aydın anlada bilir. Uşaqlıq illəri kənd həyatı ilə bağlı olduğundan bu cür səhnələr onun xəyalında möhkəm həkk olunmuşdur. Qeyd edək ki, Şərq poetikasında bədii təsvirdə təbiətlə insan və onun duğyuları arasında qarşılaşdırma və analogiya qurmaq mühüm xəyal ünsürü kimi diqqəti cəlb edir. Mövlana oxşar təsvir üsulu ilə ölümdən sonra hər şeyin çör-çöpə döndüyünü belə ifadə etmişdir (11.s.69):

ور نه پس مرگ تو حسرت خوری
چونکه شود جان تو از تن جدا
جفت ببردند و زمین ماند خام
هیچ ندارد جز خار و گیا

(Yoxsa ölümdən sonra sən həsrət çəkərsən,
Çünki sənin canın bədənindən ayrılar.
Qoşa öküzlə şumlasalar da torpaq xam qalar,

Tikan və çör-çöpdən başqa heç nə qalmaz.

İnsanın batini aləminə xas duyğuların canlı təbiət hadisələri vasitəsilə ifadəsi Qurani-Kərimdə işlənən mühüm üslubi xüsusiyyətlərdən biridir. Yunus surəsi, 24-cü ayədə buyurulur:

"*Həqiqətən, (nemətləri, cah-cəlalı ilə fəxr etdiyiniz) dünya həyatı göydən endirdiyimiz yağmura bənzər ki, onunla yer üzündə insanların və heyvanların yeyəcəyi bitkilər yetişib (əlvan çiçəklər və müxtəlif meyvələrlə) bir-birinə qatışar. Nəhayət, yer üzü bəzəklənib süsləndiyi və sakinləri də (onun məhsulunu, meyvəsini) yığmağa qadır olduqlarını zənn etdikləri vaxt gecə, yaxud gündüz əmrimiz (bəlamız) gələr və Biz onu, dünən üzərində bol məhsul olmamış kimi, (yolunub) biçilmiş bir hala gətirərik. Biz ayələrimizi düşünən bir ümmət üçün belə ətraflı izah edirik!*"

Bu ayədə dünya həyatı ilə təbiət hadisələri arasında analogiya əlaqəsi qurulur və bu müqayisə dünya həyatının keçici olduğunu və axirət üçün savab qazanmağın zəruriliyini anlatmaq üçün sadə və həm də məntiqli bir ifadə üsuludur. Burada belə bir sual ortaya çıxa bilər: istər Quran və buna bənzər mətnlərdə, istər digər əsərlərdə bu cür bədii təsvirlərin işlənməsində məqsəd nədir? Bu və ya digər fikri bədii dil ilə deyil sadə şəkildə ifadə etmək olmazmı?Əlbəttə, olar. Ancaq insanlar qədim çağlardan öz düşüncələrini və duyğularını qarşı tərəfə qabarıq halda çatdırmaq və tam şəkildə anlatmaq üçün bu üsuldan istifadə etmişlər. İnsan elə bir məxluqdur ki, onun düşüncələri duyğularla əlaqəlidir, adi cümlələrlə hər hansı bir fikri qarşı tərəfə sadəcə çatdırmaq olur, belə bir üsul onun duyğularına təsir göstərmir, yaxud çox cüzi təsir oyadır. Ancaq bədii dil birbaşa duyğulara və onlar vasitəsilə düşüncəyə təsir göstərir. Üçüncüsü, Şəhriyarın farsca Divanı haqqında müxtəlif səpkilərdə bəhs edilmişdir, indiyədək aparılan təhlillər və farsca Divanından edilən tərcümələr şairin yaradıcılığının ayrı-ayrı tərəfləri, ideya-məzmun xüsusiyyətləri və poetik incəlikləri haqqında müəyyən təsəvvür yaradır, ancaq onun farsca Divanının daha dolğun elmi mənzərəsinin yaradılması üçün bu sahədə görüləsi işlər çoxdur. Xüsusilə ustad sənətkarın klassik ədəbi irsə və ənənələrə münasibəti, onlara gətirdiyi yeniliklər, keçmişlə müasirlik arasında yaratdığı əlaqənin dinamikası, öz sələflərindən necə yararlanması və təsirlənməsi olduqca maraqlı tədqiqat mövzusu kimi diqqəti cəlb edir. Şairin poetikasından bəhs edərkən onun şeirlərində işlənən bədii vasitələri sadəcə misallarla sadalamaq yetərli deyil, şeirin mayasını təşkil edən xəyal ünsürlərinin yaratdığı bədii zövqün incəliklərini aşkar etmək lazımdır. Bu istiqamətdə müqayisəli təhlillər aparmaq daha səmərəli nəticələr verə bilər.

Burada qısaca da olsa Orta cağlar müsəlman xalqlarının ədib və şairləri üçün səciyyəvi olan bir sıra keyfiyyətləri xülasə şəklində belə ümumiləşdirmək olar:

** Quran maarifi və dövrün dini və dünyəvi elmləri haqqında məlumatlı olmaq, müəyyən dünyagörüşünə sahib olmaq*

** Söz sənətinin nəzəri və praktiki qayda-qanunlarını mənimsəmək*

** Digər sənətkarların (xələflər və müasirlərin) bədii irsi ilə yaxından tanışlıq*

Ancaq ilk növbədə fitri istedad sahibi, yəni anadangəlmə şair olmaq lazım gəlir və əgər bu yoxdursa, qalan şərtlər yalnız yardımçı vasitələr olaraq qalır. Şəhryar məhz anadangəlmə şairdir.

Şəhriyarın bədii irsini araşdırarkən bir neçə ümumi məsələni diqqət mərkəzində saxlamaq lazım gəlir:

1. Şəhriyar həm farsca, həm də Azərbaycan türkçəsində yazıb yaradan bir sənətkardır, bu cəhətdən onun şeirlərində miniilər boyu eyni coğrafi məkanda, ortaq dini, mədəni-ictimai və mənəvi mühitdə yaşayan türklərin və iranlıların bir-birinə yaxın, bəzən də qarşılıqlı şəkildə bir-birindən təsirlənən və faydalanan adət-ənənələri, bədii zövqü, estetik düşüncə tərzi və xəyal aləmi öz ifadəsini tapır. Şəhriyardan öncə hələ Orta əsrlərdə iki dildə, yəni farsca və türkcə yazan sənətkarlar çox olmuşdur. Onların üstün cəhətlərindən biri budur ki, hər iki xalqın qədim tarixə malik mədəniyyət və söz xəzinəsində yer alan həyat fəlsəfəsini, ictimai-sosial motivləri, mənəvi dəyərləri, estetik düşüncələri, dil-üslub xüsusiyyətlərini və poetik incəlikləri mənimsəmiş, onlardan yaradıcı şəkildə bəhrələnərək öz şeirlərini həm məzmun, həm də bədii cəhətdən zənginləşdirmişlər.

2. Şəhriyar klassik ədəbiyyatı mütaliə edən, onun incəliklərini bilən, həm də nəzəri məsələlərlə dərindən tanış olan bir şairdir. O, təkcə Şərq ədəbiyyat nəzəriyyəsi və şeir texnikasını deyil, həm də müasir İran ədəbiyyatında son əsrdə gedən prosesləri izləyən bir ədəbi şəxsiyyətdir. O. klassik ədəbi ənənələrin davamçısı olsa da şeirlərində yenilik ruhiyyəsi həmişə diqqəti cəlb edir. Yenilik heç də keçmişdən üz döndərib yeni şeir şəkillərində yazmaq anlamına gəlmir. Yenilik bədii düşüncədə, ifadə tərzi və üslubda, həm də məzmun və məna motivlərində ola bilər. Şəhriyar eyni zamanda müasir Avropa ədəbi cərəyanları ilə yaxından tanış olmuş, onların qüvvətli və zəif cəhətlərini ayırd edə bilmişdir. Ustad sənətkar ədəbi yaradıcılıqda quru təqlidi qəbul etmir, xüsusilə müasir Avropa ədəbi məktəblərində yer alan mənasız və cəfəng şeyləri sənət əsəri kimi tanımır, ən çox isə romantik üsluba dəyər verir və həmin üslubun İran ədəbiyyatına müsbət təsirindən bəhs edir (10.s.85). Onu da əlavə edək ki, bədii təsvirdə xəyal ünsürünü önə çəkən romantik məktəb ilk dəfə nəzəri cərəyan kimi Avropa ədəbiyyatşünaslığında gündəmə gəlsə də, onun əlamətlərinə Orta

əsrlər Şərq ədəbiyyatında rast gəlmək olur. Zənnimizcə, həəmin məktəbin əlamətləri klassik farsdilli poeziyada özünə yer tutduğuna görə müasir şairlər həmin üsluba müraciət etmişlər.

3. Nəzəriyyə kitablarında ədəbiyyat tarixinin tarixi-xronoloji dövrlər üzrə təsnifatını nəzərə alsaq belə bir sual ortaya çıxır; XX əsrdə yeni ədəbi hərəkat artıq aparıcı istiqamət təşkil edir və bir sıra ədəbiyyat nəzəriyyəçiləri isə tələm-tələsik keçmiş məzmun motivlərini və poetik qəlibləri tarixin arxivinə göndərirlər. Təbii ki, yeni dövrdə ədəbi mühitlə yanaşı, oxucuların zövqü də dəyişir və yeniləşir, hər dövrdə şeir müəyyən oxucu zümrələrinə ünvanlanır, necə deyərlər, yeni ədəbi şeirin öz oxucuları yetişir. Ədəbi əsərlər oxucuların tələb, istək və zövqlərinə hesablanır və təbii ki, məsələnin əks tərəfi də vardır, yəni bədii irs eyni zamanda oxucuların zövqünü müəyyən biçimə salır. Cəmiyyətdə təşəkkül tapan ümumi düşüncə tərzi, zövq və ədəbi-mədəni mühitin səviyyəsi hər iki tərəfin, yəni ədib və şairlərlə oxucuların səviyyəsindən asılıdır. XX əsrdə ədəbi prosesdə baş verən yeniklərin intensiv xarakter aldığı bir mərhələdə Şəhriyar nədən klassik ənənəyə üz tutur?

Bu məsələdə şübhəsiz ki, müəyyən dəlillər və səbəblər vardır. Bu suala cavab vermək üçün əvvəlcə başqa bir sualı cavablandırmaq lazım gəlir. Yeni ədəbi hərəkat tərəfdarları nə üçün klassik ənənələrə tənqidi münasibət bəsləyirdilər? Bunun bir neçə səbəbi vardır:

a. Klassik üslubda yazan bir sıra şairlər bir növ keçmiş motivləri və ədəbi qəlibləri azacıq dəyişməklə təkrarlamış və necə deyərlər təqliddən yaxa qurtara bilməmişlər ki, bu da oxucuların zövqünü özünə cəlb edə bilməmişdir;

b. Klassik ənənədə yazan ədiblərin bir qismi insanları daha çox düşündürən yeni həyati məsələlərə diqqət yetirməmiş, əvvəlki motiv və bədii obrazları təkrar etmişlər ki, bu da yeknəsək və yorucu xarakter daşımışdır;

c. XIX əsrdən ictimai-mədəni və ədəbi həyatda baş verən dəyişiklər, xüsusilə cəmiyyətin üzləşdiyi kəskin sosial və ictimai problemlərin ədəbiyyat vasitəsilə ifadəsi yeni ədəbi hərəkatın əsas istiqamətlərindən biri kimi qarşıya çıxır. Bu dövrdə ədəbi prosesdə realizm ünsürləri daha da güclənir.

Burada başqa bir sual ortaya çıxır: klassik ənənə və motivlər uzun əsrlər boyu davam etməsinə rəğmən, hansı hallarda yeknəsəqlikdən yaxa qurtara bilmiş və nə üçün yenidən maraq doğura bilmişdir?

Orta əsr Şərq poetikasında ənənəvi şeir növləri, janrlar və bədiyyat sistemi davamlı və eyni zamanda dinamik proses kimi diqqəti cəlb edir. Belə bir xüsusiyyət tipoloji hadisə kimi Orta əsr Qərb ədəbiyyatı üçün də səciyyəvi olmuşdur (7.s.37). Təbiidir ki, uzun illər təşəkkül tapan və təsbitləşən ənənələr sonrakı şairləri çətin vəziyyətdə qoyurdu, belə ki, onlar

təkraralardan və quru təqliddən yaxa qurtarmaq üçün ənənəvi motivləri yeniləşdirməli və onlara yeni naxışlar vurmaqla estetik zövq yaratmalı olurdular. Yəni sənətkarın qarşısında ədəbi yaradıcılıqda orijinal əsər yaratmaq məsələsi ciddi şəkildə qoyulurdu. Qeyd edək ki, şeir sənətində orijinallıq məsələsi ilk öncə ərəb poeziyasında qoyulmuş və Şərq poetikasının əsasları ərəb nəzəri qaynaqları üzərində qurulmuşdur. Sonra bir çox poetik qəliblər və ədəbi ənənələr ərəblərdən iranlılara və onlar vasitəsilə türklərə keçmişdir. Bu barədə F.Qabrieli belə yazır: "ərəb ədəbiyyatı farslara təkcə öz leksik söz ehtiyatını verməklə məhdudlaşmamış, həmçinin ədəbi janrları və normaları, üslubi mövzu və modelləri, şeir texnikası və ritorikanı, elmi və poetik terminologiyanı vermişdir" (5.s.25). Məsələyə toxunan İ.V.Stebleva isə göstərir ki, Orta və Kiçik Asiyada, Zaqafqaziya və Volqaboyunda İslam və müsəlman mədəniyyətinin yayılıb genişlənməsi, həmçinin türk və irandilli xalqların mədəni əlaqəsi klassik türk poeziyasının yaranmasına zəmin hazırlamışdır. Klassik türkdilli poeziyanın əsasında ərəb-fars poetikası dayanır ki, həmin poetika türkdilli şeirə qafiyə və əruz vəzninin ölçülərini, həm də poetik qəlibləri vermişdir (8.s.5)

Beləliklə öncə ərəb poeziyasına xas olan bir sıra cəhətlər tədricən fars və türk dilində yazılan şeirlər üçün də ənənə şəklini almışdır. Ancaq iranlılar və türklər həmin ənənə və qəlibləri donuq halda saxlamamış, onları yeniləşdirmiş, öz bədii zövqü ilə təkmilləşdirmişlər. Klassik ərəb poetikasında şeirin orijinallığı diqqət mərkəzində yerləşirdi və bu baxımdan şair qarşısında yüksək tələbkarlıq qoyulurdu. Bu məsələyə toxunan A.B. Kudelin Avropa şərqşünaslarından Q.E.Qryunebaumun Orta əsr alimlərinin poetoloji təsəvvürlərini tam dəyərləndirə bilməməsini diqqətə çatdırır. Müəllifə görə, bu qüsur Orta əsr ərəb poeziyası və poetikasında orijinallıq probleminin təhrif edilməsinə səbəb olmuşdur. Q.E.Qryunebaum və digər alimlər öz fikirlərini irəli sürərkən klassik ənənədə yer alan fərdi müəllif yaradıcılığını nəzərdən qaçırmışlar. Orta əsr alimlərinə görə həmin amil təkcə köhnə modeli yeniləşdirməklə məhdudlaşmamış, fərdi müəllif axtarışları nəticəsində yeniliklərin ortaya çıxmasına səbəb olmuşdur (6.s.168-169). Başqa sözlə desək, "Orta əsr ərəb poetikasına görə, orijinal şair ənənə çərçivəsindən kənara çıxmır, lakin onu inkişaf etdirir, dərinləşdirir və genişləndirir, yəni ona miras qalmış ənənəni təkmilləşdirir" (6.s.176).

Nizami Gəncəvi söz sənətində təqliddən uzaq olduğunu və yaradıcılığının orijinallığını bu şəkildə ifadə edir (13.s.28):

عاریت کس نپذیرفته ام
آنچه دلم گفت بگو گفته ام
شعبده تازه بر انگیختم
هیکلی از قالب نو ریختم

(Kimsədən borc qəbul etməmişəm,

Ürəyim nə deyibsə onu söyləmişəm.
Səhnədə təzə bir oyun qurdum
Yeni qəlibdən bir heykəl tökdüm)

Ənənə ilə yenilik arasında təzad yoxdur, hər bir ənənəvi şeir şəklində yeni söz demək mümkündür, eyni zamanda ənənəvi motivlərə və mövzulara yeni məna və rəng qatmaq və bədii zövq oyatmaq da mümkündür, bu isə qələmin kimin əlində olmasından asılıdır. Nizami, Mövlana və Hafizi götürsək, onların yaradıcılığında xəyal ünsürünün güclü olduğu romantizm əlamətləri, həm ictimai hadisələrə fəal və tənqidi münasibət, həm də realizm ünsürləri tapmaq olar. Başqa sözlə desək, sadalanan cəhətlərə bir çox yazılı ədəbi məktəblərlə yanaşı, hətta folklor nümunələrində rast gəlmək olar, sadəcə hər bir ədəbi üslub və məktəbdə bu və ya digər cəhətlər daha qabarıq ifadə olunur və onlar həmin qabarıq xüsusiyyətlərə görə bir-birindən fəqlənirlər. Deməli, ədəbi və üslubi cərəyanlar arasında ortaq cəhətlər mövcuddur.İran ədəbiyyatının dövrlərə görə ümumi bölgüsündə iki mühüm mərhələ ayırd edilir: qədim və Orta əsrlər. Birinci mərhələyə əsasən Avestadan gələn ədəbi ünsürlər, folklor nümunələri və pəhləvi dilində yazılan yazılı abidələr daxildir. İkinci mərhələ İslamdan sonra Orta cağları əhatə edir və həmin dövrdə təşəkkül və təkamül yolu keçən farsdilli ədəbiyyat Hind və Pakistandan tutmuş Kiçik Asiyayadək ərazidə yayılmaqla geniş əhatə çevrəsinə malik olur. Həmin ədəbiyyatın inkişafında farslarla yanaşı, digər xalqların ədibləri də böyük xidmət göstərmiş, onun zənginləşməsini təmin etmişlər. Burada Azərbaycan müəlliflərinin böyük payı vardır. İslamdan sonrakı ədəbi proses IX-XIX əsləri əhatə edir. İlkin mərhələdə farsdilli ədəbiyatın sürətlə inkişafında VII-VIII əsrlər ərəb ədəbi ənənələrinin təsiri çox olmuşdur. Həmin dövrdə İran müəllifləri hətta ərəbcə bədii əsərlər yazmışlar. İngilis şərqşünası E.Braunun Renessans adlandırdığı Orta çağın IX-XV yüzilliklərində farsca ən parlaq və zəngin ədəbi əsərlər yaranmışdır və Braginski bu dövrü klassik adlandırır. Müəllif buradan çıxış edərək farsdilli ədəbiyatı iki böyük dövrə ayırır: klassik (IX-XV əsrlər) və klassik sonrası (XVI-XIX) ədəbiyyat (4.s.27). Ancaq həmin böyük dövrlərdə yaranan ədəbiyyat istər ədəbi növ və janrlar, istər ideya-məzmun və mövzu, istərsə poetik düzən və bədii obrazlar sistemi, istərsə də üslubi xüsusiyyətlər baxımından fərqli cərəyan və məktəblərə bölünür. Şəhriyar farsdilli poeziyasının üslub və məktəbləri ilə tanışdır. Əlbəttə, ədibin dövründə İran alimləri bu məsələ üzrə tam qərara gələ bilməmişlər və ona görə də onların verdiyi təsnifatlar sonralar dəyişmiş və yeniləşmişdir. Məs, Təmimdari Azərbaycan üslubuna ayrıca yer vermişdir (9.s.80-83). Ancaq əvvəllər iki əsas üslub (Xorasan və İraq) diqqət mərkəzində yerləşmişdir ki, Şəhriyar birincini Türküstan üslubu adlandırır. İkincisi isə sonralar həm də İraq-Azərbaycan üslubu adlanmışdır, çünki bunlar arsında yaxın cəhətlər çoxdur.

Şəhriyar hər iki üslubdan təsirlənmiş və yerinə görə münasib şəkildə bəhrələnmişdir.Buraya bir məsələni də əlavə etmək olar. Şairin bədii təxəyyül dünyasında türk və fars dilindən, hər iki xalqın qədim ədəbi ənənələrindən, folklor və digər mədəniyyət qollarından gələn məzmunlar, estetik duyum və baxışlar məcun halında bir araya gətirilmiş, eyni zamanda Şəhriyarın qələminə xas bədii zövqlə cilalanaraq ərəb ədəbiyyatı və Quran bəlağəti əsasında şəkillənmiş klassik poetikanın qəlibləri ilə oxuculara təqdim edilmişdir. Deməli, Şəhriyarın bədii irsini təhlil edərkən bir sıra amilləri, yəni türk və fars şifahi və yazılı ədəbi ənənələri ilə bağlı məqamları, eyni zamanda klassik poetikanın nəzəri və praktiki qanunlarını nəzərə almaq lazımdır. Burada şairin müasir ədəbi prosesi və Avropa estetik cərəyanları ilə yaxından tanış olması da diqqətə alınmalıdır. O, romantik məktəbə önəm verdiyindən öz şeirlərində həmin məktəbə xas fəndlərdən istifadə etmişdir. Doktor Mahmud Fütuhi bu cəhətə toxunaraq romantik üslubda istiarələrin geniş işləndiyini qeyd edir və Şəhriyardan gətirdiyi misalda "mah" sözü həm adi mənada, həm də istiarə kimi "sevgili" və "həmdəm" mənasında işlənir ki, bu cür qarşılaşdırma şeirdə xəyal ünsürünün yerini və təsirini göstərir (14.s.153):

هر شب از حسرت ماهی من و یک دامن اشک
تو هم ای دامن مهتاب پر از پروینی

(Hər gecə bir ayın həsrətindən məndə bir ətək göz yaşı,
Sən də ey məhtabın ətəyi, Pərvinlə dolusan!)

Birinci misrada ay sevgili və həmdəm mənasında (istiarə), ikincidə isə ay mənasında işlənir, göz yaşı ilə Pərvin ulduzu arasında xəyali təşbeh qurulur.

Ancaq bir məsələni də yadda saxlamaq lazımdır ki, romantik ifadə üsulu xəyal ünsürünü və duyğuları önə çəkməklə oxucuya daha təsir göstərir və onda bədii zövq yaradır. Belə bir cəhətə hələ klassik Şərq ədəbiyyatında rast gəlirik. Şərqin öz romantizmi vardır və buna Nizami, Mövlana, Sədi, Hafiz və Füzulinin şeirlərində rast gəlmək olar. Əlavə edək ki, xəyal ünsürü arifanə şeirlərdə daha güzlü ifadə olunur və Sədi, Mövlana və Hafiz şeirlərinin dinləyiciyə yüksək təsiri buradan irəli gəlir. Sədinin məşhur qəzəlinin ilk beyti ilə Şəhriyarın ona yazdığı "Came-Cəm" başlıqlı nəzirənin ilk beytini qısaca müqayisə edək (12.s.366; 10.s.101):

بجهان خرم از آنم که جهان خرم ازوست
عاشقم بر همه عالم که همه عالم ازوست

(Dünyaya ona görə xürrəm oluram ki, dünya Ondan xürrəmdir
Bütün aləmə ona görə aşiqəm ki, bütün aləm Ondandır)

مبدم زنده از آنیم که دم زنده ازوست
دم زن از عشق وجودی که عدم زنده ازوست
(Dirilik dəmi (nəfəsi) Ondan olduğuna görə, biz də dəmbədəm ondan diriyik
O vücud eşqindən dəm vur (bəhs et) ki, yoxluq da ondan diri olur)

Hər iki beytdə irfani məna vardır, belə ki, varlıq aləminin Allahın təcəlli nişanələri olduğu qənaəti ifadə olunur; hər nə varsa – şadlıq, eşq, həyat, dirilik nəfəsi, vücud (varlıq), yoxluq (ədəm) Ondandır, yoxluq Onunla dirilik tapır.

Nəticələr: Şəhriyarın bədii irsinin tədqiqi ilə bağlı diqqəti cəlb edən mühüm məqamları belə ümumiləşdirmək olar:

1. Azərbaycanda şairin türkcə əsərlərinin nəşri və tədqiqi daha geniş vüsət alsa da, burada yer alan bədii təsvirin dərinlikləri, xüsusilə xəyal ünsürlərinin yaratdığı estetik zövqün incəlikləri barədə daha mükəmməl təsəvvür yaratmaq lazım gəlir.

2. Şəhriyarın həcmcə böyük və möhtəva baxımından zəngin farsca Divanı üzərində müqayisəli poetoloji təhlillər aparmağa böyük imkanlar vardır.

3. Şəhriyarın bədii düşüncəsinin qaynaqlarının və həmçinin onlar arasında qaşılıqlı əlaqənin müəyyən edilməsi olduqca zəruridir. Həmin qaynaqları qısaca belə qeyd etmək olar:

a. Quran, İslam maarifi və irfan dəyərləri

b. Türk mifologiyası, milli adət-ənənələr və folklor mədəniyyəti

c. Qədim İran mifologiyası, Avesta və folklor mədəniyyəti (daha çox Firdövsinin mütaliəsi ilə bağlı)

e. Klassik farsdilli və türkdilli ədəbiyyat

4. Şəhriyarın bədii irsinin təhlilində diqqəti cəlb edən digər məqamlar:

a. Ərəb, fars və türk ədəbiyyatının malik olduğu ortaq poetik qəliblər və bədii obrazlar sistemi, bu üç ədəbiyyatın daşıdığı bir sıra estetik dəyərlərin bir araya gətirilməsi və onlar arasında əlaqə; ərəb dil və ədəbiyyatından gələn motivlər və ünsürlər daha çox Quran, İslam maarifi və ifranla bağlıdır.

b. Hər üç dildə olan folklor və əski ədəbi-estetik ənənələrin qarşılıqlı əlaqəsi və Şəhriyar poesiyasına verdikləri zənginlik; burada farsdilli və türkdilli poeziyanın bir-birindən təsirlənməsi daha qabarıqdır.

c. Şəhriyarın poetik dilinin tədqiqində Şərq poetik kateqoriyaları ilə müasir nəzəri baxışlar (strukturalizm, linqvistik poetika, mətndaxili proseslər) arasında metodoloji əlaqə

d. Şəhriyarın klassik fars poeziyasından təsirlənməsi səviyyəsinin müəyyən edilməsi və onun ənənəvi poetikaya gətirdiyi yeniliklər ki, burada Hafiz xüsusi yer tutur.

Ədəbiyyat

1. Məhəmməd Hüseyn Şəhriyar. Aman ayrılıq (Poema və şerlər). Tərtib edənlər: Qulamhüseyn Beqdeli. Həmid Məmmədzadə. Bakı., "Yazıçı".1981
2. Məhəmməd Hüseyn Şəhriyar. Seçilmiş əsərləri. Bakı: "Ecoprint".2016. 432s
3. Бертельс Е.Э. Низами и Фузули. Избранные труды. М., ИВЛ. 1962
4. Брагинский И.С. Из истории персидской и таджикской литератур. Избранные труды. М., «Наука». 1972
5. Габриэли Ф. Основные тенденции развития в литературах ислама. «Арабская средневековая культура и литература». Сборник статей зарубежных ученых.М., «НАУКА». 1978.
6. Куделин А.Б. Средневековая арабская поэтика. (Вторая ПоловинаVIII —XI Век).М., «НАУКА». 1983
7. Рифтин Б.Л. Типология и взаимосвязи средневековых литератур (вместо введения) / Типология и взаимосвязи среднивековых литератур Востока и Запада/ М., «НАУКА»., 1974
8. Стеблева И.В. Семантика газелей Бабура. М. «НАУКА». 1982
9. Тамимдари А. История персидской литературы. Петербургское Востоковедение. 2007
10. دیوان شهریار. سید محمد حسین شهریار. کنگره بزرگداشت استاد سید محمد حسین شهریار. جلد اول. تبریز، 1366
11. تصویرگری در غزلیات شمس .دکتر سید حسین فاطمی . تهران: انتشارات امیر کبیر، 1364
12. سیری در شعرفارسی . دکتر عبدالحسین زرین کوب . تهران: انتشارات علمی، 1371
13. کلیات نظامی گنجوی (مخزن الاسرار، خسرو و شیرین، لیلی و مجنون، هفت پیکر، اسکندرنامه (شرف نامه، اقبال نامه)، تصحیح: استاد وحید دستگردی، به اهتمام پرویز بابایی، تهران: مؤسسه انتشارات آگاه. 1388
14. بلاغت تصویر. دکتر محمود فتوحی رود معجنی. تهران:سخن، 1385

М. Мехдиева

Важные моменты в исследования художественного наследия Шахрийара.

РЕЗЮМЕ

В статье в общих чертах рассмотрены наиболее важные моменты при исследовании художественного наследия Шахрийара. Великий поэт жил и творил в двадцатом веку, написал в двух – азербайджанском и персидском языках. Его художественное наследие в персидском языке гораздо больше по обему и значительно шире по

художесвенному достоинству. Тем не менее в его тюрской поэзии нашли отражение довольно тонкие образно-смысловые оттенки.

В его творчестве можно обнаружить ведиколепное сочетание традиционализма и современности. В Иране и в Азербайджане сделаны большие работы в области изучения художественного наследия Шахрийара. Однако в данной области существует определенный пробел. До сих пор полностью не раскрыты основные поэтические фигуры, использованные в его тюркской и персидской поэзии. Кроме того, он выбирая традиционные темы и мотивы у предшественников, внес в их ткань новые художественные изображенния и эстетические элементы. Основными источниками его художественного мышления являются Коран и Ислам, мифология и фольклор иранских и тюркских народов, поэтологическое наследие мусульманского Востока.

M.Mehdiyeva

Important dimensions in Study of Shariyar's artistic Heritage

SUMMARY

The paper considers the common and general features and important dimensions in Study of Shariyar's artistic Heritage. Great poet of the twentieth centry wrote his poems in Turkish and Peraian languages. His artistic heritage in Persian is much more from point of view of volume and is much wider in terms of artistic merit. Neverthelles, ih his Turkish poetry was refleted subtle figurative and semantic nuances.In his poetry you can find a magnificent combination of traditionalism and modernity (originality). The poetic heritage of Shahriyar have been studed in Iran and Azerbaijan. However, there is a certain void in this area. Still, the main poetic figures and canons, that used in his Turkish and Persian poetry were not illuminated in full. Besides, he receving the traditional themes and motives from his predecessors, introduced new artistic images and aesthetic elements into their semantic structure. Main sources of Shariyar's artistic thinking are the Holy Koran and Islam, Mythology and folklore of Iranian and Turkish peoples, poetic heritage of Muslim East.

Rəyçi: Nəsib Göyüşov
filologiya ürzə elmlər doktoru

AYGÜL QURBANOVA
AMEA Folklor İnstitutu
e-mail: aygul.qurbanova89@mail.ru

"DƏDƏ QORQUD" DASTANLARININ MƏHƏRRƏM ERGİN VƏ ORXAN ŞAİQ GÖKYAY MƏTNLƏRİNDƏ "SOYLAMA"LARIN SEÇİLMƏSİ

Açar sözlər: "Kitabi-Dədə Qorqud", M.Ergin, O.Ş.Gökyay, "soylama" (dastan qəhrəmanlarının bir-birinə şeirlə müraciəti), nəzm, nəsr
Key words: "The book of Dada Gorgud", M.Ergin, O.S.Gokyay, "soylama" (addressing of dastan heroes to each other with poems), poetry, prose
Ключевые слова: «Книга Деде Горгуда», М.Эргин, О.Ш.Гекяй, «сойлама» (диалог героев дастана стихами), стих, проза.

Məsələnin qoyuluşu. M.Ergin və O.Ş.Gökyayın nəşrlərində "soylama"ların seçilməsi ilə bağlı bir sıra problemlər mövcuddur. Araşdırıcılar dastan mətnindəki "soylama"ları müəyyənləşdirərkən konkret prinsipə əsaslanmadıqlarından ortaya qarışıq bir mənzərə çıxmışdır.

İşin məqsədi. Hər iki elmi-tənqidi nəşrdə "soylama"ların seçilməsi zamanı rast gəlinən mübahisəli məqamlara aydınlıq gətirmək.

İndiyədək qorqudşünaslar tərəfindən "Kitabi-Dədə Qorqud"un bir çox elmi-tənqidi mətni nəşr olunmuşdur. Bu nəşrlər sırasında Türkiyə qorqudşünasları M.Ergin və O.Ş.Gökyayın əsərlərini xüsusilə qeyd etmək lazımdır. Hər iki müəllifin kitabı bu gün də qorqudşünaslıqda öz elmi çəkisini qoruyub saxlamaqdadır və Dədə Qorqud oğuznamələrini araşdıran tədqiqatçıların istinad etdikləri əsas mənbələrdəndir. Lakin onu da qeyd etmək lazımdır ki, "Kitabi-Dədə Qorqud"un indiyədək nəşr olunan bütün elmi-tənqidi mətnlərində olduğu kimi, M.Ergin və O.Ş.Gökyayın nəşrlərində də bir sıra problemlər mövcuddur. Bu problemlərdən biri də Oğuznamə mətnlərində "soylama" ayrıntısı aparma ilə bağlıdır. Məsələ burasındadır ki, müəlliflərin heç biri dastan mətnində "soylama"ları müəyyənləşdirərkən müəyyən bir prinsipə əməl etməmişdir. Hər iki nəşri müqayisəli şəkildə araşdırdıqda bəlli olur ki, həm M.Ergin, həm də O.Ş.Gökyay dastan mətnində asanlıqla müəyyənləşən nəzm parçalarını şeir qrupları şəklində vermişlər. Lakin boylarda elə hissələr vardır ki, onların nəzmləmi, yaxud nəsrləmi verilməsini müəyyən etmək olduqca çətindir. Məhz belə məqamlarda müəlliflər arasında fikir ayrılığı yaranır. Belə ki, onlardan birinin "soylama" şəklində verdiyi hissəni digəri nəsrlə verir. Fikrimizi aydınlaşdırmaq üçün mətnşünasların hər birinin mövqeyi ilə ayrı-ayrılıqda tanış olaq. M.Ergin "Dədə Qorqud Kitabı"ndakı "bütün mənzum parçalara *soy* və *soylama* deyildiyini" (1, 32) qeyd edir. Lakin bu qeydi edən müəllifin

"soylamış, görəlim, nə soylamış" formulundan sonra gələn bir çox hissələri hansı səbəbdən şeir qrupları şəklində deyil, nəsrlə verməsi qaranlıq qalır.

Məsələn, "Kitab"ın "Giriş" hissəsində Dədə Qorqudun dilindən verilən "soylama"ların hamısını Məhərrəm Ergin nəsrlə (1, 73;74;75) verir. O.Ş.Gökyay da M.Ergin kimi "soylama"ları belə səciyyələndirir. "Dədə Qorqud hekayələrində nəzm parçaları bunları söyləyən şəxs tərəfindən tipik bir ifadə ilə başlanır: *soy soyladı* və ya sadəcə *soylama*" (2, CCLXIV). O, ""soylama" sözünün Vatikan yazmasında tək halda da işləndiyini, əksər hallarda isə "soy soyladı", ya da "soylamış" ifadələrindən sonra gəldiyini" (2, CCLXIV) yazır. "Soylama"ları bu cür səciyyələndirən O.Ş.Gökyay da nədənsə M.Ergin kimi Dədə Qorqudun dilindən verilən "soylama"ları nəsrlə (2, 1;2) verir. Burada bir məqama da toxunmaq istərdik. Yuxarıda da qeyd etdiyimiz kimi, O.Ş.Gökyay "Kitabi-Dədə Qorqud"dakı "nəzm parçalarını söyləyən şəxsin bu parçaları söyləməzdən əvvəl *soylama* sözünü işlədərək, nəsrdən nəzmə keçidi vurğuladığını" (2, CCLXIV) yazır. Görünür, müəllif mətndəki katib müdaxilələrini nəzərə almadığından belə bir qənaətə gəlmişdir. Belə ki, birinci boyda üç yerdə katib müdaxiləsinin nəticəsi olaraq "soylama" sözünün işləndiyini görürük. Bu məsələni araşdıran araşdırıcı Əfzələddin Əsgərin də yazdığı kimi, "hər üç yerdə *soylama* sözü yazı düşüncəsindən gəlmişdir. Bu əlavə orta əsrlərə aid müxtəlif məzmunlu əsərlərdə şeir parçasından öncə mətndə *şeir* sözünün yazılmasına bənzəyir və birbaşa orta əsr nəsrinin təsiri ilə bağlıdır" (3, 216). Araşdırıcı təkzibolunmaz faktlarla sübuta yetirmişdir ki, "katib bu əlavə ilə ozan təhkiyəsinə təfsir verməklə irəlidə deyiləcək hissənin *şeir* olduğunu anlatmaq istəyir" (3, 216). Birinci boyda "soylama"ların seçilməsində müəlliflərin fikri demək olar ki, üst-üstə düşür. Yalnız iki "soylama"nın müəyyənləşdirilməsində fikir ayrılığı müşahidə olunur. Bunlardan biri "Hey Dirse Ḫan biglik virgil bu oğlana" (1, 82) komponenti ilə başlanan "soylama"dır ki, həmin "soylama"nı M.Ergin nəzmlə, O.Ş.Gökyay isə nəsrlə (2, 7) vermişdir. Əlbəttə ki, burada M.Erginin mövqeyi doğrudur. Çünki həmin hissə "soylama"nın bütün tələblərinə cavab verir və onu nəsrlə verməyə heç bir əsas yoxdur. Burada bir məqamı da qeyd edək ki, hər nə qədər M.Ergin qeyd olunan hissəni "soylama" kimi versə də, həmin "soylama"dan öncə gələn "Hay Dirse Ḫan, baña kazab itme" (1, 80) komponenti ilə başlanan parçanı nəsrlə vermişdir. Buradan da aydın olur ki, M.Ergin "soylama"ları müəyyənləşdirərkən hər hansı bir prinsipə əsaslanmamış, onları istədiyi şəkildə vermişdir. O.Ş.Gökyay isə bu "soylama"nı da digəri kimi nəsrlə (2, 6) vermişdir. Onu da qeyd edək ki, birinci boyda müəlliflərin hər ikisinin nəsrlə verdiyi hissələr də vardır ki, həmin hissələr "soylama" kimi verilməli idi. Məsələn, "Görürmisin Dirse Ḫan neler oldı" (1, 83/ 2, 7), "Kalkubanı Dirse Ḫan senüñ oğluñ yirinden örü turdı" (1, 84/ 2, 8), "Biz senüñ oğluñı niçe getürelüm" (1, 84/ 2, 8), "Görür-misin ay oğul neler oldı" (1, 9/ 2, 12), "Kırk yoldaşum

aman” (1, 92/ 2, 13) komponentləri ilə başlanan hissələri hər iki araşdırıcı nəsrlə vermişdir, halbuki həmin parçalar, yuxarıda da qeyd olunduğu kimi, “soylama” kimi verilən digər parçalarla eyni xüsusiyyətlərə malikdirlər.

İkinci boyda da araşdırıcılar arasında həm fikir həmrəyliyi, həm də fikir ayrılığı vardır. Belə ki, “Ünüm añlañ bigler, sözüm diñleñ bigler” (1, 95/ 2, 16), “Bigler Kazanuñ tavla tavla şahbaz atlarını binmişüz” (1, 97/ 2, 17), “Kazan Begüñ dünlügü altun ban evlerini biz yıkmışuz” (1, 97/ 2, 18), “Bilür-misin karındaşum Kara Göne düşümde ne görindi” (1, 99/ 2, 19), “Kara bulut didügüñ senüñ devletüñdür” (1, 100/ 2, 19), “Menüm avumı bozma, leşkerümi tağıtma” (1, 100/ 2, 19), “Dün yok öteki gün ivüñ bundan kiçdi” (1, 103/ 2, 21), “Ağzuñ kurısun çoban, dilüñ çürisün çoban” (1, 103/ 2, 22), “Altı yüz kãfir daḫı menüm üzerüme geldi” (1, 103/ 2, 22), “Ağzuñ kurısun ana, dilüñ çürisün ana” (1, 107/ 2, 24) komponentləri ilə başlanan parçaları hər iki müəllif nəsrlə vermişdir. Lakin həm quruluşca, həm də mahiyyət etibarilə həmin hissələr “soylama”lardan seçilmirlər.

“Mere Şökli Melik, dünlügü altun ban evlerümü götürübdürürsün” (2, 26), “Mere Kazan, dünlügü altun ban evüñü getürmişüz” (2, 27) komponentləri ilə başlanan hissələri O.Ş.Gökyay nəsrlə, M.Ergin isə haqlı olaraq “soylama” kimi (1, 110; 111) vermişdir. Çünki həmin hissələr də mətndəki digər “soylama”larla eyni xüsusiyyətlərə malikdirlər. “Kam Pürenüñ oğlı Bamsı Beyrek boyı”nda (1, 116/ 2, 31) “Ḫan Kazan, nice ağlamayayın” (1, 116/ 2, 31), “Yigit, Beg yigit” (1, 118/ 2, 32), “Aleyke’s-selam ay ameli azmış, fi’li dönmiş” (2, 37), “Biñ buğra ner getürüñ kim...” (1, 126/ 2, 38), “Biñ aygır dileyüpdür kim...” (1, 127/ 2, 39), “Ḫey menüm kırk yoldaşum” (1, 134/ 2, 44), “Mere delü ozan, dile menden ne dilersin?” (1, 145/ 2, 51) komponentləri ilə başlanan parçalar “soylama” olsa da, təəssüf ki, araşdırıcılar həmin hissələri də nəsr nümunəsi kimi vermişlər. Bundan başqa üçüncü boyda Dədə Qorqudun dilindən verilən “Karşu yatan kara dağuñu aşmağa gelmişem” (1, 125/ 2, 37) komponenti ilə başlanan “soylama”nın sonunu hər iki alim nəsrlə verir. Zənnimizcə, araşdırıcılar “soylama”nın sonlarına doğru qafiyənin zəiflədiyini görüb həmin nümunəni bütövlükdə soylama kimi verməkdən çəkinmişlər.

“Ḳazan Big oğlı Uruz Bigüñ ṭutsaḳ olduğı boy”ında (1, 153/ 2, 59) “soylama”ların seçilməsində araşdırıcıların fikri demək olar ki, üst-üstə düşür. Yalnız bir neçə yerdə müəlliflər arasında fikir ayrılığı yaranır. Belə ki, “A beg baba” (2, 60) komponenti ilə başlanan parçanı O.Ş.Gökyay nəsrlə, M.Ergin isə bir hissəsini nəzmlə, bir hissəsini nəsrlə (1, 156) vermişdir. Görünür, araşdırıcılar burada da qafiyənin nisbətən zəif müşahidə olunduğu hissələrin mövcudluğunu nəzərə alaraq həmin parçanı bütövlükdə “soylama” kimi vermək istəməyiblər. Bundan başqa “Berü gelgil arslanum oğul” (1, 157) və komponenti ilə başlanan parçanı M.Ergin nəzmlə, O.Ş.Gökyay isə nəsrlə (2, 61) vermişdir. Həmin parça da “soylama” olduğu üçün təbii ki, nəzmlə verilməli idi.

"Duḫa Ḳoca oğlı Delü Dumrul boyı"nda (1, 177/ 2, 75) "soylama"ların seçilməsində araşdırıcılar arasında heç bir fikir ayrılığına rast gəlmədik. "Ḳañlı Ḳoca oğlı Ḳan Ṭuralı boyı"nda (1, 184) "Baba men yirümden turmadın ol turmış ola" (1, 185/ 2, 83), "Oğul sabah varup öylen gelmek olmaz" (1, 185/ 2, 83), "Baba yilisi kara Kazılık atuma eyer salayım" (1, 186\ 2, 84), "Yir kibi kertileyin, toprak gibi savrulayın" (1, 193/ 2, 91) komponentləri ilə başlanan parçalar "soylama" olsa da, araşdırıcılar tərəfindən nəsrlə verilmişdir. Halbuki həmin hissələr mahiyyət və quruluş etibarilə boylardakı digər "soylama"larla eyniyyət təşkil edir.

"Ḳażılık Ḳoca oğlı Yigenek boyı"nda (1, 199/ 2, 98) Yigeneyin yuxusunu danışdığı hissə (1, 201/ 2, 100) "soylama" olmasına baxmayaraq, araşdırıcılar həmin hissəni də nəsr nümunəsi kimi vermişlər. Görünür, hər iki alim hadisələrin nəql olunduğunu əsas tutaraq bu parçanı "soylama" kimi verməkdən çəkinmişlər. Lakin onu da qeyd edək ki, dastandakı bir çox "soylama"larda hadisələrin nəql olunduğuna rast gəlirik ki, araşdırıcıların özləri də həmin hissələri məhz elə "soylama" kimi vermişlər.

"Basaṭ Depegözi öldürdügi boyı"nda (1, 206/ 2, 105) "soylama"ların seçilməsində araşdırıcıların fikri üst-üstə düşür.

"Begil oğlı Emrenüñ boyı"nda (1, 216/ 2, 115) "Big yigidüm, kalabalık yağı gelse kayıtmaz idüñ" (1, 219/ 2, 118), "Kalkubanı yirüñüzdən örü turuñ" (1, 219/ 2, 118), "Mere geyimüm getürün" (1, 221/ 2, 120), "Mere kafir sen meni bilmezmisin" (1, 223/ 2, 122) komponentləri ilə başlanan hissələr tədqiqatçılar tərəfindən nəsrlə verilsə də, bu parçaların hər biri "soylama"dır.

"Uşun Ḳoca oğlı Segrek boyı"nda (1, 225/ 2, 125) "İmdi Egrege Segrek yaraşur" (1, 226/ 2, 126), "Mere kavat kızı men kılıcuma toğranayım" (1, 228/ 2, 128), "Kız sen mana bir yıl bakgıl" (1, 228\ 2, 128) komponentləri ilə başlanan hissələri araşdırıcılar nəsr kimi vermişlər. Lakin həmin hissələrin "soylama" olmasına heç bir şübhə yoxdur.

"Salur Ḳazan tutsak olup oğlı Uruz çıḳarduğı boyı"nda (1, 234/ 2, 134) və dastanın sonuncu boyu olan "İç Oğuza Ṭaş Oğuz ʿāṣi olup Beyrek öldügi boyu"nda (1, 243/ 2, 145) "soylama"ların müəyyən olunmasında araşdırıcılar arasında heç bir fikir ayrılığına rast gəlinmir.

Beləliklə, hər iki nəşri diqqətlə öyrəndikdən sonra aydın oldu ki, araşdırıcıların heç biri dastan mətnində "soylama"ları müəyyənləşdirərkən hər hansı bir prinsipə əsaslanmamış, "soylama"lardan quruluşuna və mahiyyətinə görə heç bir fərqi olmayan parçaları nəsr kimi vermiş, yalnız asanlıqla müəyyənləşən hissələri "soylama" kimi vermişlər. Hətta bəzən dastanın bir boyunda nəsrlə verilən eyni parça digər boyda "soylama" kimi verilmişdir. Bütün bunlar onu göstərir ki, müəlliflər mətni tərtib edərkən nəzm və nəsr bölgüsünə xüsusi diqqət göstərməmişlər.

Ümumilikdə, hər iki araşdırıcının nəşrində "soylama"ların verilməsi əksər hallarda üst-üstə düşür, bəzi hallarda isə "soylama"ların müəyyənləşdirilməsində fərqli məqamlar meydana çıxır. Belə ki, bir müəllifin "soylama" kimi verdiyi hissəni digəri nəsrlə verir və yaxud əksinə. Bu da onu göstərir ki, tədqiqatçılar dastan mətnində "soylama"ları müəyyənləşdirərkən bəzi hallarda subyektivizmə də söykənmişlər və bunun nəticəsində də qarışıq bir mənzərə ortaya çıxmışdır. Problemin kökü yuxarıda da qeyd etdiyimiz kimi, hər iki araşdırıcının mətndəki "soylama"ları müəyyənləşdirərkən vahid bir prinsipə əsaslanmamasından qaynaqlanır. Tədqiqatçılar "soylama" adı altında dastanın nəzm hissələrini nəzərdə tutsalar da, dəfələrlə tutduqları mövqeyə zidd hərəkət etmişlər. Onu da qeyd edək ki, sadaladığımız problemlər təkcə bu iki nəşrdə deyil, "Kitabi-Dədə Qorqud"un bütün mövcud nəşrlərində qarşımıza çıxır. Bunun da səbəbi indiyədək dastan mətnindəki "soylama"ların bütöv şəkildə araşdırmaya cəlb edilməməsi ilə bağlıdır. Mövcud problemə aydınlıq gətirmək üçün ilk növbədə dastan mətnində "soylama" adı altında verilən parçaların hansı keyfiyyətlərinə görə dastanda nəsrlə verilən hissələrdən fərqləndiyi müəyyən olunmalıdır. Bununla yanaşı "mənzum parça anlayışının çərçivələrindən kənara çıxan" (4, 301) "soylama"ların əsas xüsusiyyətlərini öyrənmək lazımdır ki, dastan mətnində həmin parçaları müəyyən edən zaman konkret bir prinsipə əsaslanmaq mümkün olsun.

İşin elmi nəticəsi. Türkiyə qorqudşünasları M.Ergin və O.Ş.Gökyayın nəşrlərində "soylama"ların dastanın nəsr hissələrindən fərqləndirilməsi zamanı subyektivizmdən irəli gələn fikir ayrılığı ortaya çıxmışdır. Belə ki, araşdırıcılardan birinin "soylama" kimi verdiyi hissəni digəri nəsr kimi vermişdir. Həmçinin dastan mətnində "soylama" olmasına heç bir şübhə olmayan parçalar da vardır ki, tədqiqatçıların heç biri həmin parçaları dastanın nəsr hissələrindən fərqləndirməmişdir. Mövcud problemin həlli üçün "soylama"lar konkret şəkildə araşdırılmalı, həmin parçaların əsas xüsusiyyətləri müəyyən edilməlidir.

İşin elmi yeniliyi. Türkiyə qorqudşünasları M.Ergin və O.Ş.Gökyayın elmi- tənqidi nəşrlərində "soylama"ların müəyyən olunması zamanı rast gəlinən problemlərə ilk dəfə olaraq bu məqalədə geniş şəkildə aydınlıq gətirilmişdir. **İşin tətbiqi əhəmiyyəti.** "Kitabi-Dədə Qorqud"da "soylama"ların öyrənilməsində istifadə oluna bilər.

Ədəbiyyat

1. Məhərrəm Ergin. Dede Korkut Kitabı-I. Ankara, Türk Tarih Kurumu basımevi, 1958, 251 s.
2. Gökyay Orhan Şaik. Dedem Korkutun kitabı. İstanbul, Milli Eğitim basımevi 2000, 1531 s.

3. Əfzələddin Əsgər. Oğuznamə yaradıcılığı. Bakı, “Elm və təhsil”, 2013, 340 s.
4. Dədə Qorqud Kitabı. Ensiklopedik lüğət. Bakı, “Öndər nəşriyyat”, 2004, 368 s.

A.Qurbanova

Selecting “soylama”s in articles of “dada gorgud” “dastan”s belonging to Maharram Ergin and Orkhan Shaig Gokyay

Summary

In this article problems were taken into account which are related to the selection of “soylama”s in “Dada Gorgud” oguznames depicted on publications of Turkish researchers M.Ergin and O.S.Gokyay and stated that, while identification of “soylama”s researchers did not focused on the particular principle and presented easily distinguishable prose parts in the poetry sections of article as a “soylama”, while they hesitated presenting relatively hardly distinguishable parts as a "soylama".

Selecting “soylama”s in articles of “dada gorgud” “dastan”s belonging to Maharram Ergin and Orkhan Shaig Gokyay.

For the solution of the problem "soylama"s must be unambiguously drawn into investigation.

А.Гурбанова

Выбор «сойлама»лар в текстах Магеррам Эргина и Орхан шаиг Гекяйа из дастанов «Деде Горгуд»

Резюме

В статье рассказывается, как Турецкие горгудведы М.Эргин и О.Ш.Гекяй в своих изданиях рассматривают проблемы связанные избранием «сойлама» в Огузнаме Деде Горгуда, и отмечают, что исследователи текстов дастана выявляя сойламалар, не придерживались конкретных принципов.

Так прозаичная часть текста выбрана с легкостью, стихотворная часть представлена как «сойлама», а те части, которые тяжело поддаются выбору не стали представлять как «сойлама».

Чтобы разрешить данную проблему, нужно вплотную заняться исследованием «сойлама»лар.

Rəyçi: **Əsgər Əfzələddin**
filologiya elmləri doktoru

GÜNEL ORUCƏLIYEVA
BDU
gunel@mail.ru

AZƏRBAYCANDA SOSİAL MEDİANIN YARANMASI VƏ İNKİŞAFI

Açar sözlər: Jurnalistika, media, sosial media, KİV, şəbəkə, veb-texnologiyalar, funksiyası.
Ключевые слова: социальные медиа, журналистика, медиа, СМИ, функция, веб-технологии, сеть.
Key words: social media, journalism, media, function, web, technology, network.

Müasir dövrdə informasiya texnologiyalarının cəmiyyət həyatında yaxından iştirakı nəticəsində elektron media kimi bir məhfum yaranmışdır. İnternet jurnalistikası- televiziya ilə qəzetin müsbət tərəflərini bir sintez halına gətirən yeni bir media vasitəsidir. Həm yazılı, həm səsli, həm də görüntülü xəbərlər, internetdəki veb səhifələrində bütünləşmiş olaraq təqdim edilə bilməkdə, bu xüsusiyyəti ilə qəzet və televiziyanın xəbər mesajı sistemlərini inteqrasiya olunduraraq yazı, səs və hərəkətli görüntüləri eyni mühit üzərində və bərabər zamanlı olaraq internet istifadəçilərinə təqdim edə bilməkdədir. İnternet medianın xüsusiyyətləri məzmununda janrlar yeni bir əhəmiyyət kəsb etməyə başlamış, müxəlif dəyişikliklərə məruz qalmışdır. Kompüter mühitində ünsiyyət təmin edən internet, xəbər nümayişləriylə də yeni bir xəbərçilik növünü ortaya çıxarmışdır. İnternet xəbərçiliyi bütün xəbərçilik texnikalarının birləşdiyi ümumi xəbər təqdimatına doğru yönəlməkdədir. İnternet jurnalistikasını qısaca belə yekunlaşdırmaq mümkündür: "TV qədər sürətli, qəzet qədər dərin və əhatəli…" Bu səbəbdən İnternet jurnalistikanı, televiziya ilə qəzetin müsbət tərəflərini bir sintez halına gətirən yeni bir media vasitəsidir. Həm yazılı, həm səsli, həm də görüntülü xəbərlər, internetdəki veb səhifələrində bütünləşmiş olaraq təqdim edilə bilməkdə, bu xüsusiyyəti ilə qəzet və televiziyanın xəbər mesajı sistemlərini inteqrasiya olunduraraq yazı, səs və hərəkətli görüntüləri eyni mühit üzərində və bərabər zamanlı olaraq internet istifadəçilərinə təqdim edə bilməkdədir. İnternet xəbərlərinin xüsusiyyətləri məzmununda xəbərlərə yeni bir forma gəlmişdir. İnternet xəbərçiliyinin ən böyük funksiyası məlumatları dərhal köçürə bilməsidir. Bir məlumatın qarşı tərəfə köçürülməsi, kompüter ekranına yazılması qədər asandır.

Sosial şəbəkələr müasir dövrdə internetin ən çox müraciət olunan resurslarından biridir. Araşdırma şirkəti olan comScore-un məlumatına görə

sosial şəbəkələrdən dünya internet istifadəçilərinin 85%-i istifadə edir. Bu sahədəki XXI əsr alimlərinin paradiqması özündə davamlılıq, kütləvilik və keyfiyyəti birləşdirir. Məhz texnoloji innovasiyalar sosial şəbəkə platformalarının daha da geniş yayılmasına münbit şərait yaratmışdır. Sosial şəbəkə- sosial obyektləri (insanlar, qruplar,idarə və təşkilatlar) özündə birləşdirən və onlar arasında ictimai əlaqələri olan insanları bi arada biləşdirir. Bu şəbəkələr ümumi maraq, ümumi iş və ya digər başqa maraqları olan cəmiyyəti əhatə edir. Ümumi fəlsəfi yanaşmada sosial şəbəkələr sosial obyektlərin və onların arasında mövcud olan əlaqələri nəzərdə tutur. Ellison və Boyd sosial interneti istifadəçilərin- ictimai (açıq) sosial ünsiyyət vasitəsi olduğunu və sosial şəbəkə platforması bazasında interaktiv multiuser veb sayt atributlarını müəyyən edir.

"Global Stats" statistik mərkəzinin hesablamalarına görə, Azərbaycanda "Facebook" sosial şəbəkəsinin payı 23,3% artaraq sosial media bazarının 89,73%-ni təşkil edib. Son bir ildə ölkədə "Facebook" sosial şəbəkəsinin itifadəçilərinin sayı kəskin artsa da, "Youtube" və "Twitter" sosial şəbəkələri ilə bağlı vəziyyət fərqli olub. İstifadəçi marağına görə ikinci yeri 2,9% bazar payı ilə "Youtube" sosial şəbəkəsi tutub. Üçüncü yerdə 2,24% bazar payı ilə "Twitter" sosial şəbəkəsi yerləşib və onun bazar payında ötən illə müqayisədə azalma müşahidə olunur. "Odnoklassniki" şəbəkəsinin Azərbaycanda bazar payı 1%-dən aşağı düşüb, halbuki, ötən ilin müvafiq dövründə bu rəqəm 5,11% təşkil edirdi. Bütün dünyada olduğunu kimi Azərbaycanda da sosial şəbəkələrə maraq gündən-günə artır. Son dövr ərzində Azərbaycanda Facebook istifadəçilərinin sayı 2 dəfə artmışdır.

Sosial şəbəkələr deyəndə insanın ağlına ilk olaraq İranda prezident seçkiləri, Moldovada hökumətin devrilməsi, ABŞ prezidenti Donald Trampın prezidentlik uğrunda seçki kampaniyası kimi hadisələr yada düşür. Bəziləri üçün sosial şəbəkə gündəlik həyatın mühüm tərkib hissəsi, digərləri üçün isə vaxt itkisi anlamına gəlir. Bəs görəsən sosial şəbəkələr necə yaranıb?- Usernet adlanan İlk sosial şəbəkə və ya sosial media 1979-ci ildə yaradılsa da, populyarlıq qazana bilməyib. Müasir sosial şəbəkə dedikdə isə çoxları yalnız Facebook və Twitter-i nəzərdə tutsa da əslində isə belə deyil. Bütün bloglar, forumlar, chat saytları və bu kimi internet vasitələri də sosial şəbəkə sayılır. İlk müasir sosial media 1997-ci ildə yaradılan Six Degrees olub. Daha sonra Asian Avenue, MiGente, BlackPlanet yaradılır. 2004-cü ildə Facebook yaradılanadək belə şəbəkələr arasında ən məşhurlardan biri LiveJournal idi. 2003-cü ildə fərqli məqsədlərlə yaradılan Hi5 və LinkedIn də sosial media bazarında özünə məxsus yer tutur. Ancaq ilk olaraq yalnız Harvard Universitetinin istifadəçiləri üçün yaradılan Facebook qısa müddət ərzində bütün şəbəkələrin reytinqini üstələyə bilib. Hazırda 600 milyona yaxın üzvü olan Facebook-un 6 il ərzində əldə etdiyi gəlir 50 milyard dollar

olaraq göstərilir. Dünya tendensiyasında azad fikrin ifadəsində müstəsnə rolu olan Facebook Moldovada hökumətin devrilməsində və 2008-ci ildə İranda prezident seçkilərindən sonra baş qaldırmış iğtişaşlar zamanı məlumatlardırıcı və paylayıcı rolu ilə öyünür. Sosial şəbəkələrin, xüsusilə də Facebookun perspektivi artan xətt üzrə davam edir. Facebookun etdiyi yeganə iş insanlar arasında şəbəkə qurmaqdır. Bundan dünyada milyonlarla insan istifadə edir. Azərbaycanda da istifadəçilərin sayı sürətlə artır. Qeyd etmək lazımdır ki, Türkiyə Facebookda ən çox istifadəçi olan 4-cü ölkədir. 2006-cı ildə yaradılan Twitter sosial şəbəkəsi də qısa müddət ərzində dünyanın bir çox güşələrində populyarlıq qazana bildi. Twitter şəbəkəsi istifadə sadəliyi ilə digər rəqiblərindən fərqlənir. Sosial şəbəkə hazırda dünyanı idarə edən qüvvələrdən biridir. Həm karyera, həm akademik cəhətdən, həm də gündəlik həyatımızda ən çox işlədilən, ən çox vacib sayılan vasitələrdən biridir. Sosial şəbəkələrdən istifadə həm asandır, həm də əlverişlidir. "Azərbaycanda ilk dəfə olaraq 1991-ci ildə elektron poçt xidmətindən istifadə edilməyə başlanıb. Beynəlxalq şəbəkəyə bağlantı Rusiyanın "Relcom" şirkətinə məxsus kanallar vasitəsilə həyata keçirilirdi. 1994-cü ilin əvvəllərində Elmlər Akademiyasıın AİS (Avtomatlaşdırılmış İdarəetmə Sistemləri) şöbəsində (indiki AMEA İnformasiya Texnologiyaları İnstitutu) Azərbaycanda ilk dəfə İnternetə qoşulma həyata keçirilmişdir". [7, səh. 127]

Sosial şəbəkələr üzrə ekspert Hakkı Öcal qeyd edir ki, "Bəzən insanların hər hansı bir mövzu haqqında şərh vermələri və səbirsizliklə digər insanların şərhlərini gözləmələri vaxt itkisinə səbəb olur. Bəzi dostlarının cansıxıcı postları və yaxud da onları silə bilmədiyi üçün, incikliyə səbəb olduğu üçün sosial şəbəkəni tərk edən istifadəçilər də vardır". Ekspert eyni zamanda vurğulayır ki, " sosial şəbəkələrin vaxt itkisi və özəl məlumatların istənilməyən insanların əlinə keçməsini çıxmaq şərtilə heç bir mənfi tərəfini yoxdur. Şəxslərlə yanaşı böyük şirkətlər də sosial şəbəkələrdən yetərincə yararlanır. Burada belə şəbəkələrin rolu əsasən ictimaiyyətlə əlaqələrdir". [8] Qeyd edək ki, www.socialbakers.com saytının məlumatına görə, hazırda Facebook-da Azərbaycandan 279 100 istifadəçi qeydiyyatdan keçib. Bu da son 4 ay ərzində istifadəçilərin sayının 2 dəfə artdığını göstərir.

İnternet həyatımızın ayrılmaz hissəsinə çevrilmiş, kompüterdən istifadə edən insanların ayrı-ayrı sosial şəbəkələrdə "dövr etməsi", dostluq və tanışlıqlar şəbəkəsi isə artıq gündəlik normaya çevrilmişdir. Amma bəlkə heç birimiz təsəvvür etmirik ki, ilk baxışdan çox cəlbedici, dostlarla bol görünən bu virtual dünya real həyatımızda müxtəlif problemlərə yol açır. "Sosial şəbəkə" termini elmi leksikona 1954-cü ildə ingilis sosioloq Barns tərəfindən daxil edilib. Tərifə görə, sosial şəbəkə sosial obyektlərdən (birlik, sosial qrup, insan) ibarət olan qovşaqları birləşdirən sosial strukturdur.

İnternetdə sosial şəbəkə interaktiv, çoxlu istifadəçisi olan saytdır. İlk sosial şəbəkənin yaranması ötən əsrin 90-cı illərinin ortalarına təsadüf edir. Bu "odnoklassniki.ru"-nun sələfi hesab edilən "classmates.com" idi. 1999-cu ildə yaradılan "Livejournal", 2003-cü ildə meydana çıxan "MySpace" də öz növbəsində xeyli populyarlıq qazandı. Hazırda sosial şəbəkələr içərisində ən populyarı 2004-cü ildə yaradılmış "Facebook" hesab edilir. 2006-cı ildə Rusiyada yaradılan "odnoklassniki" və "V kontakte" də xeyli populyardır. 2011-ci il fevralın 1-nə olan məlumata əsasən, bu ilin yanvar ayı ərzində "Facebook" sosial şəbəkəsində qeydə alınmış Azərbaycan istifadəçilərinin sayı 12,4% və ya 38,2 min nəfər artaraq 312 720 nəfərə çatıb. Azərbaycan əhalisinin 3,7%-i və ölkədə mövcud internet istifadəçilərinin 8,4%-i "Facebook"dan yararlanır. Bu isə o deməkdir ki, Azərbaycan vətəndaşlarının hər 27 nəfərindən biri "Facebook" istifadəçisidir. Sözügedən şəbəkədən Azərbaycanda istifadə edənlərin 50%-i 18-24 yaş qrupuna, 26%-i 25-34 yaş qrupuna, 9%-i 16-17 yaş qrupuna, 6%-i 13-15 və 35-44 yaş qruplarına, 2%-i 45-54 yaş qrupuna, 1%-i isə 56-64 və 65-dən yuxarı yaş qruplarına aiddir. Azərbaycanda "Facebook"dan istifadə edənlərin 63%-i kişilərdir. Hazırda Azərbaycan "Fecebook" şəbəkəsində istifadəçilərin sayına görə Latviya, Qazaxıstan, Belarus, Moldova, Ermənistan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, və Tacikistanı qabaqlayaraq 94-cü yeri tutur. Rusiya bu siyahıda 3 663 900 istifadəçi ilə 29-cu yerdə qərarlaşıb. Qeyd edək ki, "Facebook" sosial şəbəkəsinin istifadəçilərinin ümumi sayı 618 517 020-yə çatıb. Sosial şəbəkələrin meydana gəlməsi XXI əsrin ən böyük inqilablarından biri olmaqla yanaşı, bir sıra problemlər də yaradıb: "Təkcə "Facebook" sosial şəbəkəsinin 500 milyondan artıq "sakini" var. Elə bil yeni bir internet dünya, yeni bir internet ölkə yaranıb, insanlar da bu ölkənin vətəndaşlarına çevrilib. Bu "vətəndaşlar" bir-birinə qarşı istənilən münasibəti göstərə bilərlər. Amma bu, real münasibətlərdən fərqli olaraq, bir qədər hüquqdan kənar münasibətlərdir. Çünki hər bir ölkədə sosial münasibətlər qanun əsasında qurulur, əgər onlar bir-birinə qarşı hansısa təhqirə yol verirlərsə, qanun işə düşür, Konstitusiya öz sözünü deyir. Amma internet üzərində virtual sosial şəbəkələrin meydana gəlməsi artıq qanundan kənar mühit yaradır. Sosial şəbəkələrin bu gün yaratdığı ən böyük problem budur. Belə qanundan kənar mühit başqa dinləri, başqa mədəniyyətləri, başqa mental dəyərləri daşıyanları birdən-birə sosial mühitə gətirir.

Azərbaycanda internet və sosial şəbəkələrlə bağlı tənzimlənmə aparılmır. Ona görə də ölkədə sosial şəbəkələr tam müstəqil fəaliyyət göstərir. Sosial şəbəkələrin müsbət cəhəti də çoxdur. İnsanların bir-biri ilə ünsiyyət qurmasında, müəyyən məsələlərin müzakirəsində çox böyük üstünlüklər yaradır. Amma sosial şəbəkələrdən düzgün istifadə etmədikdə müəyyən problemlərə rast gəlmək olar. Xüsusən insanların aldadılması,

müxtəlif cərəyanlara cəlb edilməsi mümkündür. Ən vacib məqam insanların bu sahədə maarifləndirilməsidir. İnsanlar sosial şəbəkələrin müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətlərini də bilməlidirlər. Məlumdur ki, sosial şəbəkələrdə çoxlu sayda informasiya toplanır. Bu informasiyalardan pis məqsədlər üçün də istifadə edilə bilər. Buna görə də sosial şəbəkələrdə işləyərkən mütləq məlumatlı olmaq lazımdır.

İnternet asılılığı insanlarda bir sıra fiziki və psixoloji fəsadların yaranmasına səbəb olur. Bu isə həm onların özləri, həm də cəmiyyət üçün arzuolunmaz haldır. Mütəxəssislərin qənaətincə, internet asılılığının əsas psixoloji fəsadları bunlardır:

- Kompyuter arxasında özünü yaxşı hiss etmə və eyforiyaya qapanma;
- Kompyuterdən ayrılmağın problemə çevrilməsi;
- Kompyuter arxasında keçirilən vaxtın tədricən artması;
- Ailəyə, yaxınlara və dostlara qarşı etinasızlıq;
- Kompyuterdən kənarda olarkən mənəvi boşluğun, depressiyanın, əsəb gərginliyinin yaranması;
- Öz fəaliyyəti haqqında işdə müdiriyyətə, evdə isə ailə üzvlərinə yalanlar uydurma;
- İş və ya təhsillə bağlı problemlərin aranması.

Araşdırmalara görə bloqlar və sosial şəbəkələr internetdə reallaşan ən məşhur fəaliyyətlər arasında ön sırada gəlir. Online əhalinin 67%-i bu şəbəkələri nizamlı olaraq ziyarət etməkdə və bu şəbəkələrdə keçirdikləri zaman müddətinə görə internet istifadəçilərinin sayının üç qat nisbətində artım olduğu özünü göstərir. Üstəlik ictimai media istifadəçilərinin demoqrafiyası da sürətlə dəyişməkdədir. Bir zamanlar yalnız gənclərin arenası olaraq görülən sosial şəbəkələr sürətlə yaş və mövqe baxımından müstəqil şəbəkələrə çevrilmişdir. Sosial media platformalarında keçirilən zaman və qarşılıqlı əlaqə müddəti araşdırıldığında istehlakçının ənənəvi mediadan ictimai mediaya keçid almasını dəqiq bir şəkildə görə bilərik:

- Dünya üzərində hər üç adamdan ikisi ictimai şəbəkələri ziyarət edir.
- Twitterdən istifadəçi sayı 105 milyon 709 mindir
- Twitter aylıq ziyarətçi sayı 180 milyondur
- Twitter gündəlik yeni üzv sayı 300 mindir
- Twitter bir gündə edilən axtarış sayı 600 milyondur
- Hər gün YouTube-də 100 milyon video izlenirvə dəqiqədə 20 saatlıq video yüklənir.
- Hər gün Facebook üzərində 8 milyard dəqiqə vaxt keçirilir və 285 milyon ədəd məzmun paylaşım edilir.
- 350 milyon aktiv istifadəçisi ilə Facebook bir ölkə olsaydı Çin və Hindistandan sonra dünyanın ən sıx üçüncü ölkəsi olardı.

• Bütün üzvlərinin Facebookta bir gündə xərclədiyi ümumi dəqiqə 5 milyarddır.

• Hər gün Twitterə paylaşılan post sayı 3 milyondur. [9]

Ədəbiyyat:

1. Агафонова Ю.А. Человек, общество, толерантность. Москва, 2008.
2. Гулиев М.А. Политическая толерантность и безопасность в урегулировании этнического конфликта модернизируемого общества. СПб. 2009.
3. Малькова В.К., Тишков В.А. Этничность и толерантность в средствах массовой информации. М., 2008.
4. Мамедли Дж. Современная журналистика. Баку, 2003.
5. Шалин В.В., Альбов А.П. Право и толерантность: либеральная традиция в эпоху глобализации. Краснодар, 2007.
6. McQual D. Sociology of mass communications. Washington. 2002.
7. O. Gündüz "İnternet. Azərbaycan internet resursları" Bakı, 2010.
8. http://www.metinsoylu.com/?module=modul_tek&modul=264&cat=1098#.WMZ53NSLSt8
9. Paul Klieber Document Classification Through Data Mining Social Media Networks. Washington. (2009).

Gunel Orujaliyeva

The emergence and development of social media in Azerbaijan

Sammary

Virtual social networking has become a popular modern day life. In this paper, this phenomen is analyzed in terms of socio-cultural approach, which reveals its potential for society. Identified socio-cultural effects of virtual social networking, which allows to conclude that the globalization of their value, as well as trends in the formation of virtual mass. This paper presents a review of theoretical and applied research on the problems of evolution and social network analysis.

The popular social networks, web services and software application to analyze them are briefly considered. A new media has been emerged as a result of these developments and it is called as 'social media' through which consumersnow are spending their time, and taking into consideration of this channel when making purchasing decisions.

That is why, today's businesses have also beenforced to move their advertisement activities to this new media. At the same time this article

seeks to examine the impact of network effects on the social networks. The analysis of the characteristics of the network effect and to determine its effect on the social networks.

Гюнель Оруджалиева

Возникновение и развитие социальных медиа в Азербайджане

Резюме

Виртуальная социальная сеть стала популярным атрибутом современной жизни. В статье этот феномен анализируется с позиций социокультурного подхода, раскрывающего его потенциал для общества. Выявлены социокультурные эффекты виртуальных социальных сетей, что позволяет сделать вывод об их глобализационном значении, а также о тенденциях формирования виртуальной массы. В статье представлен обзор теоретических и прикладных исследований, посвященных проблемам эволюции и анализа социальных сетей. Приведено краткое описание некоторых популярных социальных сетей, перечислены отдельные веб-сервисы и программные приложения для их анализа. В то же время статье ставится задача рассмотреть влияние сетевого эффекта на со-циальные сети. Проводится анализ особенностей сетевого эффекта и определяется его влияние на социальные сети.

Rəyçi: professor Ş.Vəliyev

GÜNAY MƏMMƏDOVA
BDU
gunay@mail.ru

AZƏRBAYCANDA REGİONAL MƏTBUATIN YARANDIĞI İCTIMAİ-SİYASİ ŞƏRAİT

Açar sözlər: partiya hakimiyyətinin regionlarda açdığı ilk mətbəə, ilk regional mətbu orqan, həftəlik nəşr olunan "Lətayif" qəzeti, "Qırmızı Gəncə" qəzeti, partiya hakimiyyəti.
Key words: the party authorities opened print shops in the regions, the first regional newspaper, the weekly newspaper Letaif, the newspaper Kirmyzy Ganja (Red Ganja), party in power
Ключевые слова: партийная власть открывала типографии в регионах, первый региональный печатный орган, еженедельная газета "Летаиф", газета "Кырмызы Гянджа" (Красная Гянджа), партия власти.

Azərbaycanda region KİV-nin yarandığı dövr sosialist cəmiyyətinin qurulduğu vaxtlara təsadüf edir. 20-ci illərdə qurulmağa başlanan yeni sistem xüsusi mülkiyyətin ləğv olunması, bütün istehsal vasitələri ümumxalq mülkiyyəti adı altında dövlətin əlində cəmləşməsi prosesinin ən birinci nüanslarından biri dövlətə xidmət edən mətbu orqanların yaranması ilə təzahür etdi. Bu sistemin əsas "qılıncı" KİV (daha çox mətbuat) oldu. Mülkiyyətdən və hakimiyyətdən uzaqlaşdırılmış xalq dövlətin, yuxarıların "istək və tələblərini" yerinə yetirmək naminə sədaqətli işləyən kütləyə çevrildi. Sovet mətbuat sistemi sovet cəmiyyətinin ayrılmaz tərkib hissəsi kimi bir institut olmuşdu. Lakin bu institutun yaratdığı informasiya uzun müddət manipulyasiya yolu ilə sovet rejimini qorumağa kömək etmiş və ölkədə antidemokratik şəraitin hökm sürməsində öz işini görmüşdü. "Əkinçi" qəzeti ilə ölkədə azad, demokratik mətbuatı yaratmaqda böyük səy göstərmiş və yazılı nəşrləri xalqın səsinə çevirə bilmiş mətbuat ənənələri sovet dövründə "boğulmuş" və tamamilə sıradan çıxarılmışdır. Represiyaların törədilməsi əhalinin inancını və istəyini qırdı və xalq bir növ qondarma mətbuatın əsirinə çevrildi. Əslində bu əsirlik xalqın psixoloji durumu ilə bağlı idi. Partiya öz hakimiyyətini insanları mətbuat vasitəsilə ələ almaqla uzun müddət qoruyub saxlaya bildi. İkinci dünya müharibəsindən sonrakı illərdə mətbuat yenidən quruldu. Mətbuatın başlıca mövzusu bərpa illəri ilə bağlı idi. Sumqayıt, Daşkəsən, Mingəçevir şəhərlərinin tikilməsi ilə bağlı mətbuatda sənaye mövzusunun yeni dalğası yaranırdı. KİV-ə əsas nəzarət funksiyasını Sov.İKP Mərkəzi Komitəsindən başlamış rayon komitələrində fəaliyyət göstərən təbliğat və təşviqat şöbəsi yerinə yetirirdi. Bütün

qəzetlərin redaktorları bu şöbənin təqdimatı və təyinatı ilə vəzifəyə məsləhət görülürdü. MK-nın təbliğat və təşviqat şöbəsi isə onu təsdiq edirdi. Birinci növbədə belə bir cəhət ciddi nəzərə alınırdı ki, redaktor təyin olunan adam partiya idealarına sadiq olmalıdır. Partiyaya sədaqət keyfiyyəti jurnalistin professional səviyyəsindən çox yuxarıda dayanırdı. Partiya özünün təbliğat və təşviqat vasitəsilə jurnalistləri təlimatlandıran sonsuz miqdarda ədəbiyyat nəşr edirdi. Partiya mətbuata xüsusi tənqid vasitəsilə də rəhbərlik edirdi. Mərkəzi Komitə belə mətbuat tənqidinə-xülasələri daim nəzarətdə saxlayırdı.(1)

Bölgə mətbuatında da belə tənqidi yazılara xüsusi diqqət yetirilirdi. Hər bir bölgədə xüsusi mənfəətə işləyən, camaat arasında yazdığı məqalələrlə xof yaradan insanlar var idi. Partiya hakimiyyətinə toxunmamaq şərtilə rayondakı vəzifə və hörmət sahiblərini qarabaqara izləyir, onlar haqqında tənqidi yazılar yazır və bu yazılara Mərkəzi Komitənin cavabı gecikmirdi. Beləliklə partiya hökuməti qara camaat arasında öz ideyalarını gücləndirir və qəzetlərə marağı daha da artırırdı. Bununla da mətbuat vasitəsilə kütləyə istədiyi istiqamətdə təsir etməyi bacarırdı.Əgər regionlardakı mətbu orqanların yaranma tarixinə nəzər salsaq görərik ki, təxmini bir neçə il ərzində bölgələrin çox hissəsində ardıcıl olaraq mətbu orqanlar yarandı. Azərbaycan mətbuat tarixində ilk mətbu orqan kimi Qubada 1921-ci ilin aprel ayından fəaliyyətə başlayan indiki "Əxbar" qəzeti göstərilir. Lakin Lənkəranda 1917-ci ildə "Məharət" qiraətxanası tərəfindən "Lətayif" həftəlik qəzet nəşr olunub. Əslində "Lətayif" cəmi bir səhifədən ibarət olduğundan qəzet yox dövrü vərəqə adlandırmaq daha düzgün olar. Cəmi bir nömrəsi nəşr olunan dövrü vərəqənin naşiri Mir Zeynəlabdin Təbrizi olmuşdur. Bundan başqa 1919-cu ildə naşiri Gəncə Türk Mütəəllimlər Cəmiyyətinin olduğu "Əfkari Mütəəllimin"("Tələbələrin fikirləri") adlımilli, ədəbi, elmi, tarixi məcmuə nəşr olunub. Qubada nəşr olunan "Əxbar" qəzetinin nəşrindən bir il əvvəl 1920-ci ildə Gəncədə "Qırmızı Gəncə" adlı qəzet nəşrə başlayıb. Ona görə də region mətbuatının başlanğıc tarixinin 1920-ci il götürülməsi daha düzgündür. "Qırmızı Gəncə"nin ilk redaktoru olan Məmmədkazım Ələkbərli də öz xalqına, millətinə bağlı bir ziyalı idi. Bu onun redaktoru olduğu qəzetin səhifələrində hiss olunurdu. Odur ki, imperiyanın keşiyində duranlar bundan xoşlana bilməzdilər. Elə buna görə də cəmi 5-6 ay fəaliyyət göstərə bildi. 30-a yaxın sayı işıq üzü gördükdən sonra qəzet həm adını, həm də ilk redaktoru Məmmədkazım Ələkbər oğlu Ələkbərlini itirdi. Elə həmin ilin dekabrında onun yerini "Füqəra sədası" adı ilə nəşrə başlayan mətbu orqan tutdu. Lakin bu qəzetin də fəaliyyəti uzun çəkmədi. 1923-cü ildə redaktor Balabəy Həsənbəyovun işində "qüsur tapıldı" və o, kənarlaşdırıldı. Qəzet fəaliyyətini dayandırdı. Bəli, belə "qüsurlar" çoxlarının başına faciələr gətirirdi. Azacıq

bir xoşa gəlməyən ifadə, xalqın ruhunu oxşayan bir fikir bəs edirdi ki, kiməsə xalq düşməni damğası vurulsun. Əsl məsələ isə xalqın, millətin gözünü qorxutmaq, insanların milli mənlik şüurunu məhv etmək, onu idarə olunan kütləyə çevirmək idi. 1929-cu ildən ayda iki dəfə çıxmaqla "Zərbə" adı ilə fəaliyyətə başlayan qəzet 1935-ci ildən yenidən adı dəyişdirilərək əvvəlcə "Kirovabad bolşeviki", sonra isə "Kirovabad fəhləsi" kimi çap edilsə də, sonradan "Gəncə kommunisti" kimi oxuculara təqdim olundu. Adlar dəyişir, yuxarıdan gələn tələblər isə dəyişməz qalırdı. İşıq üzü görən hər sayın arxasında qorxu və "görəsən" fikirləri yer alırdı. Çünki yaşananlar göz qabağında idi. Bir-birinin arxasınca bağlanan qəzetlər, həbs olunan, güllələnən, Sibirə sürgün olunan redaktorlar, ziyalılar bax həmin günləri yaşayıb, Gəncənin mətbu salnaməsini yazıb oxucularına çatdıra biliblər. Elə ona görə də bu gün həmin qəzetləri vərəqləyərkən Gəncənin hansı ab-hava ilə nəfəs aldığını, onun küçə-küçə, məhəllə-məhəllə necə böyüdüyünü, ikinci sənaye şəhəri kimi fabrik və zavodlara sahib olduğunu görür, böyük bir ziyalı ordusunu yetişdirən ali və orta ixtisas məktəblərinin fəaliyyəti ilə tanış oluruq. Bu qəzetlər Gəncənin tarixidir. Özü də elə bir tarix ki, sadə insanların dilindən söylənilir, nümunələr, fotoşəkillərlə oxucuya təqdim olunur. Ötən illərin qəzetlərini vərəqləmək Gəncə tarixinə səyahətdir desək, yəqin ki, yanılmarıq. 37 il "Kirovabad kommunisti" adını daşıyan qəzet 1990-cı ildə Gəncənin adının dəyişdirilməsi ilə "Gəncənin səsi" kimi oxucularına təqdim olundu. Həmin zamana kimi 7 dəfə adı dəyişdirilən qəzet nəhayət ki, öz həqiqi üslubuna, deyim tərzinə qovuşdu, oxucunun onun səhifələrində görmək istədiklərini çap etmək imkanı qazandı. Bütün respublika qəzetləri susdurulan zaman sovet qoşunlarının Azərbaycanda törətdikləri qırğını, 20 Yanvar faciəsini əks etdirən fotoşəkilləri və həqiqətləri elə ilk günlərdə aləmə car çəkənlər arasında "Gəncənin səsi" qəzeti də vardı. "Gəncənin səsi"ni həm də bir jurnalistika məktəbinə bənzətmək olar.(2) 1920-ci ildə Rusiya Teleqraf Agentliyinin Gəncə şöbəsinin "Qafqaz kommunası" qəzeti də nəşr olunub. Bölgələrdə ilk nəşr olunan mətbu orqanlardan biri də Qubada "Əxbar" qəzeti olub. Siyasi ideologiyaya görə qəzetin adı bir neçə dəfə dəyişib. Əvvəllər "Xəbər" daha sonra "Şəfəq" adlanıb. Qəzetin yaranma tarixçəsi də olduqca maraqlıdır. Məlum olduğu kimi, Quba qəza komitəsi kimi fəaliyyət göstərib. Komitədən Qasım İsmayılovun başçılığı ilə bir qrup nümayəndə heyəti Leninlə görüşməyə gedir, ona sovqat aparırlar. Lenin isə Qubaya mətbəə bağışlayır. Bununla da Qubada yalnız jurnalistika yox, həm də poliqrafiya sahəsində sürətli inkişaf başlayır. Hazırki "Şəfəq" qəzeti Azərbaycan mətbuat tarixində kifayət qədər yaşı və yeri olan bir mətbuat orqanıdır. Hazırda həmin mətbəə Bakıdakı muzeydə saxlanılır. 90-ci illərdə qəzetin nüfuzu, məhsuldarlığı və populyarlığı kifayət qədər idi. Həftədə 3 dəfə nəşr olunan

qəzet öz tirajını 10 minə qaldıra bilmişdi. Hazırda isə qəzet 1500 tirajla çap olunurdu. Bundan başqa 1921-ci ildə Gəncədə Azərbaycan Kommunist Gənclər İttifaqı Gəncə Komitəsinin orqanı olan "Gənc kommunist" qəzeti (cəmi 2 nörəsi işıq üzü görüb), AzQafRosta Rusiya Teleqraf Agentliyinin Nuxa şöbəsinin "Qafqaz kommunası" qəzeti, Nuxa qəza Komitəsinin orqanı olan "Zəhmətkeş gənc"qəzeti (cəmi 3 nömrə) nəşr olunub. 1922-ci ildə Nuxa qəzasının Kommunist Firqəsi İcraiyyə Komitəsi və Həmkarlar İttifaqının orqanı olan "Şəki fəhləsi" və Qubada Kommunist Firqəsinin orqanı olan "Yeni dirilik" qəzetləri nəşr olunub.1923-cü ildə "Əxbar" qəzeti ilə eyni vaxtda Şuşada Şuşa Cavanlar İttifaqının orqanı olan və cəmi 2 nömrəsi nəşr olunan "Cavan Əkinçi"qəzeti, Zaqatalada Azərbaycan Kommunist Firqəsi Zaqatala Qəza Firqə Komitəsi ilə İcraiyyə komitəsinin orqanı olan "Zaqatala kəndçisi" qəzeti, Naxçıvanda Azərbaycan Kommunist Firqəsi Naxçıvan ölkə Komitəsinin və ölkə İcraiyyə komitəsinin orqanı olan "Şərq qapısı" qəzeti, Qarabağ Komitəsinin Qəza Firqə və İcraiyyə Komitəsinin orqanı "Qarabağ əkinçisi", Azərbaycan Kommunist Gənclər İttifaqı Nuxa Qəza Komitəsinin orqanı "Gənc kommunist" qəzeti nəşr olunub. Bölgələrdə nəşr olunmaqdan davam edən qocaman qəzetlərdən biri 1931-ci il yanvarından fəaliyyətə başlamış "Lənkəran" qəzetidir. Qəzet "Siə Talış" ("Qızıl Talış") adı ilə nəşrə başlamış və müxtəlif illərdə "Sosialist subtropikası", "Leninçi", 1990-cı il sentyabrından "Lənkəran" adı ilə fəaliyyət göstərir. Hazırda qəzet ayda 2 dəfə 2000 tirajla nəşr olunur. Nəşr olunduğu gündən yerli camaatın marağına səbəb olan qəzetlərdən biri də Yevlax rayonunda "Kür" qəzeti olub. Yevlax mətbuatının tarixi Yevlax rayonunun təşkili ilə eyni ilə təsadüf edir. 1935-ci ilin fevralında Yevlax rayonu təşkil edildikdən sonra rayon icraiyyə komitəsinin ilk qərarlarından biri rayon qəzetinin buraxılması haqqında, 1935-ci il 26 fevral tarixli qərarı oldu. Beləliklə, Azərbaycan Kommunist Partiyasının Yevlax rayon firqəsi və rayon icraiyyə komitəsinin birgə orqanı olan "Yeni Yevlax" qəzetinin ilk sayı 1935-ci il martın 6-da işıq üzü görsə də onun tarixi rəmzi olaraq fevralın 20-si Yevlax rayonunun təşkili günü yazılmışdır. Qəzetin ilk redaktoru İbrahim Əliyev olub. 1965-ci ilin yanvarında Yevlax rayonunun yenidən təşkili ilə əlaqədar olaraq və şəhər, eləcə də rayon qəzetlərinin nəşri yenidən bərpa olunduğundan Yevlaxda "Təşəbbüs" qəzeti fəaliyyətə başladı. Qəzetin ilk sayı 1965-ci il iyunun 22-də işıq üzü gördü. "Təşəbbüs" qəzetinin ilk redaktoru İsrail Rzayev olmuşdur. 1986-1991-ci illərdə "Təşəbbüs" qəzetinə Mustafa Əhmədov redaktorluq etmişdir. 1991-ci ildə "Təşəbbüs" qəzetinin fəaliyyətinə xitam verildi və əsası "Yeni Yevlax"la qoyulan Yevlax mətbuatının sələfi kimi 1992-ci il yanvarın 1-dən "Kür" qəzeti nəşrə başladı. Və həmin ildən qəzetə "Təşəbbüs" qəzetində 1976-cı ildən fəaliyyətə başlamış Əminə Yusif qızı Əhmədova rəhbərlik edir. "Kür" qəzeti hazırda 7100 tirajla çıxır.

Respublikada yaranan ilk region mətbu orqanlarından biri də 1922-ci ildə nəşr edeilən "Şəki" qəzeti olub. Qəzet . İlk olaraq "Şəki fəhləsi" adı ilə nəşrə başlamış, daha sonra "Nuxa işçisi", "Nuxa fəhləsi" adlandırılmışdır. 1962-ci ildən 3 il müddətində nəşri dayandırılmış,onun bazası əsasında Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin Nuxa məhəlli kolxoz-sovxoz istehsalat idarəsi yanında rayonlararası qəzet kimi "Lenin bayrağı" adlı qəzet nəşrə başlamışdır. Daha sonra nqəzetinin 175-ci sayından (17.03.1963) 457-ci sayınadək (17.01.1965) həmin qəzet Vartaşen Kolxoz-Sovxoz İstehsalat İdarəsi Partiya Komitəsinin, Nuxa Şəhər Partiya Komitəsinin, Vartaşen Rayon və Nuxa Şəhər Sovetləri İcraiyyə Komitələrinin orqanı olmuş, o dövrlərin rayon qəzetləri kimi həftədə cəmi 3 dəfə çıxmışdı. "Lenin bayrağı" qəzetinin 30 iyun 1965-ci il tarixli 525-ci sayından sonra, həmin qəzet bir daha çap edilməmişdir. Əvəzində, 2 iyul 1965-ci il tarixdə "Nuxa fəhləsi"nin nəşri bərpa edilmişdir.Bundan sonra "Vartaşen kolxozçusu" qəzeti "Lenin bayrağı" adlandı və Sovet dövrünün sonuna qədər həmin ad altında nəşr olundu.18 mart 1968-ci ildə Nuxa şəhərinin və Nuxa rayonunun adları müvafiq olaraq "Şəki şəhəri" və "Şəki rayonu" olaraq dəyişdirildikdən sonra "Nuxa fəhləsi" qəzetinin adı da "Şəki fəhləsi" olaraq dəyişdirildi.1991-ci ildən sonra isə qəzet "Şəki" adı ilə nəşr edilir.(3)

"Şərq qapısı" qəzeti XX əsrin əvvəllərində – 1921-ci il noyabr ayının 9-da Naxçıvanda nəşrə başlayan ilk mətbu orqanlardan biridir. Qəzet "Cavanlar həyatı" adı ilə oxucuların görüşünə gəlmişdir. Həmin ilin dekabr ayının sonundan 1922-ci ilin yanvarınadək "Füqəra səsi", 1922-ci ilin aprelindən 1980-ci ilin yanvarınadək "Şərq qapısı", 1980-ci ildən 1989-cu ilədək "Sovet Naxçıvanı" adı ilə çap olunmuşdur. 1989-cu ildən qəzet fəaliyyətini "Şərq qapısı" adı ilə davam etdirir. "Şərq qapısı"nın əsl inkişafı ötən əsrin 70-80-ci illərinə təsadüf edir. 1969-cu ildən sonra qəzetin fəaliyyətində yeni mərhələ başlanmışdır. Həmin dövrdə digər sahələr kimi, mətbuatın inkişafına da böyük diqqət və qayğı göstərilmiş, "Şərq qapısı"nın gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Bu dövrdə qəzetdə xalqımızın milli-mənəvi dəyərlərinə, mədəniyyət və tarixinə həsr olunmuş yazılar işıq üzü görmüşdür. XX əsrin 90-cı illərinin əvvəllərində "Şərq qapısı" qəzeti müstəqillik ideyalarının həyata keçirilməsində fəal mübarizə aparmışdır. Ümummilli liderimiz Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdışından sonra "Şərq qapısı"nın həyatında yeni dövr başlanmış, 1990-1993-cü illərdə qəzet Azərbaycanın çoxsaylı mətbu orqanları arasında birinci olaraq ölkəmizin düşdüyü bəlalardan yeganə xilas yolunu görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışında görmüş, bu mövzuda yazılarla çıxış etmiş, muxtar respublikanın düşdüyü informasiya blokadasının aradan qaldırılmasında mühüm rol oynamışdır. Ümummilli

liderimiz Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra mətbuat orqanlarının fəaliyyətinin yaxşılaşdırılmasına göstərilən diqqət və qayğıdan "Şərq qapısı" da xeyli bəhrələnmiş, qəzetin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra "Şərq qapısı" özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, qəzetin maddi-texniki bazası gücləndirilmiş, bu qocaman mətbuat orqanının normal fəaliyyəti üçün hərtərəfli iş şəraiti yaradılmışdır. 2010-cu il iyulun 22-də – milli mətbuatımızın yaranmasının 135-ci ildönümü günündə böyük dövlət qayığısının bariz ifadəsi kimi qəzet redaksiyası üçün yeni bina istifadəyə verilmiş, qəzetin rəngli nəşrinə başlanılmışdır. Hazırda qəzet həftədə beş dəfə çıxır.Region mətbuatının nüfuzlu mətbu orqanlarından sayılan "Zaqatala" qəzeti 1923-cü ilin mart ayının 8-də fəaliyyətə başlayıb. Əvvəllər "Zaqatala kəndçisi" adı ilə nəşr olunan qəzet 1991-ci ilin oktyabrından "Zaqatala" adı altında fəaliyyətini davam etdirib. Nəşr olunduğu uzun müddət ərzində böyük uğurlar əldə edən qəzet o dövrlərdə Azərbaycanda ana dilində nəşr olunan 23 qəzetdən biri olub."Zaqatala" qəzetinin birinci nömrəsi cəmi 2 səhifə çıxıb və nəşr olunduğu tarix etibarı ilə bütün yazılar Beynəlxalq Qadınlar gününə həsr olunub. Qəzetin ilk redaktoru o dövrdə Zaqatala Rayon Qəza İnqilab Komitəsinin sədri olan, məşhur inqilabçı Zəkəriyyə Balaxlinski olub. İlk vaxtlar qəzetin əhatə dairəsi 3 məkanı - Zaqatalanı, Balakəni və Qaxı əhatə edib. Bu qəzet düz 7-8 il ərzində bölgənin ilk mətbu orqanı kimi fəaliyyət göstərib. İki səhifədən ibarət olan və əski ərəb əlifbası ilə nəşr olunan qəzeti hərf-hərf yığmaq, əllə çap etmək lazım gəlirdi. O dövrdə "Zaqatala"nın bəxti gətirmədi. Son araşdırmalarımıza əsasən deyə bilərik ki, qəzetin ilk redaktoru Zəkəriyyə Balaxlinski olsa da, qəzetin ərsəyə gəlməsində 1920-1930-cu illərdə Zaqatala qəza və inqilab komitələrində birinci şəxs sayılan Xəlil Ağamirovun xidmətləri az olmayıb. Belə ki, Xəlil Ağamirov 1910-1912-ci illərdə "Kaspi" mətbəəsində mürəttib işlədiyi üçün qəzet işini az-çox bilirdi. Zamanın tələblərinə uyğun olaraq qəzet sonralar, yəni 1923-1962-ci illərdə "Kolxozun səsi", 1962-1991-ci illərdə "Qırmızı bayraq" və nəhayət, 1991-ci ilin sonundan isə "Zaqatala" adları altında fəaliyyət göstərib". "Zaqatala" qəzeti fəaliyyət göstərdiyi 92 il ərzində 4 dəfə əlifbanın, 3 dəfə isə çap texnologiyalarının dəyişməsi zamanı meydana gələn çətinlikləri yaşamalı olub. Qəzet Balakən, Zaqatala və Qax rayonlarının mətbu orqanı funksiyasını yerinə yetirib. "Zaqatala" qəzeti fəaliyyətini bu gün də uğurla davam etdirir. Hər həftə oxucularının görüşünə gəlir, Zaqatala rayonunun

ictimai-siyasi və iqtisadi-mədəni həyatını geniş surətdə əks etdirən müxtəlif səpkili yazılar dərc edir ki, həmin yazıları oxucular maraqla qarşılayırlar. Qəzet redaksiyanın nəzdindəki kompüter mərkəzində yığılır və səhifələnir. Qalan digər proseslər isə Bakı şəhərində, "Azərbaycan" nəşriyyatında tamamlanır. Qəzetimiz 1500 tirajla iki rəngdə çap olunaraq, rayonumuzun bütün yaşayış məntəqələrini, idarə, müəssisə və təşkilatlarını əhatə etməklə yayılır".(4) Beləliklə bölgələrdəki hakimiyyətini mətbu orqanlar vasitəsi ilə möhkəmləndirməyə çalışan partiya hökuməti eyni vaxtda rayonlarda mətbəələr açmış və qəzet çapı məsələsini xüsusilə diqqətdə saxlamışdır. Bununla da tamamilə hökumətin siyasətini təbliğ edən bölgə mətbuatı yaranmağa başlamışdır. beləliklə xalqın psixoloji əsirliyi mətbu orqanlar vasitəsilə uzun müddət davam etmiş, partiyaya sədaqət keyfiyyəti jurnalistin professional səviyyəsindən daha üstün tutulmuşdur.

Ədəbiyyat siyahısı

1. C.Məmmədli, Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi, Bakı, 2012
2. http://www.azerbaijan-news.az
3. https://az.wikipedia.org
4. http://www.sherg.az
5. S.Tohidi "Azərbaycan dövri mətbuatı" Bakı, 1993
6. C. Məmmədli, Jurnalistikanın müasir inkişaf meyilləri Bakı, 2006
7. Z. Bünyadov, Qırmızı terror Bakı, 1993

Г.Мамедова

Социальные и политические условия для создания региональных СМИ в Азербайджане

Резюме

В научной статье анализируются общественно-политические условия, способствующие появлению региональной печати в Азербайджане. Партийная власть открывала типографии в регионах и уделяла большое внимание газетному делу, и тем самым стремилась усилить региональную власть с помощью периодических органов. И таким образом, появилась региональная печать, пропагандирующая политику правительства. Но вместе с тем преданность партии брала вверх над профессионализмом журналиста. Автор проводит исследование региональных газет того периода.

Издаваемая с апреля 1921 года в Губе газета "Эхбар" указывается как первый региональный печатный орган в истории азербайджанской журналистики. Однако в Ленкоране в 1917 году издавалась библиотекой "Мехарет" еженедельная газета "Летаиф" (Анекдоты). Так как "Летаиф" состояла из одной страницы, назвать ее газетой сложно. Правильно будет ее наименовать периодической листовкой. Был издан всего лишь один номер этой листовки и ее издателем был Мир Зейналабдин Тебризи. Кроме этого в 1919 году Обществом Тюркских Студентов Гянджи начал издаваться национальный, литературный, научный, исторический журнал "Афкари мутээллимин" (Мнение студентов).

G.Mammadova

Social and political conditions for the establishment of regional media in Azerbaijan

Summary

This article deals with the analysis of socio-political conditions which have contributed to the creation of the regional media in Azerbaijan. Trying to strengthen its regional power by means of the press media, the party government, at the same time, opened printing houses and paid special attention to the newspaper printing issue. Thus, the regional press began to appear promoting the government's policy. So, the peoples' psychological captivity lasted for a long time and the quality of party loyalty was regarded more preferable than the professional level of the journalist. The research of local newspapers that tried to operate independently in those times has also been reflected in the article.The current newspaper "Akbar" which operated since April 1921 in Guba was mentioned as the first media organ in the history of the Azerbaijani press. But in 1917, the weekly newspaper "Latayif" ("The Funny Stories") was published in Lenkaran on behalf of the "Maharat" (Skill, Mastery) reading-hall. Actually, it would be more correct to call "The Latayif" ("The Funny Stories") a periodical leaflet rather than a newspaper, for it consisted only of a single page.

Rəyçi: professor Ş.Vəliyev

İRADƏ MUSAYEVA
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
iradateacher2011@rambler.ru

E.MUNRO VƏ ŞIRLI CEKSONUN NƏSRINDƏ TALE QALEREYASI...

Açar sözlər: nəsr ustalığı, obrazlar qalereyası, insan faciəsi, mifoloji detallar, inanc kultu, insan xislətindəki qəddarlıq, final paradoksallığı və s.
Ключевые слова: мастерство прозы,галерея образов, трагедия человека,мифологические детали,культ человека,коварство в природе человека,парадокс финала и т.д.
Key words ; Published mastery, images gallery, human tradegy , mifaloji details , relegious cult, human cruelty the final paradox and etc.

2013-cü ildə "Müasir qısa hekayə janrındakı ustalığına görə" Nobel mükafatı alan Elis Munro 3 min adamı olan bir əyalətin yazıçısı kimi yazırdı hekayələrini. Və yaxud, Amerika yazıçısı Şirli Ceksonun məşhur "Lotereya" hekayəsindəki bir romanlıq ideya yükü olan hadisələrin baş vermə məkanı cəmi 300 nəfərlik bir qəsəbənin mühiti çərçivəsində təsvir olunur və s. Deməli, nə yazarın balaca bir qəsəbədə doğulub böyüməsi, nə də onların qəhrəmanlarının meydanının dar olması ideyanın sərhəddini hasarlaya bilməz. Ədəbi düşüncə monumental olanda, hətta D.Defonun "Robinzon Kruzo", Q.Q.Markesin "100 illik tənhalıq" romanında olduğu kimi adada, insansız məkanlarda, ya da yeni yaşayış məskənlərində belə ədəbiyyat, böyük ədəbiyyat öz sözünü deyə bilir... Hətta bircə insanın yaşadığı ərazinin epopeyasını yaratmaq mümkündür. Yəni, biz ədəbiyyatımızın böyüyə bilməməsini ölkəmizin ərazi və əhali miqyasının üstünə ata bilmərik.

"Kiçik şəhərdə yaşayanda sən insanlar haqda daha çox şey eşidirsən, özü də müxtəlif cür adamlar haqqında. Böyük şəhərdə isə sənin qulağına çatanlar yalnız özün kimi adamlar haqqında olur. Əgər qadınsansa, rəfiqələrindən çox şey eşidirsən... məsələn, hekayələrimin birindəki dəhşətli qətl hadisəsi mənim yaşadığım yerdə törədilib. Əgər böyük şəhərdə yaşasaydım, bu barədə qəzetdən xəbər tuta bilərdim, kiçik şəhərdə isə hadisəni detallarına qədər eşidirəm". [1]

Yuxarıda adını çəkdiyim "Lotereya" hekayəsində ilk baxışda çox kiçik bir hadisə təsvir olunur. Süjet isə fraqmental detallardan ibarət kimi görünür. Balaca bir qəsəbədə ənənəvi lotereya oyunu keçiriləcək. Başqa, böyük şəhərlərdə iki günə keçirilən bu oyun həmin qəsəbədə cəmi 2 saat çəkir. Çox kiçik qəsəbə, kiçicik bir hadisə, oyun, və sosial status etibarilə çox kiçik, sadə adamlar. Məişət fonunun, səhnəsinin obrazları... Fəqət insan

tragediyasının oyun, tamaşa lövhələri... Fəlsəfi düşüncələrə aparıb çıxaran, sillə kimi sifətimizə çırpılan, əks-səda verən ideya! İnsanın potensial mahiyyəti dibsiz qaranlıqmış... Ən sakit, mədəni, adi, sadə situasiyaların məsum və aciz insanlarının belə daxilində bir qatil, bir canavar, bir ittihamçı, qəddar canilər yatırmış... Bu hekayəni oxuyandan sonra ətrafına boylanırsan, özünə baxırsan və qorxursan... Mağara vəhşilikləri ilə müasir şəhərlərin göydələn binalarında yaşayan modern insanın şüuraltı yığılıb qalmış və yeri düşdükcə həllini tapan qəddarlıqları arasında bərabər işarəsi qoyuruq. İnsan heç dəyişmir, insan mahiyyəti, xisləti etibarilə potensial qatil olma funksiyasını hər zaman, min illərdir varlığında daşıyırmış... Sadəcə şüuraltında gizlənmiş, pusquda durmuş yırtıcı xislətində şərait və imkan, məqam gözləntisi var onun... Hekayədə deyildiyi kimi, köhnə ənənələr unudulsa da, köhnə qara qutu çoxdan mövcud olmasa da, insanlar daş atmağı yaddan çıxarmamışdılar...

Hekayənin ümumi ahəngi çox sakit bir tərzlə ifadə olunur. Lotereya oyunu başlamazdan bir az əvvəlin mənzərəsi, əslində, xüsusi notlarla vurğulanmasa da, sonrakı tragik durum üçün zəmin rolunu oynayır.

Uşaqlar meydançaya hamıdan tez gəlir. Körpələr toz-torpaqda eşələnir (hələ daşqalaq üçün material, daş-kəsək yığmaq imkanları yoxdur), nisbətən böyük uşaqlar isə daş toplayır, meydanın bir küncünə qalaqlayırlar. Oyunun sonunda "ölümünü udan" (əslində oyunu uduzan) adamın başına yağdırılacaq daşlar artıq hazırdır. Ən maraqlısı və Ş.Ceksonun ustalığı isə ondan ibarətdir ki, hekayə boyu "daşlamaq" mərasimini hissolunmaz lay kimi hadisələrin süjetindən, sanki sürüşdürür, aradan çıxarır. (Bəlkə də sona-finala saxlamaqla oxucunun düşüncəsində insanı bu obrazda, bu qiyafədə saxlamaq istəyir). "Bobbi və Harri Cons, Dik Delakrua (onun soyadını burada Dellakroy kimi tələffüz edirdilər) küncə xeyli daş toplayıb onları başqa oğlanlardan qorumaq üçün keşikdə dayanmışdılar. Qızlar bir kənara çəkilib arada oğlanları süzərək söhbətləşirdilər. Körpələr ya meydanda toz-torpağın içində oturmuş, ya da böyük qardaş-bacılarının yanında dayanmışdılar. Tezliklə kişilər də toplaşmağa başladılar. Onlar uşaqlara göz qoyaraq əkindən, yağışdan, traktordan və vergidən danışırdılar. Kişilər daş qalağından bir qədər aralıda toplaşıb sakitcə zarafatlaşır, gülürdülər". [2]

Bəli, adi kənd mənzərəsi... Kişilər əkin-biçindən, qadınlar bir-birindən danışır. Uşaqlar dərsdən çıxıb meydançada baş verəcək barbar bir ritualın nəinki şahidi, hətta iştirakçısı olacaq, əllərində daş "start"da dayanıb "hücum!" əmrini gözləyirlər... Biletlər yaşı bilinməyən köhnə qara qutudan çıxarılır. Bilet, əslində "ölüm putyovkası", "ölümə yollayış" assosasiyalıdır. Bircə qaralanmış, qara karandaşla dairələnmiş bilet var. O bilet kimin bəxtinə düşərsə daşlar ona yağdırılacaq...

Hekayədə qəribə bir tale qalereyası yaradıb müəllif. Bu tale sahiblərinin obrzı və həyat hekayələri belə paradoksallıqlarla doludur. Ümumiyyətlə, hekayə başdan-başa absurd, bir-birinə zidd, anti məqamlar üzərində qurulub. Lotereya oyununu (əslində isə tale oyununu) əvvəllər kömür satan Sammers aparır. Sammersə bu işi kənd əhli ona görə həvalə edib ki, ona yazıqları gəlib. Çünki sonsuzdur və deyingən arvadının əlində aciz durumda qalıb. Lakin bu "aciz" və baməzə, gördüyü işi öz aləmində xalqa xidmət kimi dəyərləndirən adam hər oyundan əvvəl öz vəzifə borcunu yerinə yetirərərk biletlərdən birinə qara karandaşla dairə-ölüm işarəsi çəkir. Bu dəfəki lotareya oyunu Kadril, gənclər klubunun toplantısı və Bütün Müqəddəslər Günü ilə bağlı proqramın maddələrindən biri kimi icra edilir. Sanki bir bayram mərasimi keçirilir. Daş-qalaq hücumunda isə bir təntənə, coşqu var.

Uorner kəndin ən yaşlı sakinidir. 77 ildir ki, qara qutudan lotareya bileti çıxarırr, amma qara dairəli bilet –ölüm onun qismətindən yan keçib həmişə... Bu qoca "insanlar korlanıb, əvvəlki adamlar yoxdur"-deyir. Həm də ölüm oyunu olan lotereyanın haralardasa ləğv edilməsi xəbərinə qəzəblənir. "- Deyirlər ki, şimaldakı qəsəbədə lotareyadan imtina etmək istəyirlər,- cənab Adams yanında dayanan Uornerə dedi. "Hm" - Qoca Uorner dedi: - "Axmaqlar! Bu cavanların hansına qulaq assan görərsən ki, heç nəyi bəyənmirlər. Sabah da deyəcəklər ki, qədim insanlar kimi mağaralara dönək, işləməyək, bir müddət də belə yaşayaq. Əvvəllər bir məsəl vardı: "Gərək iyunda lotereya olsun ki, qarğıdalı da yetişsin". Hə, bunların sözü ilə oturub dursan, gərək donuz kimi palıd qozası yeyəsən, təki işləməyəsən. Lotereya ta qədimlərdən var", - deyə o əsəbi halda dedi".[2]

Hekayə paradoksallıqlarla doludur. İbtidai inanc mifi də var. "Gərək iyunda lotereya olsun ki, qarğıdalı da yetişsin"... İnsanlar məhsulun bol olması üçün öz həmcinslərini qurban vermək ənənəsinə sadiqlik göstərir. Mərasimin əvvəlində himn oxunurmuş, salamlaşma, nəzakət qaydalarına riayət etməklə bütün rituallar səliqə ilə yerinə yetirilir. Sonda isə vəhşi bir coşqu ilə daşlama. Öz yaxın qonşunu, həmsöhbətini, rəfiqəni, qohumunu əlində tutduğun daşla öldürürsən. Amansızlıqla, gizli bir həzz hissi ilə...

Həmin gün oyunu təşkil edən icraçı Sammers də gecikir, qara dairəli biletə uduzan xanım Hatçinson da... Hər ikisi zarafatlaşır və xanım Hatçinson adamları yara-yara qabağa, sanki ölümə doğru irəliləyir. Adamlar isə ona məmuniyyətlə yol verir.

"Cənab Sammers söhbətini yekunlaşdırıb üzünü camaata sarı çevirəndə sviterini çiyinlərinə atmış xanım Hatçinson meydançaya yüyürdü. "Tamam ağlımdan çıxmışdı"- deyə o, üzünü Delakruaya tutdu.- "Mən də elə bilirəm, kişi həyətdə qurcalanır"- xanım Hatçinson sözünə davam elədi, - "bir də baxıram ki, uşaqlar yoxdu. Elə onda yadıma düşdü ki, bu gün ayın

neçəsidir”... Xanım Hatçinson nəhayət ki, ərinin və uşaqalarının yanına çatdı və cənab Sammers zarafatca dedi: -Biz isə sənsiz başlamağa qərar vermişdik.

-Co, mən qabları bulaşıq qoyub gələ bilməzdim”- deyə xanım Hatçinson gülümsəyərək cavab verdi”.[2]

Klayd Danbar ayağını sındırdığı üçün onun yerinə arvadı bilet çəkəsi olur, hətta tələb olunanda ki oğlu atasını əvəz etsin, ana razı olmur ki. onun hələ cəmi 16 yaşı var. (Əslində bu o deməkdir ki, bu qadın oğlunun əvəzinə də, ərinin əvəzinə də ölümə getməyə hazırdır.) Gənc Uotson isə həm anasının, həm də özünün yerinə bilet çəkmək istəyir. Yəni ölümə iki bilet istəyir sanki... İnsanlar isə onu alqışlayır: “Əhsən, Cek, evin kişisidi, anasının dayağıdı”.[2]

Tessi Hatçinsona düşür işarələnmiş bilet. (Bilet əvvəl onun əri Billə düşmüşdür, amma qadın hay-küy salıb onu xilas edir, biletlər yenidən çəkilir, bu dəfə isə onun özünə düşür.) O elə hey adamlara üzünü tutub deyirdi: Bu ədalətli deyil, düz olmadı, heç düz olmadı... Adamlarsa əvvəldən meydançada qalaqladıqları daşları əllərinə alır və Hatçinsona hücuma keçir. Daşın ən böyüyünü isə bir az əvvəl söhbət edib ayrıldığı xanım Delakrua götürmüşdü. Bu məqamda müəllif çoxlu bədii ştrixlər nümayiş etdirir. Adamlar daş-qalaq olunan qadının balaca uşağının belə ovcuna daş basırlar (anasına atmaq üçün). Kəndin ağsaqqalı, insanlıqdan dəm vuran Uorner ilk hücuma keçənlərdən və adamlara hücum əmri verənlərdən biri, birincisidir...

İnsanın insana daş atması, onu daşlaması min, milyon illərdir ki, davam edir... daşlama, dışlama bir balaca kəndin simasında bədiiləşdirilsə də, əslində bu yanaşma bəşər tarixi ilə yaşıdddır və bütün insanlığa şamil edilə bilər. Hekayədə pis, mənfi planda verilən obraza rast gəlmirik. Hər kəs öz işini yerinə yetirirmiş kimi görünür. Fəqət, yaddaşda, insanın və insanlığın genetik yaddaşında bir tarixi “daşlama” mərhələsi olub nə zamansa... Bəlkə, Adəm və Həvva cənnətdən qovulanda yaranıb bu kin-küdurət, bəlkə Habil və Qabil qardaşları dalaşandan sonra? İlk insan öldürən Qabil olub. Axı günahsız insan-Habil öldürülür və günahkar, qatil insan Qabil ondan sonraya qalır... Bu daşqalaqçılar isə Qabilin törəməsi kimi canlanır xəyalımızda. Çünkü insanın ulu babası, əcdadı nəyi yaşayır, nəyi edirsə onun sonrakı nəsli də həmin hisslərlə genetik diktənin icraçısı olur. Bu hekayədə kütlə psixologiyası, kütləvi daşlama, itələmə, qovma, “iqnor” etmə faciəsi insanlığın heyvani, instiktiv reaksiyası kimi əks olunur. Deməli, azad, müstəqil düşünmə, xarakter kimi fərdiləşmə olmayanda insanlar eyni səmtə hürən itlər, eyni tərəfə ulayan çaqqallar kimi qorxunc, bədheybət və rəzil durumda da ola bilirmiş...

İt əzabı çəkmiş insanın daxilən, ruhən də “it xisləti” qazanması faciəsini İsrail yazıçısı Yoram Kaniukun “Adamın dirilməsi” romanında bəlkə F.Kafkadan da kəskin boyalarla ifadə edir. Ailəsi ilə birgə ölüm

düşərgəsinə salınan, tanınmış kloun Adam Stein bu düşərgədən diri çıxmaq üçün it həyatının əzablarını dadmaq məcburiyyətində qalır. Ölümə -qaz kameralarına aparılan insanları "it rolunda" çıxış edərək əyləndirir. Həmin rolu o hətta ailə üzvləri ölümə göndəriləndə də oynayır. Bu dəhşətli sınaqdan Adam Stein yeni psixologiya, yeni çalarlı instiktlərlə, ruhi xəstə kimi çıxır. Ölüm düşərgəsində gördüklərinin travması onun içindəki insanı məhv edir. Və maraqlıdır ki, bu daxildəki "insan" məhz insanların əli ilə tar-mar edilir. O, normal hesab edilən adamlarla ünsiyyətdən qaçır və inanır ki, onun müalicə olunduğu dəlixanada it var, durmadan onu axtarır. Hissiyyatı onu aldatmır. Məlum olur ki, orada vaxtilə zirzəmidə it kimi zəncirlənib saxlanılmış başqa bir adam da var. Yeni bir "çevrilmə"nin anatomiyası roman oxucusunu sarsıdır. Müəllif insan kimi fiziki-bioloji görüntünün(insan cildinin) içində heyvanlaşma prosesinin baş vermə səbəb və nəticə mexanizminin tarixini, fəlsəfəsini qoyur ortaya...

E.Munronun hekayə yaradıcılığı ilə bağlı söhbətində çox maraqlı bir məqam var. Qəribə göründü bu məqam, ona görə ki, qəhrəmanların deyil, müsahibələrinin birində müəllifin dilindən eşidirik həmin fikri. "Hekayə yazdığım ilk vaxtlarda mənə görə ən vacib olan hekayəni nikbin sonluqla bitirmək idi. Sonu bədbəxtliklə bitən hekayələrə dözə bilmirdim. Xüsusən də, hekayəmin əsas qəhrəmanının heç cür bədbəxt olmasını istəmirdim. Sonralar mən Emile Brontenin "Wuthering heights" ("Uğultulu təpələr ") əsərini oxudum. Bu əsərdə çox, hədsiz bədbəxt sonluqlar vardı. Beləliklə də, mən öz ideyalarımı dəyişdim və faciəvi sonluqlu hekayələr yazmağa başladım, sonralar bundan həzz alırdım". [3]

Bu etiraf təkcə E.Munroya aid deyil. Bu "sadizm"-insan talelərinin faciəvi sonluqlarından həzz alma qəddarlığının (hətta ədəbiyyatda olsa belə) özündə belə "daşqalaqçılıq" sindromları var. Hekayələrinə görə Nobel mükafatı alan E.Munronun insan talelərinə yanaşmasında bayaq haqqında danışdığım hekayənin qəhrəmanı Hatçinsona rəfiqəsi Delekruanın atdığı böyük daşa ekvivalent olan bir psixoloji qəddarlıq var. Deməli, yazıçılar (eləcə də Dostoyevski, Kafka, Hamsun, Kamyu, Hemenquey, Ekzüperi, Vulf , Steynbek, Oruell və b.) belə aqibəti, həyatı, taleyi əllərində olan qəhrəmanlarının yaradıcısı, "allahı" olanda həmin "əzab verib həzz almaq" fürsətindən bolluca yararlanırlar. Bəlkə də, əksinə, rəhm etdikləri, taleyinə acıdıqları insana qarşı mərhəmət hissi yaratmaq üçün qəhrəmanlarına bu qədər əzab yaşadır müəlliflər... Şərq ədəbiyyatında da həmin yanaşmanın tarixi qədimdən qədimdir. Təkcə M.Füzuli yaradıcılığında kədərin insana tətbiqi nəzəriyyəsinə diqqət etsək razılaşarıq. "Çün sevərəm bəlanı, çün sevər bəla məni" və ya:

Füzuli, dərdinin qədrin nə bilsin hər yetən bidərd,
Könül qəmdən alır zövqü, qəmin əfzun ola ya Rəbb... [4,76]

"Qaçaq", "Aşkar sirlər", "Sizə demək istədiyim bir şey vardı", "Şən kölgələrin rəqsi", "Yaxşı qadının sevgisi" və s. bu kimi kiçik hekayələr kitabının müəllifi E.Munronun yaradıcılığı haqqında qəzetlərdən birinin yazdığı tənqidi məqaləni hekayəçi xanım kədərlə xatırlayır. O məqalədə E.Munro haqqında yazırdılar ki, o həyata "qıvşımış daxili aləm"dən baxır və eybəcərləşmiş şəxsiyyətlər təsvir edir. Daha doğrusu, o həyatı guya o qədər pis görür ki, öz şəxsiyyəti də eybəcərləşib... Şirli Ceksonun "Lotereya" hekayəsi haqqında da tənqidçilərin çoxu və əksər oxucular ona bənzər fikirlər söyləmişdi. Onlar hekayədə qabardılmış insan xislətindəki bu qəddarlığın hüdudsuzluğuna etiraz edirdilər. Hekayənin çap olunduğu "*Paris review" jurnalına abunəlikdən çıxır, müəllifə qəzəbli, ittihamlı məktublar yazırdılar...*

Maraqlıdır, adamların bu cür yanaşmasında da bir "daşqalaq" terroru, təzyiqi duyuram. Çünki, insanları *sözlə də daşqalaq etmək olur... Bu adlarını çəkdiyim yazıçılar öz qəhrəmanlarının içindəki qəddarlığı çəkib çıxarmaqla onları bir növ ittiham (bəlkə də daşqalaq) edir, oxucular bu yazıçıları qınayır, onlara qəzəblənir, tənqid yağışı ilə onlara hökm oxuyur (daşqalaq edir), daha sonra, 60-70 ildən sonra tərəflərdən birinə haqq qazandırıb digərini (məsələn, oxucuları) suçlu çıxarırıq, hal-hazırda bu yazarları tənqid etdiklərinə görə biz də həmin tənqidçiləri və oxucuları günahkar, cahil, ədalətsiz hesab etməklə daşqalaq zənzirinin halqalarını silsilələşdirir, artırırıq... İnsan çox çətin, anlaşılmaz, dibi görünməyən quyudur, ondan yazmaq, əlbəttə çətindir... Dünya ədəbiyyatının seçmə nəsr nümunələrindən biri olan "Lotereya" hekayəsində bu dərinliyə enmənin bədii obrazı sənətkarlıqla yaradılıb.*

İstifadə olunmuş ədəbiyyat

1. https://www.azadliq.org/a/25135139.html
2. https://www.azadliq.org/a/24293199.html
3. http://525.az/site/?name=xeber&news_id=40664
4. M.Füzuli.Əsərləri.VI cilddə. Bakı, "Şərq-qərb", 2005.
5. E.Əlibəyzadə. Azərbaycan ədəbiyyatı tarixi. Bakı, "Qarabağ" , 2009.

И.Мусаева

О галерее судеб Э.Мунро и Ш.Джексона

Резюме

В статье раскрываются разнохарактерные образы в творчестве знаменитых прозаиков мировой литературы Э.Мунро и Ш.Джексона. Ни происхождение,ни место,где родился и вырос писатель, ни рамки существования его героев не могут перекрыть границы идей.

Когда литературная мысль монументальна, большая литература может сказать свое слово даже на острове,как в произведениях "Робинзон Крузо" Д.Дефо, "Сто лет одиночества" Г.Маркеса. Можно создать эпопею даже на территории,где проживает всего лишь один человек.

Масштаб территории страны и населения не может быть причиной задержки развития литературы.

İrada Musaeva

In the article various characters are described which are created by worl-wide famous prosaists-E.Monro and Sh.Jackson

Summery

In article is also described that neither growing of the prosaist in small town nor the limited possibilities of the characters can prevent the imagination of of prosaist When the literary idealogy becomes monumental it can demostrate its power such as "Robinson Crusoe" of D. Defo, or "One hundred years of solitude" of G.G.Marquez. In literature even creation of epopee of a single person is possible.

In the article various characters are described which are created by worl-wide famous prosaists-E.Monro and Sh.Jackson.

That's why we can not blame limited scale of area or population of our country for the the retarded literature

Rəyçi: Vaqif Sultanlı
Filologiya elmləri doktoru, professor

İLKİYYƏ MƏMMƏDOVA
Xəzər Universiteti
ilkiyye@gmail.com

ÇAĞDAŞ DRAMATURGİYADA SOSİAL-MƏNƏVİ PROBLEMLƏRİN TƏSVİRİ

Açar sözlər: çağdaş dramaturgiya, problem, sosial-mənəvi, dramaturji həll
Key words: Modern dramaturgy, problem, social-cultural, dramaturgy solution
Ключевые слова: Проблема, социально-нравственная, драматургическое решение, современной драматургия

Məlumdur ki, çağdaş dramaturgiyanın konfliktində dayanan əsas problemlərdən biri cəmiyyətdəki sosial problemlərin bədii həlli məsələsidir. Bu məsələ sosrealizm dövrü dramaturgiyasından fərqli şəkildə həll edilirdi. Daha doğrusu cəmiyyətdəki sosial-mənəvi problemlərin təsvirində müəyyən problemlər var idi. Sosrealizm metodu da cəmiyyətdəki problemləri bütün reallığı ilə təsvir etməyə, göstərməyə imkan vermirdi. Müstəqillik dövründə isə artıq cəmiyyət problemlərini səhnəyə gətirmək üçün heç bir inzibati maneə qalmır. Əslində sosial problemlərin səhnəyə yol tapması həmişə mümkün olmuşdur, lakin bu və ya digər şəkildə bu problem sosrealizm mərhələsində bir qədər geri çəkilmişdir. Cəmiyyətdəki problemlərin təsviri üçün isə ilk öncə yeni bədii həll tapmaq lazım gəlir. A.P.Çexovun belə bir fikri yerinə düşür : "Pyes üçün yeni sonluq tapan həm də yeni era açmış olur...mən sonluq tapmayınca pyesi yazmağa başlamıram" (1, 388). Çağdaş dramaturgiyada bu cəhətdən müəyyən irəliləyiş vardır; belə ki, xüsusilə müstəqillik dövründə dramaturji yaradıcılığa başlayan dramaturqların əsərlərində sosial problemlərin qoyuluşuna və dramaturji həllinə daha tez-tez rast gəlmək olur. Elçin, Əli Əmirli, F.Mustafa, A.Rəhimov, A.Məsud, K.Abdulla, E.Hüseynbəyli, A.Həsənoğlu və başqalarının dramaturji yaradıcılığında dövrün sosial problemləri, cəmiyyət hadisələri ailə-məişət çevrəsi daxilində göstərilir. Bu əsərlərdə dramaturji strukturu sosial problemlər təşkil etdiyi kimi, personajlar və əsərdə qoyulan ideya da yeni sosial münasibətlər sistemini əks etdirir. Bu cəhətdən çağdaş dramaturgiyada sosial problemləri dramaturji struktura gətirənlərdən biri də Elçindir.

Müasir dövrün sosial problemlərinin əks etdirilməsi dramaturq Elçinin ən çox müraciət etdiyi mövzulardan biridir. Cəmiyyətdəki tənhalıq və ondan xilas olma yollarının axtarılması (“Qatil”), öz mənindən imtina edən insanların dramı (“Cəhənnəm sakinləri”), insanın lirik-patalojipsixoloji çırpıntılarının ictimai məzmunu (“Şekspir”), həyatda özünə yer

tapa bilməyən insanların tragizmi (“Arılar arasında”) və s. mənəvi-əxlaqi, ictimai, sosial problemlər Elçin dramaturgiyasının əsas xüsusiyyətlərindəndir. Elçin dramaturgiyasını ayrıca bir mərhələ hesab edən prof. B.Əhmədov belə bir fikrində haqlıdır ki: "Elçin dramaturgiyasının ayrıca mərhələ təşkil etməsinin əsas faktorlarından biri tematika və problematikanın uğurlu bədii həllindən asılı olur. Bütün hallarda Elçin dramaturgiyasının əsasını insan və cəmiyyət problemi təşkil edir. Lakin hər bir əsərində dramaturq insan və cəmiyyət probleminə gözlənilməz situasiya, dramaturji kolliziya, kombinasiya, bədii təsvir və ifadə vasitələri ilə fərqli rakurslardan baxır" (2).

"Ah, Paris, Paris!..", "Mənim sevimli dəlim", "Diaqnoz D" ("Mənim ərim dəlidir") pyeslərində (teatrşünas Məryəm Əlizadə bu pyesləri trilogiya və ya triptix adlandırır) müasir dövrün gerçəkliklərini sosial problemlər kontekstində həll edir. Özü də bu pyeslərin hər biri kifayət qədər həcmə malikdir. Məsələn; "Ah, Paris, Paris!.." komediyası iyirmi bir şəkildən, "Mən sənin dayınam..." on üç şəkildən, "Dəlixanadan dəli qaçıb, yaxud mənim sevimli dəlim" komediyası, proloq, epiloq və on bir şəkildən ibarətdir. Bu əsərləri yazması ilə Elçin 90-cı illərdə teatrı mövcud böhrandan qurtaranlardan biri olur. Dramaturq bu əsərlərində köhnə quruluşdan və yeni yaranan cəmiyyətin sintezindən yaranan xaosun, hərc-mərcliyin obrazını yaratmağa çalışmışdır. Onun qəhrəmanları cəmiyyətdəki normativ düşüncədən kənara çıxır. Dramaturq bu əsərlərində cəmiyyət-ağıllılıq-dəlilik paralelizminin dramatik inkişafını verir. Dövrün, mühitin və sosial gerçəkliklərin ümumiləşdirilmiş obrazı məhz bu əsərlərdə açılır.

Ə.Əmirli "Tiran və aktyor", "Bala-bəla sözündəndir", "Meydan", "Ağqoyunlular və qaraqoyunlular", "Xoşbəxt gün", "Onun iki qabırğası", "Varlı qadın", "Kişi və qadın", "Hasarın o üzü" və s. pyeslərində sosial-məişət problemlərinə toxunmuşdur. Bu cəhətdən dramaturqun ilk pyesində 90-cı illərin sosial problemləri və hadisələri əsas yer tutur. Məlumdur ki, yazıçının bu adda romanı dərc edildikdən sonra onu dramatik şəkildə də işləmiş və ilk pyesini yazmışdır. Bununla belə, romandakı ideya pyesin dramatik konfliktində daha aktual səslənir. Çünki meydan özü həmin dövrdə bir səhnə idi; bu səhnədə həm qəhrəmanlar, həm də antiqəhrəmanlar yetişmişdi. Ə.Əmirlinin meydanı qarışıq bir məkan kimi təsvir edilir, burada şüarlar səslənir, emosiyalar təzahür edir. Meydan həm də ziddiyyətlər və təzadlar məkanı kimi yadda qalır. Pyesin əsas personajlarından olan Kürəkən yüksək ideallar uğrunda deyil, adi sosial-məişət problemləri uğrunda mübarizə aparır. Qayınanası, arvadı və məşuqəsi ilə əlləşən Kürəkənin yeganə məqsədi düşdüyü bu vəziyyətdən birtəhər çıxaraq xaricə getməkdən ibarət olmuşdur. Onun bütün çalışmaları, yalanları, hərəkətləri ətrafında heç bir pis hadisənin baş verməməsi, vətəni maneəsiz, sağ-salamat tərk etməsi

üçündür. Faktiki olaraq bu, qəhrəmanın meydandan qaçması anlamına gəlirdi. Personajın bu şəkildə göstərilməsi Meydan hadisələrindəki milli ideyanın sosial-məişət çərçivəsində göstərilməsi, mənəviyyatın və milli təəssübkeşlik hissinin cılızlaşmasını göstərmək istəyidir. Bütün bunlar fraqmental və xronikal şəkildə göstərilir. Hadisələrin bu şəkildə davam etməsinin pyesin janrına təsir etdiyini önə çəkən teatrşünas Aydın Talıbzadə yazır: "...“Meydan” pyes deyil, xronikadır: çünki əvvəlcə roman kimi işlənilib; yalnız sonradan Əli Əmirli romanı götürüb səhnələşdirib və bu zaman görüb ki, mətn dialoqlarda təqdim olunsa da, personajlar söz deyib söz eşitsələr də, onun yazdığı mətn hələ pyes kimi bütövləşib ortaya çıxmır. Odur ki, “Meydan”ın janrını bu sayaq müəyyənləşdirib: “yenidənqurma üslubunda iki hissəli subyektiv xronika”. Və bu “xronika” başlanandan Kürəkən özünü passivcəsinə və naşıcasına müdafiə eləyir; müdafiə elədikcə isə daha çox “zibilə düşür” (3). Kürəkənin mübarizəsinin məişət və sosial problem kontekstində baş verməsi milli ideyanın məişət problemləri ilə əvəzlənməsini şərtləndirir.

F.Mustafanın "Adsız" pyesində isə müəllif cəmiyyətin sosial problemlərini qabarda bilmişdir. Hadisələr haqqında yalnız söhbəti gedən (ən azı komitə sədri, yaxud nazir olduğu güman edilən) bir nəfərin bağında cərəyan edir. Qadın qızını vaxtilə "bəh-bəhlə" verdiyi oğlanla nişanlarının pozmasının əsas səbəbi oğlanın atasının narkobiznesdə günahlandırılmasıdır. Bundan istifadə edən ana oğlanı da "narkoman" adlandıraraq qızını ondan ayırır. Həyatda heç bir yalanla qarşılaşmayan qız isə oğlana münasibətində əvvəlki kimi qalır. Hadisələrin sonrakı gedişi qızın öz münasibətində haqlı olduğunu, ananın peşmançılığını sübut edir. Bununla dramaturq cəmiyyətdə gedən sosial problemləri üzə çıxarmaq, səhnələşdirmək istəyir. Hadisələrin inkişafı Adsızın özünü öldürməsinə səbəb olur. Onun ölümü tamaşaçını (oxucunu) çox təəccübləndirir. O, öz ölümüylə cəmiyyətə, haqsızlığa etiraz etmiş olur. Dramaturqun məqsədi cəmiyyətdəki sosial problemləri göstərməkdən ibarətdir.

Əfqan Əsgərovun "Oliqarx" pyesində də çağdaş həyatın sosial problemləri göstərilir. Dövlət Dram Teatrında tamaşaya qoyulan pyesinin fabulasında vəzifəsindən çıxarılan şirkət rəhbəri Cəsur Polad oğlu İgidovun vaxtsız vəfatı durur. Onun vəfatı hadisələrin gedişini bir qədər fərqli istiqamətə yönəldir. Xanımı Zivər, övladları Güloğlan, Xumar, kürəkəni, həm də bacısı oğlu Şahvələd, bacısı Səltənət, yeznəsi Şiraslan, qardaşı Ağazal, hətta katibəsi Nazxanım, köməkçisi Qəliş, cangüdəni Səfər belə özlərini fərqli situasiyada hiss edir. Onların həşir qopardıqları yas mərasimində Molla Məsimin mərhumun çənəsini bağlaması ilə yeni dönəm başlayır. Çünki mərhum onların həyatında böyük rol oynamış, hərəsini bir vəzifəyə qoydurmuş, işlərinə yaramışdı. Onun həyatdan getməsi ilə

qohumlar sanki yarımçıq qalan işlərini sona çatdırmamış qalmışlar. Onun hesabına bazarın sahə müvəkkilliyindən polkovnik vəzifəsinə qədər yüksələn, müvafiq kostyumu tikdirsə də, generallıq arzusu ürəyində qalan Şiraslan, onun oğlu, şirkətin restoranlar üzrə direktoru Şahvələdin sonuncu şadlıq evini tikdirib adını "Qarabağ" qoyan dayısının başına nələr gələcəyi maraqlandırır. Əsərin fabulasında sosial yönümlü problemlər də vardır; belə ki, Zivər xanım Naznaz xanıma qısqanclıq nümayiş etdirir, baldızı Səltənət daim pul haqq-hesabı çəkir, qardaşı Ağazal vəsiyyətlə maraqlanır, hamilə qızı Xumara doğuşdan sonra Dubayda villa söz verir və s.

Hadisələrin sonrakı gedişini bəri başdan yəqin etməklə yanaşı, özünəməxsus tipajlarla qarşılaşacığımıza bir işarədir. Mərhumun şəxsi həkimi, professor Tağının gəlişi ilə dirilsə də hələ çənəsi bağlı İgidovun dərman deyil, yeni vəzifəyə təyinatla bağlı fərman tələb etməsi təklif olunan vəziyyəti yeniləşdirir. Ə.Əsgərovun pyesinin əsasına qoyulan ideyanın əhəmiyyətini qeyd edən teatrşünas A.Dadaşov belə bir doğru qənaətə gəlir: "..."Oliqarx"ın qaldırdığı problemi hələ ötən əsrin 30-cu illərinin sonunda eyni mövzulu "Toy", iyirmi il sonra isə "Əliqulu evlənir" satirik komediyasında qaldıran Sabit Rəhman münasibətlər sistemini gözönü hadisələrdə xalça kimi toxuduğu personajlarına qəzəbli deyil, rişxəndli münasibəti ilə komediyanın janr tələbini yerinə yetirmişdi. Digər tərəfdən komediya janrının yalnız mühitdə, cəmiyyətdə həllini tapmış müşküllərin, problemlərin çözülməsində vacib olduğundan Sabit Rəhmandan fərqli olaraq, vətəndaş qayəli peşəkar jurnalist Əfqan Əsgərovun dramaturgiya sahəsindəki ilk qələm təcrübəsində qəzəb, nifrət yaratmasının janr təyinatına maneəçiliyi də təbiidir" (4). Demək lazımdır ki, eyni vəziyyət F.Mustafanın "Vida marşı" pyesi üçün də xarakterikdir. Məsələ pulun, var-dövlətin keçid dövründə insanlar üçün nə qədər önəm kəsb etməsindən qaynaqlanırdı.

Cəmiyyət və ictimai deformasiyaların sosial-psixoloji təsviri problemləri Ağarəhim Rəhimovun "Qatillər", "Əsgər anası", "Vicdan məhkəməsi" və s. pyeslərində öz əksini tapır. Bu əsərlərdə keçid dövrü kimi xarakterizə olunan yeni cəmiyyətin sosial problemlərinə yönəldir. Maraqlıdır ki, sosial problemlərin bu cür təsvirinə az hallarda müraciət olunurdu. Onun pyeslərində cəmiyyətin ən kiçik problemləri dramaturji mübarizədə bədii həllini tapır.Bunu nəzərdə tutan dramaturgiya mütəxəssisi B.Əhmədov yazır: "Yeni dövr cəmiyyətinin, siyasi hadisələrinin (bu dövr dramaturgiyasında 80-ci illərin sonlarından başlayaraq günümüzə qədər davam edir) bədii-psixoloji aspektdə təsvirini burada görmək mümkündür.

Onun obrazları içərisində adi, sadə adamlardan tutmuş ziyalılara, prokurorlara, hakimlərə, nazirlərə qədər var, qatillərin öz vicdanı qarşısında hesabatına, məhkəmə qarşısında cavab verməsinə də rast gəlinir. Bununla dramaturq mövcud cəmiyyəti necə varsa, eləcə göstərməyə çalışır" (5, 72).

Cəmiyyətin sosial problemləri A.Rəhimovun "Qatillər" pyesində - tamaşa-məhkəmədə üzə çıxır. Pyes məhkəmə zalının təsviri ilə başlayır. Lakin burda baş verən hadisələr məhkəmə zalından kənardakı məkandan bura transfer olmuşdur. Çünki bu məhkəmədə cəmiyyətin bütün mövcud təbəqələri əks olunur; müttəhim, sədr, prokuror, iclasçı, müstəntiq, qonşu və b. səhnədə baş verən hadisələrin dinamik inkişafını göstərir. Bu dəfə müttəhimlər kürsüsündə iyirmi yaşlı Pərvanə Şükürlü ilə sevgilisi iyirmi iki yaşlı Vüsal Nəsibli əlaqəyə girərək atası Əliş Şükürlünü öldürməsi səbəbindən ittiham edilir. Lakin ittiham olunanlar bu cinayəti öz boyunlarına götürmək istəmirlər. Elə ilk andan tamaşaçıya təklif olunan sosial-psixoloji fabula sona qədər bu şəkildə də davam edir. Prokuror isə onların yalan söylədiyini bildirir və cinayəti boyunlarına almalarını təklif edir.

Vüsalın Pərvanəni sevməsinə Pərvanənin atası Əlişin narkoman olması ona mane ola bilmir. Atası ilə söhbətində də Pərvaənin onun "həyatı", "düşünən beyni" olduğunu etiraf edir. O ki, qaldı Pərvaənin atasının narkoman olmasına, ona da geniş masştabda baxaraq deyir: "Narkomanları yaradan cəmiyyətin özüdür, ata. Ancaq bilmirəm, siz hansı cəmiyyəti, hansı ailəni nəzərdə tutursunuz? Söhbət heç bir qadağalar, qanunlar çərçivəsinə sığmayan yaşadığımız cəmiyyətdən gedirsə, burada ölülərlə dirilər arasında heç bir fərq yoxdur. Unutmayaq ki, cəmiyyət fərdlər toplusudur. Bu cəmiyyətdə kimi götürsən, hərəsindən bir qəmbərqulu çıxacaq" (6, 370-371).

Vüsalın atası üç dəfə narkoman Əlişin qapısına elçi gəlməsinə baxmayaraq, ondan rədd cavabı almışdır. Lakin bu rədd cavabları Vüsalı məhəbbətindən döndərə bilmir. Pərvanənin atasının narkoman olması Vüsalın sevgisinə mane ola bilmir. Nəticədə isə iki sevgili layiq olmadıqları halda dəmir barmaqlıqlar arasına düşür. Əlişin ölümü onların arasında olan sevgiyə belə mane ola bilmir. Lakin birdən-birə Əlişin öldürülməsi qatilin izlərini Vüsala aparıb çıxarmasına bir səbəb olur. Məhkəmənin gedişindən məlum olur ki, burada prokurorun, müstəntiqin də öz planları vardır. Müstəntiq Qulam Qulamoviç Vüsalı həbs edərək ona işgəncə verərək Pərvanənin atasının ölümünü onun boynuna qoymaq istəyir. O, Vüsalın qarşısında "Sən Pərvanəni həqiqətən sevirsənsə, cinayəti üzərinə götür, onu azadlığa buraxaq" şərtini qoyur, lakin elə eyni metodla da Pərvanəni cinayəti üzərinə götürməyə təhrik edir.

Onu boynuna almasa "zindanda çürüdəcəyinə" inandıraraq sənədə qol çəkdirir. Pərvanə müstəntiqin toruna düşsə də, məhkəmənin gedişi boyu aldandığını başa düşür. Məhkəmə boyu hadisələrin gedişi prosesində müstəntiqin niyyəti və əmelləri üzə çıxır. Onlar burada yalnız azadlıqlarını qazanmırlar, həm də cəmiyyəti içindən yeyən və dərin kök salmış əsl bəlanı ifşa etməklə üzə çıxarırlar. Pyesin finalında həqiqət qalib gəlir; nə qədər maarifçi və tərbiyəvi sonluq olsa da, hadisələrin gedişindən doğan bir

nəticədir. Dramaturq bununla mövcud cəmiyyətdəki sosial bəlalardan birinin səbəbini göstərir. İlk dəfə olaraq narkomanlığın və vəzifəsindən sui-istifadə edən müstəntiqin cəmiyyəti bəlaya düçar edən amillər olduğu göstərilir. Dramaturq burada cəmiyyətə bir neçə mesaj vermək istəmişdir; birincisi, cəmiyyətdə kök salmağa başlayan narkomanlıq yalnız bir ailəni deyil, bütövlükdə cəmiyyəti məhv edə bilər. İkincisi, hüquq mühafizə orqanlarının vəzifələrindən sui-istifadə etmələri nəticəsində günahsız insanlar cinayətkara çevrilir. Üçüncüsü, cəmiyyətin bu mərhələsində də əsl sevginin, məhəbbətin qarşısını heç nəyin ala bilməməsi və s. A.Rəhimovun üç hissəli, səkkiz şəkilli "Vicdan məhkəməsi", "Əsgər anası" və s. pyeslərində də sosial-mənəvi problemlərə toxunulur. Universitet professoru Asiman xanımla dilənçi Dilbər arasında gedən dialoq sağlam cəmiyyət quruculuğunda mühüm rola malik olur ("Vicdan məhkəməsi"). Cəmiyyətin müxtəlif təbəqələrinə mənsub bu iki şəxs fərd və cəmiyyətin sosial prolemləri məsələsində ortaq məxrəcə gəlirlər.

Professor Asiman xanım Dilbərin insanlara, cəmiyyətə olan itmiş inamını geri qaytarmaqla sanki sosial problemlərin həlli yollarını göstərmiş olur. Professor Asiman xanım cəmiyyətdəki bu cür sosial problemləri həll etməyin yollarını düşünür. Dramaturq cəmiyyətin alt və üst qatlarını qarşılaşdırmaqla onun sosial problemlərini üzə çıxarmağa çalışır. Deməliyik ki, müəyyən mənada buna nail olur; mənəvi-əxlaqi, siyasi, hərbi problemlərin bir yerə yığışıb cəmiyyətin anatomiyasını müəyyən etdiyi bir zamanda dramaturji qəhrəmanlar bir sosioloq kimi çıxış yolları axtarırlar. Dramaturq yalnız cəmiyyətdəki haqsızlığı, ədalətsizliyi, bir-birinin haqqını tapdalamağı nəzəri olaraq deyil, praktik olaraq da göstərir.

Xüsusilə, Dilbər personajı ilə dramaturq pyesin əsasında duran ideyanı açmağa çalışır. Belə ki, o müharibə nəticəsində qaçqın düşmüşdür. Müharibədə ata-anasını itirən Dilbər dayısı evinə sığınsa da, burada ona xoş gün verilmir və günlərin birində evdən qovulur. Gənc qız Dilbər bir müddət özünə iş axtarmalı olur. Ancaq insanlar onun kimsəsizliyindən və gəncliyindən istifadə etməyə çalışır, onun qarşısında şərt qoyur, pis yola çəkmək istəyirlər. Gənc qız bir neçə gün ərzində cəmiyyətin hər üzünü tanımalı olur, cəmiyyətin bu münasibətindən ümidsizləşən Dilbər ona təklif olunan bu yoldansa, dilənməyi üstün tutur.

Dramaturq cəmiyyətin kimsəsiz qıza münasibətini bütün reallığı ilə təsvir edir. Dilbər dilənçibaşı sahə müvəkkilinin əlaltısının köməyi ilə pul qazanaraq uçuq bir daxmada itlərlə bir yerdə yaşayır. Lakin bir gün professor Asiman xanım onu görüb evinə gətirərək onu qızından ayırmır. Göründüyü kimi, dramaturq müharibə nəticəsində qaçqınlığın doğurduğu fəsadların cəmiyyətdə törətdiyi sosial problemləri həll etməyə çalışır. Lakin qaçqınlığın törətdiyi problemlərlə yanaşı cəmiyyətdə baş verən mənəvi-əxlaqi

deqradasiyanı da göstərməli olur. Təsadüfi deyil ki, dramaturq insanları hüquq məhkəməsi qarşısına deyil, vicdan məhkəməsi qarşısına dəvət edir. Məlumdur ki, müharibə mövzusu və onun törətdiyi qaçqınlıq sosial problemlərinə həm bədii nəsrdə, həm də dramaturgiyada bu və ya digər dərəcədə toxunulmuşdur. Aygün Həsənoğlunun "Mağara", Yusif İsmayılovun "Didərginlər", Vidadi Babanlının "Ana intiqamı", Ramiz Novruzovun "Hələ sevirəm deməmişəm" kimi pyeslərində vətən, torpaq azadlığı, müharibə mövzusu əsas yer tutur və cəmiyyətdəki sosial problemlərin əsas səbəbi Qarabağ müharibəsi göstərilir. Lakin A.Rəhimovun istər "Vicdan məhkəməsi", istərsə də "Əsgər anası" pyeslərində əsas məqsəd heç də müharibəni təsvir etmək deyil, onun vurduğu yaraları, yeni cəmiyyət quruculuğunda gətirdiyi deqradasiyaları, sosial problemləri göstərməkdir.

Dramaturqun bu pyesi də məhkəmə ilə bitir. Asiman xanımın məhkəmədə söylədiyi nitq dramaturqun maarifçi düşüncəsinin yekunu kimi səslənir: "Cənablar! Sizdən öyrənmək istəyirəm, bu riyakar oyunları düzəltməkdə məqsədiniz nədir? Vicdannızı satıb, şərəf və ləyaqətinizi itirib sərmayə toplamaqmı? Unutmayın ki, başqalarının göz yaşları ilə yığdığınız cah-calal gec-tez irinə, qana çevriləcək..." (6, 494).

Professor Asiman xanımın məhkəmədə dediyi bu sözlər, əslində cəmiyyətdəki bir çox təbəqələrə tuşlanmışdır. Burada müharibədən bir bəhanə kimi istifadə edib varlanmaq ehtirası ilə yaşayan "qanun keşikçiləri, vəzifə adamları, müftəxorlar və quldur maskası taxanlar ifşa olunurlar. Ümumiyyətlə, A.Rəhimov dramaturgiyasının əsas xüsusiyyətlərindən biri – cəmiyyəti bütün sferaları ilə göstərmək meyli "Vicdan məhkəməsi" pyesində də baş vermişdir.

Ümumiyyətlə, bu dövrdə yazılan dram əsərlərində cəmiyyətin sosial problemlərinə daha çox nüfuz edilir. Yazılan əsərlərdə dramaturqlar cəmiyyətin hər üzünü, bütün təbəqələrini, problemlərini səhnəyə çıxarmaqdan çəkinmir, onu tamaşaçının gözləri qarşısına yaxınlaşdırır, onu qabardır, böyüdür və bununla da cəmiyyəti teatrlaşdırır ki, bu da daha çox XX əsrin əvvəllərində yazılan dramaturji əsərlərə yaxınlaşdırır.

Ədəbiyyat

1. Чехов А.П. Избранные. Т., 14. М., 1978, с.388
2. Əhmədli B. Milli dramaturgiyanın Elçin mərhələsi. "Tənqid.net", 2013, N 1, s. 308-318
3.A.Talıbzadə. Azərbaycanlıların müstəqillik sərgüzəştləri. http://edeb.az/az/view/2778/aydin-talibzade-azerbaycanlilarin-musteqillik-serguzestleri/?
4. Dadaşov A. İki pyesin fərqli modeli. "525-ci qəzet", 2013, 13 may

5. Əhmədli B. Dramaturq: sənət və həqiqət (A.Rəhimov dramaturgiyasında poetika məsələləri). Bakı: "BQU", 2011, 231 s.
6. Ağarəhim R. Əsərlər. 10 cilddə, VII c., Bakı, "BQU" nəşriyyatı, 2009, 535 s.

I.Mammadova

Description of social-moral problems in contemporary dramaturgy
Summery

Dramaturgy solution of social problems in contemporary drama is investigated in the article. It was noted that, during Soviet the social themes in the theatre were restricted. The sosrealizm method did not allow describing, showing how the problems of the society were in reality. It is fact that social problems were always the subject of the theatre, but this problem was a little bit delayed. But social problems of society play important place in modern dramaturgy. At the same time these problems are put at the centre of the dramaturgy solution.

Social problems of society more impacted to the drama plays which written in this period. Social problems of the period, society events are shown in a family circle in Elchin, F.Mustafa, A.Rahimov, A.Masud, K.Abdulla, E.Huseynbeyli, A.Hasanoghlu's and other's activities. Playwrights did not hesitate to reveal every faces, all group and problems of society on their plays. Especially this feature of those plays brings closer to the works which written in the early XX century. The attitude toward literary criticism in modern dramaturgy and references are given in the article.

И.Маммадова

Описание социально-нравственных проблем в современной драматургии

Резюме

В статье исследуются вопросы драматургического решения социальных проблем в современной драматургии. Следует отметить, что в советское время театральные постановки на социальную тематику были ограничены определенными рамками, однако в современной драматургии социальным вопросам отведено значительно больше места, социальные проблемы составляют ядро драматургического решения. Метод соцреализма не давал возможность полностью описывать и показывать проблемы в обществе.

На самом деле было возможно найти путь к стадии социальных проблем. Но так или иначе, эта проблема на этапе социализма осталась в тени. В современной драматургии более широко распространены социальные проблемы общества. В тоже время эти проблемы ставятся в центр драматического решения. Драматические произведения написанные в этот период более проницательны. В драматургическом творчестве Эльчина, Али Амирли, Ф.Мустафа, А.Рагимова, А. Магсуда, К.Абдулла, Э. Гусейнбейли, А.Гасаноглу и других рассматриваются социальные проблемы, изменения происходящие в обществе, а также круг семейно – бытовых проблем. Во всех своих пьесах драматурги не стеснялись сценировать лицо общества и все его проблемы. Произведения написанные в начале XX века, приближают их к драматическим произведениям. В статье также даны ссылки современной драматургии и литературной критики.

Rəyçi Bədirxan Əhmədov
Professor

ВЮСАЛ ЧЕЛЕБИ
Бакинский славянский университет
vusal@,ail.ru

МОДИФИКАЦИИ РЕАЛИСТИЧЕСКОГО МЕТОДА В СОВРЕМЕННОЙ ЛИТЕРАТУРЕ

Açar sözlər: realizm, rus ədəbiyyatı, modifikasiaya, B.Yevseyev, postmodernizm.
Ключевые слова: реализм, русская литература, модификация, Б.Евсеев, постмодернизм.
Keywords: realism, Russian literature, modification, B.Evseev, postmodernism.

Реалистическое мировидение и манера письма были достаточно ярко выражены в творчестве целого ряда современных российских писателей, что наглядно представлено в литературной практике рассматриваемого нами времени. Однако нельзя отрицать и того, что реализм в эпоху наступления и господства постмодернистской эстетики, каковым явился переходный период, подвергся различного рода трансформациям. В процессе этого в литературе, в частности российской, реализм стал выявлять себя во множестве оригинальных форм, в определенной смене художественных парадигм, в результате чего внутри единой реалистической системы стали формироваться различные стилевые направления и модификации реализма. Уже в начале 1990-х годов исследователи, опираясь на богатейший материал эпохи перестройки, заговорили о формировании нового типа реалистической поэтики – «нового реализма», как на Западе, так и в России. Он был охарактеризован как синтез реалистического традиционно-идейного взгляда на мир с субъективным взглядом, свойственным модернизму. В 1992 году Н.Л.Лейдерман (7), впервые даёт теоретическое обоснование своей гипотезе о новом реализме, который он обозначает термином «постреализм». Продолжен был разговор о новом реализме и в последующих работах Н.Лейдермана и М.Липовецкого (7, 8). Интересно, что генезис этого метода исследователи ведут с 1920-1930-х годов, говоря о том, что в 1990-е годы происходит его полное формирование. Гипотеза о постреализме, в основном, опиралась на то, что этот новый реализм вобрал в себя достижения модернизма, который «раскрыл заложенные в традиции реализма (в частности, эстетике Достоевского) внесоциальные, онтологические и метафизические мотивировки человеческого

поведения и сознания» (8, с 523). Исследователи подчёркивают два фактора, повлиявших на обновление современного реализма – соцреализм и модернизм. Эта гипотеза вызвала множество противоречивых мнений в современном литературоведении. Одни исследователи поддерживали эту концепцию (Е.Ермолин, Д.Штурман и др.), другие выступали её ярыми противниками (П.Басинский, В.Курбатов и др.). Ряд исследователей, соглашаясь с общей концепцией нового реализма, с идеей синтеза и образования нового метода, выдвигали другие термины для его обозначения. Так, Н.Иванова называла этот метод «трансметареализмом» (5). В современном литературоведении и критике для обозначения новых модификаций реализма используются и такие понятия, как «гиперреализм», «постмодернистский реализм», «другой реализм», отражающие синтетическую природу современного реализма, основанного на синтезе реализма и модернизма. Какие же трансформации переживает современная реалистическая проза, как это отражается на литературном процессе? Современные исследователи всё чаще обращаются к этим вопросам, пытаясь найти на них ответы, вывести типологию деформаций реализма, его новых модификаций, упорядочить современный терминологический и понятийный аппарат в связи с происходящими новациями. Г.Л.Нефагина в своей книге «Русская проза конца XX века» определяет в качестве основных параметров трансформации реалистической системы следующие: ослабление социальных характеристик героя, перенос акцента на сознание и самопознание личности, попытка героя преодолеть хаос и разорванность внешнего мира и т.п. (10). Вопросы трансформации реализма и его новых форм в современной литературе на примере творчества Б.Евсеева, Ю.Полякова, Л.Петрушевской, Т.Толстой, Б.Акунина и др. затрагивает в своей монографии «Русская литература сегодня» и Флора Наджи (9).

Основой реализма XIX века традиционно считалась обусловленность характеров социальными обстоятельствами, выраженная в формуле «типические характеры в типических обстоятельствах». Исходя из этой формулы, опирающейся на конкретно-историческую модель общества, человек во всех проявлениях своей жизни, всеми сторонами своей личности, во всех перипетиях судьбы был связан с жизнью современного ему общества. Реалистический характер, основанный на типизации как главном способе художественного обобщения, был детерминирован как индивидуально-психологическими, так и социально-историческими факторами. Это возможность ознакомления в постсоветский период с «возвращенной литературой», запрещенными в годы советской власти произведениями Платонова, Булгакова, Пастернака и др., а также с эмигрантской литературой, произведениями

Б.Пильняка, Б.Зайцева, В.Набокова, А.Ремизова и др.). Интересные суждения об обновлении реализма, о его философской основе, эволюции, высказывает и Т.К.Черная, которая считает, что реализм – это «специфическая, исторически сложившаяся, сущностно познавательная, внутренне детерминированная, эстетически системная художественная философия, допускающая изображение не только «жизни в формах жизни», но и жизни в формах, не поддающихся непосредственному восприятию и знанию» (12, с.232). По словам Н.В. Драгомирецкой, уже Достоевский, один из величайших реалистов, ощутил переосмысление, обновление этого направления, в результате чего и стал подвергать сомнению всё мироустройство, ища другие ценности (например, о красоте, которая спасёт мир) (3). И действительно, как показывает литературная практика, и Чехов, и Бунин, и многие другие, вносили в реализм элементы других художественных систем, т.е. корректировали, совершенствовали и несколько видоизменяли его. Так, уже классический реализм XIX века проявляет тенденцию к обновлению и трансформации.

Е.Замятин ещё в 1924 году писал о том, что «реализм – нереален», затрагивал феномен «неореализма» (4, с.100). О нео-реализме писали и М.Волошин, и А.Воронский При этом критики начала XX века считали неореализм «сочетанием старого реализма с модернизмом» (Р.Иванов-Разумник, Г.Чулков, П.Коган, и др.). Стремление к созданию нового реализма, более «реального», определяет пафос всей литературы XX века, но сдерживается всякими факторами общественно-политического характера, требованиями официальной советской критики. И только после «перестройки» этот процесс приобретает массовый и легальный характер. О «новом реализме» заговорили в 1990-е годы в связи с творчеством В.Маканина, А.Варламова и многих других писателей, которые придерживались, в целом, традиционных способов реалистической типизации. Но в общей картине современного реализма выделяются несколько основных направлений и течений, так называемых разновидностей «нового реализма». О размежевании внутри реализма пишет А.Гаджиев, который выделяет в ней «развитие традиций русского классического реализма» (В,Астафьев, В.Распутин, А.Солженицын, Д.Гранин, М.Кураев и др.), «натурреалистические тенденции», «жестокую прозу» (С.Довлатов, В.Шаламов, Г.Владимов, С.Каледин), «массовую литературу» (А.Маринина, П.Дашкова, М.Семёнова, Б.Акунин, Э.Лимонов и др.) (2, с. 175). Выделяются и такие модификации современного реализма, как «армейские хроники» О.Ермакова, А.Терехова, «новые деревенские истории» В.Распутина, А.Варламова, «литература о повседневности» Л.Петрушевской,

«занимательная беллетристика» (Б.Акунин) и др. И в каждом из этих циклов реалистических произведений своя «правда жизни», определяющая особенности реализма этих авторов. Каждое из этих жанрово-тематических направлений, будучи одной из сторон реалистического изображения жизни, вносит свой вклад в развитие современного реализма.

В рамках современного реализма наблюдается «сцепление» старой и новой «методных» структур, обозначаемых, как правило с помощью приставки «нео-»: неонатурализм, неосентиментализм, неоромантизм, и некоторые другие. Обновлению подлежит и так называемая массовая литература. Между ней и элитарной литературой в это время границы нередко стираются совсем, или же становятся мало различимыми. Писатели этого направления в своих произведениях сочетают самые различные приёмы: как традиционных классических образцов, так и чистой беллетристики, занимательности. В этом плане в первую очередь нужно назвать «литературные проекты» Б.Акунина.

Как показывает практика, тяготение к реалистической традиции сильно проявляется в массовой литературе, в частности, женской прозе, в так называемых произведениях неонатурализма, неосентиментализма, неоромантизма и т.п. Эта тенденция была актуализирована интересом к частной, интимной, повседневной жизни людей, как правило, людей социального «дна», маргинальных героев. Вместе с тем, творчество многих писателей, активно работающих в русле реализма, ориентирующихся на традиционную классическую литературу, обогащенных новыми приёмами художественной изобразительности, занимает всё более заметное место в современном литературном процессе. Реалистическую линию современной прозы обогащали, внося в неё новые оттенки, и те произведения, которые получили название «возвращенной литературы»: Б.Л.Пастернак «Доктор Живаго», М.А.Булгаков «Собачье сердце», А.Платонов «Котлован», А.И.Солженицын «Архипелаг Гулаг», Вен. Ерофеев «Москва – Петушки», А.Битов «Пушкинский дом», Саша Соколов «Школа для дураков» и др. Все эти произведения оказали большое влияние на формирование важнейших тенденций современной литературы, как реалистического, так и постмодернистского толка.

Новую ветвь «чистого реализма» составляют такие писатели молодого поколения, как С.Шаргунов, В. Козлов, А.Геласимов, Р.Сенчин и некоторые другие. Они отвергают постмодернизм, предпочитая ему реализм. Этот реализм также называли «новым реализмом». Сами представители этой формы реализма говорили о влиянии на них творчества Эдуарда Лимонова, даже издали сборник

под названием «Поколение Лимонки» (11). Широкое использование молодёжного сленга, злободневность проблем, поставленных в центр произведений, беллетризованная форма, рассчитанная на привлечение читательского внимания – всё это сделало читабельными книги представителей этой ветви реализма. Современная реалистическая литература обогащалась произведениями не только реалистического, но и модернистского толка. «Правда жизни», документальное «жизнеподобие», которые всегда характеризовали реалистическое письмо, постепенно начинают органично соединяться с мифом, притчей, утопией, наряду с реальным миром появляется аллегорический, притчевый мир, особенно отчётливо показанный в произведениях таких авторов, как В.Астафьев, Ф.Искандер, А.Ким, В.Маканин и др. Но это не умаляет реалистическую составляющую этих произведений. А с некоторых пор исследователи всё чаще говорят о повороте современной литературы к реализму, об угасании постмодернизма, например, Н.Иванова в работе «Преодолевшие постмодернизм» (5), но всё равно формирование новой тенденции основывается на синтезе реализма и постмодернизма. Интересно проследить в контексте рассматриваемой проблемы «прозу сорокалетних». Начав свою деятельность ещё в годы «застоя», эти писатели всем строем своих произведений заявляли о своём неприятии литературы соцреализма. «Сегодня это поколение определяет литературу России» – писал о них В.Бондаренко в 1998 году в своей статье «Двадцать лет спустя» (1). Отмечая размежевание в их среде в постсоветское время, исследователь пишет, что, хотя на рубеже веков их пути разошлись, но они не порывали с реализмом. Часть из них сильно увлеклась постмодернизмом и широко вводила его приёмы в своё творчество, но осталась в целом в русле реализма, другая же часть – стала строго придерживаться реалистической манеры. Интересную модификацию реализма представляют произведения Сергея Довлатова, которого называют родоначальником течения «нового автобиографизма». Его проза – это ярко выраженный синтез реалистических постмодернистских тенденций. С.Довлатов обновляет создания традиционную реалистическую автобиографическую прозу тем, что реальные сюжеты из реальной жизни получают в его произведениях трагикомические, абсурдные исходы. Близка эта манера творчеству таких писателей, как Сергей Гандлевский («Трепанация черепа»), Дмитрий Галковский («Бесконечный тупик»), Андрей Сергеев («Альбом для марок») и некоторые другие.

Современные реалисты, избрав основой своих произведений» реализм, перенимают у постмодернистов интертекстуальность, игровые

отношения между автором и читателем, автором и героем, множественность интерпретаций и вариантов развития действия. Но герои реалистического романа нового толка, в отличие от постмодернистских героев, также порой показывая мир как хаос и пустоту, утверждают возможность построения порядка внутри него. Отсюда тяга к «роману воспитания», который они возрождают в своих произведениях («Монограмма» А.Иванченко, «Знак зверя» О.Ермакова, «Репетиции» Шарова и др.). В основу эстетики нового реализма положено внимание к человеку, к типическим характерам, обусловленность окружающими обстоятельствами и т.п. Но в то же время мы отчётливо видим и такие признаки постмодернизма, как иррационализм, тяга к архетипам, экзистенциальные проблемы и многое другое. В заключение отметим, что проблема теории, поэтики нового реализма остаётся всё ещё недостаточно изученной. Требуют дальнейших исследований способы изображения действительности в реалистических произведениях нового времени, влияния постмодернизма на реалистическую стратегию, а также конкретные проявления реалистического метода в произведениях самых разных современных авторов.

Литература

1. Бондаренко В. Двадцать лет спустя // http://www.zavtra.ru/-denlitbond.html
2. Гаджиев А.А. Русская проза. Вторая половина XX века. Опыт мифопоэтического толкования. Баку: Китаб алеми, 2003.
3. Драгомирецкая Н.В. Автор и герой в русской литературе XIX-XX веков. М., 1991.
4. Замятин Евг. Я боюсь: Критика. Публицистика. Воспоминания. М., 1999.
5. Иванова Н. Преодолевшие постмодернизм // Знамя, 1998, № 4, с.
6. Лейдерман Н.Л.. Теоретические проблемы изучения русской литературы XX века: Предварительные замечания // Русская литература XX века: Направления и течения. Екатеринбург, 1992.
7. Лейдерман Н., .Липовецкий М. Жизнь после смерти, или Новые сведения о реализме // Новый мир, 1993, № 7;
8. Лейдерман Н.,Липовецкий М. Современная русская литература.1950 –1990-е годы. В 2-х томах. Т.2. М., 2003.
9. Наджиева Ф.С. Русская литература сегодня. Баку, 2015.
10. Нефагина Г.Л. Русская проза конца XX века. М., 2005.
11. Поколение Лимонки. Екатеринбург, 2005.

12. Черная Т.К.. Реализм как художественная философия // Русская литература XX-XXI веков: проблемы теории и методологии изучения: Материалы Международной научной конференции: 10-11 ноября 2004 г. М.: МГУ, 2004.

V.Çelebi

Müasir ədəbiyyatda realist metodunun modifikasiyası

Xülasə

Məqalədə müasir ədəbiyyatda realist metodunun modifikasiay problemləri araşdırılır. Müəllif realist metoduna dair ciddi məsələlərə toxunur.

Həmçinin burada realist metoduna haqqında irəli sürülən müxtəlif hipotezalar irəli sürülür. Hər bir hipoteza misallarla təsdiqlənir. Yeni realizm poetikası, nəzəriyyə məsələləri hələ də öyrənməkdir.

Yeni dövr realist əsərlərində reallığın təsviri üsulları yeni araşdırmalar tələb edir. Postmodenizmin realist strategiyaya təsiri və realist metodunun müxtəlif müasir müəlliflərin əsərlərindəki konkret təzahürləri aşkarlanır.

V.Chelebi

Modifications of the realistic method in modern literature

Summary

The article deals with the problems of modifying the realistic method in modern literature. The author touches upon serious problems concerning the realistic method.

There are also various hypotheses about this method. Each hypothesis is confirmed by an example.

The problem of theory, the poetics of the new realism, is still insufficiently studied. The author comes to the conclusion that the ways of depicting reality in realistic works of modern times require further research. It also points to the influence of postmodernism on the realistic strategy and concrete manifestations of the realistic method in the works of the most diverse contemporary authors.

Rəyçi: Flora Nacıyeva
Filologiya üzrə elmlər doktoru, professor

MÜNDƏRİCAT

DİLÇİLİK

ƏLİRZA ƏLİYEV
"KOROĞLU" DASTANINDA QADIN ŞƏXS ADLARI VƏ ONLARIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ 3
LALƏ MƏSİMOVA
СОПОСТАВИТЕЛЬНЫЙ АНАЛИЗ ФРАЗЕОЛОГИЗМОВ В РУССКОМ, АНГЛИЙСКОМ И НЕМЕЦКОМ ЯЗЫКАХ..... 17
ТАРАНА ХАЛИЛОВА
ТЕСТИРОВАНИЕ КАК ФОРМА КОНТРОЛЯ ЗНАНИЙ..... 22
CAVANŞIR MURADOV
KOMPÜTER TERMİNLƏRİNİN YARANMA YOLLARI 27
FƏRİDƏ HÜSEYNOVA
TEXNİKİ ALİ MƏKTƏBLƏRDƏ XARİCİ DİL TƏLİMİN TƏŞKİLİNDƏ İSTİFADƏ OLUNAN FORMA VƏ ÜSULLAR..... 35
RAHIMA MAMMADOVA
TEACHING WRITING PROCESS 40
VERDIYEVA SAIDA UMBAY
TEACHING GRAMMAR THROUGH SONGS 45
AYNUR YUNSUROVA
INFORMATION TECHNOLOGY USE IN TEACHING AND LEARNING..... 50
GÜLAY QURBANOVA
SOME MISTAKES WITH USING CONFUSING PHRASES IN ENGLISH 55
GÜLŞƏN CÜMŞÜDOVA
SOME MAJOR DIFFICULTIES IN LEARNING ENGLISH GRAMMAR 60
LALƏNZAR MURADLI
ALINMA ŞƏKİLÇİLƏRİN DİLDƏ STRUKTUR DƏYİŞİKLİK YARATMASI PROSESİ 65
RANƏ BABAYEVA
THE IMPACT OF GLOBALIZATION ON CULTURES..... 70
SULTANƏ BALABƏYOVA
KİV-də ƏDƏBİ DİL NORMALARI..... 75
СЕВИНДЖ КАРАЕВА
РУССКАЯ АНТОНИМИЯ И ЕЕ ЛЕКСИКОГРАФИЧЕСКО ОПИСАНИЕ..... 80
АЙГЮН КУЛИЕВА
НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ОБУЧЕНИЯ ПИСЬМЕННОЙ РЕЧИ РУССКОГО ЯЗЫКА СТУДЕНТОВ ВОЕННОГО ПРОФИЛЯ В НАЦИОНАЛЬНОЙ АУДИТОРИИ..... 85

SAFURA BAKİXANOVA
İNGİLİS DİLİNDƏ MORFOLOJİ YOLLA İSİMLƏRİN YARANMA VASİTƏLƏRİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI 90
FİRƏNGİZ EYVAZOVA
DIALECTICS OF NATIONAL COLORING IN THE TRANSLATION..... 95
КЕНЮЛЬ ИСМАИЛОВА
ПРИМЕНЕНИЕ ТРАДИЦИОННЫХ И ИННОВАЦИОННЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В УЧЕБНОМ ПРОЦЕССЕ 100
XAVƏR HACİEVA
KERRELYANTLIQ SİTUASİYANIN YARATDIĞI SEMANTİK PARALELLİYİN İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İFADƏ ÜSULLARI 109
ЕЛЕНА А.ВЕЛИЕВА
МЕНЕДЖМЕНТ В ОБРАЗОВАНИИ 114
MATANAT İBRAHIMOVA
CHOOSING AND USING INSTRUCTIONAL RESOURCES..... 121
GÜLLÜ MƏMMƏDOVA,
SƏBİNƏ ABDURAHMANOVA
MÜASIR İNGİLİS DİLİNDƏ MƏSDƏR TƏRKİBLƏRİNİN TƏDQİQİNƏ DAİR..... 126
RƏHİLƏ MƏMMƏDOVA
The Extra –CURRICULAR WORK IN LANGUAGE LEARNING..... 133
KİFAYƏT ALIRZAYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNİN FONOTAKTİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR.....138
İRADƏ MANAFOVA
ОСОБЕННОСТИ МОРФОЛОГИЧЕСКОЙ СТРУКТУРЫ МОДАЛЬНЫХ СЛОВ 143
FATMA PƏNAHOVA
AZƏRBAYCAN DİLİ VƏ NİTQ MƏDƏNİYYƏTİ 148
GÜNAY MƏHƏRRƏMOVA
İNGİLİS DİLİNDƏ BƏDİİ MƏTNİN TEMPORAL QURULUŞU VƏ ONUN AZERBAYCAN DİLİNDƏ İFADƏSİ 156
LALƏ İLDRIMZADƏ
WAYS TO MOTIVATE STUDENTS IN LEARNING ENGLISH 161
RƏNA ZÜLFÜQAROVA
USING AUTHENTIC AURAL MATERIALS TO DEVELOP LISTENING COMPREHENSION 166
SEVİNC MƏMMƏDOVA
MOTIVATION STRATEGIES IN TEACHING PROCESS 171
ZAMİRƏ ƏFƏNDİYEVA
ЭКВИВАЛЕНТНОСТЬ ФРАЗЕОЛОГИЗМА СЛОВУ СОВРЕМЕННОГО АНГЛИЙСКОГО ЯЗЫКА..... 176

ЛАМИЯ БАБАЕВА
РОЛЬ ОБЩЕ УПОТРЕБЛЯЕМЫХ БЫТОВЫХ СЛОВ ОБОГАЩАЮЩИЕ ЛЕКСИЧЕСКУЮ ТЕРМИНОЛОГИЮ 181
YAQUT ƏLİYEVA
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRİN YARADICI FƏALİYYƏTİNIN TƏŞKİLİNƏ DAİR 186
ELNARƏ PUTAYEVA
QƏDİM DÖVRDƏ İNGİLİS DİLİNƏ KEÇMİŞ ALINMA SÖZLƏRİN DİLDƏ QƏBUL OLUNMASININ TARİXİ ASPEKTDƏN TƏHLİLİ 191
AYNUR MAMMADOVA
TEACHING WITH VIDEO 197
İLAHƏ MƏMMƏDOVA
BAĞLAYICI SÖZLƏR VƏ ONLARIN CÜMLƏDƏ ROLU 203
ФИДАН АЛИЕВА
ЯЗЫК КАК СРЕДСТВО ХРАНЕНИЯ КУЛЬТУРНО-ИСТОРИЧЕСКОЙ (КУМУЛЯТИВНОЙ) ИНФОРМАЦИИ 210
ШАРГИЯ ГАСАНОВА
ЧИСЛИТЕЛЬНЫЕ В РУССКОЙ ЯЗЫКОВОЙ КАРТИНЕ МИРА 217
АЙТЕН МУРАДОВА
ЦВЕТОВАЯ РЕПРЕЗЕНТАЦИЯ НАЗВАНИЙ ДРАГОЦЕННЫХ КАМНЕЙ В ВОСТОЧНОСЛАВЯНСКИХ ЯЗЫКАХ224
РАФИГА АМИРОВА
ЕВАНГЕЛИЕ В ИСТОРИИ РУССКОГО И АНГЛИЙСКОГО ЯЗЫКОВ 229
ÜLKƏR CƏFƏROVA
İNGİLİS DİLİNDƏ İŞLƏNƏN MƏKAN MƏNALI BƏZİ PAREMİOLOJİ VAHİDLƏRİN SEMANTİK TƏHLİLİ 237
МЕХРИБАН АБДУЛЛАЕВА
КОНСТРУКЦИИ С ТАК НАЗЫВАЕМЫМ УСИЛЕННО-КРАТНЫМ ОТРИЦАНИЕМ В РУССКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ 244
NAILƏ GASIMOVA
GOODWILL MESSAGES 250
TAMELLA MEHDIYEVA
COMMUNICATING ACROSS CULTURES 255
SEVDA AĞAYEVA
TƏRCÜMƏDƏ ADEKVATLIQ VƏ KOLORİT PROBLEMİ 260

ƏDƏBİYYATŞÜNASLIQ

MAHİRƏ QULİYEVA
VAQİF YARADICILIĞI AŞIQ ƏDƏBİYYATI İLƏ KLASSİK POEZİYANIN QOVŞAĞINDA 274
ABBAS MİRHÜSEYN
İSTİQLAL MÜCAHİDİ 290

ÜLVİYYƏ ƏLİYEVA
MULTİKULTURALİZMİN ƏDƏBİYYATA TƏSİRİ 299
RAMİDƏ MİRZƏFƏROVA
ANARIN "ƏLAQƏ" POVESTİNDƏ İNSAN PROBLEMİ 304
AYTƏN MUŞKİYEVA
C.CABBARLININ YARADICILIĞINA DAIR TƏDQIQATLAR..... 309
FATMA HÜSEYNOVA
"MOLLA NƏSRƏDDIN" JURNALININ FOLKLOR QAYNAQLARI 314
ELMAN NOVRUZOV
XANDƏMİRİN "TARİXİ-HƏBİBÜLSEYR" ƏSƏRİ SƏFƏVİLƏR
DÖVRÜNƏ AİD ƏDƏBİ VƏ TARİXİ MƏNBƏ KİMİ 319
HİCRAN BABAYEVA
BƏHLUL BEHCƏTİN BƏDİİ ƏDƏBİYYATDA YERİ 327
CƏMİLƏ ƏZİZOVA
BƏDİİ ƏDƏBİYYAT VƏ ƏDƏBİYYATŞÜNASLIQ ÜZRƏ ELEKTRON
İNFORMASİYA BAZALARININ YARADILMASI TƏCRÜBƏSİ..... 336
PƏRVANƏ MUSTAFAYEVA
XX ƏSRİN I YARISINDA RUS NƏSRİNDƏ TARİXİ ROMAN VƏ ONUN
İNKİŞAF YOLLARI 345
MİNAXANIM MEHDİYEVA
ŞƏHRİYARIN BƏDİİ İRSİNİN TƏDQİQİNDƏ MÜHÜM MƏQAMLAR .. 353
AYGÜL QURBANOVA
"DƏDƏ QORQUD" DASTANLARININ MƏHƏRRƏM ERGİN VƏ
ORXAN ŞAİQ GÖKYAY MƏTNLƏRİNDƏ "SOYLAMA"LARIN
SEÇİLMƏSİ 367
GÜNEL ORUCƏLIYEVA
AZƏRBAYCANDA SOSİAL MEDİANIN YARANMASI VƏ İNKİŞAFI... 373
GÜNAY MƏMMƏDOVA
AZƏRBAYCANDA REGİONAL MƏTBUATIN YARANDIĞI
İCTİMAİ-SIYASI ŞƏRAİT 380
İRADƏ MUSAYEVA
E.MUNRO VƏ ŞIRLI CEKSONUN NƏSRINDƏ TALE QALEREYASI...388
İLKİYYƏ MƏMMƏDOVA
ÇAĞDAŞ DRAMATURGİYADA SOSİAL-MƏNƏVİ PROBLEMLƏRİN
TƏSVİRİ 395
ВЮСАЛ ЧЕЛЕБИ
МОДИФИКАЦИИ РЕАЛИСТИЧЕСКОГО МЕТОДА В
СОВРЕМЕННОЙ ЛИТЕРАТУРЕ 404

***«Elm və təhsil»* nəşriyyatının direktoru:**
***professor* Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Yadigar Bagirova

Çapa imzalanmış **12.07.2017.**
Şərti çap vərəqi **52** Sifariş **№ 08.**
Kağız formatı **70x100 1/16.** Tiraj **300.**

*Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində*
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.